ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник
научных статей

The actual problems of study of humanities

Interuniversity collection
of scientific articles

2/2020

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№2

2020

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 6 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2020

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədli Aslan**
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 2/2020.** – Bakı: Mütərcim, 2020. – 246 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2020
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2020

DİLÇİLİK - ЛИНГВИСТИКА

R.Q.ABDURAHMANOVA
e-mail: mammadovaroya@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MİNİMALİST PROQRAMI KONTEKSTİNDƏ SİNTAKTİK STRUKTURLAR

Açar sözlər: *sintaktik struktur, binar, xətti düzülüş komponenti, əsaslıq prinsipi, ağac budaqlanması, düyüm, proyeksiya*

Ключевые слова: *синтаксическая структура, бинарный, непосредственно составляющая, принцип возглавляемости, древовидная схема, узел, проекция*

Key words: *syntactic structure, binary, immediate constituent, headedness principle, tree diagram, node, projection*

İnsana xas dil aparatındakı sintaktik təsvir iki səviyyədən ibarət olduğu törəmə dilçilik tərəfindən fərqli ideya kimi irəli sürülmüşdür. Dilçilərə görə, bu təsvir iki səviyyədən ibarətdir:

Deep Structure - Dərin qat

Surface Structure - Üst qat

Bu səviyyələr biri digərindən ayrıca mövcud deyil, belə ki, onlar öz aralarında transformasiyalar vasitəsilə əlaqələnirlər. Bunun nəticəsində də bir dərin struktur bir neçə üst struktura və ya əksinə mövcud üst struktur bir neçə alt struktura çevrilə bilər. Bununla da dil fəaliyyəti ilə məşğul olan digər modellərdən fərqli olaraq insanın dil haqqında biliyini dəqiq əks etdirən hesablama sistemi əldə edilir.

N. Xomski mövcud qaydaların tətbiqi ilə ingilis dilinin qrammatikasının əhəmiyyətli hissəsini təsvir edə bilmişdir. O, vasitəsiz strukturların formalaşması qaydalarının məhdud olduğunu əsas gətirərək, onların sonsuz sayda dərin strukturlar yarada bildiyini qeyd etmişdir. Lakin bu quruluşlar sonsuz sayda real olan üst quruluşlar yaratma imkanından məhrumdurlar.

Sintaktik quruluşda ifadələr və cümlələr bir neçə birləşdirmə əməliyyatı nəticəsində əmələ gəlir. Sintaktik səviyyədə olan vahidlər daha böyük tərkib hissəsi əmələ gətirmək üçün bir cüt tərkib hissələrində birləşirlər. Nəticədə mövcud quruluş *Tree Diagram* - Ağac budaqlanmasında təqdim edilə bilər. Bu nöqteyi-nəzərdən ifadələrin və cümlələrin qurulması yollarına yaxından nəzər salmaq mümkün olur. Beləliklə, ifadələrin və cümlələrin əmələ gəlməsi, yəni qurulması yollarına yaxından baxmaq mümkün olur. Mövcud fərziyyəni müəyyən istinad nöqtəsinə qoymaq üçün iki sadə sözdən söz birləşməsinin necə əmələ gəlməsinə nəzər salaq:

A:What are you trying to do?- (Siz nə etməyə çalışırsınız?)

B: Teach you.-(Öyrətməyə çalışıram.)

Təqdim olunmuş cümlələrdə ikinci natiqin nitqində iki sadə sözün, yəni, *teach* feili ilə *you* əvəzliyinin birləşdirilməsinin ən sadə yolu göstərilir. Buradan da aydın görünür ki, *teach you* ifadəsi ismi xüsusiyyətlərdən daha çox feili xüsusiyyətlərə malikdir. Qeyd olunmuş xüsusiyyətlərə təqdim olunmuş söz birləşməsinin malik olması onun sintaktik quruluşda sadə

feil kimi eyni mövqeyə yiyələnməsindən irəli gəlir. Daha dəqiq desək, bu quruluşun məsdər ədatı *to* hissəciyindən sonra işləndiyinə görə belə bir qənaətə gəlirik.

We are trying to teach you -(Biz səni öyrətməyə çalışırıq)

Qeyd olunanların əksinə, *to teach you* ifadəsi müxtəlif sintaktik quruluşlarda eyni mövqeyi əhatə etmir.

Məsələn: *A) You are very handsome. (Siz çox yaraşıqlısınız)*

B) Teach you are very handsome.(Sizi öyrətmək, çox yaraşıqlısınız)

Buradan da aydın olur ki, *teach you* ifadəsinin qrammatik xüsusiyyətləri *you* əvəzliyi tərəfindən deyil, *teach* feili tərəfindən təyin edilir. İfadənin semantik xüsusiyyətlərinə nəzər saldıqda bu nəticəyə gəlmiş oluruq. Çünki *teach you* ifadəsi fəaliyyət bildirir, insanın xarici görünüşünün təsvirini vermir. *Teach you* ifadəsində əsas məna daşıyan söz *teach*-dir, buna görə də *teach you* ifadəsi feili ifadədir. Feili ifadə Fİ kateqoriya etiketinə ixtisar olunur. Feili birləşmənin kateqoriyasını ənənəvi *labelled bracketing* (mötərizələnmiş etiket) texnikasından istifadə edərək aşağıdakı kimi təqdim etmək olar*: [FI[F teach][him]]*.

Universal qrammatikanı inkişaf etdirməkdə dilçilərin məqsədi bütün dil quruluşlarına başçılıq edə biləcək (idarə edəcək) ümumi prinsiplər yaratmaq olduğundan qarşımıza çıxan sual belədir:

Bütün cümlələrin xülasəsini yuxarıdakı şəkildə vermək mümkündürmü?

Teach you ifadəsinin ismi xüsusiyyətlərdən daha çox feili xüsusiyyətlərə malik olduğu aydın görünür. Biz bunu sadə feil kimi eyni mövqeyə malik olmasından görürük, daha dəqiq desək, cümlədə məsdər ədatı *to*- dan sonra gəldiyinə görə belə bir qənaətə gəlirik.

Beləliklə, *teach you* ifadəsinin qrammatik xüsusiyyətləri teach feili tərəfindən müəyyən edilir *you* əvəzliyi tərəfindən deyil. Eyni mülahizə ifadənin semantik xüsusiyyətləri barədə deyilə bilər. Çünki *teach you* ifadəsi insan növünü deyil, kömək etmək fəaliyyətini bildirir.

Mötərizələnmiş etiket texnikasının əvəzinə *Labelled tree diagram* (Etiketlənmiş ağac diaqramı) vasitəsilə mövcud quruluşu daha aydın görmək mümkündür.



Bu ağac budaqlanmasında ifadə olunan fikir əvvəldən *teach you* ifadəsinin feili ifadə olmasıdır. Fİ-dənin iki tərkib hissəsi mövcuddur. Feil(F) *teach* və əvəzlik(Ə) *him. Teach* feili mövcud ifadənin əsas sözü olaraq *teach him* ifadəsinin qrammatik və semantik xüsusiyyətlərini müəyyənləşdirən əsas sözdür. Bu məqamda daha bir texniki ifadə meydana gəlmiş olur. Belə ki, Fİ *teach him teach* feilinin proyektidir. Deməli, proyeksiya *teach*-in müvafiq növdən olan hər hansı bir tərkib hissəsinin birləşməsindən əmələ gələn daha geniş bir ifadədir. Burada *teach* feilinə birləşdirilən tərkib hissəsi *complement*-vasitəsiz tamamlıq funksiyası daşıyan him əvəzliyidir. İfadənin/Proyektin əsas sözü olan *teach* feili asılı söz olan *him* əvəzliyinin qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. Belə olduğu təqdirdə *teach* təsirli feil olduğuna görə o, təsirlik halda olan təsirli feil tələb edir və bu tələbat da təmin edilir. Çünki him əvəzliyi təsirlik hal kimi fəaliyyət göstərə bilər. Yuxarıdakı təqdim olunmuş *ağac budaqlanması* mötərizələnmiş quruluşa bərabər hesab olunur. Həm *ağac budaqlanması* ilə, həm də mötərizə ilə təqdim olunmuş *teach him* ifadəsinin quruluşu haqqında aydın şəkildə eyni məlumatla təmin olunmuş oluruq. Mötərizə və ağac budaqlanması arasındakı mövcud fərqliliklər sadəcə təqdimatda yəni simvollarda olur. Ağac budaqlanmasında hər bir kateqoriya tək hüdudlanmış (*labelled*) qovşaqlar tərəfindən təqdim edilir (yəni Fİ, F və yaxud Ə kimi kateqoriya etiketləri tərəfindən). Hər bir halda F/Feil, Ə/Əvəzlik kimi müvafiq sözlərin bütün qrammatik xüsusiyyətlərini təsvir edən kateqoriya etiketləri qrammatik xüsusiyyətlərin stenoqrafik qısaltmaları

hesab olunmalıdır. Məs: *him* əvəzliyi *labelled bracket-də* iştirak etdikdə, ikinci şəxs və təsirlik hal kimi bir sıra xüsusiyyətləri daşıyır, halbuki bu xüsusiyyətlər *PRN*-Ə kateqoriya etiketində göstərilməyib. Minimalizm cərəyanının əsas məqsədi ifadə və cümlələrin formalarını idarə edən ümumi quruluş prinsiplərini aşkar etmək olduğundan bu məqamda müzakirələr ümumiləşdirilməlidir. Bütün ifadələrin yuxarıda qeyd edilən ifadənin yarandığı üsulla əmələ gəldiyi fərz edilərsə, daha doğrusu, daha geniş tərkib hissələri əmələ gətirmək üçün iki komponenti qoşa (cüt) birləşdirən qovşaq əməliyyatı tərəfindən formalaşdırılır. Yuxarıda təqdim olunmuş *teach him* ifadəsi məhz bu yolla yaranmışdır. Lakin dildə mövcud olan bütün ifadələr iki sözdən ibarət deyil. Aşağıda qeyd olunmuş nümunədəki ifadənin quruluşuna nəzər salaq:

A: What was your intention?(Sənin məqsədin nə idi?)

B: To teach him. (Onu öyrətmək).

İkinci natiqin ifadəsi *to* məsdər hissəciyinin *"teach him"* feili ifadəsi ilə birləşməsindən əmələ gəlmişdir. Bu ifadədə əsas tərəf *to* məsdər ədatı hesab olunur. Ona görə də *to teach* him ifadəsi məsdər zaman ifadəsi və yaxud Məsdər Zaman Proyektidir. *To* hissəciyinə malik zaman ifadələrinin feili ifadələrdən fərqli bölgüsünün olması güman edilir. Beləliklə, mövcud ifadə müxtəlif vəziyyətlərin əhatə dairəsində meydana çıxır. Məs: *Teachers ought to teach him.*

(1) *(a) Teachers ought to teach him.(=ought+ Zİ to teach him)*

(b) Teachers ought teach him. (= ought+ Fİ teach him)

(2) *(a) Teachers should teach him. (=should+Fİ teach him)*

(b) Teachers should to teach him. (=should+Zİ to teach him)

Əvvəldə qeyd olunan cümlələri diqqətlə təhlil etdikdə 1 və 2-ci cümlələrdəki ziddiyyətləri müşahidə etmək olar. Belə ki, *"teach him"* ifadəsinin Fİ, *"to teach him"* ifadəsinin isə Zİ olduğu güman edilir. Məhz buna görə də *"ought"* Zİ-ni (məstər zaman ifadəsini) özünün asılı tərəfi kimi qəbul edən sözdür. Halbuki, "should" məsdər Fİ-ni özünün asılı tərəfi kimi qəbul edir. Burada asılı tərəfin əhatə dairəsini müəyyənləşdirən *"ought"* və *"should"* kimi sözlərin müxtəlif seçim xüsusiyyətlərinin olmasıdır. Deməli, "to teach him" məsdər ifadəsi adlandırılmasına səbəb məsdər hissəciyi *to*-nun Fİ olan *teach him* ilə birləşməsindən əmələ gəlməsidir. Halbuki, məsdər hissəciyi olan *to* zaman kateqoriyasına aid olan şəxssiz zaman hissəciyidirsə və *to to teach him* ifadəsinin əsas sözü olarsa nəticədə əmələ gələn qovşaq Zİ olacaq. Bu quruluş məsdər zaman hissəciyinin *"to"* feili ifadə olan *teach him* birləşməsindən formalaşan şəxssiz məsdər zaman proyeksiyasıdır.



Bu ifadənin əsas tərəfi məsdər hissəciyi olan *to* - dur. Öz növbəsində *teach him* ifadəsi isə *to*-dan asılı olan tərəfdir.Yəni *to teach him* ifadəsi *to* – nun proyeksiyasıdır (əksidir). Məlumdur ki, proyeksiyanın əsas tərəfi asılı tərəfin xüsusiyyətlərini müəyyənləşdirir. Bu qaydaya uyğun olaraq şəxssiz zaman hissəciyi *"to"* asılı tərəfdən məsdər tələb edir, daha dəqiq ifadə etsək, *"to"* Fİ-nin əsas hissəsi olan F-dən onun asılı hissəsinin məsdər formasında feil olmasını tələb edir. Bu səbəbdəndir ki, məsdər hissəciyi olan *to*–dan sonra məsdərin *teach* forması işlədilir (yəni teaching, teaches, taught formalarını deyil). Aparılmış təhlili bir qədər aydınlaşdırsaq, belə bir nəticə əldə edə bilərik ki, hər hansı bir proyeksiyanın və yaxud ifadənin əsas sözü asılı tərəfin əsas sözünün qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.

Yuxarıdakı ifadədə Zİ ifadəsinin əsas tərəfi olan *to teach him*-nin əsas olan sözüdür və onun asılı ifadəsi olan Fİ *teach him*– də F– *teach* isə əsas sözdür. Buna görə də *to teach*–in məsdər formasında olmasını tələb edərək onun formasını müəyyənləşdirir. Deməli, daha geniş quruluşları formalaşdırmaq üçün bir-birinin ardınca gələn tərkiblərin (xətti düzülüş komponentlərinin) cütlərini birləşdirən ardıcıl ikili birləşdirmə əməliyyatları tərəfindən ifadələr qurula bilər. Buna misal olaraq məsdər ifadəsinin hər hansı bir feil ilə işlənməsini göstərə bilərik. Adı çəkilən ifadəni *trying* feili ilə birləşdirsək, daha geniş ifadəni *trying to teach you* ifadəsini formalaşdırmış olarıq.

What are you doing?(Siz nə edirsiniz?)

Trying to teach him.(Onu öyrətməyə çalışıram.)

İkinci qısa cavabdakı ifadənin əsas sözü *trying* feilidir. Çünki bu feil cümlədə *ing*-li feil tərəfindən başçılıq edilən tamamlığı seçmiş olan *be, start, keep* və s. feillərdən sonra işlənir. Belə olduğu təqdirdə mövcud ifadənin quruluşu aşağıdakı kimi olacaqdır:



Bu feil bütövlükdə *trying to teach him* ifadəsinin feili ifadə olmasını sübut edir. Bu ifadənin əsas özü *trying* feili, onun tamamlayıcısı isə tərkibində məsdəri olan *teach him* zaman ifadəsidir. İfadənin hamısı isə *trying* feilinin proyeksiyasıdır. Sintaktik strukturların bu məqalədə işıqlandırılmış maraqlı xüsusiyyətlərində biri təkrarlanmadır. Bu xüsusiyyət hər hansı bir quruluşa təhkim olunmuş mövcud kateqoriyaya xas bir neçə nümunəyə malik olmaq imkanı verir. Yuxarıdakı nümunədə birdən çox feili ifadə vardır. Onlardan birinə *trying* feili, digərinə isə *teach* feili başçılıq edir.

Minimalist dilçilərin əsl məqsədi bütün dil quruluşlarına rəhbərlik edə biləcək ümumi prinsiplər yaratmaqdır. Bu zaman bütün quruluşları yuxarıda qeyd olunan sxemlə təqdim etmək tələbi də mövcud olur. Sintaksisdə bütün quruluşlaq iki əsas prinsipə tabe olur. Bunlarda biri Əsaslıq prinsipidir. Bu prinsipə görə, hər bir sintaktik quruluş əsas sözün proyeksiyasıdır. Digəri isə qoşalıq prinsipidir. Bu prinsip isə hər sintaktik quruluşun cüt şəkildə budaqlanmasını tələb edir. Deməli, *teach him* ifadəsi həm əsaslıq, həm də qoşalıq prinsipinə itaət etmiş hesab oluna bilər. *Teach him* ifadəsinə *teach* feili tərəfindən başçılıq edilir, belə ki, F özünün proyeksiyası olan Fİ-yə başçılıq edir. Bu quruluş iki təcili tərkib hissəsinə (immedient constituents) şaxələnir. Daha dəqiq ifadə etsək, Fİ-də F *teach* feili Ə *him* əvəzliyi mövcuddur. Zİ *to teach him* ifadəsi də iki prinsipə tabedir. Zİ proyeksiyasına Z başçılıq edir və iki tərkib hisəsinə haçalanır: şəxssiz zaman ifadəsi olan *to* və Fİ olan *teach him*. Fi ifadəsi *trying to teach him* isə eyni qayda ilə qoşa şaxələnir. F *trying və to teach him* bu ifadənin müstəqim tərkib hissələridir. Bu ifadəyə *trying* feili başçılıq edir.

Qoşalıq və ya Binarlıq prinsipinin bir sıra üstünlükləri mövcuddur. Bunlardan biri öyrənməyə yönümlülük perspektividir. Bu perspektivdən yanaşdıqda, mövcud ifadənin quruluşu müəyyənləşdirilərkən seçim silsiləsi azalmış olur. Bu da öz növbəsində məhdudlaşdırılmış sintaksis nəzəriyyəsinin inkişaf etdirilməsində köməklik göstərir. Bu prinsiplərə sübut təkcə dilin sintaktik səviyyəsindən deyil, eyni zamanda fonetik və morfoloji səviyyəsindən də gəlir.

Qoşalıq prinsipinə fonetik quruluşdan gələn sübut kimi *bat* sözünü göstərmək olar. Təqdim olunmuş söz başlanğıc B və qafiyə hissəsi hesab edilən *at* hissəsindən ibarətdir. Qafiyə hissəsi də öz növbəsində iki hissədən ibarətdir. Bunlar başlanğıc *a* və *coda* adlandırılan *t*. Bunun kimi digər bir sübut da morfoloji quruluşdan gəlir. İngilis dilində *indecipherability* ismini nümunə kimi götürsək, *de* prefiksinin cipher isminə birləşməsi ilə decipher feili yaranır və daha sonra *-able* suffiksi əlavə olunmaqla bu feil decipherable sifəti yaranmış olur və daha sonra *in* prefiksinin artırılması ilə indecipherable sifəti yaranmış olur. *İndecipherable* sifətinə ity suffiksi əlavə edərək indecipherability ismini formalaşdırmış oluruq. Bütün bunları nəzərə alsaq, deyə bilərik ki, qoşalıq dilin həm fonoloji, həm morfoloji, həm də sintaktik quruluşuna miras qalan xüsusiyyətidir.

İfadələrin hansı yolla və hansı prinsiplər əsasında qurulmasına aydınlıq gətirildi. İndi isə cümlələrin, həmçinin budaq cümlələrin qurulmasını nəzərdən keçirək.

What are they trying to do?(Onlar nə etməyə çalışır?)

They are trying to teach him.(Onlar onu öyrətməyə çalışır.)

Qeyd olunanlara əsaslanaraq, verilmiş cümlənin quruluşunu aşağıdakı kimi təqdim etmək olar:



Təqdim olunmuş ağac budaqlanmasından belə bir nəticə çıxara bilərik ki, bu ağac budaqlanmasında *are* zaman köməkçi feilinin iki proyeksiyası var. Bunlardan biri *are-ın trying to teach him* ilə birləşməsindən əmələ gələn Z, yəni vasitəçi zaman proyeksiyası (intermediate tense projection), digəri isə *are trying to teach him*-in öz mübtədası ilə þirləşməsindən əmələ gələn Zİ, yəni vasitəçi proyeksiya ilə nisbətdə daha böyük tərkib hissəsinə malik olan maksimal proyeksiyadir. Deməli, zaman köməkçi ifadəsi həm onu izləyən tamamlayıcısı ilə birləşərək Z –ni əmələ gətirir, həm də özündən əvvəl gələn mübtəda ilə birləşərək Zİ-ni yaradır. Mövcud vəziyyətin izahını N.Xomski daha əvvəlki əsərlərində köməkçi feilin iki proyeksiyaya olan tələbi ilə izah etmiş və bu hadisəyə *Extended Projection Principle-EPP (Genişlənmiş Proyeksiya Prinsipi-GPP)* adı vermişdir. Bu zaman belə bir nəticə çıxara blərik ki, köməkçi feili olub mübtədası olmayan istənilən cümlə GPP-nin tələblərini pozduğuna görə qrammatik cəhətdən düzgün hesab olunmayacaq.

Ədəbiyyat

1. Məmmədov A. Dilçiliyin müasir problemləri. Bakı: ADU Nəşriyyatı, 2006, 86 s.
2. Babayev A. Dilçiliyə giriş, Bakı: Nurlan, 2004, 511 s.

3. Veysəlli F. Struktur dilçiliyin əsasları. Bakı: Təhsil, 2005, 342 s.
4. Rəcəbli Ə. Struktur dilçilik. Bakı: Nurlan, 2005, 530 s.
5. N.Chomsky "Syntactic structures", New York, 2002. 256 s.
6. Andrew Radford's English Syntax published by CUP in 2004.
7. Carnie, Andrew. 2006. Syntax: A Generative Introduction, 2nd Edition.
8. Люсьен Теньер. Основы структурного синтаксиса. М., Прогресс, 1988, 653s.
9. Radford, Andrew, 2004, Minimalist Syntax: Exploring the Structure of English. Cambridge, UK: Cambridge University Press.
10.http://www.public.asu.edu/~gelderen/Radford2009.pdf . 318 p.

Р.Г.Абдурахманова

Синтаксические структуры в контексте минималистской программы

Резюме

Статья посвящена изучению синтаксических структур в словосочетаниях и предложениях. Здесь рассматриваются пути сложения слов в Расширенной и Максимальной Проекциях. В статье представлена расширенная информация о принципах заголовок и бинарности. Эти принципы обоснованы как фонетически, так и морфологически. Более того, в статье также представлены анализы структур предложений посредством древовидных диаграмм.

В статье представлены и проанализированы различные параметры универсальной грамматики. Предполагается, что люди обладают врожденными способностями, связанными с приобретением языка. В статье доказано, что гипотеза врожденности является сложным процессом вместе со своими элементами. Кроме того, различные мысли об этой теории представлены в этой статье. Также упоминается, что все языки обладают одинаковым набором категорий, и при общении говорящие используют бесконечные средства.

R.G.Abdurahmanova

Syntactic Structures in the Context of the Minimalist Program

Summary

The present article deals with the syntactic structures existing in word combinations and sentences. The way of combining words in Extended Projection, Maximal Projection stages are dealt with. The extended information of the Headedness and Binarity Principle are provided in the article. These principles are proved phonetically and morphologically as well. Also, the structure of the sentence are presented and analyzed with the help of tree diagrams in this article.

Different parametres of the universal grammar are presented and analyzed in the article. It is estimated that humans possess innate faculties related to the acquisition of the languge. It is proved in the article, that İnnateness Hypothesis is a complex process together with its elements. Moreover different thoughts about this theory are provided in this article. It is also mentioned that all the languages possess the same set of categories and while communicating speakers make infinite use of finite means.

Rəyçi: dos. L.M.Cəfərova

Redaksiyaya daxil olub: 02.06.2020

A.R.AĞAYEVA
filologiya elmləri doktoru, professor
e-mail: afag.agayeva 58@ gmail.com

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
(Bakı şəh., Azadlıq küç., 20)

DANIŞIQ ETİKASI VƏ NİTQ ETİKETLƏRİ (Texniki ali məktəblərdə Azərbaycan dili və nitq mədəniyyəti məşğələləri üçün nəzəri material)

Açar sözlər: *danışıq etikası, söhbətə qoşulmaq, suala cavab vermək, müraciət, nitq etiketləri.*
Ключевые слова: *разговорная этика, присоедининение к беседе, ответить на вопрос, обращение, речевые этикеты.*
Key words: *conversational ethics, join a conversation, answer a question, appeal, conversational etiquette.*

Gənclərin formalaşmasında Heydər Əliyev mənəviyyat tərbiyəsinə xüsusi önəm verirdi. Mənəviyyatın olmadığı yerdə heç nəyin olmayacağını qeyd edən dahi lider bildirirdi ki, ***əgər alim olsan, dünya elmini hərtərəfli kəsb etsən belə, mənəviyyatın yoxdursa, sən yoxsan deməkdir***. Mənəviyyatı saxlayıb qorumaq gənclərin əsas vəzifəsi və borcudur. "Hər bir insan üçün yüksək mənəviyyat ən ali amil olmalıdır. Mənəvi tərbiyəni daim aparmaq və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır".

Mühəndisin davranış mədəniyyəti. Söhbət, danışıq 10 qayda əsasında qurulur:

1) əməkdaşlıq; 2) dil vasitələrinə qənaət; 3) təsir; 4) qarşılıqlı təsir; 5) həqiqət; 6) kinayə; 7) dil oyunları; 8) nəzakətlilik (Dahi Platon nəzakətsizliyi – "işıqdan məhrum olmuş mağarada ömür sürməyə" bənzədir; 9) söhbət, danışıq; 10) gözəllik və xeyirxahlıq.

Bu idi qədim yunan anlayışında ideal şəxsiyyət!

Çağdaş dövrümüzdə mütəxəssislərin tələbələr arasında apardığı "Sorğu"ya əsasən, məlum olmuşdur ki, tələbələr üçün mənəvi keyfiyyətlərin, dəyərlərin qiymətləndirilməsi, vacibliyi ardıcıllığı aşağıdakı kimidir (yəni tələbələr hansı insani-mənəvi-əxlaqi keyfiyyətlərə daha çox üstünlük verirlər): həssaslıq, ünsiyyətçilik, yumor hissi, tərbiyəlilik; bacarıqlılıq, erudisiya (zəngin və hərtərədli biliyə malik olmaq), intellektual-əqli qabiliyyətlər; Qiymətləndirmədə əhəmiyyətinə görə axırıncı yerləri xarici görünüş (eleqantlq, zəriflik) və təvazökarlıq tutur. Birgə fəaliyyət təcrübəsi artdıqca erudisiya (təhsillilik, məlumatlılıq) və iradə (möhkəmlik, səbrlilik, inadkarlıq, qətiyyətlilik) keyfiyyətlərinin əhəmiyyəti də artır. Eyni zamanda, tərbiyəlilik, mədəniyyət və tədbirliliyin dəyəri azalır [6, s.16].

Mühəndisin söhbətə qoşulmaq mədəniyyəti

Kənar söhbətə müdaxilə eləmə, kənar söhbətə müdaxilə eləmək ədəbsizlikdir.

Azərbaycan atalar sözü

Söhbət arasına girmə, müdaxilənə məhəl qoymazlar, pərt olarsan.

Azərbaycan atalar sözü (epiqraflar)

Əgər iki həmsöhbət bir-birinə 45^0-lik bucaq altında çevriliblərsə, deməli, üçüncü şəxsin söhbətə qoşulmasına etiraz etmirlər. Amma əgər üçüncü həmsöhbət onların xoşuna gəlməsə, onlar duruş vəziyyətini dəyişəcəklər, üçbucaq qapanacaq. Bunu sezən III həmsöhbət sonradan pis vəziyyətə düşməmək üçün dərhal onları tərk etməlidir [bax:8].

Söhbətə qoşulmaq istəyərkən, bu ifadələri işlətmək lazımdır: "İcazə verin, mən də öz fikrimi bildirim", "Olar, mən də bu mövzu barədə bildiklərimi deyim?", "İcazə olar, mən də söhbətə qoşulum?", "Olar, bir söz deyim?" və s. .

Mühəndisin suala cavab vermək mədəniyyəti.
Dialoqda başlıca rol – suala məxsusdur.
Hazırcavablıq – təhsil görmüş ədəbsizlikdir.

/Aristotel/

Hər kəsi görən zaman ona salam ver. Əgər o sənə bir söz desə, ədəb və təbazölə ona cavab ver ki, hamı səni sevsin.

/A.Bakıxanov/

Nəzakətsiz sual veriləndə cavab vermək lazım deyil.

/San-San/
(epiqraflar)

Suallara cavab zamanı aşağıdakıları nəzərə alın: Suallara sakitcə, dəqiq cavab verin; Sualı diqqətlə dinləyin; Sualı düz başa düşdüyünüzə əmin olmaq və hər bir dinləyicinin də onu eşitməsi üçün təkrar edin, yaxud başqa formada söyləyin; Həm sualdakı, həm də verəcəyiniz cavabda səslənəcək terminlərin tərifini verin; Əgər ehtiyac varsa, sualı bir neçə hissəyə ayırın və hər bir hissəyə ayrılıqda cavab verin. Qısa və mahiyyətinə görə cavab verin. Düzünü deməyə çalışın. Yeni heç nə əlavə etməyin. Əgər sual verən sözünüzü kəsirsə, fasilə verin və onun sözünü bitirməsinə imkan yaradın, sonra öz cavabınıza davam edin, lakin onun sizi əsas məsələdən yayındırmasına imkan verməyin. Əgər insan yenə də sizin sözünüzü kəsməkdə davam edirsə, mübahisə etməyin. Lakin çalışın cavabı başa çatdırasınız. Sizin dinləyiciləriniz onun kobudluğunu görərək sizin tərəfinizi tutacaqlar.

Müraciət etiketləri.

Kim birisini öz adı ilə deyil, onun xoşlamadığı bir adla çağırırsa, mələkələr ona lənət oxuyur.

Məhəmməd peyğəmbər
(epiqraf)

Dilçilik elmində sözün bir neçə vəzifəsi olduğu göstərilir: a) adlandırma, b) ünsiyyət, c) müraciət. Bu sonuncusu tarixən sözün birinci ən qədim funksiyası olmuşdur.

Müraciət – 1) xitab etmə, çağırış; 2) xahiş, rica; 3) dönmə, qayıtma, baş çəkmə, baş vurma deməkdir (xitab – "ünvan" sözündəndir, yəni fikrin kimməsə ünvanlaşması) *İzahlı dilçilik lüğəti*. Ünsiyyətin və nitq mədəniyyətinin başlıca komponentlərindən biri – müraciətlərdir. Hələ professor M.Kazımbəy Azərbaycan dilində "çağırış halı"nın varlığı haqqında məlumat vermişdir. Müraciətlər nitqdə bir müraciət-replikadan o birinə atılan "aşırma körpü" rolunu oynayır. "Müraciətsiz ünsiyyət ağlasığmazdır" [3, s.28]. Nitq etiketləri çox yüksək mədəni səviyyədir. Azərbaycan dilinin nitq etiketləri içərisində müraciət formaları çox zəngindir. Müraciət formaları xalqımızın mənəvi dünyasını, səmimiyyətini, qonaqpərvərliyini əks etdirir.

Bir maraqlı faktı qeyd edək ki, qadınlara müraciətlə dediyimiz *xanım* sözü vaxtilə kişilərə də aid olmuşdur. Yəni "mənim xanım" mənasında işlənmişdir. İndi əvvəlki semantikasını uturən *xanım* sözü ilə qadınlara müraciət nitq mədəniyyətinin uğurlu cəhətidir. Yaxud başqa bir maraqlı fakt: Xalqımızın tarixi-etnoqrafik xüsusiyyətlərindən biri böyüklərə, özündən yaşlılara dərin hörmət göstərilməsidir ki, bu da öz əksini daha çox müraciət məqamında işlənən "ağa" sözündə tapır. Daha qədimlərdə bu söz elə "böyük adam (şəxs, kəs)" demək idi. Ağ – "böyük", a – "adam". Eynilə özündən kiçiyə *qada* (sonralar *qədəş*) deyildi. Daha sonralar isə: *gədə/gəday*. Heç bir silki (sinfi) mahiyyət daşımayan, imtiyazla bağlanmayan "ağa" sözü qadınlara müraciətlə də işlədilirdi: xanım ağa, Ağabəyim ağa, Xanımsoltan ağa. Bu söz tədricən ictimai təbəqələşməni əks etdirməyə, sinfi və daha sonra dini mahiyyət kəsb etməyə başlamışdır. "Professor" müraciət forması istər institut daxilində, xüsusən də, Bolonya təhsil sistemində, həm də institutdan kənarda yayılmış müraciət formasıdır. Məsələn: - Yox, professor, yol azmamışam. Sizin yanınıza gəlmişəm.

- Deməli, mənim yanıma gəlibsən?

- Bəli. Şəxsən sizin yanınıza, professor. Çox hörmətli, böyük alim, böyük şəxsiyyət Bəşir Osmanoviçin yanına!

- Eşidirəm, Lələyev. Söylə görək, nədi səni mənim yanıma gətirən?

- Bir hörmətli professorun o biri hörmətli professoru sülhə çağırışıdı!

Bədirbəyli bir az da ciddiləşdi:

- Mübaliğəsiz danış, Lələyev. Sualıma konkret cavab ver. Nədi bu?

Bəşir Osmanoviçin zəhmi onu basdı. Bircə anda boynunu büküb fağırladı.

- Dəvətnamədi, professor. Söhrab Murtuzoviç sizə göndərib [2, s.49]. Göründüyü kimi, xalq yazıçısı Vidadi Babanlı "Vicdan susanda" romanında sözügedən müraciət formasından ustalıqla istifadə etmişdir. Lüğəvi mənasından görünür ki, işini, peşəsini çox yaxşı bilməyi ilə fərqlənən insanlara ünvanlanır. Ona görə də, bəzən məcazi, yumoristik mənada da işlənir. Məsələn: - "Professor", de görək, bu rəngi necə çəkək, malanı necə vuraq ki, qopub düşməsin (peşəkarlar arasında); -"Professor, müəllim" bu gün evə oxumağa nə tapşırdı? (tələbələr arasında və s.).

H.Əliyev "Müəllim" anlayışının Azərbaycan xalqı üçün nə dərəcədə dəyərli olmasını müəllim auditoriyasına açıqlayaraq, müəllimlər ordusunun qəlbini riqqətə gətirir: "Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur... Çoxları heç müəllim deyil, amma biz bir-birimizə müraciət edərkən "ağa", "cənab", "bəy" deyil, "müəllim" deyirik. Bu, təsadüfi deyil. Bəlkə də başqa xalqlarda belə müraciət forması yoxdur. Bu ondan irəli gəlir ki, xalqımız savadsızlıqdan, gerilikdən, ətalətdən bugünkü günə qısa tarixi bir müddətdə gəlib çatmaqda müəllimlərin rolunu qiymətləndirir və qarşısındakı adama hörmət əlaməti olaraq "müəllim" deyir [7, s.21].

Professor Yəhya Kərimov yazır ki, Heydər Əliyev ölkəmizdə insanların hörmət mənasında bir-birinə "müəllim" deyə müraciət etməsini, həm də peşəsindən asılı olmayaraq bütün hörmətli adamlara belə müraciət formasını alqışlayır [5, s.16]. Hesablamalara görə, "müəllim" sözü 60-80 rəsmi və qeyri-rəsmi müraciət forması kimi istifadə edilir. Amma bəzən ucdantutma hamıya belə müraciət gülüş yaradır: "Kirpi" jurnalının nömrələrinin birində karikatura (gülməli; tənqidi xarakterli şəkil) çəkilmişdi. Bir nəfər bərbərə pul verir və deyir: -Qulu müəllim, başımı qırxardınız da. Bərbər də ona sual verir: - A kişi, mən bərbərəm, bərbərdən müəllim olar? Kişi cavab verir: -A kişi, indi hamıya onsuz da "müəllim" deyirlər. Yaxud şair N.Atabəyli də belə hallara qarşı etiraz səsini ucaldır:

Allaha, Qurana haqsızlıqdır:
Həyatda özgənin haqqını yemək.
Dünyada ən gavur kitabsızlıqdır,
Bazar süpürənə "Müəllim" demək.
(gavur-kafir).

Müraciətlərin cümlədəki yeri ilə bağlı təhlil apararkən məlum olmuşdur ki, onlardan 60%-i - sonda, 21%-i - əvvəldə, 13%-i - ortada və 6%-i - təklikdə işlənir.

Ədəbiyyat

1. Atabəyli N."Seyidəm, ərseyi-eşq içrə...". İthaf çələngi 180. Bakı, "STEP", 2014.

2. Babanlı V. Vicdan susanda. Bakı, Çaşıoğlu, 2009.

3. Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti (dərs vəsaiti). Bakı, 2009.

4. Əlimuradova A. Heydər Əliyevin nitqi və Azərbaycan dilinə töhfələri // Elmi əsərlər. Bakı, 2013, s.108-109.

5. Kərimov Y. Heydər Əliyev // Elmi əsərlər, Bakı, 2013, s.13-15.

6. Salamova K. Tələbələrin birgə fəaliyyət prosesində ünsiyyətin psixoloji xüsusiyyətləri: psixologiya üzrə fəl.dok. dissertasiyası. Bakı, 2009, 171 s..

7. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti (II kitab). Bakı, Elm və təhil, 2014, 496 s..

8. Пиз. А. Язык телодвижений. Москва, Эксмо, 2006, 272 с..

А.Р.Агаева

Разговорная этика и речевые формулы (этикеты)
(Теоретический материал по азербайджанскому языку и культуре речи для студентов высших учебных заведений)
Резюме

Как беседовать? Как присоединиться к разговору? Как отвечать на вопросы? В статье даются советы по этому поводу. Приводится языковой материал для использования в вышеуказанных ситуациях. В разговоре любого человека –интеллигента, в том числе и инженера, очень важную роль играют обращения, с чего и начинается сам разговор.

A.R.Agaeva

Speaking ethics and speech formulas (decals)
(Theoretical material on the Azerbaijani language and culture of speech for students of higher educational institutions)
Summary

How to talk? How to join the conversation? How to answer questions? The article gives advice on this. Language material is provided for use in the above situations. In the conversation of any person - an intellectual, including an engineer, appeals play a very important role, with which the conversation itself begins.

Rəyçi: filol.f.d., dos. Y.Q.Yusifov

Redaksiyaya daxil olub: 02.06.2020

T.MƏHƏRRƏMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ LATIN VƏ YUNAN MƏNŞƏLİ SÖZLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *alınmalar, xüsusiyyətlər, meyar, dil, söz*
Ключевые слова: *заимствовании, характеристики, критерия, язык, слова*
Key words: *borrowings, characteristics, criteria, language, word*

Dilin lüğət tərkibinin zənginliyi xalqın inkişafının yüksək olduğundan xəbər verir və xalqın ictimai şüurunun inkişaf səviyyəsi və digər vacib faktorlar dilin lüğət tərkibinin zənginləşməsinə səbəb olur.

Romalıların müdaxiləsi, xristianlığın yaranması və yayılması, normandların işğalları, müasir dövrdə Britaniyanın müstəmləkə siyasəti, iqtisadi, siyasi, elmi cəhətdən sıx əlaqələr və inkişaf ingilis dilinin lüğət tərkibində vacib dəyişikliklərə səbəb oldu.

İngilis dilinin lüğət tərkibinin zənginləşməsində latın və yunan dillərinin təsiri çox böyük olmuşdur.

Latın dili qədim Hind-Avropa dilidir. Bu dildən Roma imperiyasının ətrafında yerləşən Latinium rayonunda istifadə edilirdi. Bu dil Roma respublikasında və Roma imperiyasında formal olaraq istifadə olunurdu. Yunan dilindən törəyən latın əlifbası dünyada geniş istifadə olunan əlifbadır. Baxmayaraq ki, bu dil indi istifadə olunmur və ölü dil adlandırılır, bu dilin bir çox dillərə təsiri olmuşdur və bu o dillərdir ki, hələ də inkişaf edir və elmi sahələrdə geniş istifadə edilir. Bütün roman dilləri vulqar latın dilindən törəmişlər və latın dilindən alınan bir çox sözlər başqa müasir dillərdə və eləcə də, ingilis dilində də istifadə olunur. Qərb dünyasında latın dilini elmi və siyasi məqsədlərə görə öyrənirdilər, bu bir neçə minilliklər boyu davam etdi, ta ki XVIII əsrdə fransız dili və XIX əsrdə isə ingilis dili latın dilini əvəz etdi. Dini latın dili Roman katolik kilsələrinin rəsmi dili və Vatikanın rəsmi dili olaraq qalır. Latın dili kilsənin rəsmi dili kimi 1960-cı illərdə olan II Vatikan konsulluğuna qədər qaldı.

Latın əlifbası qədim İtalyan əlifbası əsasında formalaşmışdır. Bu əlifba da öz növbəsində yunan əlifbasından törəmişdir. Latın dili ilk dəfə İtaliya yarımadasına şimaldan köçənlər tərəfindən gətirilib. Bu köçərilər ilk roma sivilizasiyası olan Tiber çayı ətrafında və Latinium rayonunda məskən salmışdılar.

Faktlara əsaslanaraq demək olar ki, ingilis dilində olan sözlərin 70- 80%-i fransız dili vasitəsi ilə yunan dilindən keçmişdir.

Yunan dili hind-avropa dilidir. Bu gün 15 milyon adam yunan dilində danışır.

Yunanıstanın romalılar tərəfindən işğalından sonra yunan dili Roma imperiyasında birinci dil oldu.

Bir çox yunan mənşəli söz avropa ölkələrinin dillərinə keçmişdir. İngilis dili də bu dillər arasında yer tutur. Məs: astronomy, democracy, philosophy və s.

Dilçilik ədəbiyyatında qədim ingilis dilində təsadüf olunan latın sözləri 3 xronoloji qata bölünür:

1. Germanlar tərəfindən qitədə mənimsənilən latın sözləri;
2. Kelt dilləri vasitəsilə qədim ingilis dilinə keçən alınma latın sözləri;
3. Xristianlığın yayılması ilə əlaqədar olan alınma latın sözləri [3,89].

Yeni əmtəələrin normanlar arasında yayılmasında Roma tacirlərinin rolu böyükdür. Belə ki, Roma tacirləri latınca iki cür - cauro - sövdəgar və alverçi, manqo - çərçi, xırdavatçı adlanırdı. Birinci sözdən qədim ingilis dilində «ctapion» (sövda etmək) feli yarandı ki, bu da

öz növbəsində qədim dildə bir sıra mürəkkəb sözlərin, o cümlədən - leakside «cheapside» (sövda və alış yeri) - «ceapman» chapman (çərçi, xırdavatçı; danışıq dilində isə chap - dost, cavan oğlan) yaranmasına səbəb oldu.

İkinci sözdən isə qədim ingilis dilində mangere «mouger» (satıcı) sözü yarandı. Həmin bu sözlər müasir dildə bir sıra mürəkkəb adların tərkibində işlənir - fishmarger - balıq satışı, warmonger - müharibəni qızışdıran və s.

V əsrdə Britaniyanı zəbt edən german tayfaları yerli əhali - keltlərdə ünsiyyət nəticəsində, kelt sözləri ilə yanaşı həmin dildə işlədilən hərbi və mülki xarakterli bir sıra latın sözlərini də mənimsədilər. V əsrdən sonra kelt dili vasitəsi ilə qədim ingilis dilinə keçmiş bu cür sözlər latın sözlərinin ikinci qatını təşkil edir.

Romalıların müdafiə məqsədi ilə çəkdikləri kərpic hasara verdikləri ad «vallum» qədim ingilis dilində «weall» forması aldı və sonralar həmin dildə hər cür divar «weall»(wall) adlanmağa başladı. Romalılar zəbt etdikləri ərazidə hərbi düşərgə salırdılar. Həmin bu düşərgələr «castra» adlanırdı. Sonralar bu hərbi düşərgələrdən Britaniyanın iri şəhərləri yarandı. Anqlo-sakslar Britaniyanı zəbt edən zaman latın «castra» sözü artıq bir sıra xüsusi adların tərkib hissələrindən biri kimi çıxış edirdi. Məsələn, coğrafi adlardan «Chester», «Winchester», «Chichesli»[2,67]. Bu növ coğrafi adlardan bəziləri fonetik dəyişikliyə məruz qaldıqlarından yazılsa da tam tələffüz edilmir.

- Gloucester [g 1 ə s t ə] Leicester [‘L e s t ə] Worcester [w u s 1 ə].

Britaniyada hərbi dəstələrlə yanaşı Roma tacirləri, əlverişli yaşayış yeri axtaran Roma vətəndaşları və başqaları axışıb gəlməyə başladılar. Onların yaşadıqları qəsəbə latınca «vicus» adlanırdı. Bu söz anqlo-sakslar tərəfindən mənimsənildi və qədim ingilis dilində wic forması kəsb etdi. «Wic» ismindən wician (yaşamaq, məskunlaşmaq) feli yarandı.

Eramızın VI-VII əsrlərində Roma monarxları Britaniyada xristian dinini yaymağa və əhalini xristianlaşdırmağa başladılar.

Bununla əlaqədar olaraq dilə yeni məfhumlar, anlayışlar gəlməyə başladı. Tədqiqatçıların hesablamalarına görə 500-ə qədər din və təlimlə bağlı olan alınma latın sözlərinə təsadüf olunur.

Kilsə ayinlərini icra etmək və müqəddəs mətnləri oxumaq üçün savadlı olmaq lazım gəlirdi. Bu səbəbdən VII əsrdə Britaniyada monastr məktəbləri əmələ gəldi. Bu məktəblərdən ən məşhurları olaraq Hindistan və Yorkdakı məktəblər idi. Hindistanın məktəbinin rəhbəri «İngilis xalqının kilsə tarixi» adlı əsərin müəllifi monax Beda demişdir: Britaniyada məktəblərin açılması, adamların latın dilində savadlanması qədim ingilis dilinin lüğət tərkibinə bir sıra latın sözlərinin daxil olmasına səbəb oldu. Onlar din və təlimlə bağlı olan sözlərdir.

Qədim ingilis dilinə kalka yolu ilə keçmiş sözləri iki qismə ayırmaq olar:

1. qitədə yaranan kalkalar,
2. din və təlimlə əlaqədar olan kalkalar.

Birinci növdən olan sözlərə bütün qurman dialektlərində rast gəlmək olar.

İntibah dövrünün təsiri ciddi şəkildə İngiltərədə hiss olunurdu.

İntibah dövründə və intibahdan sonra yunan dilindən yeni ifadələr keçmişdi. Buna misal olaraq aşağıdakı sözləri misal gətirmək olar:

Photo - photograph, photogenic, photolysis, phoninesis;

Bio - biology, biogenesis, biometry, bioscope;

Tele - telephone, telepathy, telegraphic, telescopic[1,45].

Bunlardan başqa yunan elementləri yeni sözlər əmələ gətirmək üçün istifadə olunmağa başladı:

Crypto-, hydro-, hyper-, hypo-, neo-, stereo və s.

Ümumiyyətlə yunan dili ən çox öyrənilən dil olmuşdur.Latın dili də yunan dilindən çoxlu söz almışdır. Hətta latın əlifbası yunan əlifbası əsasında tərtib olunmuşdur.

Saysız-hesabsız sözlər, şəkilçilər yunan dilindən alınaraq ingilis dilinə keçmişdir. Onları aşağıdakı kimi quruplaşdırmaq olar.

A) Elm və idmanla bağlı olan sözlər
Gymnasium
mathematics
academy
biology - bio - həyat; logos - elm
geology - geo - yer; logos - elm
paleontology - paleo - qədim
gynaecology - gynae - qadın
astronomy - astro - ulduz; nomy - qanun
psychology - psycho - ruh
anthropology - anshropo - adam;
cryptology - cripto - gizli.

b) Mifik sözlər
amazon - sinəsiz; mifik cəngavər qadın tayfası.

c) İctimai və siyasi sözlər
democracy - xalq hakimiyyəti
aristocrat - ən yaxşı idarə edən

d) Xristian dininə aid olan terminlər
eucharist - təşəkkür, xristianlığa aid təşəkkür
bishop -
catholic - universal
cathedral – yer

e) Teatrla bağlı olan sözlər
drama - fəaliyyət
chorus - rəqs

f) Heyvanlara aid sözlər
buffalo
crocodile

g) Yer adları
Ethiopia - isti üz
Australia - cənubi
İstanbul - şəhərdə
Mesopotaimia - iki çay arası
Naple - yeni şəhər

Beləliklə, alınmalar linqvistik ədəbiyyatda müxtəlif tədqiqat ömrü yaşamışdır və yaşamaqdadır.

Göründüyü kimi, gündəlik işlətdiyimiz, amma fərqində belə olmadığımız bu sözlərin öz mənşəyini digər dillərdən aldığı bəzən ağlımıza belə gəlmir. Biz isə onları həmçinin gündəlik həyatımızda leksik və kommunikativ məqsədlərimiz üçün tərəddüd etmədən istifadə edirik.

Ədəbiyyat

1. Arnold İ.V. English Word Formation. M, 1981, pp.77-81
2. Ullman S. Language and meaning. London: Word, 1996, Vol.2 №2, 190 p.
3. Ernest Klein A. Comprehensive Etymological of the English language, Volume İ. Amsterdam, London, New-York “Elsevier Company”, 1966 s. 234.
4. Liberman A.An Analitic Dictionary of English Etymology Minneapolis, University of Minnesota Press: 2008, s.1-32.
5. Крейн И.Французские заимствования XIX века в английском литературном языке АКД, М. 1963, с.11-16

Т.Магеррамова

Характеристики употребления латинских и гречских слов в английском языке

Резюме

В статье речь идёт о латинских и гречских заимствовании в английском языке. Автор ссылаясь на работы ученых исследовавших эту область лингвистики, а также подчеркивает ее важность в лингвистике. Автор пытается раскрыть роль заимствований. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. В течение анализа большое внимание обращено лингвистическим фактам.

T.Maharramova

The usage characteristics of borrowings from Latin and Greek sources in English

Summary

This article deals with the usage frequency of borrowings from Latin and Greek sources into English. Referring to the works of scientist that have been researched in this field of linguistics, the author emphasizes that since its emergence the borrowings caught the attention of linguists. One of the important goals of the article is to detect and find out the usage frequency of borrowings. It is noted that this gives us more power to understand the words clearly and use the language more competently. While analyzing the great attention was given to the linguistic facts.

Rəyçi: filol.f.d. A.Rəcəbova

Redaksiyaya daxil olub: 04.06.2020

F.Ə.MƏMMƏDOVA

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

ALINMA MƏSƏLƏSİNƏ DAİR
(ingilis, rus və Azərbaycan dilləri materialı əsasında)

Açar sözlər: *dilin inkişafı, alınma söz, alınmanın səbəbləri, kommunikativ fəallıq səbəbi, dilin funksiyası.*
Ключевые слова: *развитие языка, заимствованное слово, причины заимствования, коммуникативная активность, функция языка.*
Key words: *the development of language, the borrowed words, the reasons of borrowings, communicative activity, the function of the language.*

Məlumdur ki, dil daim inkişafdadır, statik deyil, çünki dil cəmiyyətdə insan fəaliyyəti ilə birbaşa bağlıdır və onları əks etdirməlidir. Dilin dəyişkənliyi dilin leksik sistemində daha tez özünü göstərir. Qeyd edək ki, dilin leksik tərkibinin dəyişdirilməsində ən yadda qalan hadisələrdən biri onun əvvəllər naməlum olan sözlərin köməyi ilə zənginləşdirilməsidir. Dilin yenilənməsi iki amilin təsiri ilə bağlıdır: bir tərəfdən, cəmiyyətin koqnitiv ehtiyacları, digər tərəfdən, dilin daxili quruluşunun xüsusiyyətləri ilə. Dil daim inkişafda və digər dillərlə kontaktda olduğu üçün dilçilikdə digər dillərdən alınma sözlərlə bağlı məsələlər həmişə aktual olaraq qalır. Müasir dövrdə alınma məsələsinin tədqiqi daha da aktualdır. Bir dildən digər dilə sözlərin keçməsi obyektiv bir prosesdir və nəticədə dilin leksik tərkibi tamamlanır və zənginləşir. Ingilis, rus və Azərbaycan iqtisadi və ictimai-siyasi diskurslarının alınma söz də daxil olmaqla yeni dil hadisələrinin yaranma və işlənmə mühiti kimi tədqiq edilməsi vacibdir. Elə bir dil yoxdur ki, onda alınmalar olmasın, digər dillərin təsirindən "təmiz" qalsın. Tədqiq etdiyimiz dillər də bu qaydadan istisna deyil. Ingilis dilində latın, fransız, italyan, ispan, çin, yapon, hindi və bir sıra digər dillərdən; rus dilində türk, ingilis, alman, slavyan və digər dillərdən; Azərbaycan dilində ərəb, fars, rus, ingilis və başqa dillərdən vasitəli və vasitəsiz keçən sözlər mövcuddur. Deməli, alınma məsələsinin cəmiyyətin keçmiş tarixi və dilin gələcək inkişafı ilə öyrənilməsi aktual səciyyə daşıyır. Alınma probleminə bir çox məsələlər daxildir: alınmaların təsnifi (xronoloji və tematik təsnif); növləri (məsələn, vasitəli və vasitəsiz alınma sözlər; "köhnə" və yeni alınma sözlər; barbarizmlər, ekzotizmlər, beynəlmiləllər, digər dillərə aid sözlərin mətndə olduğu kimi düzülməsi və s.), xüsusiyyətləri və funksiyaları; onların işlənmə tezliyi və alınma proseslərin intensivliyi; alınmanın praqmatik və koqnitiv mexanizmləri; alınma sözün semantik strukturunda dəyişikliklərin mexanizmləri; lügətlərdə qeydə alınması və təsviri (məsələn, Azərbaycan diskursunda "*onlayn*" sözü geniş işlənsə də, amma hələ də (2020-ci ilə qədərki dövrdə) lüğətlərdə öz əksini tapmayıb) və s. məsələlər.

Dilçilikdə alınma məsələsi müxtəlif aspektlərdə tədqiq olunmuşdur: morfoloji və semantik adaptasiyanın mexanizmi [1; 10; 13], alınma sözlərin müxtəlif sahələrdə işlənmə xüsusiyyətləri (məsələn, mətbuat dilində [3]); yeni alınma sözlərin yeni lüğətlərdə əksi [4] və s. Məqalənin məqsədlərindən biri də ingilis dilinin formalaşması və inkişafında linqvistik alınma hadisəsinin rolunu müəyyən etməkdir.

Linqvistik alınma anlayışının tərifi. Alınma – başqa dillərə məxsus leksik vahidin digər bir dildə yaranması və möhkəmlənməsi prosesidir, bu prosesin nəticəsi isə alınma sözün özüdür. Alınma – dilin işlənməsi və tarixi dəyişilməsi prosesinin ayrılmaz bir tərkib hissəsidir, lüğət ehtiyatının zənginləşdirilməsi üçün əsas mənbələrdən biri hesab olunur, daxil olan dildə dəyərli vahidinə çevrilərək yeni kök, sözdüzəldici ünsür və yeni terminlər yaradır. *Alınma dilin inkişafını təşkil edən əsas amillərdən biridir*, alınma prosesi dil fəaliyyətinin əsasında durur.

İstənilən dildə alınma vahidlərin sayı yetərincə çoxdur, lakin alınmaların tərkibi daim dəyişdiyi və sayı getdikcə artdığı üçün onların dəqiq sayını müəyyənləşdirmək çətindir. Qeyd etməliyik ki, ən qədim zamanlarda istənilən dilə digər dillərdən keçən sözlər tədricən uyuşur və bu səbəbdən onlar artıq xarici sözlər kimi *qavranılmır*. Hal-hazırda ingilis dili beynəlxalq dil funksiyasını yetirdiyi üçün alınmaların sayı keçmiş dövrdəki alınmaların sayı ilə xeyli azdır.

Alınma prosesində "sözün mənşəyi" və "alınmanın mənbəyi" kimi anlayışları, vasitəli və vasitəsiz alınmaları fərqləndirmək bəzən çətin olur. Sözlərin alınması – dil inkişafının daxilində baş verən təbii və zəruri bir prosesdir. Leksik alınmalar dili zənginləşdirərək adətən dilin özünəməxsusluğuna heç bir xələl gətirmir, çünki dilin əsas lügət fondu və qrammatik quruluşu olduğu kimi qalır, dilin daxili inkişaf qanunları dəyişilmir.

Başqa dillərdən söz götürmənin səbəbləri. Leksik alınma prosesini yaradan *səbəblər* və ya amillər müxtəlif ola bilər: hərbi-siyasi vəziyyət, insanların köçməsi və ya coğrafi qonşuluq ilə bağlı intensiv dil əlaqələri, din və mədəniyyətin yayılması, digər cəmiyyətə məxsus texniki inkişafın yüksək səviyyəsi, bir dövlətin digər dövlətə qarşı tətbiq edilən uzunmüddətli və məqsədyönlü dil siyasəti və s. Bir qayda olaraq, qeyd olunan səbəblər qarşılıqlı əlaqədə olurlar, tək çıxış etmirlər. Lakin alınmaların əmələ gəlməsini şərtləndirən *ən vacib və vadaredici səbəb* başqa dilin nüfuz yarada biləcək müəyyən dəyərlər, nailiyyətlər və ya yeni həyat tərzinin əlavə edə bilməsi faktının alınmanı qəbul edən tərəfindən qavranılmasıdır. Başqa sözlə, *digər dil cəmiyyəti daha proqressiv, qabaqcıl hesab olunur.*

Müxtəlif dillərdə alınmalar lüğət tərkibinin zənginləşməsinə fərqli təsir göstərir, yəni bu təsirin gücu çox və ya az ola bilər. Başqa dillərdən söz götürmə prosesinin səbəbləri bir çox alımlər tərəfindən araşdırılmışdır. Məsələn, L.P. Krısin öz işində aşağıdakı səbəbləri qeyd edir: əşya və anlayışların adlandırılmasına olan zərurət (*əsas səbəb kimi göstərilir* - M.F.), müxtəlif səciyyəli səbəblər - linqvistik, sosial, psixi, estetik; yeni dil formalarına olan tələbat, müəyyən anlayışların fərqləndirilməsinə olan ehtiyac; dil vasitələrinin müxtəlifliyinə, onların qısalıq, aydınlıq və rahatlığına olan ehtiyac və i.a. [8, c.12]. Bu səbəblər fərqləndirilmir, çünki hansısa bir amil tək çıxış etmir.

L.P.Krısının ardınca M.A.Breyter də başqa dillərdən söz götürmə prosesinin səbəblərini açıqlayır [5,c .132-135]:

1) alınmanı qəbul edən edən dilin (=reseptor dilin) koqnitiv bazasında müvafiq anlayışın yoxluğu. Reseptor olan dildə "fəal pulsasiya edən, döyünən" həyat hadisəsini işarə etməyə ehtiyac yaranır; öz dilində (M.A. Breyter ingilis dilini nəzərdə tutur) dərhal dəqiq ifadə tapılmadığı üçün və başqa dildə isə bu hadisəni işarələmək üçün iki leksik vahid var ki, onların birləşməsi ingilis dilində yeni adlandırmaya münasib olur. Yəni söhbət burada təkcə alınma hadisəsindən deyil, həmçinin qeyri-ingilis vahidlərdən yeni ingilis sözünün yaranmasından gedir. M.A. Breyter müxtəlif misallar gətirir, bu misallar ingilis dili daşıyıcıları üçün aydın olur, *lakin sözdəki köklər hansı dildən alınıbsa, həmin dildə sözün ekvivalenti olmur. Burada (reseptor dildə) iki ünsürün ayrı, müstəqil alınması və daha sonra mürəkkəb adda birləşdirilməsindən demək olar*. Mürəkkəb sözlərin bu cür yaranma modeli müxtəlif dillərdə geniş yayılıb. Lakin bu halın rəsmi üslubda deyil, daha çox məişət üslubunda, KİV-də geniş yayılması həmin sözlərin hamı tərəfindən tanınması və dildəki asanlığını təsdiq edir. Belə sözlərin yazılışındakı variativlik ola bilsin ki, uyuşmanın birinci mərhələsindən deyil, alınma sözünü özündə ehtiva edən bu və ya digər sənədi tərtib edənin savadsızlığından irəli gəlir.

2) reseptor dildə müvafiq (daha dəqiq) sözün olmaması (və yaxud mövcud olan sözün alınma sözlə müqayisədə "uduzması"). M.A. Breyter qeyd edir ki, yeni sözlərin 15% reseptor dildə müvafiq adın olmaması səbəbi ilə başqa dildən götürülür. Həmçinin qeyd edilir ki, birinci və ikinci səbəbdən yaranan söz qrupları arasındakı sərhəd dəqiq deyil: reseptor dil üçün anlayışın yeni olub-olmamasını bəzi hallarda əsaslandırmaq çətindir. Alim bu qrupa elə alınmaları da aid edir ki, onlar əsil milli sözləri və ya daha əvvəl mənimsənmiş sözləri bəzi səbəblərə görə (daha asan tələffüz olunur, nisbətən qısadır, mənşəyi aydın və ya semantikasının

dəqiqliyinə görə) sıxışdırıb aradan (tam və ya qismən) çıxartmışdılar. Bəzən söhbət çıxartmadan deyil, mənaların yenidən paylaşdırılmasından gedir: bir şəraitdə yalnız başqa dillərə məxsus sözün, digər şəraitdə isə əsil ingilis sözünün istifadəsi münasibdir. *Alınmaların istifadəsini yerli sözdə olan geniş polisemiyanın aradan qaldırılması nəticəsi kimi də qiymətləndirmək olar*. L. P. Krısin bu halda "anlayışın ixtisaslaşmasına zərurət" fikrini irəli sürür. Söz alınmasının səbəbi çox vaxt başqa dildən keçən sözün vəzifəsini şərtləndirir. Əsil milli və daha əvvəl mənimsənmiş sözlərin eyni zamanda mövcud olması halında alınma sözün funksiyası digər mədəniyyət hadisəsinin adlandırılması və ya mətnin üslub xüsusiyyətinin göstərilməsindən ibarətdir, ingilis ekvivalentləri isə gerçəkliyin təsviri üçün istifadə edilir.

3) Üslubi təsirin təmin edilməsi. Nitqdə təmtəraq, həyəcanlılıq, yəni emfatik funksiya dillərarası mənaları birləşdirən omofon sözlərlə də şərtlənə bilər. Bu amilin təsiri danışanların başqa dil səriştəsini nəzərdə tutur. *Bu da alınmaların praqmatik tərəfini təşkil edir.*

4) Reseptor dildə ekvivalent vahid ifadə etmədiyi müəyyən müsbət və ya mənfi məna çalarlarının (konnotasiyanın) ifadəsi. M.A. Breyter qeyd edir ki, rus dili daşıyıcıları arasında belə bir təsəvvür yayılıb ki, yapon texnologiyası ingilis texnologiyası ilə müqayisədə daha qabaqcıldır; xarici banklar daha etibarlıdır; xarici mallar daha yüksək keyfiyyətlidir. Belə təsəvvürdən reklam sahəsində məqsədyönlü şəkildə geniş istifadə edirlər. Reklamda alınma sözlər müsbət konnotasiyanın aktuallaşdırılması məqsədilə işlənilir. Əlavə etmək lazımdır ki, reklamda və ümumiyyətlə KİV-də alınmaların hədsiz istifadəsi əhalinin boyük hissəsini təşkil edən yaşlı nəsil tərəfindən mənfi qarşılanır. Məhz bu səbəbdən alınmalar vasitəsilə müsbət çaların yaradılması məsələsi bütün zamanlarda mübahisəli olaraq qalır.

Beləliklə, M.A. Breyterin *göstərdiyi birinci və ikinci səbəb koqnitiv, üçüncü – praqmatik, dördüncü səbəb isə həm koqnitiv, həm də praqmatik səciyyə daşıyır*.

L. P. Krısin başqa dillərdən keçən sözlərin istifadə sahəsində aşağıdakı sosial məqamlara və dildaxili amillərə diqqət yetirir: 1) yeni əşya, yeni hadisənin adlandırılmasına olan ehtiyac; 2) məzmunca yaxın, lakin fərqlənən anlayışların ayrılmasına zərurət; 3) bu və digər sahədə, bu və ya digər məqsəd üçün anlayışların ixtisaslaşmasına zərurət; 4) bütöv, tərkib hissələrinə ayrılmayan obyekti söz birləşməsi ilə deyil, elə bütöv söz şəklində işarələnməsinə meyl; 5) alınmanın sosial-psixoloji səbəb və amilləri: bütöv dil kollektivi və ya onun bir qismi tərəfindən başqa dildən gələn sözü daha "nüfuzlu", "elmi", "qəşəng səslənən" kimi dərk edilməsi/qəbul edilməsi, həmçinin *işarə olunan anlayışın kommunikativ fəallığı* [7, c. 58-61]. Burada ingilis dili daşıyıcılarının mentalitetinin dəyişilməsindən söhbət gedir (*koqnitiv amil*). Başqa dildən gələn sözün daha "nüfuzlu" sayılması halını L. P. Krısin "rütbənin yüksəlməsi/qalxması" adlandırır [7, c. 152]. Müəyyən bir söz mənbə dildə adi obyekti adlandırdığı halda, sözü alan dildə həmin obyektə sanki daha əhəmiyyətli, daha nüfuzlu kimi yanaşırlar. Yeniliyin ekspressivliyi – "daha nüfuzlu, daha əhəmiyyətli və ifadəli" alınmaların ən möhkəm və davamlı səbəblərindən biridir [11, c. 152].

İstənilən tarixi dövrə aid alınmalar yuxarıda qeyd olunan səbəblər nəticəsində yaranmışdır. Müasir rus və Azərbaycan dillərində hesablama texnikasına aid və ingilis dili əsasında formalaşan terminologiya başqa dillərdən gələn yeni terminlərlə də zənginləşir. Oxşar proses, yəni ingilis mənşəli sözlərin və ingilis sözlərindən olan kalkaların üstünlük təşkil etməsi halı idman terminologiyasında, həmçinin dilin normadan kənar olan alt sistemlərində, məsələn, arqo və jarqonlarda, xippi və müsiqiçilərin nitqində izlənilir. Alınmaların istənilən dildəki sinonimlər qarşısında belə bir üstünlüyü var ki, onlar danışanı sosial planda "daha səviyyəli" göstərir, danışanın bilik və xəbərdarlıq səviyyəsini, alınmalardan daha çox istifadə edən müəyyən sosial qrupun (məsələn, gənclərin) üstünlüyünü xüsusi qeyd edir. Alınma prosesinə təsir göstərən sosial-psixoloji amillərdə müxtəlif dilləri bilən və danışanların sayının artmasını qeyd etməliyik. Ölkədən çıxanların, digər ölkələrdə uzun müddət yaşayıb və geri dönənlərin çoxluğu "*code-switching*" adlandırılan, yəni danışıqda digər dillərə keçməsinin səbəbi olur. Bu cür hallarda danışan öz nitqində sadəcə alınmalardan istifadə etmir, o, bir dildən digərinə

keçir. Alınma prosesinə mühacirətin təsiri müxtəlif dillərin bilməsi halında olduğu qədər yüksək olmasa da, mahiyyətcə çox vacibdir.

Alınma prosesinin inkişafına güclü təkan göstərən amillərdən biri də başqa dillərdən gələn sözlərin nüfuzlu, görkəmli şəxslərin nitqində, hamı tərəfindən izlənilən televiziya verlişlərində işlənməsidir. İngiltərənin bir çox tanınmış verlişlərində qeyri-ingilisdilli şəxslər iştirak edir, bundan sonra alınmaların sayı, xüsusən gənclər arasında xeyli artır. Alınmaların dilə daxil olmasının sosial-ictimai səbəbləri arasında biz L. P. Krısının "*işarə olunan anlayışın və ona müvafiq gələn sözün kommunikativ fəallığı"nı* yuxarıda qeyd etmişdik. Əgər hansısa anlayış insan fəaliyyətinin vacib sahələrinə toxunursa, onda həmin anlayışı ifadə edən söz, təbii ki, çox işlənən sözə çevrilir. *Zaman keçdikcə, sözün aktuallığı itə bilər və ya əksinə arta bilər*: əsrin əvvəlində daxil olan söz əsrin sonunda işlənmə səviyyəsinin pik nöqtəsinə çata bilər. Məsələn *faşizm*, *faşist* sözündə olduğu kimi. Azərbaycan Prezidenti İlham Əliyev "Haber Global" telekanalına müsahibəsində bildirib: "*Gəncə şəhəri bombardman atəşinə tutulub, "Toçka-U" raketi ilə şəhər atəşə məruz qalıb. Bunun nəticəsində mülki şəxslər həlak olub və yaralanıb. Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. ... Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir. İnsanlığa qarşı törədilmiş cinayət bunu bir daha göstərir*" [20]. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə Azərtac-a açıqlamasında deyib: "*Oktyabrın 10-dan 11-nə keçən gecə Ermənistanın Gəncədə çoxmənzilli binanı raket atəşinə tutması və nəticədə 9 dinc insanın həlak olması, 34 nəfərin yaralanması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin növbəti sübutu oldu. Ermənistanın bu hücumları, mülki əhalinin hədəfə alınması birmənalı olaraq müharibə cinayətidir və beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Eyni zamanda, Ermənistan ordusunun gecə saat 2 radələrində mülki əhaliyə qarşı xaincəsinə törədilən terror aktı Paşinyan rejiminin faşist xislətini, riyakarlığını, sülhə, atəşkəsə adekvat olmadığını isbatlayır. Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasından sonra dinc insanları və yaşayış məntəqələrini atəşə tutması bu dövlətin faşist xislətinin bir daha sübutu və Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının növbəti bariz göstəricisidir.*"[21]. Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva: «*Gəncəyə raket hücumu Ermənistanın hərbi-siyasi rəhbərliyinin anti-insani, faşist simasını ifşa etdi və bütün dünyaya göstərdi. Bir daha sübut olundu ki, Ermənistanın əsas hədəfi yaşayış məntəqələri və dinc əhalidir*» [22].

Və yaxud əksinə, XX əsrin sonundan başlayaraq işlənmə səviyyəsinin pik nöqtəsinə çatan "*status-kvo*" sözü bundan sonra işlənmə intensivliyi və tezliyinə görə Azərbaycan media-diskursunda tədricən yoxa çıxacaq. Azərbaycan Prezidenti İlham Əliyev: "*Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Mən dəyişdirdim status-kvonu, bax orada, döyüş meydanında. Təmas xətti… Yoxdur təmas xətti, yarmışıq onu. 30 il onlar bu təmas xəttini qururdular. Özü də o bölgənin relyefi belədir ki, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. 30 il ərzində beton istehkamlar qurulub, yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim, heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. İndi deyirlər yeni təmas xətti olacaq, olmayacaq. Biz torpaqlarımızı geri alacağıq. Təmas xəttini biz dağıtmışıq, biz eləmişik, iradə göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq. Və bu gün tarixi qələbə çalırıq*" [23].

Belə nəticəyə gəlir ki, alınmanın dilə daxil olmasına təsir edən *xarici və daxili amillər birləşib qarşılıqlı əlaqədə çıxış edirlər*.

Canlı ingilis dili daim inkişaf edən hadisə kimi. Dilin canlı olması onun daim inkişafda olmasını nəzərdə tutur. İngilis dili özünün uzun inkişaf tarixində başqa dillərdən keçən xeyli sayda sözləri mənimsəmişdi. Bəzi alimlər ingilis dilinin hətta özünəməxsusluğunun itirilməsi və "hibrid" dil olması haqqında fikir söyləmişdilər. Bu sözlər arasında həm köməkçi və müstəqil sözlər, həm də sözdüzəldici morfemlər var. Qədim və orta əsrlər dövründəki alınmaların əksəriyyətini skandinav, fransız və latın mənşəli sözlər təşkil edir. Bu məsələ

kifayət qədər elmi tədqiqatlarda işıqlandırılmışdı. Lakin bütün bu faktlar ingilis dilinin orijinallığına şübhə yaratmır, əsas lüğət fondu ingilis mənşəli olaraq qalır və eyni zamanda ingilis dili dünyada ən çox alınma sözlərinin "tədarükçü"dür.

İngilis dilindəki olan alınmaların ilk dəfə işlənməsini bir çox lüğətləri və ya korpusları qeyd edir, məsələn, "*merriam-webster dictionary" lüğəti* tarixi dəqiqliklə göstərir. Ingilis istifadəçiləri hətta özləri də leksikoqraf kimi çıxış edə bilərlər. Könüllülər layihəsi sayılan Britaniya lüğəti "*Urban dictionary*" adlanır, əsası 1999-cu ildə qoyulub; şüarı isə "Urban dictionary is written by you". Bu yeni ingilisdilli jarqon söz və ifadələrinin onlayn lüğətidir [25]. 2014-cü ildə bu lüğətdə 7 milyon lüğət məqalələri qeydə alınıb. Eləcə «Национальный корпус русского языка» - "*Rus dilinin milli korpusu*"nda da alınmanın ilk işlənmə tarixi qeyd edilir. Bundan başqa digər rusdilli mənbələr də mövcuddur: *«Викисловарь», «Викилексия» və «Словоново»*. Çox təəssüf ki, bu halı biz Azərbaycan dilindəki alınmalar haqqında deyə bilmirik. Alınma prosesi indiki zamanda da davam edir. Bu alınmaların əksəriyyəti *barbarizm və ekzotizmlərdir*. Məsələn, qida sahəsində aşağıdakı alınmaları (*loanwords*) qeyd edə bilərik.:

latte – italyan mənşəli söz birləşməsindən ("caffe latte") yaranan söz "bol süd ilə olan qəhvəni" bildirir, ilk işlənməsi 1985 ilə təsadüf edir [24]. Ingilis dilindən bu söz rus və Azərbaycan dillərinə də keçmişdir: "Еще один традиционный кофейный коктейль – кофе *латте* – смешивается из 85% молока и 15%ристретто" [26]. Azərbaycan dilində bu söz qida məhsullarının reklamı sahəsində işlənir - ingilis dildə olduğu kimi, qrafik şəkildə işlənir, yəni hələ assimilyasiya olunmayıb: "*Black Latte* – bir fincan qəhvə dadı verən, tərkibində kofe, şokolad və kokos ekstraktı olan arıqlamaq üçün içki. . . . Bakıda orijinal qutuda *Black Latte* almaq üçün saytımızda online sifariş verə bilərsiniz" [15].

Taqueria – ingilis dilində restoranın növünü bildirən bu söz Meksika və ispan mənşəlidir (*taquiria* sözündən əmələ gəlmişdir), ilk işlənməsi 1982 ilə təsadüf edir [24]. "*Taqueria* – (sometimes anglicized to taquiria) is a Spanish word meaning taco shop. In some localities, however, it is used to refer to restaurants specializing in burritos, although tacos and other dishes are often served as well. ..." [16]. «Taqueria – noun. A Mexican restaurant that serves mainly tacos» [17]. İngilis dili vasitəsi ilə rus dilinə də keçib, reklam sahəsində işlənir: "*макерия* - закусочная, где подают тако, буррито" [18]. Rus dilinin milli korpusunda qeydə alınmayıb. Azərbaycan dilində bu sözün istifadəsi qeydə alınmayib.

Radicchio – italyan dilindən ingilis dilinə keçən söz kahının yarpaq növünü bildirir, ilk işlənməsi 1968 ilə təsadüf edir [24]. Rus dilində bu sözün bir neçə yazılış variantları var: "*Радиккио, радиккьо, радиччио,* эскариол, итальянский цикорий – разновидность обыкновенного цикория, популярное огородное растение" [19]. Mediadiskursun qəzet növündə işlənir: «Более того, он может быть даже вовсе и не зеленым, а красным, как *радиккио*. 200 гр. *радиккио*, 4 ст. ложки малинового уксуса, 1 щепотка соли, 1 ст. ложка мелко рубленных грецких орехов. *Радиккио* вымыть, высушить, отделить листья от стебля. Взбить малиновый уксус венчиком, добавив щепотку соли. Залить *радиккио* уксусом». [12]. "*Радиччио*, или *рэдиччио*, итальянский цикорий, radicchio – один из самых живописных салатов, относящийс к цикорным, родом из Италии [6]. Azərbaycan dilində bu sözün istifadəsi Bonduelle. az reklam saytının reseptlər bölməsində qeydə alınıb: "Blinçikləri salat üzərində - indau, *radikkio kələmi* və qarğıdalı – balzam sirkəsi, zeytun yağı sousu, duz və istiotla təqdim edin" [27]. Elektron lüğətlər saytında isə [28] yalnız yazılış qaydası var.

XX əsrin sonlarında ingilis dilinə daxil olan bu sözlər rus və Azərbaycan dillərində yalnız XXI əsrdə qeydə alınır, ən yeni alınma sözlər hesab olunur. Qeyd etdiyimiz kimi, bir çox dillərdə, o cümlədən rus və Azərbaycan dillərindəki müasir alınmaların əksəriyyəti ingilis dilindən keçən sözlərdir. Amma bu dillərdən ingilis dilinə daxil olan sözlər də var, onlar əsasən ekzotizmlərdir: Azərbaycan dilindən - *dovga, dushbara, fasali, kabab, lyulya-kabab, manat, mugam, pakhlava, parcha-bozbaşh, pyty, pilaff, shakerbura, shor-qoqal, tar* və s. [2,

161]. Bu və digər Azərbaycan mənşəli sözlər Azərbaycan mədəniyyətini, mühitini göstərdiyi üçün rus dilinə də keçmişdir və tanıtma, dərketmə, *koqnitiv* funksiyanı daşıyır.

Rus dilindən ingilis dilinə keçən sözlər (30-dan artıq söz): kulinariya sahəsində: *pelmeni* – пельмени; *borscht* – борщ; *varenyky* – вареники; *vodka* – водка; *medovukha* – медовуха; *okroshka* – окрошка; *kefir* – кефир; *ryazhenka* – ряженка; siyasət sahəsində: *bolshevik* – большевик; *Duma* – Дума; *menshevik* – меньшевик; *soviet* – совет, советский; *tsar* – царь; mədəniyyət sahəsində: *balalaika* – балалайка; *sarafan* – сарафан как народный костюм; *samovar* – самовар; *troika* – тройка лошадей; *ushanka* – шапка-ушанка; *nihilist* – нигилист; texnika sahəsində: *sputnik* – спутник; *electrichka* – электричка; *marshrutka* – маршрутка; *baidarka* – байдарка; *chernozem* – чернозем; burdaki *электричка* və *маршрутка* sözləri rus dilində danışıq jarqonizmləri kimi qiymətləndirildiyi halda ingilis dilinə üslubca neytral sözlər kimi daxil olmuşdurlar; idarəçilik sahəsində: *KGB* – КГБ; *kadet* – кадет; *kolkhoz* – колхоз; *okrug* – округ; *perestroika* – перестройка; *silovik* – силовик; *sovkhoz* – совхоз və s. Bu və digər rus mənşəli sözlər rus mədəniyyətini, mühitini göstərdiyi üçün Azərbaycan dilinə də keçmişdir və tanıtma, dərketmə, *koqnitiv* funksiyanı daşıyır.

Aydın məsələdir ki, hər bir ingilis və ya əcnəbi – istər avropalı olsun, istər amerikalı və çinli olsun, yuxarıda qeyd etdiyimiz rus və Azərbaycan mənşəli sözlərinin mənalarını bilməyə də bilər. Bu səbəbdən sözlərin yanında mütləq şəkildə müxtəlif şərhlər verilir. Məsələn, *pelmen* = meat dumpling – ət ilə klyotek; *okroshka* = cold kvass soup with chopped vegetables and meat – soyuq kvas, ət və tərəvəzli şorba; *varenyk* = curd or fruit dumpling – kəsmikli və ya meyvəli klyotek.

Beynəlmiləl sözlərinin milli variantları təkcə yazılış və tələffüzü ilə deyil, həmçinin *məna çalarları ilə də fərqlənə bilər*. Məsələn, ingilis dilində *ambition* sözü neytral çalarlıdır və "məqsədə meyl" deməkdir; rus və Azərbaycan dillərində isə bu məna ikinci plana keçir, birinci məna mənfi çaları əks etdirir: rus dilində - *честолюбие*/амбиция; Azərbaycan dilində - *şöhrətpərəstlik*. Və ya ingilis dilindəki *family* "ailə" mənasını daşıyır. Rus dilində "*фамилия*" sözü "ailə" mənasında nadir hallarda işlənir və köhnəlmiş hesab olunur [9, 208]. Məsələn, *фамильные* ценности, т.е. *семейные* ценности; *фамильный* герб - т.е. родовой/*семейный* герб и т.д. Bu cür hallar tərcüməçilik sahəsində yalnışlığa səbəb ola bilər. Sözlərin alınması – dil inkişafının daxilində baş verən təbii və zəruri bir prosesdir. Leksik alınmalar dili zənginləşdirərək adətən dilin özünəməxsusluğuna heç bir xələl gətirmir, çünki dilin əsas lügət fondu və qrammatik quruluşu olduğu kimi qalır, dilin daxili inkişaf qanunları dəyişilmir.

Ədəbiyyat

1. Alməmmədova S.M. Müasir Azərbaycan dilində alınma terminlərin unifikasiyasi və standartlaşdırma formaları. Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2018, 52s.

2. Mehrəliyev A.Ə. Danışıq kitabçası. Bakı: Nüybar, 1994, 165 s.

3. Yaqubova T. R.Azərbaycan mətbuat dilində alınmalar (1990-2000). Bakı, «MBM», 2008, 153s.

4. Yeni sözlər və yeni mənalar lüğəti. Bakı, Elm və təhsil, 2016, 269.

5. Брейтер М.А. Заимствования в английском языке: история и перспективы. Владивосток, 2003.

6. Ирина Мак. Считаем зелень // Известия, 2006.03.23//https://processing.ruscorpora.ru/search.xml?lang=ru&sort=i_grtagging&startyear=1800&text= 19-10-2020

7. Крысин Л.П. Иноязычные слова в современной жизни. Английский язык конца XX столетия. Москва, 1996.

8. Крысин Л. П. Иноязычные слова в английском языке. Москва, 2006.

9. Латышев Л.К. Технология перевода. М.: НВИ-ТЕЗАУРУС, 2001, 280с.

10. Мамаев И.Д., Зайцева А.А. Адаптация заимствованных слов к русской морфологии. с.106-113//International Journal of Advanced Studies in Language and Communication. St. Louis, Missouri, USA. №2, 2019. 174 p.
11. Розен Е.В. Новые слова и устойчивые сочетания в немецком языке. Москва, 1991.
12. Сирина А.. Возьмите за основу зеленое // Труд-7, 2008.04.17.//https://processing.ruscorpora.ru/search.xml?lang=ru&sort=i_grtagging&startyear=1800&text. 19-10-2020
13. Шарабчиева Х.К. Семантическая определенность новейших англицизмов в современном русском языке. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Баку, 2014, 27 с.
14. https://processing.ruscorpora.ru/search.xml?env=alpha&api=1.0&mycorp=&mysent=&mysize=&mysentsize=&dpp=&spp=&spd=&mydocsize=&mode=main&lang=ru&sort=i_grtagging&nodia(19.10.2020).
15. https://titangel.az. 19.10.2020
16. wikipedia.org//top_english.academic.ru
17. useful english dictionary//top_english.academic.ru
18. Англо-русский словарь. 2014//top_english.academic.ru
19. https://ru.wikipedia.org/wiki/ радиккьо/19-10-2020
20. https://apa.az/az/dagliq_qarabag/Azrbaycan-Prezidenti-Ermnistan-terror-fasist-dovltdir 12.10.2020
21. https://azertag.az/xeber/Vuqar_Rehimzade_Mulki_ehaliye_qarsi_xaincesine_toredilen_terror_akti_Pasinyan_rejiminin_fasist_xisletini_riyakarligini 12.10.2020
22. https://azertag.az/xeber/Gence_hucumu_Ermenistanin_anti_insani_fasist_simasini_ifsa_etdi- 13.10.2020
23. https://konkret.az/yoxdur-status-kvo-men-deyisdirdim-yoxdur-temas-xetti-yarmisiq-onu-ali-bas-komandan/9.10.2020
24. https://www.merriam-webster.com/dictionary/
25. https://www.urbandictionary.com/
26. И тонкий кофе аромат. . .» (2003) // «Мир&Дом. City», 15 сентября 2003г.// https://processing.ruscorpora.ru/
27. https://bonduelle.az/resept/vetcina-qulancar-ve-qargidali-ile-qizili-blincik 19-10-2020
28. https://sozluk.obastan.com/*radikkio*

Ф.А.Мамедова

К вопросу о заимствованиях
(на материале английского, русского и азербайджанского языков)
Резюме

В лингвистике проблема заимствования слов из других языков является актуальной, поскольку язык находиться в постоянном развитии и в контакте с другими языками. Изучение проблемы заимствования в связи с прошлой историей общества и будущего развития языка носит актуальный характер. В статье коротко освещаются три вопроса: определение лингвистического заимствования; причины заимствования слов из других языков*;* английский язык как динамическое явление. Давно заимствованные слова *в* языке считаются уже ассимилированными и потому *не воспринимаются как иностранные*. Причины, порождающие процесс лексического заимствования находятся в тесной взаимосвязи, не проявляются в отдельности. Сущность причины "Коммуникативная активность слова, соответствующего обозначаемому понятию*"* состоит в том, что если какое-то понятие затрагивает важнейшие области человеческой деятельности, то слово, выражающее данное понятие, превращается в часто употребляемое. Со временем актуальность слова может снизиться или, наоборот, возрасти.

F.A.Mammadova

The issue of borrowing words
(based on English, Russian and Azerbaijani language materials)
Summary

In linguistics, the problem of borrowings is relevant, since the language is in constant development and in contact with other languages. The study of the problem of borrowing words in connection with the past history of society and the future development of the language is relevant. This article deals üith three issues: the definition of linguistic borrowings; the reasons of borrowing words from other languages; English as a dynamic phenomenon. Most of the loanwords in the language are considered as assimilated and therefore there are not perceived as foreign. These reasons give rise to the process of lexical borrowings are closely interrelated and do not appear separately. The essence of the reason "Communicative activity of the word corresponding to the designated concept" is that if a concept affects the most important areas of human activity, the word expressing this concept becomes a frequently used one. Over time, the relevance of the word may decrease or vice verse increase.

Rəyçi: prof. T.H.Məmmədova

Redaksiyaya daxil olub: 03.07.2020

N.İ.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FEİLİN NİTQ HİSSƏLƏRİ SİSTEMİNDƏ YERİ

Açar sözlər: *feil, nitq hissələri, sistem, forma, vəziyyət, hərəkət etmək*
Ключевые слова: *глагол, части речи, система, форма, состояние, двигаться*
Key words: *verb, parts of speech, system, form, state, to move*

Dildə mövcud olan sözlər ənənəvi olaraq leksik mənalarına, morfoloji əlamətlərinə və sintaktik funksiyalarına görə müəyyən qruplara bölünür ki, bunlara nitq hissələri deyilir. Məsələn, müasir ingilis dilindən əşya ifadə edən tək, cəm və s. formalara, tamamlıq və s. funksiyalarda çıxış edən sözlərə isim deyilir. Yaxud hal, hərəkət ifadə edən, **-s, -ing** və s. şəkilçi qəbul edə bilən, *to be, to have* feilləri ilə işlənərək forma düzəldə bilən *(is called, has taken, have sent)*, cümlədə xəbər funksiyasında çıxış edən sözlər feil adlanır və s.

Yuxarıda göstərilmiş 3 cəhətə, yəni sözün leksik mənasına, morfoloji əlamətinə və sintaktik funksiyasına görə sözlər müasir ingilis dilində bir qayda olaraq aşağıdakı nitq hissələrinə bölünür:

1. İsim
2. Sifət
3. Əvəzlik
4. Say
5. Feil
6. Zərf
7. Modal sözlər
8. Nida
9. Artikl
10. Sözönü
11. Bağlayıcı
12. Ədat [1, s.7].

Müasir ingilis dilində mövcud olan nitq hissələri dildəki və nitqdəki xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Onların bir qismi, məsələn, isim, sifət, say və s. nominativ mənaya malik ola bilər. Buna görə də onlar müstəqil cümlə üzvü olur və müstəqil kommunikativ funksiya daşıyır və mətnə daxil olan cümələlər arasında əlaqə yaradır və mühüm yer tutur. Əsas nitq hissələri içərisində feil xüsusi olaraq fərqləndirilir.

Feil ərəb sözündən götürülüb mənası "iş, hərəkət, əməl etmək" anlamını verir. Feillər şəxsin, əşyanın işini, hərəkətin hal-vəziyyətini bildirən sözlərdir. Digər nitq hissələrindən fərqli olaraq feil zəngin kateqoriyalar sisteminə malikdir. Feilin kateqoriyalarını izah etməzdən əvvəl kateqoriya anlayışı barədə qısa məlumat verək.

Kateqoriya yunan dilində *kategoria* sözündən götürülüb "fikir, təyin etmə, mülahizə, əlamət, müəyyən etmə" kimi mənaları əks etdirir. Dilçilikdə kateqoriya anlayışı "yekcins qrammatik mənaların məcmusu" kimi başa düşülür. Ümumiyyətlə, dilçilik vahidlərinin və ya onların bəzi qruplarının dildə öz qrammatik ifadəsini tapan ən əsas xüsusiyyətlərdən biri kateqoriya hesab edilir. Hər bir qrammatik kateqoriya bir sıra qrammatik mənaları özündə əks etdirir. Məsələn, qrammatik feil kateqoriyasına zaman, şəxs, tərz, növ və s. kimi qrammatik mənalar aiddir. Azərbaycan dilində qrammatik kateqoriyalar əsasən morfoloji vasitələrlə ifadə olunur [2, s.11].

Yuxarıda yazdığımız kimi, feilin kateqoriyalar sistemi zəngindir. Məsələn, feil şəxsli və şəxssiz formalarda ünsiyyətə xidmət edir, təsirli və təsirsiz olur, məlum və məchul növdə olur, subyektlə obyekt arasındakı əlaqə və münasibətləri üzə çıxardır. Bunlardan başqa, feil zamana, şəkil əlamətlərinə və şəxsə görə dəyişə bilir. Məsələn, feil məsdər şəkilçisi qəbul edərək hərəkətin adını bildirir. Feil, həmçinin zəngin sözdüzəldici imkanlara malikdir. M.Hüseynza-

də yazır ki, feillərdə iş, hal, hərəkət mənası qarışıq ola bilər [3, s.27]. Buna baxmayaraq, bu mənalardan biri həmişə üstünlük təşkil edə bilər. Nümunə verək:

/Ocaqlar ***yandı***, işıqlar ***söndü***, tüfəng səsləri ***yavaşıdı*** // Bu cümlələrdə işlədilən *yandı, söndü* feillərində hal-vəziyyətin mənası daha çox nəzərə çarpır.

Digər nümunə:

/Qonşular evlərinə ***çəkildi***// /Ana qızını ***çağırdı***// /Qız ***qayıtmadı***// kimi cümlələrdə işlədilən feillərdə isə iş daha çox diqqətə çatdırılır.

Feil mürəkkəb xüsusiyyətə malik olan nitq hissəsi hesab edilir. Belə ki, feilin malik olduğu qrammatik mənalar və həmin mənaların ehtiva etdiyi qrammatik kateqoriyalar, onların ifadə üsulları və vasitələri digər nitq hissələrindən fərqlidir.

R.Karter və M.Makkarti yazır: "Hərəkət, vəziyyət bildirən söz leksik feil adlanır. Leksik feil zamanı və cümlənin növünü göstərir" [4, s.398]. Nümunəyə baxaq:

/She **lives** near to me// (indiki zaman, təsdiq cümlə) /O, mənim yaxınlığımda yaşayır//

R.Karter və M.Makkarti yazır ki, sadə feillər özləri sual və inkar forması düzəldə bilməz [4, s.399]. Onların sual və inkar formalarının düzəldilməsini "mürəkkəb feili birləşmələr" kimi təqdim edirlər. Bunu belə təsvir edə bilərik: köməkçi feil *do* + sadə feil. İndi isə anlatmaq istədiyimizi cümlə şəklində təqdim edək.

Sual forması:

¿Do you know Anar's number? ¿Anarın nömrəsini bilirsən?

İnkar forması:

/I **do not feel** to go to university today// /Mən bu gün universitetə getmək istəmirəm//

Əmr cümləsinin inkarı:

¡**Don't tell** Anar! ¡Anara söyləməyin!

Q.Kazımıov yazır ki, feilləri başqa nitq hissələrindən fərqləndirən ən əsas keyfiyyətlərdən biri onların mənasıdır. O yazır: "Hər bir feil konkret lüğəvi mənasına görə iş, hərəkət bildirdiyi kimi, ümumiləşmiş qrammatik mənasına görə də iş, hal, hərəkət bildirir" [5, s.118].

"Müasir Azərbaycan dili" kitablarına əsaslanaraq yaza bilərik ki, feillər zəngin lüğəvi məna xüsusiyyətlərini ehtiva edirlər. Ə.Dəmirçizadə feilləri ifadə edtikləri lüğəvi mənalar baxımından aşağıdakı qruplara bölür [6, s.197]:

1) *İş feilləri.* Feillərin bu qrupu şəxsin, əşyanın işinin, hərəkətini, məşğuliyyətini bildirir. İş feillərinə bunları nümunə verə bilərik:

Söymək, tikmək, qazmaq, uçurmaq, yan almaq, avar çəkmək, yola düşmək, baş çəkmək, sürüşmək, var-gəl etmək, dırmanmaq və s.

Lüğəvi mənasına görə fərqləndirilən feillərin ikinci qrupuna *nitq feilləri* daxildir**.** Nitq feilləri insanın nitq qabiliyyətini, başqa canlı və cansız varlıqların nitqləndirilməsi ilə bağlı işlənən sözləri ehtiva edir.

Məsələn, *danışmaq, demək, söyləmək, kişnəmək, səs-küy salmaq, dilə basmaq, xoruldamaq, dua etmək, özünü öymək, yaltaqlanmaq* və s.

Üçüncü bölgü *hərəkət feilləri* adlanır. Bu qrupa daxil olan feillər insanın və başqa canlı və cansız varlıqların hərəkətini bildirən sözləri əhatə edir. Məsələn, *getmək, üzmək, yürümək, qaçmaq, var-gəl etmək, yan almaq, baş çəkmək* və s.

Növbəti qrup feilləri *təfəkkür feilləri* adlanır. Bu qrupa daxil olan feillər insanın ağlı, düşüncə və təfəkkür tərzi ilə işlənən feillər hesab edilir. Məsələn, *düşünmək, anlamaq, xatırlatmaq, duymaq, dərk etmək, qərara gəlmək, yadına salmaq, qulağına sırğa etmək* və s.

Bunlardan əlavə, *hal-vəziyyət feilləri* (*qıvrılmaq, ağarmaq, qızarmaq* və s.)**,** *eşitmə feilləri* (*eşitmək, dinləmək* və s.), *görmə feilləri* (*baxmaq, görmək* və s.) və s. da mövcuddur.

M.Hüseynzadə yazır ki, feillərin iki işlək forması vardır:

1) Şəxsli formada (yaxud şəxsli feillər);

2) Şəxssiz formada (şəxssiz feillər) [3, s.19].

Feillərin zaman, şəkil, şəxs əlamətləri qəbul edərək dəyişməsi, müxtəlif şəkillərə düşməsi *təsrifi şəxsli* feilləri əks etdirir. Feillərin zaman, şəkil, şəxs şəkilçiləri qəbul edərək dəyişmələrinə *feli təsrifi* deyilir. Məsələn, /Uşaq *dinmədi//* /Onun bu dünyada ata-anası *qalmamışdı//* Bu nümunədə işlədilən *dinmədi, qalmamışdı* feilləri *şəxsli formalardır*.

Müasir Azərbayacn dilində *məsdər, feili sifət* və *feili bağlama* şəkilçiləri qəbul edərək iki xüsusiyyət qazanan, təsrif olunma imkanını itirən feillər *şəxssiz feillər* hesab edilir.

M.Hüseynzadə yazır ki, feil nitq hissələri arasında morfoloji cəhətdən ən zəngini hesab edilir. Bu zənginlik feilin kateqoriyalarında özünü biruzə verir. Beləliklə, müasir Azərbaycan dilində feilin aşağıdakı qrammatik kateqoriyaları var:

1) Təsir kateqoriyası;
2) Növ kateqoriyası;
3) İnkarlıq kateqoriyası;
4) Tərz kateqoriyası;
5) Zaman kateqoriyası;
6) Şəxs kateqoriyası;
7) Şəkil kateqoriyası [3, s.26].

Feilin bu kateqoriyalarının hər birinin özünəməxsus morfoloji əlamətləri vardır. Zaman, şəkil və şəxs kateqoriya əlamətləri şəxsli formanı yaradır. Təsirlik, növ və inkarlıq morfoloji əlamətləri isə həm şəxsli, həm də şəxssiz feillərə aiddir. Qeyd edək ki, təsirlik və növ şəkilçiləri qəbul edərək dəyişmək ancaq feillərə aiddir. Zaman, inkarlıq, şəkil, şəxs, feili sifət, feili bağlama, məsdər şəkilçiləri bir kateqoriyadan olan bütün sözlərə, yəni bütün feillərə artırıla bilər.

L.V.Kauşanskaya müasir ingilis dilində feillərin *şəxs, kəmiyyət, zaman, növ, tərz* və *forma* (*şəkil*) kateqoriyalarına malik olduğunu yazır [7, s.75]. Bu bölgüyə O.Musayevin kitabında da rast gəlirik. Bu yerdə bir haşiyə çıxmaq istərdik. Qədim ingilis dili dövründə ingilis dili sintetik dil olmuşdur, lakin zaman keçdikcə, daha doğrusu orta dövrlərdə ingilis dili əsasən analitik dilə çevrilmişdir. Müasir tədqiqatlar göstərir ki, ingilis dilinin morfoloji quruluşu hazırda analitiklikdən sintetikliyə doğru inkişaf etməkdədir. Bununla əlaqədar olaraq müşahidə edilir ki, ingilis dilində mövcud olan bir sıra köməkçi sözlər şəkilçi qəbul edərək yeni söz yarada bilir. Müasir ingilis dilində mövcud olan *to be* feilinin fərqli zaman formaları, *shall* və *will* köməkçi feilləri, *should* və *would* köməkçi feilləri və s. həm söz-morfem, həm də özündən əvvəl gələn sözə bitişərək şəkilçi-morfem kimi işlənə bilər. Elə bu səbəbdən də feilin zaman kateqoriyası keçmiş zamanın qeyri-müəyyən formasında sintetik üsulla, yəni əsas feilin sonuna ***–ed*** şəkilçisi ilə ifadə edilirsə (qaydalı feillərdə belə müşahidə edilir), gələcək zamanın qeyri-müəyyən formasında həmin qrammatik məna, yəni feilin zaman kateqoriyası analitik yolla: köməkçi feil *shall, wiil* vasitəsilə ifadə olunur.

Nümunələrə nəzər salaq:

/I **started** to do my work two days ago// "Mən iki gün əvvəl işimi etməyə başladım".

/I **shall help** my friend in two days// "Mən iki gün sonra dostuma kömək edəcəyəm".

Müasir Azərbaycan dilində feillər qurluşuna görə sadə, düzəltmə, mürəkkəb olur. Müasir ingilis dilində olduğu kimi, müasir Azərbaycan dilində də sadə feillərdə ikinci bir morfem (sözdüzəldici şəkilçi və ya söz kökü) ayırmaq mümkün deyil. Belə feillər yalnız sözün kökündən ibarət olur. Nümunəyə baxaq:

Çalış, qalsın, ayırma, qanma kimi sözləri sadə feillərə nümunə verə bilərik.

Düzəltmə feillər sözdüzədici şəkilçilərin müxtəlif nitq hissələrinə artırılması ilə düzəlir. Düzəltmə feillər əsasən adlardan –isim, sifət, say və təqlidi sözlərdən, bəzi hallarda da əvəzlik və zərflərdən əmələ gəlir.

Məlumat üçün qeyd edək ki, müasir Azərbaycan dilində mürəkkəb feil barədə mübahisəli məsələ mövcuddur. Bəzi tədqiqatçılar düşünür ki, Azərbaycan dilində ümumiyyətlə mürəkkəb feil yoxdur [3, s.80]. Lakin bu təbii ki, doğru deyildir. Məsələn, *çalışıb-vuruşmaq, qışqırıb-bağırmaq* və s. kimi feilləri mürəkkəb feillərə nümunə kimi vermək olar.

İndi isə feilin növ kateqoriyası haqqında məlumat verək. Növ kateqoriyası iş, hal, hərəkətin obyekti ilə və həmin işi, hərəkəti icra edən subyekt ilə bağlı olur. Ə.Dəmirçizadə yazır ki, subyekt bəzən fəal, bəzi hallarda isə qeyri-fəal olur. Bəzi hallarda işi müəyyən bir obyekt üzərində, bəzənsə öz üzərində icra edir; bəzən iş bir neçə subyekt tərəfindən də icra olunur. Ə.Dəmirçizadə yazır: "Subyektlər işi ya qarşılıqlı şəkildə icra edirlər, yaxud da iş bilavasitə subyektin özü tərəfindən deyil, onun xahişi, məsləhəti, tapşırığı ilə başqası tərəfindən yerinə yetirilir" [6, s.183]. Müəllifin yazdığına görə bütün bunlar xüsusi şəkilçilər vasitəsilə feillərdə öz ifadəsini tapır, bir sistem təşkil edir və birlikdə feilin növ kateqoriyasının yaranmasına səbəb olur.

Məlumdur ki, növün fərqli olması feillərdə xüsusi şəkilçilər vasitəsilə öz əksini tapır. Buna baxmayaraq, bəzi növlərin şəkilçiləri məsələn, məchul növlə qayıdış növün formaca fərqlənmədiyi kimi, bəzən də bir neçə şəkilçi eyni bir növ mənasının yaranmasına səbəb olur. Bu hal göstərir ki, feil növlərindən danışarkən yalnız şəkilçiyə əsaslanmaq olmaz. Feilin hansı növdə olduğunu dəqiq müəyyən etmək üçün mənası da önəm daşıyır.

Müasir Azərbaycan dilində növ mənası yaradan və növləri bir-birindən fərqləndirən şəkilçilərə aşağıdakıları qeyd etmək olar:

-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün; -ış, -iş, -uş, -üş, -as, -əs; -dır, -dir, -dur, -dür, -t.

Müəyyən edilir ki, bu şəkilçilər əsasən təsirli feillərə artırılır. *-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün; -ış, -iş, -uş, -üş, -as, -əs* təsirli feilləri təsirsiz feillərə çevirir; *-dir, -dur, -dür, -t* şəkilçiləri isə təsirli feillərə artırılır və bu feillər təsirli olaraq müəyyən edilir.

-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün şəkilçiləri qayıdış və məchul növ mənaları, *ış, -iş, -uş, -üş* qarşılıq növ, *-dir, -dur, -dür, -t* icbar növ mənası yaradır.

Ə.Dəmirçizadənin yazdığına əsasən növlərin tarixi çox qədimdir [6, s.109]. Qayıdış və icbar növ mənalarına, müəllif bəşərin dil açdığı ilkin mərhələnin məhsulu kimi yanaşır. Lakin qədim zamanlarda bu mənalar qayıdış və icbar növ mənası kimi deyil, daha çox ümumi hərəkət, yaxınlaşdırmaq və ya uzaqlaşdırmaq mənaları ifadə etmişdir.

Feilin məna növlərini subyektin mənasına görə iki qrupa bölmək olar:

1) Subyekti məlum və fəal olan feillər;
2) Subyekti qeyri-fəal olan feillər.

Hər iki bölgüyə aid olan feilləri aşağıdakı məna növləri üzrə qruplaşdırmaq olar:

1) Məlum növ feillər;
2) Məchul növ feillər;
3) Qayıdış növ feillər;
4) Qarşılıq növ feillər;
5) İcbar növ feillər;
6) Şəxssiz növ feillər [6, s.137].

Feilin növbəti kateqoriyası tərz kateqoriyası hesab edilir. Feilin tərzləri geniş mənada feillə ifadə olunan işin icra vəziyyətinin xarakterini, işin icra keyfiyyətini bildirir [2, s.180]. Tərz kateqoriyası hərəkətin kəmiyyət şəklinin dəyişməsini göstərən bir kateqoriyadır [6, s.297]. Hərəkətin icra olunub olunmaması, bitib bitməməsi, başlanıb başlanmaması tərz kateqoriyasının əsasını təşkil edir. Tərz mənası cümlənin sonunda, yəni şəxsli feildə ortaqlı şəkilçi və köməkçi sözlərlə ifadə olunur.

Subyektin işə, tərəkətə münasibəti müxtəlif olur. Bəzən subyekt sadəcə işin icrası haqqında məlumat verir. Subyektin işə, hərəkətə bu cür münasibəti cümlədə modallığın, yəni danışanın söylədiyi fikrə, obyektiv gerçəkliyə münasibətinin ifadəsinə səbəb olur. Subyektin gerçəkliyə münasibətini bildirmək üçün feillərin düşdüyü şəkillərə *feilin şəkilləri* deyilir. Feilin şəkilləri üzrə dəyişməsi onların zaman, şəkil və şəxs şəkilçiləri qəbul edərək dəyişməsi anlamını verir. Müasir Azərbaycan dilində feilin şəkillərinin morfoloji əlamətlərinin bir qismi feillərin kökünə və ya əsasına artırılır. Məsələn, zaman şəkilçiləri, *- malı, -məli, -ası, -əsi, -a, -a, -ə, -sa, -sə* şəkilçiləri əmr şəklinə məxsus şəxs şəkilçiləri feillərin kökünə artırılır.

Ədəbiyyat

1. Musayev O. İngilis dilinin qrammatikası (praktik və nəzəri). Bakı: Qismət, 2007, 590 s.
2. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, 2000, Bakı: Mütərcim, 280 s.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-qərb, 2007, 280 s.
4. Carter R., McCarthy M. 2005, Cambridge Grammar of English. Spoken and Written Grammar of English. Cambridge University Press, p. 236.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Təhsil, 2007, 496 s.
6. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili.I hissə, Bakı: Azərpress, 1982, 510 s.
7. Kauşanskaya V.L., R.L.Kovner. English Grammar. St.Petersburg, 1973, s.320.

Н.И.Мамедова

Место глагола в системе частей речи

Резюме

В статье рассматривается место глагола в системе частей речи. Во-первых, он дает некоторую информацию о частях речи на английском языке. Затем говорится, что глагол обозначает действие или состояние. Понятие глагола также было проанализировано в статье. Считается, что система категорий глагола очень богата на английском языке.

N.I.Mammadova

The place of the verb in the system of the parts of speech

Summary

The article deals with the place of the verb in the system of the parts of speech. It firstly gives some information about the parts of speech in English. Then it states that the verb denotes an action or a state. The notion of the verb has also been analyzed in the article. The system of the categories of the verb is stated to be very rich in many of the languages. The verb has two forms, and it serves communication in them.

Rəyçi: filol.e.d., prof. Ə.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 16.06.2020

S.B.MUSTAFAYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: sahilamustafa@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AKADEMİK YAZIDA DURĞU İŞARƏLƏRİNİN DÜZGÜN İSTİFADƏSİ

Açar sözlər: *mətn, cümlə, dil, istifadə, durğu işarələri, yer*
Ключевые слова: *текст, предложение, язык, использование, знаки препинания, место*
Key words: *text, sentence, language, usage, punctuation marks, place*

Dildə ünsiyyətin əsas vahidlərindən biri mətn hesab edilir. Gündəlik mətnləri söyləmlər, elliptik cümlələr, cümlə fraqmentləri, hazır klişelərin qarışığı kimi qəbul etmək olar. Mətnin daxili əlaqələrinin formalaşmasına xidmət edən amillər içərisində leksik, qrammatik, fonetik vasitələr və intonasiya mühüm rol oynayır [1, s.234-241].

Müasir ingilis dilinin yazı sistemində durğu işarələrinin işlədilməsi hazırda aktual məsələlərdən biridir. Akademik yazı prinsiplərinin geniş vüsət aldığı bir vaxtda durğu işarələrinə müraciət etməyimiz məqsədsiz deyildir.

Bununla əlaqədər olaraq, müasir ingilis dilində durğu işarələrinin yaranma tarixi, onların istifadəsindəki bəzi nüanslara toxunacağıq.

İngilis dilində durğu işarələrinin yaranma tarixi eramızdan əvvəl beşinci, doqquzuncu əsrlərə təsadüf edir. İngilis dilində ilk durğu işarələrinə doqquzuncu əsrə aid olan Meşa Stel (The Mesha Stele) yazılarında rast gəlinib. Həmin yazılarda kvadrat mötərizə, dırnaq işarələri və nöqtə istifadə olunmuşdur. Həmin işarələr sözlər arasındakı əlaqəni, mətndə istifadə olunan pauzanı və sair halları göstərmək üçün işlədilmişdir [2, s.90].

Ədəbi baxımdan durğu işarələrinin istifadəsi tələbatı isə Xristian Bibliyasının nəşri zamanı yaranmışdır. Bibliyanı insanların daha yaxşı anlamaları üçün onu yüksəkdən oxumaq nəzərdə tutulmuşdur. Bunun üçün də yazıda bəzi işarələrin qoyulması zəruriyyəti meydana çıxmışdır. Odur ki, həmin kitabı hazırlayanlar onun tərkibində abzasdan, bir sıra durğu işarələrindən istifadə etmək qərarına gəlmişlər. Eyni zamanda, həmin yazıda hərflərin böyük hərflə yazılmasına da fikir verilmişdir [2, s. 92].

Zaman keçdikcə yazıda durğu işarələrinin istifadəsi təkmilləşmiş və öz yerini möhkəmləndirmişdir. Müasir ingilis dilində on iki durğu işarəsi mövcuddur. Onlar aşağıdakılardır:

Nöqtə (a full stop), vergül (a comma), nöqtəli vergül(a semicolon), iki nöqtə(colons), nida işarəsi(an exclamation point), sual işarəsi(a question mark), dırnaqlar(quotation marks), mötərizə (onun növləri) (brackets and their types), tire (onun növləri) (a dash and its types), üç nöqtə (dots), apostrof (apostrofe). Bundan əlavə, yazıda qoşa işlənən durğu işarələrinə də rast gəlmək olar [3, s.31].

Durğu işarələrinin öyrənilməsi və istifadəsi kənardan nə qədər asan görünsə də, əslində onlarin istifadəsinin öyrənilməsi və öyrədilməsi çox çətinlik törədir. Xüsusi ilə ingilis dilini öyrənən tələbələr onların istifadəsində bəzi çətinliklə üzləşirlər. Xarici dil öyrənən tələbələr üçün yazıda onların yerinin müəyyənləşdirilməsi və yerləşdirilməsi həmişə problem törədib.

Durğu işarələri şifahi nitqi yazılı nitqə gətirməyin ən asan və düzgün yoludur. Durğu işarələrindən nöqtə, vergül, nöqtəli vergül və s. danışıqda olan tempi, vurğunu, stresi, tembri və sair xüsusiyyətləri yazıya gətirir. Danışıqda olan praqmatik mənanı isə sual, nida işarəsindən istifadə etməklə göstərə bilərik. Təsviri (qrafik) vasitə kimi dilin supraseqmental xüsusiyyətlərini aşkara çıxarmaq üçün (suprasegmental features) durğu işarələri asasən qrammatikanın tədqiqat sahəsi hesab olunur. Yaxşı yazı üslubunun (a good style of writing) əsas xüsu-

siyyətlərindən biri də yerində düzgün istifadə olunmuş durğu işarəsidir. Düzgün istifadə olunmuş durğu işarəsi müəllifin savadlılığının göstəricisidir. Durğu işarələrinin tədqiqi qrammatikanın tədqiqat obyekti olduğu kimi, üslubiyyətin də tədqiqat obyektidir.Yazıda durğu işarələrinin istifadə miqdarı yazının üslubu ilə əlaqədardır. Məsələn, bədii ədəbiyyatda vergülün yerinə tirenin istifadə olunması və bəzən daha tez-tez işlədilməsi danışanın emosional, şəxsi hisslərinin təzahürüdür.

Durğu işarələri sözləri mənalı qruplara bölür və oxucuda çaşqınlıq yaratmağın qarşısını alır. Əlbəttə ki, nitqdə durğu işarəsi yoxdur. Biz qrammatik bölgünü, intonasiyanı, sevinərkən, qəzəblənərkən üzümüzdə yaranan ifadəni yazıda əks etdirmək üçün durğu işarələrindən istifadə edirik. Bu iş üçün onlar ən yaxşı qrafik vasitələrdir.

İstifadə etdiyimiz nöqtə, vergül, nöqtəli vergül və s. bəzilərinə adi işarə kimi görünsə də yazıda onların istifadəsi böyük əhəmiyyət və məna kəsb edir.

Yazıda durğu işarələrindən istifadənin əhəmiyyətinə müxtəlif misallar göstərmək olar. Bir misala nəzər salaq: “Don’t stop.” Bu cümlə dilimizə “Dayanma.” kimi tərcümə olunur. Nöqtə ilə bitən bu cümlə *davam etmək* mənası daşıyır. Yəni *gördüyün işi dayandırma*. Əgər bu cümlədə nöqtəni *Stop*-dan əvvələ keçirsək, cümlənin mənası tamamilə dəyişəcəkdir. Nümunəyə baxaq: “Don’t. Stop!” Bu cümlədə isə tələb olunur ki, işini dayandır və heç bir iş görmə. Göründüyü kimi, hər iki cümlə danışıqda intonasiya ilə fərqləndikləri kimi, yazıda da durğu işarələrinin yerini dəyişməklə fərqlənir [2, s.56].

Yadda saxlamaq lazımdır ki, düzgün istifadə olunmuş durğu işarəsi yazının mənasına aydınlıq gətirir. Səhv istifadə olunmuş durğu işarəsi isə mətndə qarışıqlıq yarada və oxucunu çaşdıra bilər.

İngilis dilində durğu işarələrinin yeri məsələsi mübahisəli məsələlərdəndir. Durğu işarələrinin nitqə verdiyi rəngarənglik ona “ona öz yerini düzgün bilmək” hüququnu tələb etməyə ixtiyar verir. Bəzi müəlliflər ingilis dilində durğu işarələrinin yerinin sərbəst olduğunu düşünürlər [3;2]. Hətta, biz araşdırmalar zamanı belə bir ifadəyə də rast gəldik: “Punctuate wherever you like.” Əlbəttə biz bu fikirlə tamamilə razılaşa bilmərik. Doğrudur, bədii üslubda müəllifin yazıya öz yanaşma üsubu olur və bu üslib müəllifə imkan verir ki, durğu işarəsini normadan bir qədər artıq istifadə etsin. Bu cür durğu işarələrini ‘müəllif durğu işarəsi’ [4, s.3] adlandırırlar. Bu cür istifadə olunan durğu işarələrinin məna çalarları vardır. Həmin məna çalarları mətnin bədii üslubunu daha da artırır. Bu cür istifadə olunan durğu işarələri çox vaxt qrammatik qaydalarla üst-üstə düşməyə bilər. Məsələn, bilirik ki, sual işarəsi sual cümlələrinin sonunda qoyulur.Nümunə:

Do you like coffee**?**

Göründüyü kimi, təqdim olunan nümunə sual cümləsidir və sonunda sual işarəsi qoyulub. Digər nümunəyə nəzər salaq:

John likes whisky**?**

Bu cümlə qrammatik baxımdan sual cümləsi deyil. Onun sonunda sual işarəsi istifadə etməklə biz öz təəccübümüzü büruzə veririk. Bu forma əsasən bədii yazı üslubuna aiddir.

Bildiyimiz kimi, bitmiş fikir ifadə edən cümlənin sonunuda nöqtə qoyulur. Lakin bu həmişə belə olmur. Məsələn, qeyri formal yazıda biz cümləni nöqtə qoymadan da bitirə bilərik. Müqayisə edək:

*Sounds good, I’m leaving right now***.**

Bu cümlədə məna aydındır, fikir tamamlanıb və cümlənin sonunuda nöqtə qoyulub. Lakin:

Sounds good, I am leaving right now

Bu cümlənin sonunda nöqtə qoyulmayıb. Bu onu göstəririk ki, fikirimiz hələ tamamlanmayıb. Qarşı şəxsdən cavab gözləyirik və yaxud məsələnin həllini onun öhdəsinə buraxırıq. Bu siyahını genişləndirə bilərik. Lakin bu bizə əsas vermir ki, yazımızda istənilən yerdə və istədiyimiz durğu işarəsini istifadə edək. Əks halda biz qrammatik qaydalara qarşı çıxmış

olarıq. Qrammatikaya əsaslanaraq istifadə olunan durğu işarəsinin yeri sabitdir və yazılarında bu cür qaydalara əsaslanaraq durğu işarələrini işlədən müəlliflər həmişə haqlı olurlar. Qrammatik qaydaları bilmədən qurğu işarələrini düzgün istifadə etmək olmaz. Bu fikirə əsaslanan müəllifərdən biri çox düzgün olaraq yazmışdır: "You can not punctuate in English without thinking about grammar" [3, s.78].

İndi isə durğu işarələrinin istifadəsindəki bəzi istifadə hallarını nəzərdən keçirək.

Durğu işarələrindən üçü cümlənin sonunda istifadə olunur. Onlar nöqtə,sual işarəsi və nidadır.

Nöqtə əsasən nəqli cümlələrin sonunda, bitmiş hesab edilən digər sözlərin sonunda, bəzi qısaltmalardan sonra istifadə olunur.

Nümunəyə baxaq:

Nəqli cümlənin sonunda:

Jane and Jack went to the market.

Qısaltmalardan sonra:

*Her **Mar.** birthday came and went.*

Nida işarəsinin cümlənin sonunda işlənməsinə aid misallara baxaq:

Dialoq daxilində:

***"Holy cow!"** screamed Jane.*

Emfatik mənada:

*My mother-in-law's rants make me furious**!***

Nidadan sonra:

Alas! Auch!

Sual işarəsinin cümlənin sonunda işlənmə hallarına baxaq:

Sual cümləsinin sonunda:

When did** she leave for London**?

Təəccüb ifadə edən nəqli cümlənin sonunda:

She** fell asleep**?

Yazıda **vergülün** işlədilməsinin bəzi istifadə halları:

1. İki tabesiz mürəkkəb cümləni bir-birindən ayırmaq üçün vergüldən istifadə olunur. Bu zaman tabesizlik əlaqəsi ifadə edən bağlayıcılardan (*and, so, but, or* və s.) əvvəl vergül yazılır.

*My brother went to the beach yesterday**, but** he forgot his sunscreen.*

Bəzən cümlələr bir-birinə bağlayıcısız, yalnız vergüldən istifadə etməklə də bağlana bilər.

*Water bills usually rise during the summer**,** as people are thirstier during hot and humid days.*

2. Təsviredici təyin budaq cümlələri ilə baş cümlə arasında əlaqə zəif olduğu üçün vergüldən istifadə olunur:

*His father**, who had served in the Navy during World War II,** had been a doctor with good political connections in both the capital and in the Yard* [9, s.6].

*My wife**, like many wives,** is jealous of my time* [8, s.22].

Aşağıdakı cümlələrdə vergülün istifadəsini analiz edək:

*The contract**, which I signed yesterday,** should make us rich.*

Which I signed yesterday -əlavəsini atsaq cümlənin mənası dəyişməyəcək.

Bu cümləni vergülsüz də yaza bilərik. Məsələn,

*The contract **which I signed yesterday** should make us rich.*

Bu cümlələrin hansı düzdür? Vergüllə yazılan ya vergülsüz yazılan?

İngilis dilinin qrammatikasından öyrəndiyimizə əsasən birinci cümlə təsviredici təyin budaq cümləsi (Descriptive Attribute Clause) olduğundan hər iki tərəfdən vergüllə ayrılır. Bəs, ikinci cümlə barədə nə deyə bilərik? Bu cümlələrin hər ikisi düzdür. Cümlələrin bu cür yazılması onların istifadə olunduğu kontekstlə əlaqədardır. Birinci cümlədə müəyyən müddət-

dir ki, hər iki şəxsə məlum olan müqavilədən danışılır və qulaq asan şəxs müqavilənin imzaladığını bilmir. Bunu danışan şəxs ona xatırladır. Həmin cümlənin mənası belədir:

The contract – which, by the way, I signed yesterday – should make us rich.

İkinci cümlədə isə kontekstə uyğun olaraq müəyyən etmək olar ki, sözü gedən müqavilədən ilk dəfədir ki, danışılır, onun adı mətndə ilk dəfədir ki, çəkilir. Belə olan halda ikinci cümlədə düzgün hesab edilə bilər. Beləliklə, məlum olur ki, birinci cümlədə istifadə olunan *which I signed yesterday kontrakta* əlavədir, ikinci cümlədə istifadə olunan *which I signed yesterday* isə cümlədə istifadə olunan mühüm eyniləşdirmədir (essential identification). Belə fərqlərə əsasən *which* və *who* bağlayıcıları ilə istifadə olunan təyin budaq cümlələrində rast gəlinir. Bu cür fərqləri ayrıd etmək üçün aşağıdakılara diqqət yetirmək lazımdır:

1. Əvvəlcədən deyilmiş fikir haqqında əlavə məlumat verilirsə, o halda o əlavə hesab olunur və vergül ilə yazılmalıdır.

2. Əgər verilmiş cümlədə istifadə olunan ***which*** və ***who*** nisbi əvəzliklərini *that* və *nothing əvəzlikləri* ilə əvəz edə bilərsə, o halda onlar tamamilə əsas hesab edilirlər və cümlədən vergüllə ayrılmırlar.

3. Əgər *which* və *who* ilə başlayan cümlələri tire ilə ayıra bilərsə, o halda onlar əlavə hesab olunur və cümlədən vergüllə ayrılmalıdırlar.

2. Cümlədə işlənən həmcins üzvlər arasında (*denoting a series)* vergüldən istifadə olunur. Aşağıdakı nümunələrə baxaq:

*He was short and compact**, with straight dark hair, heavy dark brows, a determined chin,** and a strength that belied his size* [8, s.154].

*The fruit basket contained **apples, bananas,** and **oranges.***

*The computer store was filled with **video games, computer hardware** and **other electronic paraphernalia.***

3. Xitablardan sonra da vergül istifadə olunur:

***"John,"** she cried out**, and then the bullet shattered her jaw* [8, s.119].

4. Zərflik budaq cümlələri baş cümlədən əvvəl gəldikdə, baş cümlə ilə zərflik budaq cümləsi arasında vergül yazılır. Məsələn,

***As soon as they arrest him,** they'll do another search.*

***If people love each other,** why can't they trust themselves enough to get married?*

Though, although və **since *(because***- mənasında) bağlayıcıları istifadə olunan budaq cümlə baş cümlədən əvvəl yaxud sonra istifadə olunmasından asılı olmayaraq, onlar baş cümlədən vergüllə ayrılır. Məsələn,

*I'll see her**, although** I don't want to.*

*I'm sure she'll agree**, since** you have asked so nicely.*

I gave the guard my best innocent smile, since he maintained a professional difference [8, s.4].

Əgər fasilə bir qədər uzundursa, o halda *vergülün* yerinə *tire* də istfadə oluna bilər. Məsələn,

*I'll see her – **although** I don't want to.*

Bundan başqa, ingilis dilində tez-tez rast gəldiyimiz ***however, on the other hand*** kimi sözlər də əlavə hesab edilir və cümlədə vergüllə ayrılırlar. Hər iki birləşmə cari cümləni əvvəlki cümlə ilə birləşdirir. ***However*** cümlənin əvvəlində işləndikdə ondan sonra vergül qoyulur, cümlənin ortasında işləndikdə onun hər iki tərəfində vergül qoyulur, cümlənin axırında işləndikdə isə ondan əvvəl vergül qoyulur.

Məsələn,

The horse**, however,** got away.
However, the horse got away.
The horse got away**, however.**

Beləliklə, araşdırmalar nəticəsində məlum olur ki, yazılı mətnin daxili əlaqələrinin yaranmasında, onun qrafik strukturunun formalaşmasında durğu işarələrinin istifadəsi böyük məna kəsb edir. Yazılı mətndə istifadə olunan hər bir durğu işarəsi semantik, ritorik gücə malikdir. Apardığımız tədqiqatdan bu nəticəyə gəlirik ki, müasir ingilis dilində durğu işarələrinin dörd funksiyası vardır. Bu funksiyaların hər birinin mətn diskursunun yaranmasında öz rolu, yeri vardır. Onlar aşağıdakılardır:

1. Mətn daxilində elementləri ayırmaq;
2. Mətn daxilində elementləri birləşdirmək;
3. Mətn daxilinə yeni elementləri daxil etmək;
4. Mətn daxilində bəzi elementləri buraxmaq.

Ədəbiyyat

1. Veysəlli Y.F. Struktur Dilçiliyin Əsasları. Bakı: Mütərcim, 2009.
2. Nelson G., Buckey J. The Internet Grammar of English. London: Survey of English Usage. hhp: //www.ucl.ac.uk//internet grammar/1998.
3. Glencoe/McGraw Hill. Grammar Workbook. New York: Columbus, Ohio Woodland Hills, California Peoria, Illinois, 1996.
4. Budaqova Z.İ. Azərbaycan dilində durğu işarələri. Bakı: Elm nəşriyyatı, 1977.
5. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007.
6. Məmmədov A. Y. Mətnin yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001.
7. Gayibova T.M., Jafarova M.L. Stylistic of the English Language. Baku: Azerbaijan State Publishing House, 2007.
8. Deutermann P. T. Darkside. Oxford: Oxford University Press, 2003.
9. Howard L. Kill and Tell. USA: Pocket Star Books, 2006.

С.Б.Мустафаева

Правильное использование пунктуационных знаков в академической письменности

Резюме

В статье рассматривается правильное использование знаков препинания в академической письменности на английском языке. Конкретное использование знаков препинания представлено автором на примерах, взятых из оригинальной английской и американской художественной литературы. Различные функции знаков препинания были также затронуты в статье. В статье выделены правильные места знаков препинания в академической письменности. Основные четыре функции знаков препинания также были подчеркнуты.

S.B.Mustafayeva

The correct usage of the punctuation marks in the academic writing

Summary

The article deals with the correct usage of the punctuation marks in the academic writing in English.The concrete usage of the punctuation marks are presented by the author with the examples having taken from the original English and American fiction. The different functions of the punctuation marks have been touched upon in the article as well. The article highlights the correct places of the punctuation marks in the academic writing. The main four functions of the punctuation marks have been distinguished by in the article too.

Rəyçi: filol.e.d., prof. L.M.Cəfərova

Redaksiyaya daxil olub: 16.06.2020

M.C.ORUCOVA
e-mail: mehribanorucova8@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

MÜASİR POEZİYA DİLİNDƏ KÖHNƏLMİŞ SÖZLƏR
(Söhrab Tahirin şeirləri əsasında)

Açar sözlər: *neytral sözlər, leksik-semantik, məcazi məna, arxaik sözlər, köhnəlmiş sözlər.*
Ключевые слова: *нейтральные слова, лексико-семантический, метафорическое значение, архаичные слова, устаревшие слова.*
Key words: *neutral words, lexical-semantic, metaphorical meaning, archaic words, obsolete words.*

Fonetik vahidlərin üslubi keyfiyyəti forma (səslənmə) tərəfi ilə bağlıdırsa, leksik vahidlərdə belə xüsusiyyət məna faktorunu əhatə edir. Şeir və nəsir dilindəki cümlələrdə (misralarda) üslubi münasibətlər sintaqmatik sıranın üzvləri arasında meydana çıxır. Üslubiliyin ayrıca götürülmüş leksik (və ya fonetik) vahiddə deyil, mətnin parametrləri daxilində təzahürü səbəbsiz deyil. Mətni təşkil edən bütün sözlər üslubi yükə (və ya çalara) malik olmadığından müvafiq sözün üslubi funksionallığı həmin kontekstdə güclü şəkildə nəzərə çarpır və mətnin bədii müqəddəratına təsirsiz qalmır. Ona görə də Y.M.Skrebnev yazır ki, üslubi yükə malik söz neytral əhatədə daha güclü ifadə planına, üslubi dominantlığa malik olur [3, s. 137]. Məsələn, bir bəndlik şeirdə neytral sözlərin əhatəsində bir antonim, yaxud çoxmənalı sözün işlənməsi onu bədii cəhətdən güclü və təsirli edə bilər. *Qara tüstü ağ buludu yallayir* (qara-ağ); *Hamı məndə görür, məndə axtarır, / Böyük azadlığın kiçik məhvini* (böyük-kiçik); *Qoşa qollarımın üstündə yatır, / Xoşbəxt taleyimlə bədbəxt taleyim* [8, s. 83, 84, 95], (xoşbəxt-bədbəxt). Bəzən olur ki, sintaqmatik sırada sözlərin adi leksik-qrammatik əlaqələnməsi (və ya yanaşı işlənmə) üslubi münasibətləri meydana çıxarır. İ. Məmmədov yazır ki, poetik dildə sözlərin məcazlaşma (yeni məna daşıma) imkanının reallaşmasının bir yolu kimi semantik cəhətdən çox uzaq sözlərin adi danışıqda rast gəlinməyən sintaqmatik əlaqələnməsidir. Belə qeyri-adi, poetik üsluba xas olan əlaqələnmələr, bir tərəfdən, bədii düşüncənin məhsuludursa, başqa tərəfdən, dil sistemində bu və ya digər sözün malik olduğu potensial semin xidmətidir: *Dərdə ki, əyilmirəm, / Dağ çəkirəm dərdə mən; Bir ulu görüşə bel bağlamışdım, / Bir də ayıldım ki, vaxt vaxtdan keçib* [6, s. 360]. Söhrab Tahirin şeir dilində də belə nümunələrə rast gəlmək olur: *Üzü qara olsun əliboş yoxun* (əliboş yox); */ Məndə dara çəkib fəryad özünü; / İnsafsız insafın lüt qoyub məni; / Sizi taleyimə hörə bilmirəm* [8, s. 200, 199, 185]. Belə məqamlar dilin üslubi-semantik imkanlarının üzə çıxarılmasında, linqvistik potensialın səfərbər edilməsində dildəki polisemantizm və obrazlılıq keyfiyyətlərinin tədqiq olunmasında böyük əhəmiyyət kəsb edir [14, s. 4].

Tədqiqatlarda dilin üslubca leksikası neytral leksika və üslubi leksika kimi təsnif edilir. Y.M.Skrebnev ikinci bir bölgü də təqdim edir. O yazır ki, üslubi leksikanı neytral leksika ilə qarşılaşdırdıqda iki tip fərqlənməyə təsadüf edirik. Üslubi leksika neytral leksikadan estetik cəhətdən az əhəmiyyətli və çox əhəmiyyətli ola bilir. Onlar neytral olanla müqayisədə müsbət konnotasiyalı və mənfi konnotasiyalı sözlərdir [3, s. 99, 100]. Y.M.Skrebnevin irəli sürdüyü üçölçülü sistemdə üslubi leksika neytral sözlərdən yuxarıda və aşağıda yerləşir. Məsələn, poetizmlər müsbət konnotasiyalı (yaxud neytral leksikadan yuxarı səviyyəyə aid və ya super neytral), danışıq sözləri, vulqarizmlər isə mənfi konnotasiyalı (yaxud neytral leksikadan aşağı səviyyəyə aid və ya subneytral) sözlər hesab olunur [3, s. 104] . D.E.Rozental neytral sözlərin istənilən üslubda istifadə edilə biləcəyini mümkün sayır və sözlərin çoxunun üslubi neytrallıqla xarakterizə olunduğunu qeyd edir [7, s. 63]. Rus dilində leksikanın üslubi resursları çoxmə-

nalı sözlər və sinonimləri emosional və ekspressiv leksikanı, həmçinin üslubi məqsədlə işlənən digər sözləri (dialektizmlər, arqotizm, varvarizm, arxaizm, neologizm və s.) əhatə edir [13, s. 203]. N.S.Svetova yazır ki, üslubi məna qeyri-maddi informasiya olub, sözdəki ekspressir-emosional konnotasiyaları, ünsiyyət təsirinin nəticəsini, nitqin məzmun, forma, janrını, müəllifin nitqin predmetinə və adresanta münasibətini, sözlərin tarixən formalaşmış üslubi xarakteristikasını (köhnəlmiş sözlər, vulqar leksika, tabu sözlər və s.) əhatə edir. Üslubi mənası olmayan sözlər neytral leksikaya aid olur [11, s. 11]. İ.V.Arnold leksik üslubiyyatın sözlərin kontekstual mənaları ilə bağlı olduğunu qeyd edir və sözlərin ekspressiv, emosional, qiymətləndirici potensialını və müxtəlif funksional-üslubi laylara aidliyi məsələsini öyrəndiyini yazır [1, s. 11]. İ.A.Sternin sözün məna strukturunda digər komponentlərlə yanaşı, funksional-üslubi semləri fərqləndirir və makrokomponentin semantik əlamətinə danışıq, kitab, rəsmi-əməli, ritorik, elmi, poetik, ədəbi sahələrə aid semləri daxil edir [4, s. 58].

Y. Skrebnevin bölgüsünə [3, s. 106] görə, paradiqmatik leksikologiyaya aid edilən üslubi dil faktları içərisində arxaik sözlər müəyyən yer tutur. Məlumdur ki, arxaik sözlər bədii üslub üçün əlverişli leksik materiallardandır. Onların üslubi mənaları kontekst fonunda reallaşır [12, s. 299]. Tədqiqatçılara görə, belə sözlərin üslubi mənasında emosional-ekspressiv komponent daha aydın ifadə olunur [5, s. 108]. Bədii dildə köhnəlmiş sözlərdən, adətən, köhnə həyat və məişəti təsvir etmək məqsədilə istifadə olunur. Bu zaman sözlərin arxaik mənası heç bir dəyişikliyə uğramadan olduğu kimi qalır. Bu daha çox epik əsərlərdə müşahidə olunsa da, lirik əsərlər üçün fərqli işlənmə tərzi də səciyyəvidir.

S.Tahirin şeirlərində tarixizimlər və arxaizmlər üslubi semantik yükünə görə bəzən birbirindən fərqlənir. Arxaizmlər bir qayda olaraq həqiqi mənada işlənir. Nominativ mənadan uzaqlaşma, məcaziləşmə halları müşahidə olunmur. Həm nominativ, həm də kommunikativ vahid kimi (sonuncu mətn hüdudları ilə bağlıdır) eyni funksionallığı nümayiş etdirir. Dilçilik ədəbiyyatında qeyd olunur ki, sözlər bütünlükdə, yaxud onların ayrı-ayrı semləri və ya ancaq fonetik tərkib köhnələ, arxaikləşə bilir. Bununla əlaqədar leksikologiyada leksik, leksik-semantik, leksik-sözyaradıcı, leksik-morfoloji arxaizmlər fərqləndirilir [5, s. 108]. S.Tahir şeirlərindəki arxaizmlər iki növdə təmsil olunur: leksik və semantik arxaizmlər. Buradakı leksik arxaizmlərə ədəbi dildə, ümumiyyətlə, təsadüf edilmir. Məsələn, *qayım* "möhkəm" mənasını bildirir. *Dolanıb əlimə, belimə qayım, / Kəhər ləpələrin köpüklü yalı* [8, s. 70]. Klassik ədəbiyyatda işlənən Şərq dillərinə məxsus alınma leksik arxaizmlər işlənir. *On yaşlı uşağa hirsləndim bica, / Onun əlli illik dərdi partladı* [8, s. 69], (bica). Semantik arxaizmlər müşahidə olunur: *Ər* "igid, qəhrəman" mənasında – *Hər dəfə əlli min ər verdi xalqım, / Azadlıq sözünün qanbahasına; Qızıl* "qırmızı" mənasında – *Yuyunur ümidim qızıl səhərin, / Ala gözlərinin yağışlarında* [8, s. 36]. Vəzifə, məişət əşyaları, geyim, ölçü vahidlərinin adları tarixizmlərin əsas hissəsini təşkil edir. *Katda – Borcunu istədi bu günü katda; çar – Çar əsgər apardı səni ki, bəlkə, / Alsın qarşısını əsgərliyinin; patava – Qıçımda qar qışın buz patavası; qulac – Beş qulac sabunlu kəndir görmüşəm; arşın – Arşın ilə ölçülməyib yaxşılıq; qurşaq, çalma – Onu bağlayıram qurşaq yerinə, / Başıma qoyuram bir çalma kimi; yaşmaq – Yaşıl yaşmaq tutub salxım üzünə, / Bir sapdan asıbdır yüz-yüz muncuğu* [8, s. 62, 68, 100, 135, 213; 9, s. 44, 37]. İ.Məmmədov semasiologiyada lüğət tərkibini müxtəlif leksik-semantik qrupa ayırmaq üçün sözün məzmununda, semantik strukturunda əsas ölçü kimi götürülən arxisem, diferensial və potensial semləri belə səciyyələndirir: "Arxisem – bütün obyektlər sinifinə xas olan əlamətlərdir... Diferensial sem sözün mənasının nüvəsini təşkil edir. Leksik-semantik qruplar daxilində onun həcmini müəyyənləşdirir və müvafiq sözü başqalarından, həm qrup daxilində, həm də başqa qruplarla sem yığımına görə fərqləndirir... Potensial sem predmetin ikinci dərəcəli, mühüm olmayan əlamətlərini əks etdirir... Dildə məcazi mənaların, polisemantikliyin yaranmasında potensial semlərin xüsusi rolu vardır" [6, s. 230, 231]. Tarixizmlərdə məna dəyişmələri məhz potensial semlərin hesabına baş verir. *Qıçımda qar qışın buz patavası* (buz patava), */ Yaşıl yaşmaq tutub salxım üzünə* (yaşmaq tutmaq).

Adətən epik əsərlərdə köhnəlmiş sözlərə məxsus işlənmə məqamları üslubi çalarlar yaradır. D. Rozental onların bəzilərini qeyd edir: personajların nitqini səciyyələndirir, təntənə çaları əmələ gətirir, ironiya yaradır [7, s. 75, 76] və s. Şeir dilində atalar sözü qəlibində frazeologizm yaratmaq üçün tarixizmdən istifadə olunur: *Arşın ilə ölçülməyir yaxşılıq* (arşın). Nəzərə alaq ki, "bədii yaradıcılıqda dilin əsil estetik təsiri bədii obraz və bədii lövhələr yaradan leksik vahidlərin düzgün, yerli-yerində seçilib işlənməsindən asılıdır. Burada söz adı, neytral sözdən seçilir, məzmunca daha dolğun, daha mənalı və daha təsirli olur, estetik funksiya etibarilə isə olduqca qüvvətlidir" [2, s. 4].

Ədəbiyyat

1. Арнольд И.В. Стилистика. Современный английский язык [Arnold, I.V., Stylistics. Modern English]. Москва: Наука, 2002.
2. Əfəndiyeva T. Azərbaycan dilinin bədii ifadə vasitələri. Bakı, 1973.
3. Скребнев Ю.М. Очерк теории стилистики: Учебное пособие [Skrebnev, Y.M., An Essay on Theory of Stylistics]. Горький: изд ГПИИЯ, 1975.
4. Стернин И.А. Лексическое значение слова в речи [Sternin, I. A., The Lexical Meaning of the Word in Speech]. Воронеж, 1985, 138 p.
5. Стилистика русского языка [Stylistics of the Russian Language]. Red: H.B.Кривошапова, B.A.Раманенко. Тирасполь, 2015, 232 p.
6. Mammadov İ. Azərbaycan dilinin semantikası. Baku: Khazar, 2006.
7. Розенталь Д.Е. Справочник по русскому языку. Практическая стилистика [Rosenthal, D.E., Handbook of the Russian Language. Practical Stylistics]. Москва: Оникс 21 век, 2011, 381 p.
8. Tahir S.A. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005.
9. Tahir S.A. Azərazər "Mənim yolum". Bakı, 1975.
10. Цветова H.C. Лексическая Стилистика [Svetova, N.S., Lexical Stylistics]. Санк-Петербург: изд. С-Петерб, Госуниверситета, 2005, 79 p.
11. Veysəlova M. Bədii əsərin dilində köhnəlmiş sözlər və dialekt leksikası // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, №9, Bakı: Elm və təhsil, 2017, s. 299-305.
12. Кожина М.Н, Дуекаева Л.Р, Салимовский В.А. Стилистика русского языка: учебник, Москва: Наука, 2011, s. 464.
13. Quliyeva Z.B. Cəlil Məmmədquluzadənin bədii əsərlərində şəxs və yer adlarının üslubi xüsusiyyətləri. F.ü.fəlsəfə d.dissertasiya avtoreferatı. Bakı, 2017.

М.Дж.Оруджева

Архаичные слова в современной поэзии
(на материале стихотворений Сохраба Тахира)
Резюме

Согласно классификации Я.Скребнева, архаичные слова имеют определенное место в фактах стилистического языка, которые относятся к парадигматической лексикологии. По мнению исследователей, в стилистическом значении таких слов эмоционально-экспрессивный компонент выражен более четко. Архаичные слова в художественном языке часто используются для описания старой жизни и быта. На этом этапе архаичное значение слов остается прежним, без каких-либо изменений. Хотя это чаще встречается в эпических произведениях, характерно различное использование стилей для лирических произведений.

M.J.Orujova

Archaic words in modern poetry
(Based on Sohrab Tahir`s poems)
Summary

According to classification of Y. Skrebnev archaic words have a definite place inside stylistic language facts that belong to paradigmatic lexicology. According to researchers, in the stylistic

meaning of such words, the emotional-expressive component is more clearly expressed. Archaic words in a artistic language are often used to describe old life and household. At this point, the archaic meaning of the words remains the same, without making any changes. Although this is more common in epic works, it is charachteristic various using styles for lyrical works.

Rəyçi: prof. Y.V.Əliyev

Redaksiyaya daxil olub: 06.03.2020

R.M.ORUCOVA
e-mail: orujova.@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİNƏ DAİR QISA QEYDLƏR

Açar sözlər: *struktur, semantika, mətn, folklor.*
Ключевые слова: *структура, семантика, текст, фольклор.*
Key words: *Structure, semantics, text, folklore.*

Aktuallıq: Köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətlərinin tədqiqinə Azərbaycan dilinin qrammatika kitablarında olduqca az yer ayrılır. Amma köməkçi nitq hissələrinin istər yazılı, istərsə də şifahi nitq aktlarında struktur və semantik baxımdan mühüm rolu vardır. Bir sıra dilçi alimlərimizin tədqiqatlarında köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətlərindən müəyyən qədər bəhs olunmuş, amma xüsusi bir tədqiqatın mövzusu olmamışdır. Xüsusi ilə köməkçi nitq hissələrində semantika problemi hələ də Azərbaycan dilçiliyində lazımi səviyyədə tədqiq edilməmişdir. Araşdırma prosesində köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətləri ilə bağlı müəyyən məsələlər aşkara çıxarılır ki, bu da mövzunun aktual olmasını nəzərə çarpdırır.

Metod: Məqalədə təsvir metodu tətbiq edilmişdir.

Köməkçi nitq hissələrinin hər hansı bir mətn mühitində semantik keyfiyyətləri və struktur xüsusiyyətləri olduqca böyükdür və ,... bəzən dildə elə məna incəlikləri, xüsusi çalarlar ifadə olunur ki, onları əsas nitq hissələri və onlara aid kateqoriyalarla ifadə etmək olmur (1; 5) və köməkçi nitq hissələri olmadan mətn mühitini təsəvvür etmək mümkün deyil və mətnin formalaşmasında bu nitq vahidlərinin əvəzsiz xidmətləri mövcuddur. Təəssüflər olsun ki, Azərbaycan dilçiliyində köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətləri kimi ciddi bir problem uzun illər unudulmuş, araşdırmaqdan kənarda qalmışdır. Dilçiliyimizdə ilk dəfə olaraq Ə.Dəmirçizadə "Azərbaycan dilinin üslubiyyatı" kitabında bu mühüm məsələyə ötəri olaraq toxunmuş və köməkçi nitq hissələrinin də üslubi funksiyalar yerinə yetirməsindən bəhs etmişdir. Bunun ardınca K. Əliyev 1985-ci ildə çap etdirdiyi "Üslubiyyat və üslublar sistemi" adlı əsərində digər nitq vahidləri kimi köməkçi nitq hissələrinin də mətn mühitində bir sıra semantik incəliklər yaratmağa, rəngarəng struktura qadirliyini və onların bəzilərinin ayrı-ayrılıqda sinonimik cərgələrdə birləşdiyini şərh etmişdir (2.54-65).

Köməkçi nitq hissələrinin Azərbaycan dilində poetik və üslubi imkanlarının tədris edilmədiyini nəzərə alan K.Əliyev universitet və institutların jurnalistika və filologiya fakültələrində təhsil alan tələbələrə müəyyən çərçivədə istiqamət vermək üçün 1981-ci ildə "Köməkçi nitq hissələrinin üslubi xüsusiyyətləri" adlı metodik göstərişini çap etdirmişdir. Müəllif həmin əsərində köməkçi nitq hissələrinin dilimizin qrammatik quruluşunda, ədəbi dilin üslublarında müəyyən rol oynamasından, poetiklikdəki imkanlarından qısaca olaraq danışmışdır ki, bunların da hər biri tezis xarakterinə malikdir. K.Əliyev doğru olaraq yazır ki, köməkçi nitq hissələri ədəbi dilə təhkimliyi də eyni səviyyədə deyildir. Apardığımız müşahidələr göstərir ki, ədat və modal sözlərə nisbətən qoşma və bağlayıcılar ədəbi dilin üslublarında bir qədər neytral mövqe tutur. Ədatlar daha çox danışıq üslubunda, bədii əsərlərin dilində geniş imkanlara malikdir, xüsusən dialoqda çox mühüm rol oynayır. Modal sözlər isə bədii və elmi üslubda özünə məxsus yer tutur (3.81). Bütün bunlara baxmayaraq, K.Əliyevin hər iki əsərində qoşmaların, ədatların, bağlayıcıların üslubi resurslarından geniş bəhs olunmuş, lakin bu köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətləri diqqətdən kənarda qalmışdır.

Nitqdə intensiv bir şəkildə fəaliyyət göstərən köməkçi nitq hissələrinin Azərbaycan dilinin üslublar sistemində geniş bir aspektdə tədqiq edilmədiyini nəzərə alan Q.Mustafayeva 2010-cu ildə nəşr etdirdiyi "Azərbaycan dilinin üslubiyyatı" adlı dərs vəsaitində mətn mühitində köməkçi nitq hissələrinə məna incəliyi yaradan vasitələrdən biri kimi yanaşmış və haqlı olaraq onların mətndə bir sıra məna çalarları yaratma keyfiyyətlərindən, qoşmaların, bağlayıcıların, ədatların ayrı-ayrılıqda sinonimik cərgələrdə birləşmək xüsusiyyətlərindən danışmışdır. Q. Mustafayeva düzgün olaraq göstərir ki, qoşmalarsız da cümlə qurmaq, fikir mübadiləsini, ünsiyyəti təmin etmək olur. Ancaq bu da bir həqiqətdir ki, qoşma işlədilən cümlədə zaman, məkan, məsafə, istiqamət, səbəb və məqsəd, müqayisə və sair məna çalarları daha dəqiq göstərilir. Elə cümlələr də var ki, qoşmasız işlənə bilmir (4,37).

Ümumişlək qoşmaların üslub və poetik keyfiyyətlərinin məhdud dairədə işlənən qoşmalardan çoxluğunu nəzərə alan müəllif diqqəti daha çox ***kimi*** qoşmasına və onun ***təki, tək, qədər, dək, çan//çən*** sinonimlərinə yönəldir və qeyd edir ki, qoşmaların iştirakı ilə yaradılmış bədii lövhələr "bütöv bənzətmə" hesab olunur. Bənzətmənin müxtəlif növlərə ayrılması həmin qoşmanın orada iştirak edib-etməməsi ilə bağlıdır. ***Kimi*** iştirak edən bütöv bənzətmələrdə iki tərəf qarşılaşdırılır, oxşar cəhət qabarıq verilir, lakin bənzəyənlə bənzədilən arasında eyniyyət, bərabərlik qoyulmur. Buna görə də bu qoşmalar ***(kimi, tək, təki)*** iştirak edən bəzətmələrdə bir fakt və ya hadisə eyni ilə başqasına bənzədilir (4,379-380).

Q. Mustafayeva eyni zamanda *kimi* qoşmasının bədii mətnlərdəki semantik çalarlarından, yəni bu qoşmanın frazeoloji vahidlər yaratmasından mətnlərdə təsvirə cəlb edilən işin, hadisənin, əşyanın dəyişmədiyini, əvvəlki vəziyyətdə qaldığını nəzərə çarpıdılmasından, cümlələrdə dərhal, tez, cəld anlayışını ifadə etməsindən, psixoloji momentləri aydınlaşdırmasıdan, zaman və məkan həddini dəqiqləşdirməsindən, əlahiddəlik, müstəqillik çalarları yaratmasından bəhs etdirir (4,380-382).

Q.Mustafayeva bədii mətnlərdə bağlayıcıların təsirli üslubi vasitəyə çevrilməsi yollarından da danışmış, ***və, ilə, lakin, amma, ancaq, fəqət ,isə, hərçənd, halbuki, bununla belə, doğrudur, əgər, hərgah, çünki, ona görə ki, ondan ötrü ki, bu səbəbə görə də, onun üçün də, bunun ücün də, odur ki, ki, ya, yaxud , istər*** kimi bağlayıcıların təzadlı müqayisə məqamında bir sinonimik cərgədə birləşməsini, cümlələrdə ifadə edilən müəyyən bir fikir şərt çaları bildirərkən bir-birlərini əvəz edə bilməsini, tabesiz və tabeli mürəkkəb cümlələrdə sinonimlik yaratmasını zəngin bədii nümunələr əsasında təhlildən keçirmişdir (4,374-375).

Sinonimlik kateqoriyasının yaranmasında ədatlar da mühüm rol oynayaraq poetik mühiti rəngarəng və cəlbedici bir şəkilə salır və "Azərbaycan dilinin üslubiyyatı" kitabının müəllifi düzgün olaraq onları aşağıdakı kimi şərh edir:

1. ***Məgər, bəs, yəni, bəyəm, yoxsa, olmaya, görəsən, mı, (mi, mu, mü)***. Bunlar sual məqamında mütləq sinonimlik kimi çıxış edir.

2. ***Di, da(də), sana(sənə), gəl(gəlim), qoy(qoyun), gör(görün).*** Əmir, təkid, xahiş məqamlarında bir-birinin mütləq sinonimi olur və feilin əmr şəkli ilə daha çox işlənir.

3. ***Yalı, ancaq, fəqət, tək, təkcə, bircə.*** Seçib – fərqləndirmə, məhdudlaşdırma və təcridetmə məqamlarında bu ədatlar sinonimik cərgə təşkil edir.

4. ***Ən, lap, daha çox.*** Əlamətlik dərəcəsini çoxaltma zamanı bir sinonimik cərgədə birləşir. (4,376)

Göründüyü kimi, Q.Mustafayeva köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətlərinə geniş yer verdiyi halda, onların strukturuna demək olar ki, toxunmamışdır. Zəngin mövzu palitrasına, çoxcəhətli struktura və modelə malik, rəngarəng bədii təsvir və ifadə vasitələri ilə diqqəti cəlb edən folklor mətnlərinin poetik özəlliklərini prof. M.Hüseynova hərtərəfli bir şəkildə araşdırmışdır. Tədqiqatçı folklor mətnlərinin üslub və poetik məziyyətlərinə dair 3 monoqrafiya çap etdirmişdir. Müəllif "Aşığ və el şairlərinin poetikası" (Dərələyəz mahalı üzrə) adlı birinci monoqrafiyasında qeyd edir ki, təkcə Dərələyəz mahalından olan söz sənətkarlarının deyil, ümumilikdə el ədəbiyyatı nümayəndələrinin poetikası hələ də folklorşü-

naslığımızda az öyrənilən sahədir. Aşıq və el şairlərinin sənətkarlıq problemlərinin bu cəhətdən öyrənilməsinə böyük ehtiyac vardır. Başqa sözlə desək, aşıq və el şairlərinin əsərlərinin mövzu palitrasını, şəkil və formasını, onların janr xüsusiyyətlərinin, poetik strukturunun öyrənilməsi, bədii təsvir və ifadə vasitələrinin təkrarsız xüsusiyyətlərinin araşdırılması müasir dövrümüzdə olduqca aktuallıq kəsb edən məsələlərdəndir və bu müstəvidən yanaşdıqda köməkçi nitq hissələrinin poetik funksionallığı məsələsinin tədqiqatdan kənarda qalması olduqca böyük təəssüf doğurur. ***Kimi, tək, təki*** qoşmalarının üslubi və poetik funksionallığına daha çox diqqət yetirən M.Hüseynova belə qənaətə gəlir ki, aşıq və el şairlərinin yaradıcılığında çox zaman gözəllik rəmzi kimi işlənən durna, sarov, tərlan, zümrüd kimi quş adları, tərkibində qiymətli, ətirli gül-çiçək, dadlı meyvə və ya məhsul adları *(şamama, alma, nərgiz, sünbül, reyhan, lalə, bənövşə, heyva, nar və s.),* hidrosfer, atmosfer və ya səma cismlərinin adları *(şaxta, boran, ay, ulduz, qəmər və s.),* qiymətli, yaraşıqlı daş-qaş adları *(almaz, mirvari, qızıl, gümüş, mərcan, sədəf, firuzə və s.)* epitet vəzifəsində çıxış edərək obrazların xarakterik cəhətlərini qabarıqlaşdırır və poetik siqləti gücləndirir. Söz sənətkarlarının poetik örnəkləri bir daha təsdiq edir ki, aşıq və el şairləri epitetlərdən istifadədə zəngin ənənəyə əsaslanmış, tarixən mövcud olan bir sıra deyim üsullarına istinad edərək epitetlərə təzə nəfəs vermiş, sabitləşmiş deyim qəliblərindən ustalıqla yararlanmış, yüksək sənətkarlıq nümayiş etdirmişlər. Başqa sözlə desək, zəngin dil faktları kimi epitetlərdən ustalıqla istifadədə aşıq və el şairləri əsrlər boyu Azərbaycan klassik ədəbiyyatında işlədilən söz və ifadələrə söykənmiş, onları müxtəlif poetik kontekstlərin ümumi mənzərəsinə xüsusi estetik zövqlə uyğunlaşdırmışlar (5,125).

M.Hüseynovanın "Aşıq və el şairlərinin üslubi morfologiyası" adlı ikinci monoqrafiyasında folklor mətnlərində köməkçi nitq hissələrinin poetik funksionallığı məsələsinə bir qədər geniş prizmadan yanaşılır, lakin burada da bütövlükdə folklor örnəkləri deyil, aşıq və el şairlərinin yaradıcılığı əsas götürülür, beləliklə də bu vacib və problematik məsələ hərtərəfli və tam şəkildə öz həllini tapa bilmir. Qeyd etməliyik ki, M.Hüseynova sözügedən bu monoqrafiyasında daha çox XIX-XX əsrlər aşıq və el şairlərinin yaradıcılığında əksini tapan köməkçi nitq hissələrinin işlənmə intensivliyinə, emosionallıq və ekspressivliyinə, mətnlərdə yerləşdirilmə mövqelərinə və onların müxtəlif məna çalarlıqları yaratma keyfiyyətlərinə daha çox üstünlük verdiyindən poetik funksionallığı məsələlərinə daha çox diqqət yetirməli olmuşdur.

M.Hüseynovanın 2017-ci ildə cap etdirdiyi "Üslubi morfologiya" adlı üçüncü monoqrafiyasında folklor mətnlərində işlənən köməkçi nitq hissələrinin və bu kateqoriyalardan olan göstəricilərin mühüm və spesifik cəhətləri aşkara çıxarılır. Dərs vasitəsinin III fəslinin I yarım bölməsi "Qoşmaların üslubi imkanları və poetik funksionallığı" adlanır və müəllif burada təfəkkür və şüurun müəyyən şəkli olan folklor örnəklərinin yaradıcılıq mənzərəsini, deyiliş tərzlərini, üslubi və poetik meyllərin müxtəlifliyini, əlvanlığını, çoxcəhətliliyini önə çəkərək qeyd edir ki, folklor örnəklərinin dilində digər nitq hissələri kimi qoşmalar da zəruri dil ünsürləri kimi çıxış etmiş, bədii mətnlərdə çeviklik göstərmiş, bəzilərində az işlənərək ismin müxtəlif hallarında olan sözlərə qoşularaq müxtəlif semantik çalarlar yaratmış, poetik obrazlılıqda dərin ictimai-siyasi məzmunun keyfiyyət həddinin qabardılmasına xidmət göstərmişdir (6,119).

Müəllif monoqrafiyanın "Bağlayıcıların poetik - üslubi funksionallığı" adlı hissəsində bu köməkçi nitq hissəsinin folklor mətnlərində işlənmə intensivliyindən, emosionallıq və ekspressivlik keyfiyyətİərindən söhbət açır və göstərir ki, folklor mətnlərində bağlayıcıların müxtəlif mövqeylərdə yerləşdirilməsi hər şeydən əvvəl poetik tələbatla bağlı olmuşdur (6,129).

Monoqrafiyanın "Ədatların üslubi imkanları və poetik funksionallığı" adlı yarımbölməsi də maraqlı araşdırmalardandır. Bu yarımbölmədə müəllif folklor mətnlərində ədatların mövqeyini dürüst təyin etməyə çalışmış onların kəmiyyət və keyfiyyət dəyişmələrini kifayət qədər nəzərdən kecirmiş, nitqdə sözlərin, söz birləşmələrinin və bütöv cümlənin mənasını qüvvətləndirən, fikrin səlis və məntiqi cəhətdən qurulmasındakı rolunu müəyyənləşdirmiş, ədatların milli və orjinal keyfiyyətlərini aşkara çıxarmış, onların poetik funksionallığına da diqqət yetirmiş və şübhəsiz ki, bütün bunlar da folklor poetikası üçün olduqca əhəmiyətlidir.

Folklor mətnlərində köməkçi nitq hissələrinin poetik funksionallığı probleminin öyrənilməsində M.Hüseynovanın "Aşıq Ələsgərin söz ümmanı" monoqrafiyası da səmərəli araşdırma hesab olunmalıdır. Belə ki, tədqiqatçı Aşıq Ələsgər duhasının bədii dillə bağlı özünəməxsusluqlarını, onun bənzərsiz poetik yaradıcılığının üslubi simasını müəyyənləşdirərkən bəzi qoşmaların, bağlayıcıların və ədatların özünəməxsusluqlarını aşkara çıxarmağa, bu nitq vahidlərinin inikas üsulunun spesifikasını, ayrı-ayrı çalarlarını, tələblərini və prinsiplərini aydınlaşdırmağa çalışmışdır.

Folklor mətnlərində olduğu kimi, yazılı ədəbi örnəklərdə də "obrazlar sistemi geniş və əhatəlidir, şübhə yox ki, bunlar yalnız insan surətləri ətrafında məhdudlaşmır. Yəni elə hallar ola bilər ki, təbiətin və cəmiyyətin müəyyən vahidləri də obrazlaşıb yazıçı ideyasının ifadəçisi səviyyəsinə qalxa bilər" (7,272). M. Adilov Məhəmməd Füzulinin üslubunu və poetik dilini araşdırarkən tədqiqat obyektinə bu prizmadan yanaşmış, dahi şairin yaradıcılığında əksini tapan bağlayıcıların və qoşmaların poetik funksionallılığı məsələlərini bu istiqamətdə təhlilə cəlb etmişdir. Müəllif "Məhəmməd Füzulinin üslubi və poetik dili" adlı fundamental monoqrafiyasında bağlayıcıların misra və beytlərdə yerləşdirilməsi mövqelərində bəhs edərək yazır ki, bağlayıcı sözlər misra və beytlərin daxilində daha çox güclü mövqedə - misraönü və misrasonu mövqedə yerləşdirilir ki, bu da ümumiyyətlə, Füzuliyə məxsus ən səciyyəvi üsullarından biridir. Elə bil ki, sırf qrammatik səciyyə daşıyan vahidləri güclü mövqedə yerləşdirməklə müəllif onlara bir poetik-semantik siqlət aşılayır, qrammatik vahidləri poetikləşdirirdi. Füzuli qəzəllərində bağlayıcıların işlənmə nisbətini və poetik mövqeyinin qanunauyğunluqlarını M.Adilov aşağıdakı kimi müəyyənləşdirir ki, bunları da müəyyən baxımdan folklor mətnlərinə də şamil etmək mümkündür. "Mətnlə beytin birinci və ya ikinci misralarının əvvəlində bağlayıcı işlənir. Beləliklə, bağlayıcı xüsusi vurğu qəbul edir (şeirin əvvəlində intonasiya yüksəlir) və mikromətnin aparıcı vahidi səciyyəsi kəsb edir; Mətlə beytin misralarının daxilində də bağlayıcılar sıx-sıx işlənir; Məqtə beytin birinci misrasının sonunda daha çox qarşılaşdırma, aydınlaşdırma məzmununda və misralararası poetik əlaqələndirmə funksiyasında çıxış edir; Məqtə beytdə də bağlayıcılar daha çox misraönü mövqedə çıxış edir; Məqtə beytdə misradaxili mövqedə işlənən bağlayıcılar miqdarca nisbətən azlıq təşkil edir. Bağlayıcıların belə yüksək tezlikdə özünü göstərməsi Füzuli şeirinin məntiqə əsaslanmasından irəli gəlir. Ən müxtəlif məntiqi-qrammatik anlayışların ifadəsi üçün bağlayıcılar əlverişli vasitədir" (8,136-138).

M.Adilov qoşmaların da klassik ədəbiyyatımızda da, folklor mətnlərində də qədimdən bəri sıx-sıx işlənmiş söz qruplarından olduğunu nəzərə alaraq yazır ki, "Dədə Qorqud" dastanlarından başlamış ta XX əsrə qədər qoşmalar qrammatik funksiyadan daha artıq (və əsasən) bədii-üslubi funksiyada işlədilmişdir. ***Kimi // kibi, tək// təki// təkin, qədər*** və s. qoşmalar məhz müqayisə anlamı bildirməyə xidmət etmişdir. XX əsrdə və xüsusilə bizim dövrümüzdə həmin qoşmalar daha çox qrammatik funksiyada işlədilir. Burada leksik-metaforik mənadan qrammatik mənaya keçid aydın şəkildə müşahidə edilir. Hər bir qrammatik məna müəyyəndir və dəqiqdir. Qoşmaların müqayisə bildirmədən qrammatik məna bildirməyə doğru hərəkəti əslində təfəkkürün dəqiqləşməsi prosesini əks etdirir. Əlbəttə, qoşmaların müqayisə bildirmə funksiyası da müasir dövrdə qalır və daha da inkişaf etdirilir. Lakin başlıca məsələ bundadır ki, bununla yanaşı qoşmaların qrammatik funksiyası da sabitləşmiş və çox fəallaşmışdır (8,147).

Azərbaycan dilçiliyində köməkçi nitq hissələrinin qohum və qohum olmayan dillərlə müqayisəli aspektdə təhlillərinə də rast gəlirik və bu baxımdan K.Süleymanovanın "İngilis və Azərbaycan dillərində bağlayıcıların funksional-semantik xüsusiyyətləri" adlı tədqiqat işi xüsusi maraq doğurur. Tədqiqat işində ingilis və Azərbaycan dillərində bağlayıcıların invertarının müəyyənləşdirilməsi, onlarda semantika (məna) məsələsi, bağlayıcıların bağlayıcı sözlərdən fərqinin araşdırılması, bu köməkçi nitq hissəsinin funksional xüsusiyyətlərinin tədqiqi, bağlayıcıların mətnyaratma funksiyalarının araşdırılması, hər iki dilin bağlayıcılarının qarşılaşdırılması və onların izomorf və allomorf xüsusiyyətlərinin üzə çıxarılması diqqət mərkəzin-

də saxlanılmışdır ki, bütün bunların hər biri ayrı-ayrılıqda tədqirəlayiq hesab olunmalıdır (12,3-17).

Ümumiyyətlə, Azərbaycan dilçiliyində köməkçi nitq hissələrinin mətnyaradıcı funksiyaları, onların mahiyyəti, onlarda semantika və struktur məsələləri, onların morfoloji və etimoloji təhlilləri ilə bağlı Ə. Abdullayevin, H. Bayramovun, Ə.Əliyevin, Q. Kazımovun, B. Xəlilovun, M. Şirəliyevin, N. Mehdiyevin, H. Mirzəzadənin, K. Abdullayevin, Ə. Xəlilovun və başqalarının araşdırmalarında dəyərli fikirlər söylənilmiş və bu elmi mənbələrdə mübahisə doğuran mülahizələr də az deyildir (13,88-109; 14,201-242; 15, 701; 16, 322).

Nəticə. Bütün bunlara baxmayaraq, folklar mətnlərinin strukturunda xüsusən, sözlərin, söz birləşmələrinin və cümlələrin qanunauyğun bir şəkildə qurulmasında, mətnin semantikasında mühüm rol oynayan köməkçi nitq hissələrinin tədqiqi məsələsi uzun illər Azərbaycan dilçiliyində hərtətəfli bir şəkildə araşdırılma obyekti olmamışdır. Rus və Avropa dilçiliyində köməkçi nitq hissələrinin struktur-semantik xüsusiyyətlərinə dair çoxlu sayda araşdırmalar aparılmışdır. Məsələn, V.V.Vinoqradov köməkçi nitq hissələrində həm leksik və həm də qrammatik məna olduğunu qeyd edir. Onun fikrincə, köməkçi sözlərin leksik mənası ilə qrammatik mənası uyğun gəlir (9, 31-32). Belə bir fikir A.İ.Smirnitski tərəfindən də söylənilmişdir. O, göstərir ki, fonetik tərkib etibarilə müstəqil olan hər bir sözdə leksik və qrammatik məna bir vəhdət halında çıxış edir. O, köməkçi sözlərdə məna cəhətdən iki xüsusiyyəti nəzərdə tutmağı lazım bilir: 1) bu və ya digər söz vasitəsi ilə ifadə edilən və qrammatik vəzifə ilə bağlı olan qrammatik məna; 2) Köməkçi sözləri bir-birindən fərqləndirən və hər bir sözə məxsus xalis leksik məna (10, 367). V.D.Arakin də ingilis dilində hətta artiklin semantikasının olmasını qəbul edir (11, 123-124).

Ədəbiyyat

1. Fəhməzov Z.İ. Müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin təsnifi. Bakı: 2017, 152 s.
2. Əliyev K. Üslubiyyat və üslublar sistemi. ADU-nun nəşri, Bakı: 1983, 101s.
3. Əliyev K. Köməkçi nitq hissələrinin üslubi xüsusiyyətləri. ADU-nun nəşri, Bakı, 1981, 51 s.
4. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. "Elm", Bakı, 2010, 392 s.
5. Hüseynova M. Aşıq və el şairlərinin poetikası. Bakı, 2017, 171s.
6. Hüseynova M. Üslubi morfologiya. ADPU-nun nəşri, Bakı, 2017, 156 s.
7. Əliyev K. Azərbaycan romantizmin poetikası. "Elm", Bakı, 2002. 272 s.
8. Adilov M. Məhəmməd Füzulinin üslubu və poetik dili. Bakı, 1996, 544 s.
9. Виноградов В.В. Русский язык. М: Высшая школа, 1972, 240 с.
10. Смирницкий А.И. Морфология английского языка. М., 1959, 301 с.
11. Аракин В.Д. Сравнительная типология английского и русского языков. Л: Просвещение, 1979, 210 с.
12. Süleymanova K. İngilis və Azərbaycan dillərində bağlayıcıların funksional-semantik xüsusiyyətləri. Fil. e. üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis-nın avtoreferatı, Bakı, 2010, 20 s.
13. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. "Maarif", Bakı, 1974, 88-109 s.
14. Bayramov H. Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı: Azərbaycan EA nəşriyyatı, 1960, 242 s.
15. Kazımov Q. Azərbaycan dilinin qrammatikası. Bakı, "Elm və təhsil", 2017, 890s.
16. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə, ADPU-nun nəşri, Bakı: 2007, 354s.

Р.М.Оруджева

Короткие примечания об исследовании структурно-семантических свойств вспомогательных частей речи

Резюме

Частота использования вспомогательных частей речи в фольклорных текстах на высшем уровне и они с точки зрения структуры и семантики выступают в различных формах и значениях. Иными словами, в фольклорных текстах широко использованы простой, сложный и составной типы строения всех грамматических значений союзов, предлогов, частиц. В таком случае, как и в других грамматических и лексических категориях, возникает необходимость подробного изучения позиции, места, структурно-семантических особенностей вспомогательных частей речи в фольклорных текстах как самой важной художественно-стилистической ценности. К сожалению, до сих пор в азербайджанском языковедении в фольклорных текстах не проводились исследования с данной точки зрения, за исключением письменных образцов. В исследованиях, проведенных согласно письменным источникам, наблюдается разобщенность. В статье рассмотрено применение структурно-семантических свойств вспомогательных частей речи и перебираются высказывания А. Дамирчизаде, К. Алиева, Г. Мустафаевой, М.Гусейновой, М. Адилова, К.Сулеймановой, А.Абдуллаева, Г.Байрамова, А.Алиева, Г.Казымова, Б.Халилова, К.Абдуллаева, М.Ширалиева, Г.Мирзазаде, А.Халилова, Н.Мехдиева, В.В.Виноградова, А.И.Смирницкого, М.Д.Аракина об этом.

R.M.Orujova

Brief notes on the study of structural and semantic features of auxiliary parts of speech

Summary

The usage frequency of auxiliary parts of speech in folklore texts is in a very high level and they acts in multicolored forms and meanings from a structural-semantic point of view. In other words, all grammatical meanings and simple, derivative and compound types of conjunctions, adjunctions, particles have widely been used in folklore texts. In this case, as a number of other grammatical or lexical categories, it is necessary to study the position, place, structural and semantic features of auxiliary parts of speech in folklore texts as the most important artistic and stylistic value. Unfortunately, so far excluding written text samples, no research has been conducted in Azerbaijani linguistics in folklore texts in this direction. As if there is also a sparse in researches conducted on the basis of written artistic samples. In the article is being paid attention to the research view of the structural-semantic features of auxiliary speech parts and A. Damirchizade's, K. Aliyev's, G. Mustafayeva's, M. Huseynova's, M. Adilov's, K. Suleymanova's, A. Abdullayev's, H. Bayramov's, A. Aliyev's, G. Kazimov's, B. Khalilov's, K. Abdullayev's, M. Shiraliyev's, H. Mirzazade's, A. Khalilov's, N. Mehdiyev's, V.V. Vinogradov's, A.I. Smirnitski's, V.D.Arakin's sayings about this are being investigated.

Rəyçi: prof. M.Hüseynova

Redaksiyaya daxil olub: 22.06.2020

L.M.PİRİYEVA

Azərbaycan Milli Elmlər Akademiyası (Gəncə bölməsi)
(Gəncə şəh., Heydər Əliyev pr., 419)

AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA GEYİM ADLARI

Açar sözlər: *Aşıq şeirinin dili, Aşıq Ələsgər, etnoqrafik leksika, parçalar, qadın geyimləri.*
Ключевые слова: *язык ашугской поэзии, Ашуг Алескер, этнографическая лексика, ткани, женская одежда.*
Key words: *language of ashig poetry, Ashig Alasgar, ethnographic vocabulary, fabrics, women's clothing.*

Geyim adları hər bir xalqın məişətini, zəngin etnoqrafik gerçəkliyini və mükəmməl estetik zövqünü əks etdirir. Etnogenetik, etnoqrafik və dilçilik araşdırmaları üçün qiymətli material olan geyim leksikası həm də xalqın ətraf mühitə, milli mərasimlərə və inanclara münasibətini bərpa etməyə imkan verir.

Geyim leksikası etnoqrafik leksikanın tərkib hissəsidir. "Xalqın maddi və mənəvi tarixi ilə sıx bağlı olan, gündəlik işlətdiyi məişət sözləri dilin tarixi, sözlərin etimologiyası ilə əlaqədar bir sıra məsələlərin açılması üçün lüğət tərkibinin mühüm qatlarından birini təşkil edir" (1, 115).

Azərbaycan aşıq şeirində qadın geyim adları daha geniş işlənmə tezliyinə malikdir. Aşıqların vəsf etdiyi qadın geyim adları mənsub olduğu hər bir bölgənin gündəlik həyatı, mərasim dünyası haqqında bilgilər verir. Azərbaycan aşıq poeziyasının dilində geyim leksikası yalnız həmin leksikanın leksik – semantik xüsusiyyətlərini, funksional xarakterini üzə çıxartmır, həm də xalqımızın maddi mədəniyyəti ilə tanış olmağa imkan verir. Azərbaycan aşıq poeziyasında geyim leksikasının tədqiqi türk dilləri leksikasının semantik inkişafını bərpası üçün maraqlı qaynaqlardan biridir.

XIX əsr Azərbaycan aşıq sənətinin ən böyük nümayəndəsi olan Aşıq Ələsgərin yaradıcılığı (2) bu baxımdan xüsusi maraq doğurur. Aşıq Ələsgərin poetik dili geyim leksikasının zənginliyi ilə fərqlənir. Aşıq Ələsgərin poetik dili XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri dil situasiyasının səciyyəvi cəhətlərini əks etdirir: özündən əvvəlki ustadlardan irsən keçmiş dil vasitələrindən istifadə etmiş və dilin demokratikləşməsinə nail olmuşdur.

Aşıq Ələsgər portret təsvirlərində geyimlərdən geniş istifadə edir. Onun bədii portretlərini lirik qəhrəmanın iç dünyasını, sosial görkəminin tipik cəhətlərini yığcam şəkildə açıb göstərən realist məzmunlu portretlərdir. "O (Aşıq Ələsgər – L.P.), tərifləyiği qızların zahiri gözəlliklərini, onların milli geyim və bəzəklərini elə məharətlə təsvir edir ki, gözümüz qarşısında rəssamlarımızın çox asanlıqla yarada biləcəyi füsünkar bir gözəl surəti canlanır (3, 28).

Geyim adları poetik mətndə müəyyən semantik, funksional və üslubi yük daşıyır. Əlbəttə, istənilən sözün funksional fəallığı aşığın (şairin) dilində fəallığı ilə bağlıdır. Aşıq Ələsgər sözünün nüfuzu geyim adlarının okkazional istifadə imkanlarını genişləndirmişdir.

Klassik şeirimizdə (məsələn, Molla Pənah Vaqifdə) olduğu kimi, Aşıq Ələsgər yaradıcılığında kəlağayı, yaylıq, şal, duvaq, cuna, çarqat, qəsabə, niqab, çalma, araqçın kimi baş geyimlərinin adları keçir.

Şallar və kəlağaylar Azərbaycan qadın geyim mədəniyyətinin özünəməxsus atributlarından biridir. "Şal" fars mənşəli leksik vahiddir. Şal adətən qumaşdan olub, çiyinə və boyuna atılır, ya da belə, qurşağa sarınır. Etnoqrafik – tarixi araşdırmalara görə, şal Kəşmir keçisi adlanan bir cins keçinin yunu ilə toxunmuş və çubuqlar arasında rəsm edilmiş çiçək motivləri ilə özünəməxsus gözəllikdə bir yunlu qumaşdır. İpək qarışdırılaraq toxunmuşları da vardı (4, 213).

Xara don, zərin nimtənə,
Başındakı şalı gözəl (2, 235).

Ayağında sağrı basmaq,
Başının şalı gözəlin (2, 209).

Geyinibsən yeddi qələm,
Bürünübsən şalı gözəl (2,239).

Ətlazdan qəbalı, belində şalı (2, 153).

Bürüyüb zülfünü başının şalı,
Heratı kəlağay şala yaraşır (2,147).

Kəlağayı Azərbaycan xanımlarının estetik zövqünün və milli davranış üslubunun göstəricisi olan qadın baş geyimidir.

Kəlağayı əlvan, qıyqacı
Üstündən basa tellərin (2, 263).

Başında herat kəlagay,
Bənzər göllər sonasına (2, 222).

Başında herat kəlagay,
Alnının cunasına bax! (2, 220).

Başında herat kəlağay,
Hər paltarı darayıdı (2, 228).

Aşıq Ələsgər bəlkə də yeganə ustad sənətkardır ki, əsərlərində Azərbaycan geyim adlarından leksik – semantik, üslubi sərhədlərini genişləndirmişdir. Bu, onun ilk növbədə xalqın məişətini və ənənəsini dərindən bilməsi ilə əlaqədardır.

Qanovuz don, xara köynək
Çəpkəni, qoftası qəşəng (2, 249).

Aşıq Ələsgərin dilində vestonimlərin funksional – üslubi kontekstdə tədqiqi ekstralinqvistik kontekstlə yanaşı dialektoloji, etnoqrafik situasiyanın nəzərə alınmasını tələb edir. Aşıq Ələsgərin şeirində geniş rast gəlinən "çəpkən" sözü də bu qəbildəndir. Z.Teymurlu "Azərbaycan dili dialektlərində və türk ədəbi dilində işlənən ortaq sözlər" mövzusunda namizədlik dissertasiyasında "çəpkən"in Azərbaycan dialektlərində fərqli fonetik formalarda – çəfgən \ çəvkən \ çəpkən "qolsuz qadın paltarı", türkcədə çepken "pencək formasında olan üst geyim" mənasında qeyd olunduğunu göstərir (5, 18).

Çəpkən sözünün mənası ilə bağlı müxtəlif etimoloji yozumlar mövcuddur. Çəpkən üst qadın geyimidir, nimtənə ilə tipoloji oxşarlığa malikdir. "Bir – birindən xırda detallarla fərqlənən bu geyimlər tikildikləri parçalara uyğun ad mənsubiyyəti əldə etmişlər" (6, 97).

Çəpgəni hər rəng çalır
Peyğəmbər xırqası kimi (2, 226)

“Mərnus dizlik geyib, çəpkəni ətlas” (2, 184).

V.V.Radlovun lüğətində çepken \ çekmen, çekpen “mahud”, “plaş”, “enli şalvar”, “mahuddan qaftan”, “astarlı paltar” mənaları verilmişdir (Bu haqda: 7, 15). O.Suxareva qeyd edir ki, özbəklərdə mahud parçadan tikilmiş xalat “çəkmən” və ya “çekmen” adlanır (8, 84). Qaraçaylarda çəpkən mahud parça növünü, həm də “çərkəzi” tipli geyim adını bildirir (bax: 6, 98).

Başqa dil vasitələri kimi, Aşıq Ələsgər mətnlərində vestonimlər bədii bütövlüyün obraz perspektivində yaşayır və qavranılır. Bir poetik mətn kontekstində vestonimlərin sadalanması, məntiqi ardıcıllığı obrazı bütöv görməyə, vizuallaşdırmağa imkan verir. Aşıq Ələsgərin vəsf etdiyi qadim geyimləri içərisində küləcə \ güləcə fərqli yer tutur: xas güləcə, ətlas güləcə.

Əynində xas güləcə,
Ətəyində zər baftası (2, 247)

yaxud

Ətəyində ətlas güləçə,
Üstünün baftası qəşəng (2, 249)

Etnoqrafların qeyd etdiyinə görə, “küləçə” mövsumi geyim tipidir, astarlı olub, qolunun və ətəyinin uzunluğuna görə çəpkəndən fərqlənir adətən sərin havalarda geyinilir. Tirmədən, məxmərdən tikilirdi. Qarabağda ona “baharı” da deyilir. Baharı və küləçənin biçim üsulunda heç bir fərq olmyaıb büzməli ətək və düzyaxa bədəndən ibarətdir” (6, 100 – 101).

Örnək gətirdiyimiz mətnlərdə “bafta” sözü hər iki örnəkdə küləçə ilə yanaşı işlədilir. Azərbaycan dilinin dialektoloji lüğətində bafta sözünün iki mənası verilmişdir:

1) əlvan parçadan tikilən haşiyə (Qazax); 2) zərli parça adı (Hamamlı) (9 , 27). Bizcə, Aşıq Ələsgər məhz birinci mənanı nəzərdə tutmuşdur.

“Xirqə” ərəb mənşəli olub, diz qapağına və ya ayaq topuğuna qədər enən astarsız üst geyimidir. Adətən təriqət əhlinin, dərvişlərin geydiyi paltara da deyirlər. Xəstə Qasımda muq.et: “Xirqə nədir, pust nədir, dəri nə?” (10, 135). Bəzi bölgələrimizdə məsələn, Ağbaba dialektində “xırxa” kimi tələffüz edilir: Papağım qaradı, xırxam da bozdu” (17, 270). Xirqa (xirqə) – üst paltar növü.

Çəpgəni hər rəng çalır,
Peyğəmbər xirqəsi kimi (2, 226).

Aşıq Ələsgər “xirqə”nin məna kodundan metaforik səviyyədə də istifadə edə bilir. “Qəddim əyib, qəm xirqəsin geyirəm”. Mahiyyətcə məna kodlarının modelləşdirilməsi o zaman metaforalaşmaya məruz qalır ki, “bir anlayış strukturca metaforik olaraq başqasının terminlərində düzənlənir” (11, 396).

Qadın üst geyimlərinin komponentlərindən biri də dizlikdir, çitdən qanovuzdan tikilirdi: Qanovuzdan dizliyi var (2). Azərbaycan dialektlərində dizdıx \ dizziy “qadın alt və üst tumanı”, türkcədə dizlik “dizə qədər olan alt tuman, qadınlara aid iş önlüyü, yun şalvar” (5, 18) kimi işlədilir.

Rəvayətə görə, Aşıq Nağı Göyçəyə, Ələsgərgilə qonaq gedərkən aldığı hədiyyə arasında “dizlik” parçanın adı keçir: “Nağı İrəvan şəhərinnən Aşıx Ələsgər üçün bir cüt çəkməli dəri, mahud çuxalıx, birdə Ələsgərin arvadı Anaxanım üçün güllü xaradan bir dizdik parça alıf üz qoydu Ələsgərin evinə” (12, 557)

Ağ ipəkdən dizliyi var,
Gül düzdürüb yaxasına (2, 222)

Ağ ipəkdən dizliyi var,
Köynəyini geyib sarı (2, 228).

Ağ çit dizlik geyib, köbəsi ala,
Gör necə çinləyib qabağa, dala (2, 110).

"Xələt" ərəb mənşəli olub "qürur" mənasını verən "khilat" sözündən götürülüb. Osmanlılar dönəmində insanları şərəfləndirmək, rəğbətləndirmək üçün xələt hədiyyə edilirdi. Xələt yüksək sosial statusa mənsubluğun göstəricisi olub. Hülakülər dövründə "Təbrizdə kişilər uzun sağ qoltuq altında bağlanan "xələt" geyinmişlər. Xələtlər uzun və qısa qollu olur. Zənginlərin xələtlərinin köksünə və böyür hissələrinə süslər yapılırdı. Motivlər içərisində əjdaha, su quşları və çeşidli təsvirlər yer alır. Xələtləri beldən həm qurşaq və meşin kəmərlər bağlanırdı" (13, 138). Bunu Xəstə Qasımın və Göyçəli Aşıq Nəcəfin aşağıdakı misraları da təsdiq edir:

Xələt özü xəlq eyləyib,
Səni gözəllər sərvəri (14, 274).

Xəstə Qasımda:

On beş zaddır, göydən gəldi qarasız,
Beşi xələt, beşi küsut, beşi nə? (10, 165).

Aşıq Ələsgərin metaforik təfəkkürü dağların qışda qara bürünməsini xalat geyməsinə bənzədir:

"Ağ xalat bürünər, zərnişan geyməz" (2, 59)

Xələtlər ipəkdən tikilirdi.
İpəkdən xələt geyinib,
Kəmər beldə fəryad edər (2, 75).

Göründüyü kimi, aşıq şeirlərində ipək, xara, atlas, məxmər, bez, cuna, çit, satin kimi parça çeşidlərinin adlarına epitet səviyyəsində sıx – sıx rast gəlirik. Bu, bir tərəfdən, ipəkçiliyin, pambıq toxuculuğunun inkişafı ilə bağlıdırsa, digər tərəfdən pambıqlı qumaşların Qafqazda, Azərbaycanda geyim olaraq geniş yayıldığını göstərir. Aşıq Ələsgər atlasla yanaşı, zərxara, qanovuz, dorayı/darayı, məxmər ipək parçaların adlarını qeyd edir. O, pambıq (fata, bez, cuna, çit) və yun parça adlarını (tirmə, şal, mahud) xüsusi fərqləndirir. Bez pambıqdan və ya kətandan toxunmuş qumaş olub, rəngi daima bəyaz olur. "Kitabi – Dədə Qorqud"un müqəddimə hissəsində deyilir: "Əski panbuq bez olmaz" (16,31). İpliyinin cinsinə, toxunma tərzinə, qalınlığına, incəliyinə, yumşaqlığına, sərtliyinə, qabalığına görə müxtəlif küncləri olur (4, 35).

Aşıq şeirində adı xatırlanan atlazlar ipək toxuma və qumaş tipinə aiddir. "Atlas incə ipəkdən və daha ziyadə qırmızı rəngdə toxunmuş bir çeşid qumaşdır" (bax: 15, 111).

Aşıq Qurbanda:

Çiskin yağış al qumaşı isladır,
İnciyər gözəllər köç vədəsində (14, 64).

Aşıq Nəcəfdə:

Geyinib al qumaşı,
Gəzəndə hərdən qorxuram (14, 276)

Anadoluda üzəri çiçəkli və şəkilli pambıq bezə çit deyilir (15, 379). Bayatımızda çit atlaz çeşidi kimi xatırlanılır:

Bazarda çit atlaz,
Atlaza iynə batmaz (bax:18).

Parçaların rəng və naxışlarının vəsfi Aşıq Ələsgərin seçkin estetik zövqündən xəbər verir:

Kimi ətlaz geyir, tirmə qurşayır,
Kimi üryan gəzir qarın içində (2, 136).

Yeri gəlmişkən, oxşar deyim və ya formul Aşıq Nəcəfdə də təkrarlanır:

Tirmə qurşayanlar, ətlaz geyənlər,
Yaş torpaq içində lüt – üryan yatdı (14, 238).

İstanbulun al qumaşı,
Bağdadın xurması gəlir (2, 278).

Beləliklə, Aşıq Ələsgər yaradıcılığında qadın geyimləri rəngarəngliyi ilə fərqlənir. Qadın geyim adları bədii obrazyaratma, bədii portretyaratma prinsiplərindən biridir. Etnik – mədəni yaddaşdan süzülüb gələn bu adlar Aşıq Ələsgər yaradıcılığında obraz səviyyəsində və folklor formulları kimi sabitləşmişdir.

Ədəbiyyat

1. Məhərrəmova Rəhilə C. "Kitabi – Dədə Qorqud"un söz xəzinəsi. Bakı: Nurlan, 2007, 192 s.
2. Aşıq Ələsgər (Əsərləri, dastan – rəvayətlər, xatirələr). Bakı: "Şərq-Qərb", 1999, 578 s.
3. İslam Ələsgər. Ulu ustad // Aşıq Ələsgər (əsərləri, dastan – rəvayətlər, xatirələr). Bakı: "Şərq-Qərb", 1999, s. 21-28
4. Koçu Reşat Ekrem. Türk Giyim Kuşam ve Süslenme Sözlüğü. Ankara: Sumerbank Kültür Yayınları, 1967.
5. Teymurlu Zabitə. Azərbaycan dili dialektlərində və türk ədəbi dilində işlənən ortaq sözlər. Filol.u.f.d.dis.avtoreferatı. Bakı, 2013, 25 s.
6. Abdulova Gülzadə. Azərbaycan milli qadın geyimləri və bəzəkləri haqqında (Milli Azərbaycan tarixi muzeyininn materialları əsasında) //Azərbaycan MEA-nın Xəbərləri, ictiami elmlər seriyası, 2015, №4, s. 91-109.
7. Məmmədli İsmayıl. Azərbaycan geyim adları. 1-ci yazı // Xalq cəbhəsi. – 2017 – 9 iyun, s. 15.
8. Сухарева О.А. Опыт анализа покроев традиционной «туникообразной» Среднеазиатской одежды в плане их истории и эволюции \ Костюм народов Средней Азии. М.,1979, с.77-102.
9. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: "Şərq-Qərb", 2007, 450 s.
10. Xəstə Qasım. Bakı, "Nurlan", 2010, 232 s.
11. Лакофф Д. Метафоры, которыми мы живем // Теория метафоры. М., 1990.
12. Göyçə aşıqları və el şairləri. II c. Bakı: "Nurlan", 2010, 594 s.
13. Abdullayeva Şehla. XIII – XVI yüzyıl Azerbaycan milli baş giyişlerinin kültürel etik özellikleri // Motiv Akademi. Halk bilim dergisi. 2011\2, s. 136-143.

14.Göyçə aşıqları və el şairləri. III c. Bakı: "Nurlan", 2011, 583 s.
15.Pakalın Mehmet Zeki. Osmanlı Tarih Deyimleri ve Terimleri Sözlüğü. 1-I-III, İstanbul: M.E.B.Yayınları, 1993.
16.Kitabi – Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
17.Azərbaycan folkloru antologiyası. VIII kitab (Ağbaba folkloru). Bakı: "Səda", 2003.
18.Bayramov Aslan. Geyim və bəzək adlarının bayatılarda əks olunması // Sumqayıt Dövlət Universiteti Elmi Xəbərləri. Sosial və humanitar elmlər bölməsi. Cild 13, №2. – 2017.

Л.М.Пириева

Наименования одежды в творчестве Ашуга Алескере

Резюме

Наименования одежды составляеш важнуй часть словарного состава Азербайджанского языка. Охватывает разные стороны народного быта. В художественном языке Азербайджанской ашугской поэзии часть этих слов характерна для определенного диалекта и говора историческая память слова содержится в речевом сознании носителей языка. Наименование одежды выступает как лексический представитель целого ряда ассоциации связанных с определенным культурно – историческим временам.

Исследование лексико – семантической группы «одежда» в языке ашугской поэзии позволить не только выявить лексико – семантические особенности, характер функционирования данной лексики, но и познакомиться с материальной культурой азербайджанского народа.

В настоящей работе описывается лексико – семантическая группа (келагай, чепкен, шаль, халат) связанной с наименования одежды в языке Ашуга Алескере. В азербайджанском языкознании наименования одежды в ашугском творчестве до сих пор не являлась обьектом специального изучения, что и определяеш актуальность данного исспедования.

L.M.Piriyeva

Names of clothes in the creativity of Ashig Alasgar

Summary

Names of clothes are an important part of the vocabulary of the Azerbaijani language and cover the different sides of folk life. In the artistic language of Azerbaijani ashig poetry, part of these words is characteristic of a certain dialect and the historical memory of the word is contained in the speech consciousness of native speakers. The name of clothing acts as a lexical representative of a number of associations associated with a certain cultural and historical time. The study of the lexico-semantic group "clothes" in the language of ashig poetry will allow not only to identify lexical-semantic features, the nature of the functioning of this vocabulary, but also get acquainted with the material culture of the Azerbaijani people.

This study describes the lexical and semantic group (kelagai, chepken, shawl, bathrobe) associated with the names of clothes in the language of Ashig Alasgar. In Azerbaijani linguistics, the names of clothes in ashig creativity have not yet been the object of special study, which determines the topicality of this study.

Rəyçi: prof. R.K.Rəsulov

Redaksiyaya daxil olub: 09.07.2020

S.M.RƏCƏBOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ POSTNOMİNATİV SİFƏTLƏRİN BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Açar sözlər: *postnominal, determinant, transformasiya, domeyn sifətlər*
Ключевые слова*: постноминальный, определитель, преобразование, доменные прилагательные*
Key words*: postnominal, determinant, transformation, domain adjectives*

İngilis dili üçün təyin edənin təyin olunandan sonra işlənməsi səciyyəvidir. Bu halda əsas söz funksiyasını təyin olunan söz oynayır. Fikrin xüsusi əlamətdən ümumi anlayışa doğru inkişafı ingilis dilinin bütün quruluşu üçün xarakterik olub onu hətta sözdüzəltmədə də müşahidə etmək mümkündür. Məsələn, railway (dəmir yolu) sözündə rail xüsusi əlaməti ifadə edir və bütün kompleksin daxil olduğu sinfi təyin edir. Elə dillər vardır ki, onlarda fikir başqa istiqamətdə inkişaf etdirilir, yəni ümumidən xüsusiyə doğru istiqamətlənmə əsasdır. Məsələn, fransız dilində sifət, adətən, isimdən sonra gəlir. Qeyd olunduğu kimi ingilis dilində təyin edən sifət isimdən əvvəl gəlir. Beləliklə dillərdə sifətin isimdən əvvəl və isimdən sonra gəlməsi halları iki qrup əmələ gətirir. Bu qruplar prepozitiv (prenominativ) və postpozitiv (postnominativ) anlayışları ilə fərqləndirilir. Çox zaman təyin edən funksiyasında sifətin işlənməsi nəzərə alınaraq postpozitiv (postnominativ) sifətlər, prepozitiv (prenominativ) sifətlər terminləri də istifadə edilir.

Sifətə çevrilməmiş feili sifətlər ingilis dilində isimdən sonrakı mövqedə işlənir. Məsələn*, She did not create the impression desired. O, lazımi təəssürat oyatmadı. İn the examples given – verilmiş nümunələrdə və s.* Təyin edilən ismə münasibətdəki belə postnominativ mövqe hər bir feili sifətin sıxılmış budaq cümlə olma təsəvvürü yaratması ilə izah olunur. Feili sifət tərkibini nəinki budaq, hətta müstəqil cümləyə qədər inkişaf etdirmək olar. Feili sifət yardımçı predikativlik çalarına malikdir. Feili sifətlə ifadə olunmuş təyin nəqletmə prosesində ümumi fikrə qoşulan əlavə məlumat təsiri buraxır. *"Divanda oturmuş adam kitab oxuyur" cümləsini "Adam.... o, divanda oturub... o, kitab oxuyur"* şəklində bölmək olar. Aydın olur ki, feili sifətin ifadə etdiyi əlamət feili zaman əlaməti kimi qəbul olunur və bu əlamətin təyin olunan isimlə əlaqəsi adi atributiv əlaqədən daha güclüdür. Bu baxımdan postnominativ təyində predikativlik çaları meydana çıxır. Postnominativ təyinin isimlə əlaqəsi, prenominativ təyinin isimlə əlaqəsindən daha çox predikativ əlaqəyə yaxındır. Feili sifətin təyin edilən sifətdən əvvəlki mövqeyə qoyulmasına mane olan bir cəhət də odur ki, feili sifətin yanında tamamlıq və ya təyin yerləşir.

İngilis dilində -able, -ible suffiksləri ilə düzələn sifətlər, əsas etibarı ilə feili əsaslıdır. Onları istənilən feildən düzəltmək mümkündür. Hətta feildən düzəlməyən belə sifətlər semantik əlamətlərinə görə feili sifətlərə yaxınlaşır. Məsələn, possible (mümkün) semantik əlamətinə görə may be (ola bilsin) birləşməsinə yaxınlaşır, sanki suppletiv münasibət əmələ gəlir. May be semantikasına görə possible sözünə necə yaxınlaşırsa, imagine sözü imaginable sifətinə o dərəcədə yaxınlaşır. -able, -ible suffiksli sifətlər məchul növ feili sifətlərin mənasına yaxın mənalıdır. Onlar sanki ayrıca bir qrup təşkil edib hərəkətin yerinə yetirilmə imkanını ifadə edirlər. Latın dili ilə müqayisə aparılarsa onları imkan ifadə edən passiv feili sifət qrupu saymaq mümkündür. İngilis dilində -able, -ible suffiksli sifətlərlə hərəkəti icra edən şəxs arasında əlaqə yaratmaq mümkündür. Məsələn, *reading – that reads, readable – that can be read.* Feili formalara nə qədər yaxınlaşsalar da, bu sifətlər feil sisteminə daxil olmur. Çünki onlar feillərə xas sintaktik funksiyalar daşımır. Feil formaları üçün səciyyəvi olan idarə də onlara yaddır.

Belə sifətlərdən sonra bu önlüklü tamamlıqlar işlənmir: a letter written by me. İngilis dilində "a letter that can be read by me" demək mümkündür. Lakin "a letter readable by me" formasını işlətmək olmaz. Bununla yanaşı, belə sifətlərin feili sifət olmadığını sübut etmək lazım gəlirsə bu faktın özü onların feili sifətə yaxınlığını təsdiq edir. Məhz feili sifətə belə yaxınlıq qeyd olunan sifətlərin postnominativ mövqedə işlənmə səbəbi kimi qəbul oluna bilər.

Adın təyinində isim də iştirak edir. Lakin ismə əlamət deyil, əşyalıq xasdır. Ona görə də isim təyin funksiyasında istifadə olunduqda onunla təyin edilən arasında hansısa xüsusi münasibət hökm sürməlidir. Yalnız bu halda isim əlamətin ifadəçisi funksiyasını yerinə yetirir. Bu baxımdan təyin funksiyalı isim ya xüsusi hal formasında, ya da önlüklə birləşmədə olmalıdır. Məsələn, *to fahter`s room, the roof of my house.* Onu da qeyd edək ki, ingilis dilinin leksikologiyasında stone wall tipli birləşmələr də qeyd olunur. Bu tipli birləşmə Azərbaycan dilinin yanaşma əlaqəsi ilə formalaşan birinci növ təyini söz birləşməsinə müvafiq gəlir: stone wall-daş hasar.

İngilis dilinin Possessive Case halında olan söz isimdən əvvəldə, yəni prenominativ mövqedə durur. Belə söz sırası və ona müvafiq sintaktik funksiyaya əsasən isim özünün əşyalıq rolunu qismən itirir. Alman dilində yiyəlik halın işlənməsində sərbəstlik var. İngilis dilindəki possessivle halında söz sırası konkretdir, dəyişməzdir. Bu hal predikativliyi istisna edir.

Feili təyin təyin edilən əvvəl və sonrakı mövqedə işlənə bilər. Bununla belə, qeyd etmək lazımdır ki, isimlərdə olduğu kimi, burada da prepozitiv mövqe əsasdır. Feildən sonrakı mövqedə işlənmə zamanı təyin məlumatın vacib hissəsi olur və xüsusiləşməyə meyillidir. Onun feillə əlaqəsi qabacqcadan verilmiş şəkildə başa düşülmür, müvafiq cümlədə yaranmış formada qəbul edilir. Məsələn, *He speeks well* cümləsi semantik olaraq He + (speeks well) şəklində deyil, He+speeks+well şəklində parçalanır.Bu cümlədəki əsas məlumat, aktuallaşan well sözüdür və əlaməti ifadə edir. Cümlədə speeks aralıq məlumat funksiyasını yerinə yetirir. Feilin yanında işlənən sifət o zaman postpozisiyada durur ki, onun daşıdığı informasiya aktual olsun əgər əlamətin aktuallaşması yoxdursa, o anda sifət prepozisiyanı tutur.

Typical examples have been carefully selected.

Tipik nümunələr ciddi seçilmişdir.

Bu cümlədə əsas məlumat nümunələrin seçilməsidir. Cümləyə daxil olan "ciddi" aralıq məlumat funksiyasını yerinə yetirir.

Typical examples +have been + (carefully selected).

Əgər cümlə "typical examples have been selected carefully" şəklində olarsa, carefully aktuallaşır və əsas semantik yükü üzərinə keçir. Azərbaycan dilində bu fikri aşağıdakı kimi vermək mümkündür:

Tipik nümunələrin seçilməsi ciddi olmuşdur.

Göründüyü kimi, son cümlədə nümunələrin seçilməsi deyil, seçimin ciddiliyi aktuallaşdırılmışdır.

Bəzi sözlər feildən əvvəlki mövqedə işlənməyə meyillidir. "He wisely refrained from remarks" tipli cümlələrdə feildən əvvəlki mövqedə, daha doğrusu, postpozisiya işlənən söz (wisely) fəaliyyəti (refrained) səciyyələndirmir, onu danışanın qiymətləndirməsini təqdim edir. Söz postpozitiv mövqedə durduqda fəaliyyətin necəliyini təyin edir.

"He naturally spoke", və "he spoke naturally" cümlələrindən birincisində danışmaq aktının reallaşması haqqında məlumat aktualdırsa, ikincisində necə danışmağı aktuallaşdırır. Deməli, təyinin postpozitiv mövqeyi əlaməti ifadə edən sözün semantikasını ön plana çəkir.

Təyin leksik xəbəri, ismi xəbəri ifadə etmirsə, o, təyin ediləndən əvvəldə yerləşir.

Cümlənin təhlili prosesində cümlə üzvləri üzrə standart təhlillə kifayətlənmək olmaz. Bəzən elə hallar qarşıya çıxır ki, cümlə üzvləri hüdudlarını aşır. Obyektli predikativ üzvlü konstruksiyalar bunu təsdiq edir. Belə konstruksiyaları xəbərin tərkibinə daxil etmək olmaz.

He painted the door white – O, qapını ağ rənglədi.

Bu cümlədə painted white kompleksi meydana çıxır. Belə təsəvvür yaranır ki, painted bağlayıcı feildir, white isə predikativ üzvdür. Lakin bu predikativ üzv mübtədaya deyil, tamamlıq (door) aid olur. White sözünün predikativlik xarakteri tamamlığın (Door) xarakteristikalarına yönəlmişdir.

The elected him ethe secretary of the committee. – Onlar onu komitənin katibi seçdilər.

They named him Tom. Onlar onu Tom adlandırdılar. Bu cümlədə əvvəlkində olduğu kimi predikasiya ifadəsini feildə natamam tapmışdır. Bir tərəfdən müəyyən proses əksini tapır, proses predikasıyası reallaşır (they elected him, they named him) mövcuddur, digər tərəfdən, əlavə səciyyələndirmə (the secretary of the committee, Tom).

"They named him Tom" cümləsində named mübtədaya, Tom tamamlığa birləşir və him "Tom kompleksi əmələ gəlir. Belə təsəvvür yaranır ki, him üzvü Tom üzvünə münasibətdə mübtədadır. Obyektli predikativ üzvə münasibətdə obyekt potensial subyekt rolunu oynayır. Beləliklə, obyektli predikativ üzv cümlənin müstəqil üzvü olur. Bu predikativ üv xüsusi növ üzv olub müntədaya deyil, tamamlığa aidliyi ilə seçilir.

A.İ.Smirnitski bağlayıcı feilin natamamlığı zamanı predikativ üzvü xəbərin komponenti kimi qəbul etmişdir. *The sun was red*. Bu cümlədə red xəbərin komponenti olur [5, s.197].

İngilis dilində postnominal sifətlərin yaratıdığı konstruksiyalar İndefinite pronoun construction (İPC) də adlandırılır.

İnteresting və tall kimi sifətlər normal olaraq prenominal mövqedə işlənir. Lakin onlar qeyri-müəyyən əvəzliklər, daha dəqiq desək, *everything / something / anything / nothing; everyone /someone / anyone / no one* kimi əvəzliklərlə işləndikdə postnominal mövqe tuta bilirlər.

Every interesting book	*eveyr book interesting*
A tall person	*a person tall*
Interesting everyhting	*everything interesting*
Trall someone	*someone tall*

Qeyri-müəyyən əvəzlikli konstruksiyalarda postnominal sifətlər N-sıralanma ilə göstərilə bilən prenominal sifətlər kimi təhlilinə cəhd göstərilmişdir

İngilis dilində prenominal və postnominal sifətlər fərqli semantikaya malik olur [2, s.80]. Postnominal mövqedə sifət işləndikdə cəmlik effekti əmələ gəlir. Prenominal mövqedə bu cəhət aşkara çıxmır.

a rope (25 inches long)
a (25 inche long) rope
a river (three miles wide)

İngilis dilində *-able* suffiksi aktiv və passiv semantikaya malikdir. Aktiv semantika fəaliyyəti, passiv semantika isə sözün ifadə etdiyi üzərində təsiri əhatə edir. Bu son şəkilçili bütün sifətlərdə mümkünlük/qeyri-mümkünlük modal semantikası bu və ya digər dərəcədə ifadəsini tapır. Belə modallığın ifadə dərəcəsi sözün dildə mənimsənilməsindən asılıdır. Mənimsənilmiş sözlərdə məna birləşmədə özünü göstərir. Məsələn, *suitable dress – yaraşan paltar*. Yeni düzələn belə son şəkilçili sifətlərdə modal semantika ön plana çıxır. Məna sözdüzəltmə qaydasına əsasən çıxarılır və düzəltmə sifət semantik şəffaf olur. *-able* son şəkilçisi ilə bütün feillərdən sifət düzəltmək mümkündür. Azərbaycan dilində modal sifətlər *-lı, -li, -lu, -lü* şəkilçiləri ilə düzəlir və şəkilçi bilavasitə feilə deyil, feili ismə artırılır: oxumalı, gülməli, içməli, görməli və s. İngilis dilində *-able* ilə düzələn modal sifətlərin bir qismi Azərbaycan dilində feili sifətlə verilir: *visible – görünən*. Bununla belə ingilis dilinin *-able* son şəkilçili modal sifətlərinin Azərbaycan dilində qarşılığını tapmanın konkret üsulu, qaydası yoxdur. İngilis dilinin *-able* son şəkilçisinin fransız və alman dilindən sözalma prosesində əmələ gəlməsi qeyd olunur. Həmin şəkilçi ingilis dilindən rus dilinə keçən sözlər əsasında XX əsrin əvvəllərində rus dilinə daxil olmuş və *-бельн-/-абельн-/-ибельн-* şəkilçilərinin formalaşmasına səbəb olmuşdur. Rus dilindən Azərbaycan dilinə keçən bəzi sözlərdə müşahidə olunur. Məsələn, rentabelli.

Onu da qeyd edək ki, *-able* son şəkilçili sifətlər rus dilinə tərcümə edildikdə modal feilli və ya modal sözlü budaq cümlələrindən istifadə olunur. Bu xüsusiyyət ingilis dilində postnominativ mövqedə işlənən sifətlərin budaq cümləyə transformasiyası ilə səsləşir.

Modal *-able* suffiksli sifətlər öz semantikalarına görə məchul növdə olan feili sifətlərə yaxındır. Onlar fəaliyyətin yerinə yetirilmə mümkünlüyünü ifadə edən spesifik feili sifətlərdir [5, s.247].

"The Visible visible stars include Capella" cümləsində "sifət prenominal mövqedə iki dəfə ardıcıl işlənmiş və onlar fərqli mənalara malikdir. *The invisible visible stars include Capella"* cümləsində predikat koherentdir. Əgər ardıcıl işlənmiş iki postnominativ sifətin yerləri dəyişdirilərsə, koherentlik aradan götürülür.

Domeyn sifətlərin iki tipi – leksik və morfoloji tipləri vardır. Birinci halda birləşmə tərkibində işlənən domeyn sifətlərin miqdarı yüksək dərəcədə məhduddur. *"Kate looked at every possible person*" cümləsində prenominativ və postnominativ mövqedə işlənə biləcək sifətlərin miqdarı azdır. Bu sifətlər çoxluğunu possible sifətindən başqa *-able* suffiksi ilə düzələn *conceivable, imaginable, avilable, visible, responsible, likeable, remarkable, presentable, followable, marketable, electable* domeyn sifətləri daxildir. Təbii ki, ingilis dilində *-able* ilə düzələn başqa sifətlər (suitable, nowigable) vardır. Onlar sadəcə verilmiş cümlədə *possible* sifətini əvəz edə bilmir. Məhdudluq konkret birləşmədə postnominal mövqedə işlənməklə əlaqədardır. Ümumiyyətlə, ingilis dilində postnominal sifətlərin sayı məhduddur və onların əsas hissəsini də *-able* suffiksi ilə düzələnlər təşkil edir. Postnominativ mövqedə işlənmənin tədqiqatçıların diqqətini cəlb edən əsas cəhət məna dəyişmələri, prenominativ mövqedəki çoxmənalıqdan postnominativ mövqedə təkmənalığa keçid baş verir.

The astronomer cursed every invisble visble star.

The astronomer cursed every visble star invisble.

The astronomer cursed visble star invisble without a telescope.

Verilmiş üç cümlədə istifadə olunan domeyn postnominal sifətin həm təsdiq, həm də inkar forması postnominativ mövqedə işlənir. Lakin onlar postnominal mövqedə ardıcıl istifadə edilmişdir. Burada prepozitiv və postpozitiv təyinin eyni zamanda işlənmə halı müşahidə edilir ki, bu da atribut kompleksin qarışıq tipinə aid olan formadır. Nəzərə almaq lazımdır ki, DAs relyativ halla qeyri-müntəzəm korrelyasiyaya malikdir. Postnominal DA əsasən, qeyri-aşkar və ixtisar edilmiş RC çərçivəsinə daxil olur. RRCA təhlili postnominal DA ilə RC paylanmasının üst-üstə düşməsini təsdiq edir. RRCA təhlili RC-nin sıfır tamamlıqlı sifət əsasında formalaşdığını aşkara çıxarmalıdır. Yalnız belə tamamlığı qəbul edən sifət postnominal mövqedə işlənməkdə məhdudiyyətə malik olmalıdır.

Postnominativ sifətlərin RRCA təhlilində determinantların iştirakı və onların məhdudluq şərtlərinin təyini də mühüm əhəmiyyət kəsb edir. Domeyn sifətlərin (DAs) postnominal mövqedə işlənməsi zamanı məhdud miqdarda determinant ümumi atributiv kompleksə qoşulur.

The chief interviewed each worker(s) possible.

Bu cümlədə *worker(s) possible* konstruksiyasından əvvəl *each* determinantı yer tutmuşdur. Bu determinant mövqeyində eyni funksiyanı yerinə yetirən başqa determinantların da işlənməsi də mümkündür. Onlara *a, the, every, some, the best, the only, few* aiddir. Göründüyü kimi, göstərilən mövqedə yalnız universal determinantlar işlənir və yalnız onlar DAs ilə ümumi atributiv kompleksə qoşulur. Nəticədə bu determinantlı RC formalaşır. Sadalanan bütün determinantlar nəzərə alındıqda RCs toplusu əmələ gəlir. Bu topludan olan hər hansı RC seçimi cümlədən və ötürülən informasiyadan asılıdır.

Kate looked at a person that (it) was possible for him to look at.

Kate looked at a person possible.

Bu iki cümləyə nəzərə saldıqda RRCA təhlilində RC strukturunda DA-nı seçmənin ümumi mexanizminin kompozisiya semantikasına söykənməsi aşkara çıxır.

Kompozisiya semantikası məsələsi sintaktik konfiqurasiya ilə bağlı olub transformasiya və generasiya qaydaları çərçivəsində araşdırılır.

DA-nın məhdud paylanmasını və xüsusi mənalarını nəzərə alaraq onların, yəni domeyn postnominal sifətlərin müvafiq transformasiya və generativ modelinin leksikonunda sintaktik tam kimi verilməsi məqsədəuyğun sayılır. Bu halda DA ifadəsinin leksik semantikasını, sintaktik konfiqurasiyasını və kompozisiya semantikasın aydınlaşdırmaq mümkünləşir. Belə ümumiləşdirmədən bir sıra maraqlı istisnalar törəyir.

Generativ dilçilik dilin müəyyən tipli formal modellərlə təsvirinə əsaslanır. Belə formal modellərin ilkin və baza tipi transformasion törədici (generativ) qrammatikadır.

Generativ qrammatikanın strukturuna sintaktik, semantik və fonoloji komponentlər daxildir. Universal qrammatika səviyyəsində dərinlik strukturları nüvə sintaktik konstruksiyaları (nüvə cümlələri) rolunu oynayır. Dərinlik strukturları dil kompetensiyası və ya dil səlahiyyətidir. Dil səlahiyyəti anadangəlmə əlamətdir və insan onun əsasında cümlə quruluşunda düzgün olanı təyin edir. Postnominativ mövqedə işlənən postnominativ sifətdən istifadə edilmiş aşağıdakı nümunəyə baxaq və onun üzərində müəyyən çevirmələr aparaq.

1. "Polonius: What do you think of me?

King: As of a man faithful and honourable".

2. "Polonius: You think what do of me.

King: Faithful and honourable of a man as".

2-cidə aparılmış yerdəyişmələr cümlənin düzgün qrammatik quruluşunu pozduğuna görə bu kontekst başa düşülməyən forma almışdır. Dil səlahiyyəti də bu söz və birləşmələr yığımını anlamağa kömək etmir. Birinci forma isə poetik dildədir. Onun ikinci misrasında xəbər və subyekt olmasa da, dil səlahiyyəti dialoji nitqi bir yerdə götürməyə zəmin yaradır. Kralın nitqində *"I think about you", "I think you is a man"* kimi ifadələr dil səlahiyyəti əsasında bərpa olunur. Onu da nəzərə almaq lazımdır ki, cümlə qrammatik doğru ola bilər, lakin onun ifadə etdiyi məzmunu başa düşülməz. N.Xomski qrammatik düzgün mənasız cümləyə aid belə bir nümunə vermişdir:

Colorless green ideas sleepfuriously

Furiously sleep ideas green colorless [6, s.166].

Generativ qrammatika çərçivəsində yaranmış alt (dərinlik) strukturlar nəzəriyyəsi də standart nəzəriyyənin formalaşmasına aparıb çıxarmışdır. Klassik standart nəzəriyyədə iki model fərqləndirilmişdir. Bunlardan birincisi "sintaktik strukturlar", ikincisi "aspektlər" modeli adlandırılır.

Bir çox Avropa dillərində feil qovşağı cümlənin mərkəzidir. Belə ki, feil hərəkəti, prosesi göstərir. *"Adil Turalı vurur*" cümləsində proses vurur feili vasitəsi ilə ifadə olunur. Sirkonstantlar hərəkətin baş verdiyi vəziyyəti göstərir. Məsələn, *Amil always puts his nose everywhere "Amil öz burnunu hər yerə soxur"* cümləsində iki sirkonstant vardır: always "həmişə" (vaxt) və everywhere "hər yerə" (yer). Sirkonstantlar zərf və ya onun ekvivalenti olur. Əksinə, məhz zərf cümlədə sirkonstantlar rolunu öz üzərinə götürür. Feil feil qovşağında, eləcə də feil cümləsində mərkəz rolunu oynayır. Beləliklə, o, bütün feil cümləsini idarə edən ünsürdür. Fransız dilçiliyindən fərqli olaraq, ingilis dilçiliyində feil tammənalı və köməkçi feil qovşaqlarına bölünür. Ənənəvi dilçilikdə tammənalı feil qovşağına tamamlıq, zərflik daxil edilir. Bu təsnifat yeganə variant kimi nəzərdən keçirilməmişdir, bu ikisindən birini kənarlaşdıraraq, ancaq bir asılı ünsür saxlamağa cəhdlər edilmişdir. Lakin bu nöqteyi-nəzər dilçilərin əksəriyyəti tərəfindən qəbul edilməmişdir. Bu təsnifatın inkarı təsadüfi deyil, müxtəlif sintaktik ünsürlər kimi tamamlıq və zərfliyin feilə tabe olması müəyyən təsdiqləmə tapır, belə ki, feil nüvəsi tamamlıq və zərfliyə münasibətdə müxtəlif mürəkkəb xüsusiyyətlərlə səciyyələnir. İsim qovşağı asılılığın atributiv statusunu, zərf qovşağı dərəcə zərfliyinin olmasını göstərirsə, feil qovşağında formal meyarlar tam təyin olunmamışdır. Əgər substantiv, adyektiv və adverbial qovşaqlarda formal cəhət nüvənin morfoloji mənsubiyyətinə görə təyin

olunursa, feil qovşaqlarında ənənəvi olaraq asılı vahidlərin təyini məna səviyyəsinə endirilir. Məsələn, *stop the car* və *stop three times* birləşmələri tabe ünsürlərin müxtəlif mənalarında çıxış edərək müxtəlif daxili sintaktik əlaqələr kimi təsnif edilir, belə ki, car əşya bildirir, three times hərəkətin neçə dəfə baş verdiyini göstərir. "Aktantlar və sirkonstantlar" yarımbaşlığında aktant və sirkonstant arasında fərqlər ortaya çıxarılır.

Qeyd etmək lazımdır ki, ciddi meyarların olmamasına baxmayaraq, müxtəlif tədqiqatçılar konkret hallarda aktantların iyerarxik dərəcəsinin təyinində eyni fikrə gəlir. Sonradan aktantlar nəzəriyyəsi inkişaf etdikcə, semantik sintaksis üçün vacib olan semantik və sintaktik aktantlar arasında qarşıdurma nəzərə çarpır. Semantik nəzəriyyələrdə, əsasən, aktant terminin əvəzinə arqument termini işlədilir. L.Tenyerin nəzəriyyəsində aktant sirkonstanta qarşı qoyulur. İndiki dövrdə "sirkonstant" termini semantik termin kimi işlədilir, yəni sintaktik aktanta qarşı qoyulur. Aktantdan fərqli olaraq, sirkonstantlar sözün təfsirinə aid deyil. Onlar predikat sözlərə qoşularaq situasiyanı daha da mənalandırır. Aktantlar nəzəriyyəsində əsas məsələ semantik aktantlar və sirkonstantlar arasında hüdud məsələsidir. Düzdür, qeyd etdiyimiz kimi, sintaktik meyar aktant və sirkonstant arasında müəyyən hüdud çəkməyə imkan yaradır, bununla belə, bu meyar heç də həmişə düzgün qoyulmur. Bu da məlum məsələdir ki, sintaksis sadə cümlənin semantik vacibliyini yaxşı modelləşdirmir. Substantiv qovşaq. Fransız dilçiliyində hər hansı bir substantiv qovşaq cümlə əmələ gətirə bilər.

Nüvədən bir neçə üzv asılıdırsa, onlar bir-biri ilə ya bilvasitə - *the lady's charming personality*, ya da aralıq üzvlərlə - *at the edge of the dance floor* - bağlı ola bilər. Ardıcıl idarə əlaqəli qovşaqlarda sintaktik səviyyələrin iyerarxiyası yaranır ki, bu da qovşağın sintaktik perspektivlərinin dərinləşməsinə gətirib çıxarır Genişləndirmə həm ön mövqeli, həm də son mövqeli ola bilər. De Qrot substantiv qrupu iki yarımqrupa bölür: 1) qeyri-predikat təyinatlı qruplar; 2) predikat təyinatlı qruplar. İkinci qrupda mübtəda baş roldadır, xəbəri təyin edir. Qeyri-predikat substantiv qruplarda 1) vurğu axırıncı sözün üzərində olur; 2) təyin edən söz baş olanı qabaqlayır. Fransız struktur dilçiliyində sintaksisdən bəhs edən bütün dilçilər dildə (əslində fransız dilində) dörd qovşağın – substantiv qovşağın, feil qovşağının, adyektiv qovşağın və adverbial qovşağın mövcudluğundan danışırlar. Fransız dilçiliyindən fərqli olaraq, Danimarka dilinin sintaksisində əvəzlik qovşağının da olduğu qeyd edilir; bu barədə məlumatı G.Qraffi öz əsərində qeyd etmişdir. Azərbaycan dilində əvəzlik qovşağına daha çox şifahi nitqdə rast gəlmək olar. Məsələn, onların hamısı, bizdən bəziləri. "Adyektiv qovşaq" yarımbaşlığında adyektivin xüsusiyyətləri nəzərdən keçirilir. Adyektiv qovşaq həm ön mövqedə, həm də son mövqedə işlənə bilir. Substantivyanı mövqe üçün prepozitiv genişlənmə adyektiv qovşağa məxsusdir – *a very handsome man "çox gözəl/ alicənab insan".* Sifət funksiyasında postpozitiv sifətlər həm sol, həm də sağ genişlənməyə malikdir: the breathing just faintly audible in the stillness. Əgər sifətin tabe etdiyi ünsür kimi zərf çıxış edirsə, zərf öz növbəsində yalnız digər zərfi tabeliyində saxlaya bilər. İyerarxik pilləkənlə düşdükdə, nəzəri cəhətdən zərfin ona tabe olan zərflərin sayını azaltmağa ehtiyacı yoxdur. Sxemlərin formaları göstərir ki, iyerarxik pilləkənlə nə qədər aşağı düşməkdən asılı olmayaraq, tabe olan və idarə edən arasında struktur münasibət sabit olaraq qalır. Əgər sifət tabe edən kimi zirvədə dururs, zərflər öz qovşaqlarını saxlamaq üçün bütün zərf variantlarından istifadə edir. "Adverbial qovşaq" bölməsində zərf cümlələrinin xüsusiyyətləri araşdırılır. Substantiv, feil və sifətlə yanaşı zərf də feil qruplarında müstəqil çıxış edir və zərf qrupları əmələ gətirir. Bu qruplar struktur sintaksisdə zərf qovşaqları adlanır, zərf bu qovşaqlarda qrupun nüvəsidir, adverbial birləşmə əmələ gətirir və ondan asılı olan komponentlərə malikdir. HindAvropa dillərində adverbial birləşmələrdə zərfə münasibətdə asılı olan komponentlər həm ön mövqedə – sol genişlənmə (məsələn, ingilis dilində *very quickly, too soon*, rus dilində *очень хорошо, слишком поздно),* həm də son mövqedə – sağ genişlənmə (məsələn, ingiliscə*: quickly enough*), türk dillərində, o cümlədən Azərbaycan dilində asılı komponentlər zərfə münasibətdə ancaq sol genişlənmə *(olduqca yaxşı, çox pis)* kimi çıxış edir. Həm birinci, həm də ikinci halda zərf və onun

komponentləri arasında əlaqə sxemlərdə üfüqi xətlə göstərilir. Çox → pis olduqca → yaxşı Azərbaycan dilində zərf birləşmələrində asılı komponentlər həmişə sol mövqedə durur; belə birləşmələrdə ikinci komponent kimi yer, zaman və tərzi-hərəkət zərfləri çıxış edir, məsələn*: evdən yuxarı, işıqdan tez, quş kimi tez, çox yavaş, sənlə yanaşı* və s. Azərbaycan dili və hind-Avropa dillərindəki zərf birləşmələri arasında iki fərqləndirici məqama diqqət yetirmək istərdik: 1) Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dilində asılı komponentlər həmişə nüvə birləşməsini qabaqlayır, yəni asılı komponentlər həmişə zərfə münasibətdə sol mövqedə durur, hind-Avropa dillərində isə (məsələn, rus, ingilis dillərində) asılı komponent zərfə münasibətdə həm sol, həm də sağ mövqedə dura bilər: Az. olduqca asta (getmək), çox yavaş (qaçmaq), könüldən uzaq. Rus. ön mövqedə: очень быстро, слишком медленно; son mövqedə: далеко от дома, рядом с тобой; İng. ön mövqedə: too far, very close, a moment later; son mövqedə: yesterday afternoon, tomorrow later; 2) Hind-Avropa dillərində zərf ancaq zərfi idarə edirsə, yəni zərf birləşmələrində nüvədə asılı komponent ancaq zərf ola bilirsə, Azərbaycan dilində zərf birləşmələrində zərfdən başqa, struktur sintaksisdə substantiv adlanan isim, əvəzlik də asılı komponent ola bilər.

Ədəbiyyat

1. Cavadov Ə. Dil vahidlərinin sıralanması sistemi // Azərbaycan dilçiliyi müntəxəbatı, Bakı: "ABİS ALARCO", – c.3. –2013. – s.269-286

2. Арнольд И.В. Основы научных исследований в лингвистике. - М.: Высшая школа, 1991.- 140 с.

3. Дрога М.А., Фуникова С.В. Обозначение красоты в некоторых языках мира (на материале прилагательных) // Молодой ученый, 2014. – № 11. – С. 332-334.

4. Кубрякова Е. С. О номинативном компоненте речевой деятельности. – Вопр. языкознания, – 1984. № 4, – с. 15.

5. Смирницкий А.И. Лекции по истории английского языка /средний и новый период/ – М.: "Добросвет", Книжный дом "Университет", – 1998. – 238 с.

6. Chomsky N. Remarks on nominalizations. – In: Readings in English transformational grammar / Ed. Jacobs R.A., Rosenbaum P.S. Waltham etc., 1970, 221 p.

7. Scott Gary-John. 'Stacked adjectival modification and the structure of nominal phrases'// In Guglielmo Cinque (ed.), Functional structure in the DP and IP: the cartography of syntactic structures, – Oxford: Oxford University Press, – 2002. – p. 91–120.

8. Svenonius P. On the Structural Location of the Attributive Adjective / In E. Duncan, D. Farkas, and P. Spaelti (eds.) Proceedings of the Twelfth West Coast Conference on Formal Linguistics (WCCFL). – Stanford, CA: Stanford Linguistics Association, CSLI, – 1994. –p.439-454

С.М.Раджабова

Некоторые особенности постименных прилагательных в многосистемных языках

Резюме

Для английского языка характерно использование определения до определяемого слова. В этом случае основную функцию слова выполняет определяемое слово. Развитие от особого признака мысли к общему понятию характерно для всего строения английского языка, это даже возможно наблюдать в словообразовании. Есть такие языки, в которых мысль развивается в другом направлении, т.е. в направлении от общего к особенному признаку в основе. Например, во французском языке, прилагательное обычно находится после существительного. Как упоминалось, в английском языке определяемое прилагательное стоит до существительного. Итак, в языках случаи положения прилагательного до и после существительного порождают две группы. Эти группы различаются по понятиям препозиции (преименные) и постпозиции (постименные). В большинстве случаев, принимая во внимание использование прилагательного в функции определения используются термины постпозитивные (постименные) и препозитивные (преименные) прилагательные.

S.M.Rajabova

Some features of pronominal adjectives in multisystem languages

Summary

The English language is characterized by the use of a definition up to a defined word. In this case, the determined word performs the main function of the word. The development from a special sign of thought to a general concept is characteristic of the whole structure of the English language, it is even possible to observe in word formation. There are languages in which thought develops in a different direction, i.e. in the direction from general to special at the core. For example, in French, the adjective is usually found after the noun. As mentioned, in English a defined adjective stands before a noun. So, in languages, cases of the position of the adjective before and after the noun give rise to two groups. These groups differ in terms of preposition (prenominal) and postposition (postnominal). In most cases, taking into account the use of the adjective in the definition function, the terms postpositive (postnominal) and prepositive (prenominal) adjectives are used.

Rəyçi: prof. Ə.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 02.06.2020

İ.Ə.ŞIXIZADƏ

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

ETNONİMLƏRİN YARANMA YOLLARI

Açar sözlər: *onomastika, etnonim, tayfa, leksik vahid, etnogenez, söz yaradıcılığı*
Ключевые слова: *ономастика, этнонимы, племя, лексическая единица, этногенез, словообразование.*
Keys words*: onomastics, ethnonym, tribe, lexical unit, ethnogenesis, word formation*.

Azərbaycan onomastikasının ən maraqlı və zəngin sahələrindən birini etnonimlər təşkil edir. Bura xalq, tayfa, qəbilə, millət, nəsil adları və s. aiddir. Etnonimlər onomastikanın etnonimika bölməsində öyrənilir. Xalqımızın formalaşmasında özünəməxsus yeri olan etnosların adlarının tədqiqi Azərbaycan dilçiliyi üçün böyük əhəmiyyət daşıyır. Bu onomastik vahidlərin bir qisminin tarixi eramızdan əvvəlki dövrlərə aiddir. Etnonimlərin bir qisminin tərkibində işlənən sözlərin mənasını müasir Azərbaycan dili baxımından izah etmək mümkün deyil, bu sözlərin bəziləri müasir dilimiz üçün köhnəlmişdir. Etimoloji cəhətdən üzərində araşdırma aparılmasına ehtiyac olan etnonimlər Azərbaycan onomastik sistemində çoxdur. Onların tədqiqi Azərbaycan xalqının etnogenezində iştirak etmiş tayfaları müəyyən etmək üçün qiymətli faktlar verir. Dilimizin formalaşmasında həlledici rol oynamış konkret etnosların adlarını üzə çıxarmaq tək Azərbaycan dilçiliyi üçün deyil, həm də türkologiya elmi üçün əhəmiyyətlidir.

Azərbaycan etnonimlərini öyrənmək üçün tarixi mənbələrdən, qaynaqlardan, istifadə olunur. Azərbaycan ərazində etnonimlərlə əlaqədar çoxlu oykonim, oronim, hidronim yaranmışdır. Etnonimləri tarixçilər başqa aspektdən, dilçilər başqa aspektdən araşdırırlar. Onların tarixçilər tərəfindən tədqiqi daha çox etnogenetik proseslə bağlıdır. Azərbaycan onomastik sistemində etnonimlər indiyə qədər geniş və hərtərəfli tədqiq olunmamışdır.

Etnonimlər də leksik vahid olduğu üçün dilin sözyaradıcılığının bütün qanunauyğunluqları onlarda özünü göstərir. Leksik vahidlərdə olduğu kimi etnonimlərin yaranması sadədən mürəkkəbə doğru inkişaf etmişdir. Etnonimlərin quruluşuna görə sadə, düzəltmə və mürəkkəb formaları vardır.

Onomastik leksik vahidlərdən olan etnonimlərin yaranmasını linqvistik baxımından araşdırmaq vacib problemlədəndir. Etnonimlərin araşdırılması derivitologiya sahəsi ilə yanaşı həm də dil tarixi, dialektologiya sahəsi üçün mühüm əhəmiyyət kəsb edir. Etnonimlərin yaranma yollarının araşdırarkən onların apelyativlərlə əlaqəsi nəzərə alınmalıdır. Bir çox etnonimlərin yaranmasında antroponimlərdən, toponimlərdən, zoonimlərdən, sənət, peşə, məşğuliyyət, zahiri əlamət, rəng, dini məfhum bildirən sözlərdən, ləqəblərdən, titullardan və s. istifadə olunmuşdur.

Digər leksik vahidlərdə olduğu kimi etnonimlər yaranarkən üç yoldan istifadə edilir. Azərbaycan dilindəki etnonimləri yaranmasına və formalaşmasına görə bu şəkildə qruplaşdırmaq mümkündür:

1. Leksik yolla əmələ gələn etnonimlər;
2. Morfoloji yolla əmələ gələn etnonimlər;
3. Sintaktik yolla əmələ gələn etnonimlər.

Hər üç yol öz inkişafına görə müəyyən qədər bir-birindən asılıdır.

Leksik yolla əmələ gələn etnonimlər yaranma üsuluna görə morfoloji və sintaktik yolla əmələ gələn etnonimlərdən sadəliyi ilə fərqlənir. Leksik yolla əmələ gələn etnonimlərin əksəriyyəti qədimdir. Bu yolla əmələ gələn etnonimlərə qeyd etmək olar: hun, türk, əfşar, tele, tuğ, minq, sadak və s.

Leksik yolla yaranan bəzi etnonimlərin tərkibində müasir dilimiz üçün arxaik hesab edilən qədim türk sözləri iştirak edir. Arxaik sözlərdən yaranmış etnonimlərin araşdırılması onomastika sahəsi ilə yanaşı dilimizin tarixi leksikasını öyrənmək baxımından qiymətli material verir.

Türkdilli etnoslardan biri də Təklə tayfasıdır. Onların bir hissəsi Cənubi Azərbaycanda məskunlaşmışdılar. Təkə sözünün mənası "erkək keçi, sürünün qabağında gedən keçi" mənasındadır.

Tədqiqatçılar təklə tayfasının Şimali Azərbaycana gəlmə olduğunu yazırlar. "Azərbaycan ərazisində yaşamış Təklə tayfası yerli deyildir. 1540-cı ildə Türkiyə ərazisindən Qazaxıstan başda olmaqla Təklə tayfası İrana gəlmiş və şah I Təhmasibin tabeliyindən keçmişdir. Şah təkəlilərin bir hissəsini həmişəlik yaşamaq üçün indiki Salyan rayonu ərazisinə köçürmüşdür. XX əsrin əvvəllərində bu tayfa 14 tirədən ibarət bir tayfa idi" (1. s.238).

Tuğ etnonimi leksik yolla yaranmışdır. Etnonim quruluşca sadədir. Tuğ arxaik sözdür. Tuğ qədim dövrlərdə müxtəlif mənalarda işlənmişdir.

"1. Qədimdə: padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzək.

2. Qədimdə: at quyruğu qıllarından düzəldilmiş qoşun bayrağı; ümumiyyətlə bayraq.

3. Keçmişdə: məhərrəmlik mərasimində güzgülər və s. ilə bəzədilmiş cürbəcür şəbih və dəstə əlaməti" (2, s. 373).

Tuğ tayfasını qıpçaq tayfalarına aid edirlər. Bu tayfalar VI əsrdə Türküstan ərazisində məskunlaşmışlar. Azərbaycan Respublikasının Xocavənd rayonunun ərazisində yerləşən Tuğ kəndi tuğ etnosunun adını özündə əks etdirir.

Qayı etnonimi oğuz tayfalarına aiddir. Antroponim əsasında formalaşmışdır. Rəşidəddin bu tayfanın adının Gün xanın birinci oğlu-Oğuzun nəvəsinin adı Qayı ilə bağlı olduğunu və anlamının "möhkəm" olduğunu yazır. Onqonu-ağ şahin, ət payı (ülüşü)-arxa ayağın sağ baldırı" (3. s, 54). Qusar rayonu ərazisində Qayı kəndi mövcuddur.

Şatır etnonimi leksik yolla əmələ gələn etnonimdir. Quruluşca sadədir. Etnonim qədim şatır peşəsinin adını bildirir. Keçmiş zamanlarda şatır peşə adını bildirmişdir. Orta əsrlərdə onlar əsasən hökmdarların yazılı məktubunu və şifahi sözlərini çatdırırdılar. Şatırlıq belə adamların əsas dolanacaq peşəsi hesab olunurdu. Onlara XIX-XX əsrin əvvəllərində İranda çapar da deyilirdi. Şatır qasid və xəbər gətirən mənasında da başa düşülməlidir. Fransız alimi Şardenə görə, şatır sözü şahın piyada nökəri mənasındadır. Səfəvilər hakimiyyəti dövründə isə şatırlar peşəkar kimi yetişirdilər. Fransız səyyahı Tavernye yazır ki, iranlılar (o cümlədən azərbaycanlılar) şatır saxlamağı şan-şöhrət əlaməti kimi qiymətləndirdiklərinə görə, şöhrətli adamların daha çox şatırı olurdu. Şatırlıq peşəsi atadan oğula irsi keçirdi. Uşaqlar 6-7 yaşlarında sürətlə yortma yerimək və qaçmağı məşq edirdilər. Orta əsrlərdə gecə səfərə çıxan varlıların atlarının qabağında nökərlər məşəl tutub yortma gedirdilər. (4.s.71) Şatıroba kəndi Azərbaycan Respublikasının Masallı rayonunun ərazisində yerləşir.

Leksik yolla müasir dilimiz üçün arxaik sözlərdən yaranmış etnonimlərə sadak etnonimini aid etmək olar. Sadak keçmişdə "ox qabı" mənasında işlənmişdir. Sadaq leksik vahidinə «Kitabi-Dədə Qorqud» dastanında rast gəlinir:

Qara polad üz qılıncın vergil mana!

Sadağında səksən oxun vergil mana! (5.s.28)

"Koroğlu" dastanında sadak leksik vahidinə təsadüf olunur: "Siyirə qılıncı, çəkə qalxanı; səksən oxu sadağından boşala."

Morfoloji yolla sözyaratma prosesində etnonimlər yaranarkən sözdüzəldici şəkilçilərdən istifadə olunur. Azərbaycan onomastik sistemində morfoloji yolla düzələn etnonimlərl çoxdur. Bu dilimizdə olan sözdüzəldici şəkilçilərin zənginliyi ilə bağlıdır. Sözlər yaranarkən morfoloji prosesin mahiyyətinə görə, ilk növbədə kökə şəkilçi artırılmaqla yeni düzəltmə sözlər yaranır. Morfoloji yolla düzələn etnonimlərin yaranması prosesi özünəməxsus tarixi inkişaf yolu keçmişdir.

Morfoloji üsulla onomastik vahidlər düzələrkən kök söz olaraq müxtəlif nitq hissələrindən istifadə olunur və etnonimlər yaranarkən istifadə olunan şəkilçilər ifadə etdikləri mənalarına görə fərqli olur, ən çox isim və sifətlərdən düzəlir. Morfoloji yolla etnonimlər yaranarkən bu modellərdən istifadə olunur:

1. Kök+şəkilçi modeli əsasında yaranan etnonimlər;
2. Kök+şəkilçi+şəkilçi modeli əsasında yaranan etnonimlər.

Kök+şəkilçi modeli əsasında formalaşan etnonimlər kökə şəkilçi əlavə etməklə əmələ gəlmişdir. Bu formada yaranan modelə bütün onomastik vahidlərdə rast gəlinir. İsimə -çı ,-çi ,-çü, -çu şəkilçisini əlavə etməklə yaranan etnonimlərə yurdçu, kəpənəkçi, dəmirçi, ilxıçı, axtaçı, sabunçu və s. aid etmək olar.

Morfoloji yolla düzələn etnonimlərin arasında sifətə şəkilçi əlavə etməklə yaranan etnos adlarına rast gəlinir. Sifətlərdən əmələ gələn etnonimlərə gödəklər, karlar və s. tayfa adını nümunə göstərmək olar.

Kök+şəkilçi+şəkilçi modeli bir kök və iki şəkilçinin birləşməsindən əmələ gəlmişdir. Kök+şəkilçi+şəkilçi modeli əsasında formalaşan etnonimlər kök+şəkilçi modeli ilə yaranan müqayisədə azlıq təşkil edir. Bu model əsasında əmələ gələn etnonimlərə qaracalar, ətcələr, papaqçılar, sarıcalar və s. aid etmək olar.

Sintaktik yolla etnonimlərin yaranması onomastik leksikada xüsusi rola malikdir. Bu yolla əmələ gələn etnonimlər dilimizin imkanları əsasında sözyaradıcılığı qaydalarına uyğun şəkildə yaranır. Sözyaradıcılığının bu növündə iki və daha artıq sözdən istifadə olunur. Sintaktik yolla xeyli miqdarda etnonim yaranmış və Azərbaycan dilinin onomastik sistemini zənginləşdirmişdir. Bu yolla etnonimlərin əmələ gəlməsi prosesi qədim tarixə malikdir. Sintaktik yolla əmələ gələn etnonimlərə nümunə olaraq bəydili, qaraqoyunlu, ağqoyunlu, qaraqurdlu, şişpapaq, qırmızısaqqal, qarasaqqal, bozpapaq, qarapapaq, otuzikili və s. göstərmək olar.

Sintaktik yolla yaranan etnonimlərin komponentləri fərqli olur. Bu cəhətdən etnonimləri 2 qrupa bölmək olar:

1. Komponentləri eyni bir nitq hissəsindən ibarət olan etnonimlər;
2. Komponentləri müxtəlif nitq hissəsindən ibarət olan etnonimlər.

Komponentləri eyni nitq hissəsindən ibarət olan etnonimlərin formalaşmasında isimlərdən daha çox istifadə olunmuşdur. Bu etnonimlər həm ümumi, həm də xüsusi isimlər əsasında yarana bilir. Komponentləri eyni bir nitq hissəsindən ibarət olan isimdən düzələn etnonimlərə bəydili, əlibəyli, məlikçobanlı, aşıqmusalı, soltanəhmədli, əlimərdanlı, əlinəzərli, soltanmuradlı və s. aid etmək olar. Say+say modeli əsasında yaranan etnonimlərə onomastik leksikada az da olsa rast gəlinir. Məsələn: otuziki.

Komponentləri müxtəlif nitq hissəsindən ibarət olan etnonimlərə Azərbaycan onomastik sistemində çox təsadüf olunur. Bu yolla yaranan bir çox etnonimlər sifət və isim modeli əsasında yaranmışdır. Komponentləri müxtəlif nitq hissəsindən ibarət olan etnonimlərə nümunə olaraq şişpapaq, qarasaqqal, qaraqoyunlu, qarapapaq, qarabörk, qırmızısaqqal, qaradolaq, qızılbaş, ağköynək, ağbaş və s. göstərmək olar.

İndiyə qədər Azərbaycan onomastikasında etnonimlərlə bağlı müəyyən qədər tədqiqatlar aparılsa da hələ də həll olunmalı problemlər çoxdur. Onomastikanın ən maraqlı qollarından biri olan etnonimlərin bütövlükdə sistemli şəkildə linqvistik cəhətdən araşdırılması dilçiliyimizin qarşısında duran problemlərdəndir.

Ədəbiyyat

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild. Bakı: Şərq-Qərb, 2007, 303 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı: Şərq-Qərb, 2006,709 s
3. Rəşidəddin. Oğuznamə. Bakı, 2006, 111 s.
4. Xalıqov F. Folklor onomastikası. II hissə, Bakı: Elm, 2000, 131 s.
5. Kitabi Dədə-Qorqud dastanı. Bakı, 2000, 283 s.

И.А.Шыхызаде

Пути образования этнонимов

Резюме

Этнонимы являются одними из богатейших и интересных отраслей азербайджанской ономастики. Исследование названий этносов, которые занимают своеобразное место в формировании нашего народа, имеет большое значение для азербайджанского языкознания. История части этих ономастических единиц относится ко времени до нашей эры. В азербайджанской ономастической системе много этнонимов, которые требуют проведения этимологического исследования. Их исследование дает ценные факты для определения племен, которые участвовали в этногенезе Азербайджанского народа. Выявление названий конкретных этносов, сыгравших решающую роль в формировании нашего языка, имеет значение не только для азербайджанского языкознания, но и для тюркологии в целом. В образовании этнонимов используется 3 способа. В статье исследуются лексические, морфологические и синтаксические способы образования азербайджанских этнонимов.

I.A.Shikhizade

Ways of formation of ethnonyms

Summary

One of the most interesting and rich fields of Azerbaijani onomastics is ethnonyms. The study of ethnic names, which have a special place in the formation of our people, is of great importance for Azerbaijani linguistics. The history of some of these onomastic units dates back to BC. There are many ethnonyms in the Azerbaijani onomastic system that need to be studied etymologically. Their study provides valuable facts to identify the tribes that participated in the ethnogenesis of the Azerbaijani people. Revealing the names of specific ethnic groups that played a decisive role in the formation of our language is important not only for Azerbaijani linguistics but also for the science of Turkology. There are 3 ways to create ethnonyms. The article examines the lexical, morphological, and syntactic formation of Azerbaijani ethnonyms.

Rəyçi: f.e.d. T.L.Baxşıyev

Redaksiyaya daxil olub: 29.05.2020

R.K.XƏLİLOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ DƏNİZ VƏ DƏNİZÇİLİKLƏ BAĞLI FRAZEOLOJİ VAHİDLƏRİN ETİMOLOJİ TƏHLİLİ

Açar sözlər: *qlobal dil, mədəniyyətlərarası ünsiyyət, tarixi hadisələr, dəniz terminləri, alınma sözlər, frazeoloji vahidlər.*

Ключевые слова: *глобальный язык, межкультурное общение, исторические события, морские термины, заимствованные слова, фразеологические единицы.*

Key words: *global language, intercultural communication, historical events, maritime terms, borrowings, phraseological units.*

Müasir dünya qloballaşmaya doğru inkişaf edir. Bu baxımdan mədəniyyətlərarası ünsiyyətin rolu və yeri ilə bağlı məsələlər həm bəşəriyyət, həm də fərdi üçün həyatın ayrılmaz hissəsinə çevrilir. Xalqlar arasındakı mədəniyyətlərarası ünsiyyət insan cəmiyyətinin inkişafının ayrılmaz bir atributudur. Heç bir ölkə, hətta siyasi və iqtisadi cəhətdən ən güclü hesab olunan ölkə, dünyanın mədəni irsinə, digər ölkələrin və xalqların mənəvi irsinə müraciət etmədən bəşəriyyətin mədəni və estetik istək və ehtiyaclarını ödəyə bilməz [6, s.17].

Tarixdən bəllidir ki, uzun bir dövr ərzində Azərbaycanda rus dili geniş istifadə edilirdi. Tədris müəssisələrində, xüsusi ilə dənizçilik sahəsində dəniz terminlərinin böyük qismi rus dilində olduğu kimi istifadə olunduğundan Azərbaycan dilində dəniz terminlərinin yaradılması, araşdırılması, tədqiqi tamamilə kənarda qalmışdı. Yalnız respublikamız müstəqillik əldə etdikdən sonra dövlət tərəfindən verilən qanunlar, sərəncamlar, əmrlər, fərmanlar və s. bu vəziyyəti dəyişdirir. Son dövrdə dövlətimiz təhsil sistemində geniş miqyaslı islahatlar aparır. Həmçinin müstəqil Azərbaycan millətlərarası əlaqələr daha da inkişaf etmişdir. Hazırda müxtəlif dünya dövlətlərilə hərtərəfli əlaqələr inkişaf etdirilir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi göstərdiyi xidmətlərin müxtəlifliyinə görə dünyanın seçilən gəmiçiliklərindən biridir. Hal-hazırda Azərbaycan Dövlət Dəniz Akademiyası intensiv surətdə ingilis dilini tədrisini təşkil edir.

Nəzərə alsaq ki, ingilis dili qlobal dildir və mədəniyyətlərarası ünsiyyətin əsas dillərindən biridir, onu tədrisi və təhlili aktuallıq kəsb edir. Müasir ingilis dilinin lüğət tərkibinə nəzər salsaq, şahidi olarıq ki, lüğət fondunun formalaşması uzun bir yol keçib. Müasir ingilis lüğətinin formalaşması üçün uzun bir yol var. Onun tarixi min beş yüz ildən çoxdur. Şübhəsiz ki, xalqlararası ünsiyyət dillərarası təmassız mümkün deyil. Dilin leksik tərkibindəki kəmiyyət və keyfiyyət dəyişiklikləri xalqın tarixi, dil daşıyıcısı və dilin yaradıcısı ilə əlaqəlidir. Mövcud leksik materiala əsaslanan lüğət fondu ingilis dili lüğətinin inkişafında aparıcı rol oynayır. Halbuki istənilən bir dil heç vaxt təkcə öz leksik vasitələri ilə meydana gəlmir. İngilis lüğətinin zənginləşməsində müxtəlif proseslər arasında xarici lüğətlərin əldə edilməsinə xüsusi diqqət yetirilir. Bu proses həm yeni hadisələrin irəli sürülməsi, həm də mövcud adların dəyişdirilməsi vasitələrindən biri kimi təhlil edilə bilər.

Müasir ingilis leksikonu bir neçə tarixi dövrün nəticəsidir. İngilis lüğət fondunun formalaşmasında müxtəlif əhəmiyyətli tarixi hadisələr öz əksini tapır, məsələn, ingilis adalarının yunanlar, daha sonra alman tayfalarının ingilis və saksonlar, Fransanın şimalındakı Skandinaviya vikinqlər və normanlar tərəfindən işğalı. Yüzillik müharibə, ingilis dəniz donanmasının yüksəlişi, müstəmləkələrin işğalı və ticarətin və sənayenin inkişafı - bunların hamısı müasir ingilis lüğətinin formalaşmasına və inkişafına kömək etmişdir.

İngilis dilinin daşıyıcıları ünsiyyət prosesində birbaşa xarici sözləri mənimsəmək imkanına sahib oldular: işğalçı işğalçılardan və daha sonra ingilis ekspedisiyası və müstəmləkə

fəaliyyəti dövründə. Bu səbəbdən də mənimsəmə (sözlərin alınması) prosesi dilin formalaşması və tarixi inkişafının ayrılmaz hissəsidir, eyni zamanda lüğətin zənginləşdirilməsinin əsas mənbələrindən biridir.

Müxtəlif dillərin hərbi və mədəni-iqtisadi münasibətlər zəminində ingilis dilinin lüğət fondunun qurulması baş verdi və leksik tərkibi latın, yunan, fransız, italyan, ərəb, fars, türk və skandinav mənşəli sözlərin vasitəsilə artdı. Müasir ingilis dilində həqiqi ingilis dili sözləri otuz faiz, latın dili sözləri otuz faiz, fransız mənşəli sözlər iyirmi səkkiz faiz, skandinav mənşəli sözlər yüzdə beş, ərəb, fars, türk və digər dillərdən alınma sözlər yeddi faiz təşkil edir.

İngiltərənin adalar üzərində bir dövlət olduğunu nəzərə alsaq, qeyd etmək lazımdır ki, orada dəniz həqiqətləri həmişə önəmli əhəmiyyət daşıyırdı və bu gün də daşıyır. Ölkə iqtisadiyyatının böyüməsi, artması və çiçəklənməsi əsrlər boyu donanmanın uğurlu inkişafından, yeni torpaqların işğalından və yüklərin dəniz yolu ilə daşınmasından asılıdır.

Xüsusi vurğulamaq lazımdır ki, dənizçilik və gəmiçilik həmişə ingilis xalqının həyatında mühüm rol oynamışdır. Məlumdur ki, hər hansı bir sahənin inkişafı mütləq müvafiq dil sahəsinin inkişafı ilə müşayiət olunur. Buna görə, ümumiyyətlə, dəniz terminologiyasının təhlili və xüsusilə, dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlər, ingilis dilində danışanlara dünya görüşü haqqında məlumat əldə etməyə imkan verir.

Müasir ingilis dilində dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlərin sistemli formalaşması ilkin mərhələlərdən etibarən xüsusi rol oynayan alınma sözlərini özündə ehtiva edir. Dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlər, müvafiq sahələrdə istifadə olunan digər frazeoloji vahidlər kimi, müəyyən bir bilik sahəsinin məntiqli dəqiq tərifləri ifadə etmək üçün istifadə olunan müəyyən bir dilin sözləri və ifadələridir.

Müasir ingilis dəniz terminologiyası araşdırmamızın materialıdır. Müasir ingilis dilində dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlərin etimoloji təhlilini aparmaq üçün gəmiçilik ilə bağlı monolit vahidlər seçilmişdir [1].

Dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlərin ümumi sayı 1000 leksik vahiddir. Etimoloji xüsusiyyətlərini nəzərə alaraq frazeoloji vahidlərin növlərini tədqiq etmək üçün müxtəlif leksikoqrafik mənbələrə müraciət etdik [2; 3; 4; 5].

Təhlil edilmiş materialın öyrənilməsi göstərir ki, ingilis dilli dəniz terminologiyasının etimoloji oxşarlığı ilə yanaşı, iki əsas növə: həqiqi (doğma) sözlərə və müxtəlif dillərdən götürülmüş alınmalara diqqət yetirmək istərdik.

Dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidləri öyrənərək, alınma sözlərin Anglo-Sakson mənşəli sözlərdən xeyli çox olduğu qənaətinə gəldik. Onlar təhlil edilmiş materialın altmış səkkiz faizini təşkil edirlər. Ümumiyyətlə, dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlər latın, skandinav və yunan dillərindən alınmalardır.

Latın mənşəli leksik vahidlərin əksəriyyəti ingilis dilinin lüğətinə birbaşa latın dilindən yox, qədim fransız dilindən daxil olmuşdur, çünki XIV əsrin sonlarına qədər ingilis dilinin formalaşmasına o ciddi təsir göstərmişdir. Bu cür alınmaların sayı otuz faiz təşkil edir. Məsələn, qədim fransız dili vasitəsilə ingilis dilinin əsas söz ehtiyatına bir sıra sözlər daxil olmuşdur. Məsələn: müasir ingilis dilində "mess" sözü qədim fransız dilinin "mess", latın dilinin "missus" sözündən əmələ gəlib; müasir ingilis dilində "lizard" sözü qədim fransız dilinin "laisarde", latın dilinin "lasertus" sözündən əmələ gəlib; müasir ingilis dilində "position" sözü qədim fransız dilinin "posicion", latın dilinin "positionem" sözündən əmələ gəlib; müasir ingilis dilində "Marine" sözü qədim fransız dilinin "marin", latın dilinin "marinus" sözündən əmələ gəlib; müasir ingilis dilində "demurrage" sözü qədim fransız dilinin "demorage", latın dilinin "demorari" sözündən əmələ gəlib.

Orta əsrlərdə latın dilindən olan alınma sözlər on yeddi və yarım faiz təşkil edir, məsələn: müasir ingilis dilində "cook, visibility, transmit, commercial, moderate, auxiliary, deflection" sözləri latın dilinin "cocus, visibilitas, transmittere, commercium, moderatus, auxiliaries, deflexionem" sözlərindən əmələ gəlib, və s.

Müasir ingilis dilində dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlərin təxminən yüzdə beş faiz skandinav mənşəli sözlərdir. Buraya qədim skandinav, Danimarka və holland dillərindən alınma sözlər təşkil edir, məsələn: müasir ingilis dilində "ballast" sözü Danimarka dilinin "barlast" sözündən əmələ gəlib; müasir ingilis dilində "gear" sözü qədim skandinav dilinin "gervi" sözündən əmələ gəlib; qədim ingilis dilində "gearwe" sözü holland dilinin "gaar" sözündən, qədim alman dilinin "garo" sözündən əmələ gəlib; müasir ingilis dilində "raft" sözü holland dilinin "raptr" sözündən əmələ gəlib, və s.

Etimoloji xüsusiyyətlərinin təhlili ingilis dəniz terminologiyasında seçilmiş 1,000 frazeoloji vahidin anglo-sakson sözlərinin otuz iki faiz olduğunu göstərdi; əslində, ingilis və saksonların qərb-alman tayfalarına aid olduğu üçün ortaq alman qaynağının bütün lüğəti. Həqiqi ingilis dili frazeoloji vahidlərinə aşağıdakı sözlər daxildir, məsələn: "ship, board, speed, water, rudder, hull, sea, mast, wave, to moor".

Müasir ingilis dilində "ship" sözü qədim skandinav dilinin "scip" sözündən, friz dilinin "skip" sözündən, Danimarka dilinin "skib" sözündən əmələ gəlib; müasir ingilis dilində "board" sözü qədim ingilis dilinin "bord" sözündən əmələ gəlib; müasir ingilis dilində "speed" sözü qədim ingilis dilinin "sped" sözündən əmələ gəlib; müasir ingilis dilində "water" sözü qədim ingilis dilinin "waeter" sözündən əmələ gəlib; müasir ingilis dilində "rudder" sözü qədim ingilis dilinin "rodor" sözündən, qədim friz dilinin "rodor" sözündən, alman dilinin "roder" sözündən əmələ gəlib; müasir ingilis dilində "hull" sözü qədim ingilis dilinin "hulu" sözündən əmələ gəlib; müasir ingilis dilində "sea" sözü qədim ingilis dilinin "sae" sözündən əmələ gəlib; müasir ingilis dilində "mast" sözü qədim ingilis dilinin "maest" sözündən, qədim skandinav dilinin "mastr" sözündən, holland dilinin "maste" sözündən əmələ gəlib; müasir ingilis dilində "wave" sözü qədim ingilis dilinin "wafian" sözündən əmələ gəlib; müasir ingilis dilində "moor" sözü qədim ingilis dilinin "maerian" sözündən əmələ gəlib, və s.

Aşağıdakı frazeoloji vahidləri nəzərdən keçirək: "ship, board, speed, water, rudder, hull, sea, mast, wave, moor", for example: "to pay off a ship; a ship of the desert; ships that pass in the night; when my ship comes home; a great ship asks deep waters; ship oars!; bare board; above board; under board; board and board; board by board; to sweep the board; to bet across the board; more haste, less speed; the years sped by; speed!; how have you sped?; under water; in deep waters; in hot water; to get into hot water; to be in smooth water; to hold water; to keep one's head above water; to take (the) water; to spend money like water; to shed blood like water; to throw cold water upon; to draw water in a sieve; to make a hole in the water; written in (on) water; to throw the baby out with the bath water; a lot of water has passed; like water off a duck's back; water of life; the waters of forgetfulness; water bewitched; strong waters; to water (one's pillow) with tears; to water down; it makes one's mouth water; rudder; rudder port; rudder string; rudder quadrant; elevation rudder; hull down c; hull up c; to hull; open sea; (en)closed sea; inland sea; out at sea; on the high seas; an arm of the sea; to be mistress of the seas; heavy sea; short sea; to ship a sea; the seas went high; at full sea; to be (all) at sea; I am quite at sea; to have an opponent all at sea; the four seas; between the four seas; the seven seas; to go gallivanting on the seven seas; brazen (molten) sea; to go by "long" sea; half seas over; when the sea gives up its dead; between the devil and the deep sea; there are as good fish in the sea as ever came out of it; sailor before the mast; to sail (/ to serve) before the mast; to nail one's colours to the mast; to mast; breaking waves; wave marks; the wave(s); to lash the waves; to make waves; a man who does not make waves; to wave someone nearer; to wave aside (/ away / off); to wave back; they moored in the harbour; the boat was moored to a stake; to moor" and others.

Qeyd etmək zəruridir ki, Türk xalqlarının dillərinin müxtəlif dillərin lüğət tərkibinin formalaşmasına çox təsir edib. Bu gün qlobal ingilis dilində çox sayda türk mənşəli sözlər mövcuddur. Türk mənşəli sözlər ingilis dilinə IV əsrin sonlarından, Hun-Türklər ingilislərin

əcdadları - anglo və saksonları fəth etdikləri vaxtdan etibarən lüğət tərkibinə daxil olmağa başladı. Türk mənşəli sözlərin qədim ingilis dilinə daxil olunması, İngiltərədə Skandinaviya hakimiyyəti dövründə Skandinaviya Varangianlarının dili vasitəsilə baş verdi.

İngilislər və türklər arasındakı birbaşa təmaslar yalnız səlib yürüşləri dövründə bərpa edildi. 1096-cı ildən 1270-ci ilə qədər avropalılar Fələstində "Rəbbin qəbrini azad etmək" üçün səkkiz yürüş apardılar. Səlib yürüşçülərinin üzləşdikləri əsas düşmən türklər idi, onları Qərbdə "Saracens" çağırırdılar. İngilis dilində "qarabaşaq yarması" alınma mənbəyini göstərən "saracen dənli bitki" adlanır. Suriyada və Fələstində "saracen türkləri" ilə döyüşən avropalılar bu türk adını Suriya, Fələstin və Misir ərəbləri də daxil olmaqla bütün müsəlmənalara ünvanlayırdılar. Nəticədə "Saracens" ərəb dilindən alınma söz kimi təsnif edilir. Türk mənşəli sözlər, ingilis dilinin lüğət tərkibinə IV əsrin sonralarından, ingilislərin əcdadlarının – Avropa qitəsindəki Angels, Saksons və Utesin qaldığı dövründə keçib.

Qeyd etmək lazımdır ki, X-XVI əsrlərdə İran, Orta Asiya və Hindistanda özünəməxsus bir dil vəziyyəti formalaşdı: elm və din dili ərəb dilindən, ədəbiyyat və kargüzarlıq dili fars dilindən, şah məhkəmələrində sultanlar və orduda əsasən türk dilindən istifadə edilmişdir. Hindistan Britaniya imperiyasının müstəmləkəsi olduğu üçün müxtəlif hind dillərindən ingilis dilinə qırx türk mənşəli sözlər daxil oldu. Türk mənşəli yetmiş söz rus dilindən ingilis dilinin lüğət fonduna keçdi. Türk mənşəli sözlər latın, alman, ispan, italyan və fransız dilləri vasitəsilə ingilis dilinin lüğətinə keçdi.

1579-cu ildə Türkiyə ilə İngiltərə arasında dostluq münasibətləri quruldu. Türkiyədəki ilk ingilis səfiri Vilyam Harnbourn, türk sözlərinin ingilis dilinin lüğət tərkibinə birbaşa keçməsinin əsasını qoydu. Türkiyədə ingilis koloniyaları yaradıldı, Anglikan kilsələri quruldu. İngilis yazıçıları şərq mövzularındakı əsərlərində türk sözlərindən fəal istifadə etməyə başladılar.

XIX əsrdə türk mənşəli sözlər təkcə səyyahların, diplomatların, tacirlərin təsvirləri ilə deyil, həm də mətbuat vasitəsi ilə lüğətə keçməyə başladı. İngilis dilində ingilislərin digər türk xalqları – azərbaycanlılar, tatarlar, özbəklər, qazaxlar, uyğurlar ilə birbaşa təmaslarından götürülmüş bir çox türk mənşəli sözlər mövcuddur.

İngilis dilinin inkişafı prosesində, XIX əsrdən əvvəl ingilis dilinin lüğətinə düşmüş türk mənşəli sözlərin əksəriyyəti ortaq alman və qəədim fransız lüğəti ilə əvəz edilmişdir.

Mövcud olan söz ehtiyatının böyük hissəsi ingilis dilində ekvivalentləri olmayan və orijinal sözlərlə sinonim münasibətlərə girməyən ekzotizmlərdən və ya etno-qrafizmlərdən ibarətdir. Onlar türk regionunda yaşayan xalqların həyatını, adət-ənənələrini, florasını, faunasını, ictimai-siyasi və inzibati-ərazi quruluşunu təsvir edərkən çox istifadə olunur. Ancaq ortaq söz ehtiyatı ilə əlaqəli bir çox türk mənşəli alınma sözlər var. Məsələn: "bosh, caviare, coach, horde, jackal, kiosk".

Müxtəlif mənbələrə əsasən, təxminən 1,000 leksik vahid bu tədqiqata cəlb olunub. Bu vahidlərin yüzdə 75 faizi etnoqrafik "captain, master, caviar, coach, kiosk, kumiss, macrame, shabrack, shagreen, vampire" və təbii reallıqları əks etdirən "badian, beech, irbis, jougara, mammoth, sable, taiga, turkey, dashkesanite, turanite", yüzdə 25 faizi ictimai-siyasi lüğətə aid olan sözlər: "bashi-bazouk, begum, effendi, chiaus, cossack, ganch, horde, janissary, khan, lackey, mameluke, pasha, saber, uhlan, kourbash, kismet, sabot (-eyr) / sabotage, chabouk / chabuk / chawbuk, saber (sabre), sjambok". Bu alınmalar elmi terminologiyaya daxil edilmişdir.

Türk xüsusi adları, məsələn, Tanrı bəlası ləqəbli Attila, Çingiz xan, Baber, Tamerlan kimi bu cür nəhəng fəthçilərin adları ortaq isimlər oldu. Eyni məsələ "hun, saracen, Tartar, Turk" etnonimləri ilə də baş verdi. Höcət, dikbaş, sərkeş, inadkar oğlan, ingilislər "gənc Tərtər" – "Tatar" deyə bilər. İngilis dilində "daha güclü bir rəqiblə tanış olun", "tatarı tutmaq", yəni "tatara rast gəlmək" deməkdir.

Beləliklə, ingilis dilinin əsas söz ehtiyatı mənbələrə və alınmaların tarixinə görə təsnif edilə bilər. Aşğıdakı dövrləri xüsusilə vurğulamaq lazımdır:

1) Keltlərin ingilis adalarında yaşayan zamanından alınma sözlər;

2) Miladdan əvvəl I əsrdə ingilis adalarına hələ gəlməmiş ingilislər və saksonlardan əvvəl, yəni latın mənşəli sözlərin mənimsənilməsinin ilk dövrü;

3) VI-VII əsrlərdə latın dilindən alınma sözlər, İngiltərədə xristianlığın tətbiqi zamanı, yəni latın mənşəli alınma sözlərin ikinci dövrü;

4) Vikinqlərin gəlişi və VIII-IX əsrlərdə skandinaviyalılar tərəfindən Britaniya adalarının işğalı zamanı skandinaviya mənşəli alınma sözlər;

5) XII-XV əsrlərdə Norman işğalı ilə şərtlənən qədim fransız dilindən götürülmüş alınma sözlər;

6) XV-XVI əsrlərdə intibah dövrü ilə əlaqəli latın dilindən götürülmüş alınma sözlərin üçüncü dövrü;

7) Orta və sonrakı əsrlərdə fransız dilindən götürülmüş alınma sözlər;

8) Yunan, italyan, holland, ispan, alman, türk və digər dillərdən gələn, digər xalqlarla siyasi, iqtisadi və mədəni əlaqələri şərtləndirən alınma sözlər;

9) Ərəb, fars və türk dillərindən keçən alınma sözlər.

Beləliklə, araşdırma müasir ingilis dilində dəniz və dənizçilik ilə bağlı frazeoloji vahidlərin sabit lüğətlərdən ibarət olduğunu və onların spesifik xüsusiyyətlərinin təhlili aktuallığını və xüsusi maraq doğurduğunu müəyyən etdi.

Ədəbiyyat

1. Collins Cobuild English Language Dictionary. www.collinsdictionary.com/ dictionary /english
2. Hokins Djois M. The Oxford Dictionary of the English language. M. 2001.
3. Merriam-Webster's Collegiate Dictionary. Eleventh Edition, 2014. www.merriam_webster.com/dictionary
4. Online Etymological Dictionary. http://www.etymonline.com
5. Özenir M. Maritime English for Turkish Seafarers – I, İstanbul, İTÜ VAKFI yayınları, 2017.
6. Valiyeva N.Ch. An Introduction to the History of Global English. Baku, Science and Education. 2020.

Р.К.Халилова

Этимологический анализ фразеологизмов, связанных с морем и мореплаванием, на английском языке

Резюме

Статья посвящена этимологическому анализу фразеологизмов, связанных с морем и судоходством, на английском языке. Современная английская лексика является результатом нескольких исторических периодов. Формирование словаря английского языка отражает различные важные исторические события. Столетняя война, подъем английского флота, оккупация колоний, развитие торговли и промышленности – все это способствовало формированию и развитию современного английского словаря. При рассмотрении основных источников заимствованной морской терминологии было выявлено большое количество производных слов с разных языков. Таким образом, мы заключаем, что большинство навигационных терминов в английском языке являются идиоматическими выражениями, и что слова англосаксонского происхождения составляют примерно шестьдесят восемь процентов проанализированного материала, и двадцать пять процентов от общего числа скандинавских фразеологизмов, связанных с морем и судоходством. Это включает в себя слова из древних скандинавских, датских и голландских языков. Семь процентов являются производными от арабского, персидского и турецкого языков.

R.K.Khalilova

Etymological analysis of phraseological units related to the sea and shipping, in English language

Summary

The article is devoted to the etymological analysis of phraseological units related to the sea and navigation in English. Modern English vocabulary is the result of several historical periods. The formation of the English dictionary reflects various important historical events. The Hundred Years War, the rise of the English fleet, the occupation of the colonies, the development of trade and industry – all this contributed to the formation and development of the modern English dictionary. When considering the main sources of borrowed navigation terminology, a large number of derived words from different languages were revealed. Thus, we conclude that most of the navigation terms in English are idiomatic expressions, and that Anglo-Saxon-derived words comprise approximately sixty-eight percent of the material analyzed, and twenty-five percent of the total number of Scandinavian phraseological units related to the sea and shipping. This includes words from ancient Scandinavian, Danish and Dutch languages. Seven percent are derived from Arabic, Persian, and Turkish.

Rəyçi: prof. N.Ç.Vəliyeva

Redaksiyaya daxil olub: 26.05.2020

S.S.ZEYNALOVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: zeynalovasanubar@rambler.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

METAFORİK OBRAZIN MƏNA, MƏQSƏD, KONSEPT ANLAYIŞLARININ ŞƏRHİ

Açar sözlər: *metaforik məna, dil sistemi, konsept, məqsəd, kateqorial aspekt*
Ключевые слова*: метафорическое значение, языковая система, концепция, цель, категориальный аспект*
Key words: *the metaphoric meaning, the language system, concept, purpose, categorical aspect*

Dil, insanlar tərəfindən müxtəlif məlumatları qeyd etmək, müqayisə etmək, saxlamaq və yaratmaq üçün istifadə olunan koqnitiv sistemin bir hissəsidir. Koqnitiv elmdə konsepsiyalar dünya biliklərinin təşkilində elementar struktur vahidləri kimi məlumatların strukturlaşdırılmasında, saxlanılmasında və işlənməsində idrak prosesi kimi başa düşülür. Dil öz təbiətinə görə ikili səciyyə daşıyır, bir tərəfdən o əşyaviliyə, digər tərəfdən isə "simvolik aləmə" aiddir və onlar öz aralarında metaforik məna dünyasına görə bir-bir ilə sıx bağlıdır. Dili metafora vasitəsilə daha ətraflı öyrənmək fərdi idrak qabiliyyəti ilə tamamlanır.

Metaforanın yaranması öz-özlüyündə dünyada mövcud və yalnız dildə olan dil daşıyıcılarının konseptual sistemi, onların bəşər haqqında standart təsəvvürləri, dəyərləndirmə sistemilə bağlıdır. Düşünürük ki, metafora yekun biliyin və fərziyyələrin irəli sürülən modelidir. Metafora kateqorial, taksonomik təsnifatdan yaranır. Metaforanı yaradan insan sanki keyfiyyət və xüsusiyyət dünyasında, məntiqi siniflər və onların əvəzedici aləmində, bütöv məna və hadisələr mühitində yaşayır. Metaforanın sirrini tapmaq üçün poeziya obrazlarını müşahidə etmək lazım gəlir, çünki məhz poetikada dilin yaradıcı funksiyası özünü daha aydın göstərir [2, s. 50]. Kommunikativ funksiyasında dil insanın yalnız fikrinin deyil, həm də hisslərinin, iradəsinin ifadə edilməsinə xidmət edir. O, dilin estetik funksiyasından çıxış edəndə isə mənası güclənir. Bundan başqa, bədii nitqdə emosionallığın intensivliyi dil vasitələrinin seçimi və istifadəsi vasitəsilə də əldə olunur.

Koqnitivistika heç də təsadüfən dilin maddi varlığının kateqoriyalaşdırılması və konseptuallaşdırılması nəzəriyyəsinin metodoloji cəhətdən müşahidəsinə imkan yaratmır. O, planlı şəkildə metaforalı konstruksiyaların ikinci məna problemini işıqlandırır, daha doğrusu metafora dilin ümumi inkişaf konsepsiyası quruluşunun sonrakı mərhələsini öyrədir, dilçiləri isə geniş ümumelmi kontekstdə fəal tədqiqat işləri aparmağa daha çox təlqin edir. Buradan belə nəticəyə gəlmək olur ki, metaforanın öyrənilməsi linqvistikada olduqca maraqlı xüsusiyyətdir.

Bəllidir ki, hər bir elmi bilik paradiqması özünəməxsus konseptual sxemə söykənir, məna - məqsəd - konsept anlayışlarının koqnitiv dilçilikdə təzahürünün izahına yol açır. Məna, məqsəd və konsept mövcudluğunun fərqli xüsusiyyətlərinin elmi cəhətdən işıqlandırılması problem olaraq dilçilər tərəfindən hər zaman araşdırılır. Bu üçlük təfəkkür obrazı yaradır, qavrama fəaliyyətinin həyata keçirilməsi prosesində böyük rol oynayır. Dil təfəkkürü prizmasından elmi refleksin obyekti kimi çıxış edən "məna" – "məqsəd" anlayışları öz sabitliyinə görə mahiyyətcə əkslik təşkil edir və anlamanın əsasında durur [7, s. 57]. Ümumiləşdirmə aparsaq belə nəticəyə gəlmək mümkündür ki,

- məna anlayışı məzmun strukturunun invariantlığı ilə dil metaforası arasında vasitəçi kimi çıxış edir;

- məna adresatın şəxsi təcrübəsinin verbal məlumatının dil nominasiyası ilə əlaqədar meydana gəlir;

- məna fasiləsiz olaraq vəziyyət haqqında, dilin tarixlə, mədəniyyətlə əlaqəsi haqqında, həmçinin müəyyən etnosun ənənələrindən xəbərdar olur.

Varlığın metaforik mənalandırılması kontekstində vahid metaforik obraz yaradan məna - heterogen konseptual zonalar arasında əlaqə yaradır, buna görə də özündə strukturdan əlavə varlıq əmələ gətirir.

A.V. Bondarko "mənanın daxili fərqlərini" araşdırarkən bu nəticəyə gəlir ki, məna kateqorial və nitq aspektində təzahür edir [5, s. 94]. N. Alifirenko isə mənanı:

1) bioloji – fərdin bu və ya digər ehtiyacını təmin edən predmetin mənası;

2) şüurlu – daha doğrusu təbiətinə görə insan psixikasının vahidi olan ictimai mənası kimi izah edir [4, s. 80]. Halbuki, məna daha əhatəli və çoxcəhətli anlayışdır, çünki o tez-tez dil işarəsinin obyektiv mövcudluğunun insan tərəfindən subyektiv reallığının kontekstində qəbul olunur.

A.İ. Novikov "məna" anlayışına fəlsəfi, linqvistik fikrin əsas hərəkət istiqamətləri kimi yanaşır. O, dildə məntiqi düzümün olmasının analitik fəlsəfəsindən yazır və mənanın dilin istifadə olunması üçün əsas üsul olduğunu qeyd edir. Ekstralinqvistik məna nəzəriyyəsinə istiqamətlənərək qeyd etmək lazımdır ki, məna psixoloji konseptdir, məna mövcud olan həqiqəti (reallığı) əks etdirir. Qeyri dil təfəkkür kontekstində məna – məzmun anlayışı "konsept" komponenti məsələni daha da mürəkkəbləşdirir, bu da onunla şərtlənir ki, dilin mövcudluğu təkcə təfəkkürlə deyil, həmçinin hissi - iradı sfera, eləcə də şüuraltı ilə əlaqəlidir.

Müasir elmi paradiqmanın inkişafını məntiqi şəkildə əks etdirən konseptual nəzəriyyələr 20-ci əsrdə koqnitiv dilçilikdə və fəlsəfədə ümumi konseptual, linqvistik, eləcə də semantik konstruksiyaların inkişafına imkan verdi. Məhz konsept anlayışı da bu baxımdan məna, mətn anlayışları ilə birgə gündəmə gəldi. Konsept həmişə təsvirin tamlığına və universallığına çalışır.

Dilçilik nöqteyi-nəzərindən "konsept" terminoloji modelinin spesifikası əqli təsvir və kontensiv strukturu ilə birgəlikdə daha anlaqlı olur. Əvvala, konsept (conceptus – predmet haqqında təsəvvür , anlama, mühakimə) – bir təsəvvürdür ;

a) konsept – bu anlamadır;

b) konsept – bu təfəkkürün bir vahididir;

c) konsept – elementin real varlıqda (gerçəklikdə) obrazıdır.

İkincisi, konsept – "semantik üçbucaq / trapesiya" modeli kimi tədqiq olunur. Bu zaman:

a) konsept "mənanın riyazi ifadəsidir",

b) "milli koloritin həmmənası",

c) mənanın siqnifitantı,

d) məna – bu konsept və həm də konseptualizasiya prosesinin özüdür [1, s.80].

Professor Ə. Abdullayev isə qeyd edir ki, konsept – mənadır və o məna ilə sinonimdir [1. s. 198]. Konsept ifadə olunan (məna və anlama) - nın sintezi kimi, ifadə edən (dil işarəsi) və ifadə edilən (denotat və referent) kimi analiz olunur, bu zaman:

a) konsept – bu sözün etimonudur: conceptum – "rüşeym, toxum", "sözün semantikasını dolduran başlanğıc nöqtə",

b) konsept – söz - konsept: "açar söz" funksiyasını daşıyır [6, s. 29].

Konsept (ümumi təsəvvür) mental sahə kimi şərh olunur, özündə müəyyən dərketmə məqsədini daşıyır, dildə bu və ya digər ikinci nominasiya işarəsinə uyğun olaraq yeni yaranmış düşündürücü konstruktun içərisində koqnitiv məna kimi çıxış edir və ona söykənərək linqvokreativ təfəkkürün müxtəlif qiymətləndirmə, emotiv və ekspressiv obraz səciyyəsində genişlənir. V.İ. Karasik [7, s. 12] "məna – konsept" əksliyini tədqiq edərkən müəyyənləşdirir ki, göstərilən münasibətdə mənalandırılan assosasiyanın zənginliyinə görə, həm də dil mənaları və fərdi şüurda təcrübə vahidinin, əlaqəliliyi diqqəti cəlb edir. Beləliklə, məna mahiyyətinə görə ehtimal olunan struktura müvafiq şəkildə uyğun gəlir. Məna ierarxik strukturaya

malikdir, şüur səviyyəsində meydana gələn rasional və ümumi qəbuledilən dir. O idraki hiss ilə uyğun gəlir və verbal yol ilə ifadə olunur. Mənanın dərin qatında götürülmüş konkret mədəniyyətin özünü aparma nümunəsi, qanunlar, insanın dəyərlər dünyası ilə əlaqələndirilən daxili məzmunu nəzərdə tutulur. Bu sonuncu səviyyələr arasında konseptual əlamətlərin müəyyənləşdirilməmiş zonasını tərk etməyə çalışan, nəhayət dünyaya (aləmə) başqa rakursdan, başqa mövqeydən, məhz dil ekzistensiyasının sonsuzluğundan çıxış edərək mənanın kəsb etdiyi konseptuallıq ön plana çəkilir. Konsept koqnitiv dilçiliyin əsas anlayışı kimi mətn simvollarının tanınmasını, səthi strukturların simvolik kontekstlərinin istifadəsi mexanizminin nəzərə alınmasını nəzərdə tutur. Konsept, həmçinin dünyanın mənzərəsinin əsasıdır. Mətndə tema (mövzu) və remanın yerləri dəyişə bilir, dünyanın mənzərəsindən olan dil anlayışı müvafiq şəkildə mövzuya çevrilir, müqayisə vasitəsi isə rema təşkil olunur. Bu baxımdan hər hansı bir temanı nəzərə çapdırmaq üçün remanın irəliləməsinə xüsusi diqqət vermək lazımdır, cünki rema oxucunun yeni məlumatla təmin edilməsinə səbəb olur. Son dövrlərdə tema-rema bölgüsü dilçilikdə mövcud mövzu (tema) və yeni məlumatlar (rema) kimi geniş tədqiq olunmağa başlanmışdır. Kontekst daxilində hər bir söz yenilik aspekti vəd edir. Sözün leksik mənası var, lakin söz təcrid olunmuş şəkildə deyil, mətndə, dildaxili və dilxarici kontekstdə işlədilir. Mətndə söz məzmunu məhdudlaşır və bu zaman dəqiqlik, fərdiləşmə və konkretlik əlamətlərinə malik aktual məna meydana çıxır. Leksik və aktual mənalar arasında kontekstdə müxtəlif münasibətlər yaranır. Digər təyinatlar tema-rema-inkişafını, aktual cümlə üzvlənməsini, onun təhlilini, funksional cümlə perspektivliyini və ya məlumat strukturunu əhatə edir. Tema və rema aktual üzvlənmənin vahidləri hesab olunur və konsept anlayışının formalaşmasına təkan yaradır. Bütöv cümlələrdə onların təzahürü məntiqi vurğu, söz sırası, formal və presodik vasitələrlə bağlı olur. Cümlənin mövzusu artıq məlum olan, qeyd olunan və ya kontekst tərəfindən verilən məlumatdır. Rema isə yeni, kommunikativyönümlü məlumatdır. Rema cümlənin əsas vurğusunu daşıyır. Xüsusilə, mətnin əvvəlində yalnız əsas informatik məna daşıyan cümlələr işlənə bilər. Rema olmadan mətndəki hər bir söz qeyri-informativ sayılır.

Beləliklə, konsept mənanın təfəkküru kimi çıxış edir, linqvokreativ təfəkkürə söykənərək müxtəlif hisslərin qiymətləndirməsini, emotiv və ekspressiv obrazlı xarakteri genişləndirir.

Koqnitiv - semiotik yanaşma dil faktları analizinin inteqrativ metodikası nümunələrindən yalnız biridir, ancaq onun uğurla həyata keçirilməsi tədqiqatçının elmi marağının məqsədindən asılıdır [1, s. 125]. Hər halda qeyd edək ki, müxtəlif tədqiqatçıların tədqiqat təcrübəsinin birləşdirilməsi üçün dil nəzəriyyəsinin hansı cəhdlər etməsinə baxmayaraq, əgər arzu olunan konseptual sintezin həyata keçirilməsi üçün vahid əsas yoxdursa, cəhdlər səmərəsiz kimi aşkar olacaq. Insanların nitq fəaliyyəti öz strukturu və bir çox amillərdən asılılığına görə çox mürəkkəbdir.

"Dildə insan"-ın koqnitivistika vasitəsilə öyrənilməsi mədəniyyətlərin qarşılıqlı əlaqəsi, etnes, mentalitetin xüsusiyyəti və bilavasitə linqvistik reallığın etiraf olunmasına gətirib çıxarmasına baxmayaraq, semiotikanın antroposentrizmi bir qədər başqa xüsusiyyətdir: o əsasən germenevtik elmi biliklərdə obyektiv və subyektiv məzmun strukturunun mövcudluğunu qabaqcadan müəyyənləşdirir. Funksionalizm linqvistika ruhunda konkret dil işarələri kontekstində onların qarşılıqlı əlaqələrinin tədqiqini nəzərdə tutur, daha doğrusu onların kommunikativ mənalılığını müəyyənləşdirir [8, s. 75]. Bununla bərabər, semiotik proyektin funksionalizmi ilk növbədə fenomenoloji postulatın yenidən dəyərləndirilməsi nəzərə alınmaqla tədqiqat texnikasını yanaşma aspektində düzənlənir. Müasir linqvistika özünü kulturologiyanın, koqnitistika elminin, psixologiya və buna bənzər tendensiyada sintez məhsulu kimi təqdim etməsinə baxmayaraq, xüsusi terminoloji aparatının genişlənməsi ideyasına çox ehtiyatla yanaşır və sonda anlama sisteminin çoxmənalılığını və diffuzluğunu özündə saxlayır.

Dili öyrənməkdə və mənimsəməkdə koqnitiv paradiqmanın prinsiplərinin əsas olduğunu Ə.Abdullayev belə qeyd edir: "Fərdin biliklərinin ən əsas sahələrinin qəbul edilməsi, yaranma mexanizmlərinə və söyləniləni başa düşməyə xüsusi diqqət və baş verən proseslərin müəyyən

struktur çərçivə daxilində olmasını qəbul etmək; bunlar da öz növbəsində dil və qeyri-dil elementlərinə malikdir" [1, s. 45].

Məna - xüsusi koqnitiv - semiotik metodoloji konsept yanaşma baxımından sabitlik, obyektivlik kimi təsnif olunur; o dil metaforası və koqnitiv metaforanın əqli obrazının əlaqəliliyində müqayisə üçün əsas bazisə çevrilir. Məna məzmundan fərqli olaraq daha mobil, daha geniş dəyişkəndir. Metaforlaşma prosesi nöqteyi-nəzərindən məna əqli metaforik konstrukt daxilində koqnitiv domenin yaxınlaşma dərəcəsini müəyyənləşdirir ki, bu da məzmun analogiyasının yaradılması hissəsinə görə tədqiqatçının vəzifəsini əhəmiyyətli dərəcədə yüngülləşdirir. Öz növbəsində biz konsepti təfəkkür sahəsi kimi, dil mənasının əqli dayağı kimi əlaqələndiririk, bu da bütün linqvistik gerçəklik məkanında mənayaratma prosesini optimallaşdırır.

Metaforik obrazın məzmun əlaqəsini nəzərə çapdırmaq üçün konseptual metafora nəzəriyyəsi bizi koqnitiv modelləşmə texnikası ilə təmin edir. Bu zaman,

1) metaforanın mətndə/ diskursda olmasını şərtləndirən metaforalaşma aspektinin ətraflı və dinamik öyrənilməsi qabardılır,

2) real verbal ünsiyyətə çevrilən və vasitəli mənanın dəqiq və dolğunluğunun dərəcəsi lazımı səviyyədə əks etdirilir.

Ədəbiyyat

1. Abdullayev Ə.Ə. Mətni anlama modelləri. Bakı: Səda, 1999.
2. Cahangirov F.F. Dil və mədəniyyət: Magistratura pilləsi üçün dərslik. Bakı: Elm və təhsil, 2014.
3. Quliyev H. Metafora və elmi idrak. Bakı, 1987.
4. Алефиренко Н.Ф. Язык, познание и культура: Монография. Волгоград, 2006.
5. Bondarko A.V. Grammaticeskaja kategorija í kontekst. Moskva, Nauka, 1971.
6. Вежбицкая А. Семантические универсалии и описание языков / Пер. с англ. А. Д. Шмелева под ред. Т. В. Булыгиной. — М.: Языки русской культуры, 1999.
7. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс – Волгоград: Перемена, 2002.
8. Bühler K. Sprachtheorie – Die Darstellungsfunktion der Sondersprache. Stuttgart: Metzlerische Verlagsbuchhandlung. 1965.

С.С.Зейналова

Интерпретация смыслового, цельного, концептуального значения метафорического образа

Резюме

Значение классифицируется с точки зрения когнитивно-семиотического, методологически - концептуального подхода как постоянство и объективность; оно в связи сознательного образа языковой и когнитивной метафоры для сравнения переходит в основной базис. В отличие от цели, значение более мобильные и разнообразные. В свою очередь, мы объединяем концепт как поле мышления, язык смысла, который оптимизирует процесс наставничества во всей языковой сфере. Известно, что парадигма любых научных знаний опирается на соответствующую концептуальную схему, открывая при этом путь к появлению понятия "значение – цель – концепция".

Эта цепь создает образ разума, играя при этом большую роль в осуществлении процесса восприятия.

S.S.Zeynalova

Description of conceptual concepts of meaning of metaphorical image

Summary

The metaphorical sense of the language system is the conceptual aspect of the concept meaning. Cognitive - semiotic methodological conceptual approach is termed as stability object.

It becomes a key to comparing the metaphor of the language that the metaphor and the cognitive metaphor of the mental image. Unlike the meaning of the content, it is more mobile, more varied in turn, we conform to the concept of thinking, as the meaning of language as a mental base, optimizing the process of creating meaning in the whole linguistic real space. It is obvious that each science paradigm is based on its own conceptual scheme. The meaning of the concept leads to the explanation of conceptual concepts in cognitive linguistics. This trio creates a manifestation, plays a major role in the perception process.

Rəyçi: filol.e.d., prof. Ə.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 12.05.2020

М.И.АГАЕВ

Ленкоранский государственный университет
(г. Ленкорань, Ази Асланова, 50)

ВОПРОСЫ АКТУАЛЬНОСТИ ИЗУЧЕНИЯ СИНТАКСИЧЕСКИ СВЯЗАННЫХ СЛОВОСОЧЕТАНИЙ В РУССКОМ ЯЗЫКЕ

Ключевые слова: *синтаксически неразложимые словосочетания, принципы определения синтаксической неразложимости.*
Açar sözlər: *sintaktik cəhətdən bölünməz söz birləşmələri, bölünməz konstruksiyaların prinsipləri.*
Key words: *syntactically indecomposable word combinations, principles of definition of syntactical integrity.*

Статья посвящена вопросам функционирования одной из синтаксических единиц–словосочетаний. Основная задача данного сообщения – удостовериться в мысли о том, что семантико–структурные особенности словосочетаний изучены не до конца, остаются открытыми некоторые вопросы, связанные с функционированием словосочетаний различных разрядов в ткани и структуре предложения.

Актуальность систематизации форм, связанных (синтаксически неразложимых) словосочетаний вызвана не только их функциональной значимостью, но и необходимостью уточнения положений грамматического членения предложения, против которого выступают сегодня представители грамматической теории академического толка.

В современной синтаксической теории одним из общепринятых положений считается признание двух единиц – словосочетания и предложения – как центральных единиц синтаксиса. Эти единицы противопоставлены между собой по целому комплексу признаков, обеспечивающих их системную соотнесённость и достаточно аргументированную дифференциацию в рамках синтаксического уровня языка.

Сегодняшнее понимание грамматической природы отмеченных единиц сложилось не сразу. Из истории синтаксических учений известно, что примерно до второй половины XIX века основным предметом синтаксического изучения являлось словосочетание в его широком понимании – как результат всякого «сочинения слов», и синтаксис считался наукой о «словосочинении». Предложение при этом воспринималось как «своеобразная единица речи», состоящая из слова или сочетания слов, выражающая «полный разум», т.е. относительно законченный смысл; иначе говоря, предложение осознавалось как определённая форма употребления различных форм слова или словосочетаний (см. об этом 1, с. 92).

Основной причиной такого отношения к результатам «словосочинения» служили факты идентичного строения словосочетаний как в структуре предложения, так и вне предложения. Принимались во внимание факты строения словосочетаний, которые были нехарактерны для структуры предложения и, наоборот, случаи формирования словосочетаний, характерных лишь для строя предложения. Таким образом, закономерности «словосочинения», т.е. закономерности сочетания слов привлекали внимание всех учёных–синтаксистов на протяжении всей истории развития синтаксических учений.

Изучение словосочетаний, их грамматической природы, их функционально–семантических особенностей продолжается и сегодня, потому что все ещё остаётся целый комплекс не до конца решённых вопросов не только структурализации словосочетаний в широком смысле этого слова, но и их семантико–функциональных возможностей, требующих дифференциальной оценки как при участии этих единиц в качестве строевых элементов предложения, так и при их самостоятельном функционировании.

Словосочетание – единица многогранная и многофункциональная. Оно служит своеобразным полем для а) реализации синтаксических возможностей (валентностей) словоформ, б) конкретного проявления различных типов синтаксических связей, в) реализации логико–смысловых (семантико–синтаксических) отношений, обуславливающих корректность / некорректность нахождения слов–лексем в одном контактном ряду (т.е. смысловую сочетаемость), г) функционального представления компонентов словосочетания или всего словосочетания в целом в качестве понятийно–позиционной единицы (т.е. так называемых членов предложения), д) выявления, формирования композиционных моделей так называемых свободных сочетаний и различных видов связанных словосочетаний – метафорически связанных, семантически связанных, синтаксически связанных и т.д.

Вообще степень изученности словосочетания как одной из центральных единиц синтаксиса может показаться достаточной только на первый взгляд. Здесь все ещё остаётся широкое поле для исследований. Не касаясь комплекса не до конца разработанных вопросов проблемы словосочетаний вообще, мы попытаемся очертить контуры сферы невыясненных вопросов лишь относительно прямого объекта нашего изучения – связанных словосочетаний, актуальность изучения которых обусловлена, с нашей точки зрения, следующими факторами.

1. Связанные словосочетания представляют часть программного материала при изучении синтаксиса словосочетаний как в школьной, так и в вузовской практике, т.е. они представлены практически во всех учебных пособиях по синтаксису русского языка, в которых отмечается тот или иной круг этих конструкций (субстантивно–атрибутивные – *человек высокого роста, автомобиль повышенной маневренности* и т.п.; количественно–именные – *пять книг, несколько человек* и т.п.; местоименные – *каждый из нас, кто–то из детей* и т.п.; глагольно–обстоятельственные – *смотреть странным взглядом, идти спокойными шагами* и т.п. и т.д.). Вместе с тем в науке не сложилось единое, общеупотребительное терминологическое обозначение для этих конструкций. В разных учебных источниках (как академического, так и вузовского уровня) в зависимости от учёта тех или иных свойств этих единиц применяется целый ряд терминологических названий – несвободные, цельные, неделимые, нечленимые, неразложимые, синтаксически спаянные, связанные и т.п. (см. об этом 2, с. 239 – 240).

Причину такого терминологического разнобоя мы видим в том, что одни авторы исходят из возможностей этих словосочетаний быть самостоятельной синтаксической единицей, а другие учитывают их не только конструктивные возможности включать два или несколько слов и словоформ на базе словосочетательных связей и отношений, но и (что для некоторых – главное) их функциональное назначение – выступать в качестве единого, одного члена предложения.

Мы в данном случае будем последовательно придерживаться дифференциации отмеченных словосочетаний как реализаций а) самостоятельных конструкций (которые проявляют связанность как конструктивно–семантическое свойство до предложения, вне предложения) и б) внутрипредложенческих композиций (которые формируются как цельные образования лишь в структуре предикативных единиц).

Поэтому для нас в данном случае обозначения «связанные» (т.е. в смысле синтаксической связанности) и «цельные» будут доминантными как абсолютные синонимы. Иные обозначения, используемые в ходе описания, будут комментированы.

Мы вполне отдаём отчёт в том, что наличие широкого терминологического поля нельзя считать результатом исследовательского недочёта, наоборот, это – следствие многоликости и семантико–синтаксической многогранности отмеченного комплекса словосочетаний, которые в каждом отдельном случае употребления обнаруживают все

новые и новые грани либо семантической структуры, либо своей позиционной отмеченности (маркированности).

Сказанное уже, на наш взгляд, в определённой степени указывает на актуальность изучения корпуса связанных словосочетаний в различных аспектах.

2. До сих пор нет отдельного монографического исследования связанных словосочетаний, хотя, как мы уже отметили, этот материал является программным и, что очень важно отметить, связанные словосочетательные композиции не являются такими уж редкими языковыми явлениями: связанные словосочетания стилистически не маркированы (за исключением отдельных метафорически заряженных конструкций) и отличаются достаточно широкой употребительностью, частотностью. Необходимость их системной квалификации в рамках одной разработки актуализировано в определённом смысле и отмеченным положением.

3. Изучение композиционных особенностей любого типа словосочетаний и, особенно связанных конструкций, систематизация структурно–смысловых параметров словосочетаний различных разрядов актуализированы незаменимой практикой грамматического членения предложения. *Эта знакомая со школьной скамьи* форма анализа предложения, имеющая как теоретическое, так и практическое значение в освоении основ синтаксиса предложения, во многом опирается на структурно–семантические данные композиций сочетающихся внутри предложения слов – словосочетаний. Эта форма анализа, столь необходимая для школьной и вузовской аудиторий – проявление преемственности между разными уровнями грамматики: здесь срабатывает механизм знания категориальных (морфологических) свойств классов слов (частей речи), знания в области сочетаемостных (логико–смысловых) свойств слов и словоформ, а также межкомпонентных отношений между ними (словосочетания), и знания в области структурации предложения (состава подлежащего и состава сказуемого). Как видно, в ряду системно соотносящихся трёх уровней – морфологии, синтаксиса словосочетания и синтаксиса предложения – словосочетания занимают промежуточное, центральное место, обязательное для установления системы членов предложения, т.е. для основ грамматического членения предложения.

Логико–смысловые отношения, устанавливаемые между компонентами словосочетания, практически однозначно соответствуют отношениям между членами предложения (за исключением предикативных отношений – между подлежащим и сказуемым): смысловые отношения, которые традиционно определяются вопросами что сделал?; где?, по какой причине? и мн. т.п. адекватны как для структуры словосочетания (*читать* (что?) *книгу*; *рисовать* (кого?) *корову*), так и для структуры предложения (*Брат рисует картину, читает книгу* и т.п.).

Так что с точки зрения традиционного и, (с нашей точки зрения) обязательно необходимого анализа по членам предложения знания механизма словосочетаний, в том числе их особых разновидностей – связанных конструкций – строго затребованы и нуждаются в уточнениях и более глубокой систематизации. Тем более, что эта форма работы имеет не только теоретический характер. Она является одной из системных форм лингвометодической работы; отказ от этого вида работы не разделяется большинством синтаксистов–теоретиков, что касается лингвометодистов, то они в исключительном большинстве считают подобный отказ абсолютно неприемлемым. Изучение связанных словосочетаний, следовательно, получает поддержку в смысле актуальности и с этих позиций – с позиций осмысления системы членов предложения. Вопрос приобретает ещё более серьёзный характер по причине, что целый ряд связанных словосочетаний проявляют свою функциональную цельность именно в структуре предложения, вне предложения данное сочетание вполне свободное, членимое: *красивое лицо* (*некрасивое лицо, невзрачное лицо, непривлекательное лицо*…) как словосочетание свободное:

Его красивое лицо было обезображено шрамами (словосочетание «*красивое лицо*» реализует два члена предложения: *лицо* (его) – подлежащее, *красивое* – определение); К*расивое лицо* ещё не свидетельствует о внутренней красоте: в этом случае все словосочетание выполняет функцию одного члена предложения – подлежащего.

4. Многие разногласия в определении грамматической природы связанных словосочетаний связаны с их интерпретацией в двух формах их использования – на фоне грамматического членения предложения и на фоне актуального членения предложения. Эти позиции очень часто смешиваются, оцениваются недифференцированно, что приводит к разночтению определения цельности / нецельности функционально единой конструкции словосочетания.

Грамматическое членение предложения предполагает учёт типизированных позиций членов предложения как семантико–структурных элементов строения предложения, т.е. тех позиций, которые заданы, предопределены системной организацией предложения как модели, как единицы конструктивного синтаксиса, который во многом опирается на установленные языком варианты компонентного состава этой модели, на типизированные позиции, которые замещаются определённым классом слов – частями речи. Эти позиции могут быть замещены словоформой, словосочетанием или даже предикативной конструкцией, имеющих синонимическое значение: *Издали послышались какие–то* ***крики***; *Издали послышались* ***крики помощи*** *(о помощи); Издали послышалось: «****Помогите, тону***!..».

Что касается актуального членения предложения (т.е. высказывания), то этот вид членения не адекватно грамматическому членению предложения: здесь вычленяются не члены предложения в их традиционном понимании, а тема–рематические элементы, которые не соответствуют членам предложения, а устанавливают границы между тем, что известно говорящим (темы, данного), и тем, что вносится в качестве новой информации (ремы, нового). Поэтому при актуальном членении любое словосочетание (в том числе и связанные) может быть расщеплено и потерять свою функциональную цельность. Следовательно, рассмотрение связанных словосочетаний с точки зрения их участия в высказываниях, подверженных актуальному членению, и их квалификация в роли темы или ремы также делает изучение объекта нашего внимания актуальным.

5. Сказанное выше во многом касается не только связанных словосочетаний, но и свободных. Дело в том, что осмысление многих вопросов структурации и семантической организации словосочетаний обусловлено признанием или непризнанием языковой реальности этих конструкций: некоторые исследователи и по сей день считают, что словосочетаний как особых синтаксических единиц не существует, они, якобы, формируются только в предложении. При этом в качестве примера приводят такие предложения, как «*С фронта он* ***вернулся*** *совсем* ***больным***»; сочетания этого типа обнаруживают двойную связь – управление под влиянием глагольного слова «*вернулся*», и согласование в форме мужского рода единственного числа по отношению к местоимению–подлежащему «*он*».

Относительно таких словосочетаний (с двойной связью) в синтаксисе продолжаются споры. У нас по предварительному анализу материала данного строения формируется определённое мнение, которое будет обнародовано в ходе анализа именно этого явления. Считаем, что то или иное решение по данному вопросу поможет прояснить ситуацию, остающуюся актуальной для осмысления языковой самостоятельности словосочетания вообще (см. 5, с. 40 – 59).

6. Немало споров вызывают так называемые количественно–именные связанные словосочетания, состоящие из единств числительных и существительных типа «*четыре стола*», «*пять колец*», «*десять книг*» и т.п. Эти сочетания в начальной форме (Именительном падеже) формируются на базе управления. Грамматическая традиция

Romantizmin Ceyn Ostin yaradıcılığına təsirini yazıçının insan şəxsiyyətinə olan marağında görmək olar. Yazıçının yaratdığı personajların şəxsi keyfiyyətlərində romantik qəhrəmanların üsyankarlığını, romantik əhval-ruhiyyəsini izləmək olur. "Qürür və qərəz" romanı realizmin prinsiplərinə uyğun yazılsa da əsər romantizmin bir sıra əlamətlərini özündə ehtiva edir. Məlumdur ki, romantizmin estetikası idealizmlə xarakterizə olunur və biz bu əlaməti Ceyn Ostinin "Qürür və qərəz" romanının bədii aləmində aydın şəkildə görə bilirik. Əsərin qəhrəmanları olan Elizabet və Darsi romantik qəhrəmanlar kimi davranır, cəmiyyətdə hökm sürən xurafatı dəf edir, mövcud adət və ənənəyə qarşı çıxırlar. Belə ideallaşdırma romantizmə xas xüsusiyyətdir və biz bunu Ceyn Ostinin roman dünyasında izləyə bilirik. Darsi kütlədən seçilir, sirli və dinməz təsvir edilir və bu üzdən o, romantik qəhrəman kimi qeyri-adi görünür. Elizabet haqqında isə demək olar ki, o, bütöv şəxsiyyətdir. Xarakteri ilə üsyankar ruhu təcəssüm edir və digərlərinə iradəsini əzməyə imkan vermir. Özünə və öz mənəvi dünyasına sadiqdir.

Yuxarıda qeyd edilən fikirləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, ingilis realist romanın nümayəndəsi olan Ceyn Ostinin yaradıcılığında romantizmin əlamətləri açıq-aydın özünü büruzə verir. Başqa sözlə romantizmin estetik prinsipləri onun yaradıcılığından yan keçməmişdir. Bunun ən bariz nümunəsi yazıçın 1811-ci ildə yazdığı "Ağıl və ehtiras" (Sense and Sensibility) romanında yaratdığı romantik Marianna obrazıdır. Marianna obrazının təsvirinə yazıçı romantik əhval ruhiyyə kökləməklə oxucunun gözü önündə ideal qəhrəman canlandırır: "Marianna çox ağıllı idi, amma eyni zamanda da çox duyğusal, hissiyatlı və həddindən ziyada coşqulu idi. O, nə qəmdə, nə kədərdə, nə də sevinc hisslərində sərhəd bilmirdi. O, çox ürəyi açıq, mehriban, amma eyni zamanda da sirli idi. Onda nə desən var idi, bircə soyuqqanlı məntiqdən başqa"[1;95].

Maraqlıdır ki, yazıçı Mariannanı təsvir edəndə diqqəti onun iç dünyasına, daxili aləminə ayırır, sanki oxucunu onun haqqında daha çox məlumatlı olmasına işarə edir. Qeyd etmək lazımdır ki, yazıçının yaşadığı dövr üçün qadın obrazının bu şəkildə ətrafa, onu əhatə edən cəmiyyətə etinasız olması cəsarət tələb etdiyi kimi, onun romantik qəhrəman kimi etirazçı olması ilə də əlaqələndirilməlidir. Maraqlıdır ki, Ceyn Ostin qəhrəmanın xarakteristikasını verəndə onun məhz romantik ədəbiyyata meylini də vurğulamağı unutmur. Valter Skottun əsərləri ilə bərabər Ceyms Tomson, Uilyam Kauperin də poeziyasını sevdiyini dilə gətirir və beləcə, onun daxili dünyasını, romantik dünyagörüşünü açmış olur.

Mariannanın dünyagörüşündəki romantik əhval ruhiyyə onun xarakterini müəyyən edir, onun dünyanı qeyri-adi, illüziya şəklində görməsinə şərait yaradır. Marianna romantik qəhrəmanlar kimi rasionalizmə deyil, daha çox irrasionallığa meyllidir. Atasının ölümündən sonra

kədər və iztirab hissləri onu rahat buraxmır: "O, sonsuza qədər kədərə, ağrıya qərq oldu, bu o qədər Marinnaya əzab verirdi ki, ən uzaq gələcəkdə belə bu kədəri unuda bilməyəcəyinə əmin idi"[1;108]. Göründüyü kimi Marianna reallığa qayıtmaq istəmir, bu keyfiyyəti onu tipik romantik qəhrəmana bənzədir. Məlumdur ki, romantik qəhrəman keçmişlə bağlı olub real aləmi qəbul etmir, özünün iç dünyasında xəyal etdiyi aləmdə yaşayır. Belə dünya Vordsvortun, Kolricin, Sautinin və Valter Skottun qəhrəmanlarına xas xüsusiyyətdir. Marianna da düşündüyü, xəyal etdiyi hər bir şeyi həddindən artıq "şişirdir", sanki ülluziyalarda yaşayır, reallıq ona acı gerçək kimi gərəksizdir və bu üzdən xəyallar aləminə sığınır. Atasına münasibəti də bu səbəbdən romantik roman qəhrəmanını xatırladır.

Böyük bacısının sevgi haqqında düşüncələrini qəbul etmir, onun "hörmət etmək elə sevməkdir" tezisi isə ona absurd gəlir. Marianna üçün məntiq qaydaları "işləmir", onun üsyankar ruhu baş verənləri qəbul etmir. Elə bu üzdən Marianna üçün bacısının "ağılın hissələrdən üstün olması" məntiqi anlaşılmazdır. Məhz bu keyfiyyəti ilə onu romantik qəhrəman statusuna yaxınlaşdırmaq olar.

Marianna səbirsizdir və tipik romantik qəhrəman kimi etirazçıdır, bacısından fərqli olaraq səbirli və təmkinli deyil. Sevgisini bütün dünyaya bəyan etmək istəyir, Uillobiyə olan hissələrini gizlətmir, məhz bu hisslər də onu əhatə edən insanları qorxudur, anlaşılmazlığa səbəb olur: "Marianna riyakarlığı sevmirdi. Hisslərində pis bir şeyin olmaması səbəbindən onu gizlətmək istəmirdi. Ona elə gəlirdi ki, hisslərini gizlətdikcə riyakar və səhv ənənələr qarşısında kapitulyasiya edəcəkdir. Uillobi də onun düşüncələrini bölüşürdü və onların davranışları nə qədər səmimi, düşüncələri nə qədər inandırıcı olsa da qəbul edilmirdi.

Uillobi onun yanında olanda Marianna heç kimi görmürdü. Ona elə gəlirdi ki, Uillobi nə edirsə etsin, nədən danışırsa danışsın həqiqət onunla idi"[1;204]. Uillobiyə olan sevgisi o qədər güclü olur ki, ağılsızlıq edib onun "toruna" düşmək təhlükəsi ilə qarşılaşır. Təsadüf nəticəsində sevdiyi insanın başqa birisi ilə nişanlanması xəbəri onu səhv atdım atmaqdan çəkindirir.

Romantik təhkiyə situasiyalarında olduğu kimi onu düşdüyü vəziyyətdən romantik qəhrəman çıxarır. Əsərdə canlanan polkovnik obraz Mariannanın ideallarına uyğun gəlməsə də, onun qoruyucu mələyinə çevrilir, sonda isə idealı olur. Gəzinti zamanı ayağı burxulan Mariannaya polkovnikin yardımı və bir müddət ona göstərdiyi qayğı müəllif tərəfindən lirik-sentimental notlarda təsvir edilir. Görünür müəllifin qəhrəmanlarına bu şəkildə yanaşması onun ideal qəhrəman yaratmaq istəyindən irəli gəlir. Sosial statusları fərqli olan, lakin bunun fərqində olmayan və sevdiyi xanıma evlilik təklifi edən polkovnik obrazı romantik qəhrəman obrazına yaxınlaşır. Məhz bu üzdən demək olar ki, romantizmin ideal qəhrəman axtarışı Ceyn Ostin yaradıcılından yan keçməmişdir.

Göründüyü kimi, "Ağıl və ehtiras" romanında insanın təbii hissləri ilə cəmiyyətdə mövcud olan maddiyata meyillik kimi problemlər üz-üzə gəlir, müəllif təhkiyəsində romantik hisslərlə rasional düşüncə tərzi şəklində təsvir edilir və üstünlük birinciyə verilir.

Ceyn Ostin öz qəhrəmanlarını iztirab hisslərindən keçirərək xoşbəxt sonluqla bitən həyata qovuşdurur. Sentimental-romantik üsuldan istifadə edən yazıçı qəhrəmanlarının daxili dünyasını diqqətlə izləyir, psixologizmə daha çox yer verir. Biz bunu bacıların biri-birinə olan münasibətində, polkovnikin Mariannaya, böyük bacının isə sevdiyi insana olan xoş, sevgi dolu yanaşmasında görə bilirik. Hər bir personaj (romantik qəhrəman statusu – Ə.S.) öz həyati situasiyalarından alnıaçıq çıxır, öz həyat ideallarına sadiq qalırlar.

Ceyn Ostin yaradıcılığı ingilis roman ənənəsinin ən bariz nümunələrinə özündə birləşdirən, maarifçi rasionalizmlə realizmin, yeri gələndə isə romantizmin əlamətlərini özündə əks etdirir. Romantizmə bağlılığı çox vaxt qəhrəmanların daxili dünyasına daha çox diqqət yetirməsi və qəhrəmanların öz dünyalarında özləri ilə çəkişməsi şəklində təsvir edilir. Yazıçı romantizmin ideal qəhrəman axtarışını xoşbəxt olub "yaxşı" insanla ailə quran romantik natura şəklində canlandırır və beləcə, romantizmin estetik prinsiplərindən olan qəhrəmanın ideallaşdırılmasına gətirib çıxarır.

Romantizm sentimental şəxsiyyət obrazından istifadə etsə də, sentimental hissiyyatdan daha çox ehtiraslara üstünlük verirdi ki, biz bunu Ceyn Ostinin "Ağıl və ehtiras" romanında Marianna obrazının romantik şəxsiyyətində görə bilirik. Romantiklərə görə ehtiras yeni insanın əlaməti idi və bu üzdən romantik şəxsiyyət üçün ən ağrılı ehtiras onun təsəvvürləridir. Bu vacib məqamı əsas götürərək qeyd etmək olar ki, Ceyn Ostinin "Ağıl və ehtiras" romanı romantizmin əlamətlərindən xali olmayıb özündə romantizmin estetik prinsiplərindən sayılan insanın təkcə indiki zamanla deyil, eyni zamanda da gözəl gələcək xəyali ilə yaşaması ideyası ilə bağlıdır. Romantiklərə görə belə dünyada nəyinki hamı xoşbəxtdir, həmçinin də eyni dərəcədə gözəldir.

Ədəbiyyat

1.Austen J. Sense and Sensibility. Publisher: William Collins, 2010, 400p.
2.Charlotte Bronte's Letters. https://pemberley.com/janeinfo/janeart.-html#charlottebronte
3.Honan P. Jane Austen: A Life. New York: St. Martin's Press, 1987. 302 p.
4.Lascelles M. Jane Austen and Her Art. L., Oxford University, 1968. 240 p.
5.Liddell R. The novels of Jane Austen. L., 1993. 190p.
6.Tomalin C. Jane Austen: A Life. New York: Alfred A. Knopf, 1997. 256 p.

C.A.Азиз

Поэтические особенности романа Джейн Остин «Разум и чувства»

Резюме

Несмотря на неразрывную связь английского реалистического романа с творчеством Джейн Остин, в нем также можно усмотреть элементы романтизма. Приверженность писательницы романтизму зачастую определяется пристальным вниманием к внутреннему миру героев и их изображением в мире грез. С другой стороны, поиски идеального героя романтизма писательница передает через образы Элизабет и Дарси из «Гордости и предубеждения», Марианны из «Разума и чувств», посредством изображения их отношения к жизни. Несмотря на неполное соответствие романтическим героям, им в то же время свойственны черты романтизма, что дает нам основание уделить внимание романтическим элементам в творчестве писательницы.

S.A.Aziz

Poetic features of Jane Austen's novel "Sense and Sensibility"

Summary

Despite the inextricable connection of the English realistic novel with the work of Jane Austen, we can also see elements of romanticism in it. The writer's commitment to romanticism is often determined by close attention to the inner world of heroes and their depiction in the world of dreams. On the other hand, the writer conveys the search for the ideal hero of romanticism through the images of Elizabeth and Darcy from "Pride and Prejudice", Marianne from "Sense and Sensibility", through the image of their attitude to life. Despite the incomplete correspondence to romantic heroes, at the same time, they are characterized by the features of romanticism, which gives us reason to pay attention to romantic elements in the writer's work.

Rəyçi: filol.e.d. H.Ə.Əliyeva

Redaksiyaya daxil olub: 02.06.2020

S.R.MƏMMƏDOVA
e-mail: aytac2000@yandex.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

G.HAUPTMANN YARADICILIĞININ XX ƏSR ALMAN ƏDƏBİYYATINDA YERİ

Açar sözlər: *naturalizm, dekadans, sosial dram, modernizm, ekspressionizm*
Ключевые слова: *натурализм, декадент, социальная драма, модернизм, экспрессионизм*
Key words: *naturalism, decadent, social drama, modernism, expressionism*

Görkəmli alman yazıçısı Gerhart Hauptmannın zəngin yaradıcılıq irsinin mühüm bir hissəsini təşkil etdiyi dövrə məxsus XIX əsrin sonu və XX əsr ədəbiyyatında, ümumiyyətlə, ədəbi-bədii mühiti arasında görünən fərqlərin ən önəmlisi insan konsepsiyasında baş verən kardinal dəyişikliklər olmuşdur. XIX əsrin sonunun burjua reallığına uyğun olaraq inkişaf edən gənc, dövrünün həqiqi qəhrəmanını xarakterizə edən şəxsiyyət konsepsiyası XX əsrin ictimai-siyasi hadisələrinin təsiri ilə müəyyən mənada dəyişilmişdi. Mövcudiyyətin praktik mahiyyəti, amansız prozaik reallığı qarşısında tədricən dərdlilik illüziyası öz poetikliyini itirməyə başlamışdı. XX əsrə doğru ədəbiyyatda keçən əsr üçün ənənəvi olan mədəniyyətin fəlsəfi-estetik mahiyyəti bir ayrı məcrada inkişaf etməyə, tarixi hadisələrdən irəli gələn ümumi böhran narahatlığı güclənməyə başlamışdı. XX əsrin keşməkeşləri bütün sahələrə öz ağır izini qoyduğu kimi ədəbiyyata da təsirsiz ötüşməmişdir. Əsrin əvvəllərində realist dramın inkişaf uğurları ədəbiyyatın ən ümdə məsələlərindən biri kimi özünü doğruldur. G.İbsenin, A.Strindberqin, G.Hauptmannın, B.Şounun parlaq bədii nailiyyətləri ilə şöhrət tapmış teatr-dramaturgiya estetikasında "Yeni Dram" anlayışı özünü təsdiqləyirdi. Bu müəlliflərin əsərlərində mənəvi mübarizə, fəlsəfi polemika, aktual sosial-əxlaqi problematika ön yerdə dayanır və ideyanın əsas mahiyyətini təşkil edirdi. Eyni zamanda bu dram korifeylərinin əksəriyyəti həm də dram nəzəriyyəsinin yenidən hazırlanması işinə töhfələr verirdilər. Onlar eksperimentlər aparır, rejissuranı, aktyor oyununu cəlb etməklə teatr fəaliyyətinin müxtəlif sahələrində fəal araşdırmalara imza atırdılar. Təsadüfi deyildir ki, G.Hauptmann və digər sənətkarların ədəbiyyata və səhnəyə gətirdikləri yeniliklərdən bu gün də dünya teatrlarında geniş istifadə olunur. Bu tendensiyaların önəmli olanı və perspektivlilərindən biri naturalizmin dramaturgiyada inkişaf dönəmi sayıla bilər.

"Naturalizm" termini ilə yanaşı, buna qədər artıq məlum və məzmun baxımından bu anlayışa uyğun gələn "materializm" fəlsəfi termini də işlənirdi. "Naturalistcəsinə düşünmək real fenomenləri onların təbii səbəbləri nisbətində araşdırmaq deməkdir" (6, s.287). Bu anlayış incəsənət tarixində də yer almışdır və incəsənət əsərlərinin üslubi təsvirinin əksinə olaraq maksimal şəkildə təbiətə yaxınlığını ehtiva edir.

İnqilabdan sonra Almaniyada naturalizm burjuaziyaya qarşı yönəlmiş ilk milli miqyaslı ədəbiyyat hərəkatı sayılırdı. Bu hərəkat artıq öz mövqeyini müəyyənləşdirmiş, epoxanın sosial-siyasi mübarizələrində iştirak etmiş, Avropanın bədii və mənəvi inkişafının bir parçası olmağa müvəffəq olmuş, mədəni-elmi əlaqələr daxilində yetişməkdə olan beynəlmiləlçilik ruhunun ifadəsinə çevrilmişdi.

Dövrün belə bir mənzərəsində alman naturalistləri nümayişkaranə şəkildə ənənəvi estetik, mənəvi, siyasi normaların əksinə olduqlarını bildirirdilər. "Gənclər" Almaniya imperiyası mədəniyyətinin siması qismində teatr üçün nəzərdə tutulmuş rəsmi incəsənət əsərlərini, tarixi, dekorativ sənət nümunələrini, dəbdə olan ədəbiyyatı, yalnız Avropanın deyil, Almaniyanın da burjuaziyasının yüksəlişi dövrünün nailiyyətləri sırasına uyğun olmayan aşağı səviyyəli əsər-

ləri kəskin tənqid edirdilər. Onlar ictimai ziddiyyətləri malalamaqdan, əvvəlki nəsil realistləri kimi gerçək olayları qəbul etməkdən, keçmiş yaxşı əyyamların itirilməsinə nostalji ilə pessimizm prizmasından baxıb taleyə boyun əyməkdən, incikliyi, narazılığı gizlətməkdən, cəmiyyətdən uzaqlaşıb insan ayağı dəyməyən yerlərə qaçmaqla fərdiyyətin bütövlüyünü qorumaq cəhdlərindən imtina edirdilər. Onlar müasirliyə, onun sosial tədqiqinə yönəlirdilər. Böyük şəhərin həyatı, fabrik əməyi, kiçik burjuaziya mühiti, bohem yaşayışı, həyatın dibinə yuvarlanma, insan şəxsiyyətinə mühitin əzici təsiri, alkoqolizm, naqis intim, ailə və məişət konfliktləri, ziyalı və proletar münasibətləri, qadın emansipasiyası və s. məsələlər naturalizmin mövzusu olurdu, yəni, naturalistlər üçün gerçək həyatın bütün sahələri qadağalara məhəl qoymayan mövzu mənbəyi idi.

Naturalistlər kapitalist gerçəkliyinin, onun qeyri-bəşəri eybəcərliklərinin canlı, inandırıcı təsvirləri ilə kaiptalizmin inkişafına bəslənmiş ümidləri darmadağın edirdilər. Bu proses müasir cəmiyyətin və onun şüurunda baş verən dəyişikliklərin əhatəli araşdırılmasına səy göstərən Avropa tənqidi realizminin təbii-elmi nəzəriyyələrinin təsiri ilə baş verirdi. Tarixi-ədəbi məcrada XIX əsrin sonunu, XX əsrin əvvəllərini, və ya "əsrin sonu" nu əhatə edir. İki əsr arasındakı böhranlı dövrün ümumilikdə "dekadans" adlandırılması qanunauyğundur. Bu baxımdan dekadans dünyagörüşünün simvolizm, impressionizm, estetizm cərəyanlarında, eləcə də, bu və ya digər milli ədəbiyyatlarda, konkret bir sənətkarın şəxsiyyətində inikası, nəzəri cəlb edəcək proses olaraq özünü doğruldur. Müəyyən mənada naturalizm də dekadansla çulğalaşır.

Yaradıcılıq irsini bu cür bədii-sinkretik dram nümunələri, rəngarəng mövzulu, metodlu, janrlı əsərləri ilə zənginləşdirən yazıçı Almaniyanın az qala bir əsrlik keşməkeşli dövrünü öz həssas müşahidəsi, bədii-estetik dərkin orijinal təqdimat tərzi, dərin duyğusu ilə vəsf etmişdi. 1908-ci ildə Moskvada dərc olunmuş külliyatına yazdığı tənqidi oçerkində Nestor Kotlyarevski G.Hauptmann haqqında: "Yazıçıda romantik incəliyin sərt tragizmlə bu cür gözəl ahəngini nadir hallarda görmək olar" - deyə söz açmışdır (2, s.8).

Həmin dövrdə naturalizm bir ədəbi cərəyan kimi Fransada, Rusiyada, Skandinaviyada geniş yayılsa da, Almaniyaya hələ yad idi və konservativ alman ədəbiyyatında romantizm aparıcı mövqeyini qoruyub saxlamaqda idı. Gənc G.Hauptmann ədəbiyyatla bağlı diskussiyalarda iştirak edir, özü kimi ilk qələm təcrübələrini sınaqdan keçirən yazıçılarla, tənqidçilərlə dostlaşır. Buradakı ədəbi mühit onun bir yazıçı kimi formalaşmasında xüsusi rol oynayır. 1887-ci ildə Münxendə "Cəmiyyət" adlanan ədəbi dərgidə dərc olunmuş "Dəmiryol gözətçisi Thiel" adlı kiçik hekayəsi G.Hauptmannı həqiqi bir yazıçı kimi tanıtdı. Hekayədə oxucuya o zamanlar üçün yeni olan həyatın dibində yaşayan, mühitin məhv etdiyi kiçik insanın faciəsi təqdim olunmuşdu.

G.Hauptmann bütün həyatı boyu vaxtaşırı digər ədəbi növlərə müraciət etsə də, əsasən dramaturq kimi ilk səhnə əsərindən alman ədəbiyyatı tarixində dərin iz qoymağa nail olmuşdur. "Gündoğmadan öncə" "Vor Sonnenaufgang" G.Hauptmannın "sosial dram"larının ilki idi. Əvvəl müəllif bu dramı "Təşviqatçı" adlandırmaq istəmiş, ancaq gənc yazıçının taleyində mühüm rol oynamış Arno Holzun (1863-1929) məsləhəti ilə əsərin adını "Gündoğmadan öncə" qoymuşdur. G.Hauptmannın sənətkarlıq prinsiplərindən ən vacibi dramın hərəkət mərkəzini, fabulasını xarakteri yaradan mühitin üzərində cəmləməsiylə bağlı idi. Tomas Mann G.Hauptmann haqqında yazırdı: "G.Hauptmann yaradıcılıq həyatında o dövrün bir çox ədəbi cəhətlərini birləşdirir-neoromantizm realizmlə, gerçəkliyin döyüşkən ifşası poeziya ilə çulğalaşır" (8).

G.Hauptmannın ikinci pyesi "Barış bayramı" ("Das Friedenfest" 1890) adlanır. Bu dramda müəllif birincidən fərqli olaraq daha çox G.İbsenin təsiri altındadır. G.Hauptmann özü birinci pyesinə "sosial dram" deyirdisə, " Barış bayramı"nı "ailə dramı" adlandırmış və diqqəti doktor Şolsun ailəsində baş verən mənəvi əzabların, psixoloji gərginliklərin üzərinə cəlb etməyə çalışmışdır. Bu əsərdə sosial mövzuya nisbətən passiv mövqe ayrılmış, irsilik ideyası isə ön plana keçirilmişdir.

G.Hauptmannın ilk pyesləri içərisində böyük maraqla qarşılananlardan biri də "Tənhalar" və yaxud "Tənha adamlar" (Einsame Menschen, 1891) əsəridir. Bu əsərdə G.Hauptmannın sonrakı dramları üçün xarakterik səciyyə daşıyan və yaradıcılığında yeni mərhələyə başlanğıc verəcək obrazlar, bədii xüsusiyyətlər nəzərə çarpır. Yazıçı "Tənhalar"ı Sürixdə, "Barış bayramı"nı bitirdikdən az sonra qələmə almışdır. Əsərin süjeti əslində canlı müşahidələrə əsaslanır. Müəllif bir növ mühiti, ailəsi, yaxın adamları tərəfindən başa düşülməyən ziyalının - qardaşı Karl Hauptmannın taleyini təsvir edir. Ədib əvvəlcə pyesi "Martin və Marta" ("Martin und Martha") adlandırmış, sonra dəyişdirərək "Tənha adamlar" (Einsme Menschen) adıyla 1891-ci ildə ayrıca kitabça kimi dərc etdirmiş və tezliklə əsər böyük şöhrət qazanaraq Avropanın bir çox səhnələrində dəfələrlə oynanılmışdır. "Tənhalar"ın ilk tamaşası 11 yanvar 1891-ci ildə "Azad səhnə"də qoyulmuşdur.

"Tənhalar" alman teatr tarixində birmənalı qarşılanmamış, fikir müxtəlifliyinə səbəb olmuşdur. Ümumi rəylər yalnız əsərin qismən də olsa avtobioqrafik səciyyəsi haqqında fikirlərdə özünü göstərirdi. Ədəbiyyatşünasların əksəriyyəti pyesdə müəllifin həyatda tanıdığı şəxslərin obrazını təqdim etdiyini, məsələn, Braunun G.Hauptmannın uşaqlıq dostu rəssam Hüqo Ernst Şmidt, Köthe Fokeratın isə G.Hauptmannın birinci həyat yoldaşı Marinin obrazı əsasında qələmə alındığını təsdiqləyirdilər (3 s.427). Mübahisə doğurmayan məsələlərdən biri də odur ki, "Tənhalar" ziyalı təbəqənin mənəvi axtarışlarını təsvir edən intellektual dramdır.

G.Hauptmann XIX əsrin sonunda dram sənətinə gətirdiyi sənətkarlıq yenilikləri ilə tanınır, yenilikçi kimi də inkişaf edirdi və yeniliklərin ən bariz nümunəsi "Toxucular" (die Weber) dramı idi. 1844-cü ildə Sileziya fəhlələrinin üsyanını əhatə edən tarixi hadisələr əsasında qələmə aldığı "Toxucular" (1892) pyesi öz orijinallığı ilə teatr tarixində yeni bir səhifə açdı və G.Hauptmann bu əsərinin sayəsində öz dramaturgiya üslubu ilə artıq heç kimə bənzəmədiyini sübuta yetirdi. Həyatın bütün qəddar simalarının ustalıqla təsvir olunduğu bu əsər nəinki mövzusunun, ideyasının yeniliyi, cəsarəti ilə, eləcə də səhnə quruluşunun orijinallığı ilə də fərqlənirdi. İlk dəfə idi ki, qəhrəmanlar mənfi və müsbət cəbhələrə ayrılmır, müəllif öz qəhrəmanlarını əxlaq mühakiməsinə çəkmirdi. Əsərdə sosial tənqid o qədər aydın və qüvvətli idi ki, sonrakı tamaşalarının göstərilməsi qadağan olunmuşdu. Lakin ətrafında baş verən bütün ictimai-siyasi motivli qalmaqallara rəğmən "Toxucular" dramaturqa həqiqi bir dünya şöhrəti gətirmişdir.

1910-1930-cu illər arasında Gerhart Hauptmann estetikasının müasir ədəbiyyatla mürəkkəb münasibətlər mövqeyində qərar tutduğu müşahidə olunur. XX əsrin əvvəllərində modernizmin bir şaxəsi kimi meydana gəlmiş ekspressionizmdə gerçəkliyin təcəssümündən daha çox müəllifin emosional vəziyyəti ifadə olunurdu. Birinci Dünya müharibəsinin, inqilabi hərəkatların doğurduğu sivilizasiya eybəcərliklərinə acı etiraz reaksiyası kimi formalaşmış bu bədii istiqamətin tərəfdarları çox ağır müharibənin qan-qadalarını dadmışdılar və gerçəkliyə qorxu, həyəcan, pərişanlıq kimi emosiyaların subyektiv prizmasından baxır, sələflərinin estetizminə, naturalizminə qarşı özlərinin kütlənin bilavasitə emosiyalarına təsiretmə ideyasını təbliğ edirdilər. Yəni, ekspessionistlər üçün yaradıcılıq aktında subyektivlik, təsvirdə ifadəlilik prinsipi ön planda dayanırdı. G.Hauptmannın naturalizm və simvolizm, neoromantizm kimi bədii cərəyanları, eləcə də özünün yaradıcılıq kəşflərini canına hopdurmuş əsərləri üçün ekspressionizmin birtərəfli yanaşma tərzi, hədsiz gərginliyi, bəzi məqamlarda qeyri-səmimiliyi yad görünürdü. Lakin struktur fərqliliyinə rəğmən həyatın mexanikləşdirilməsinə, müharibələrə, bəşəri münasibətlərin gərginləşməsinə qarşı etiraz motivlərinin təqdimi baxımından dramaturqun əsərləri müəyyən mənada bu istiqamətə uyğunlaşırdı. G.Hauptmannı düşündürən ən vacib məsələlərdən biri tarixin möhtəşəm qüvvələri ilə üzləşən şəxsiyyət olmuşdur və ədib müxtəlif illərdə bu məsələyə müxtəlif yönlərdən yanaşmışdır. I Dünya Müharibəsindən sonrakı illərdə yazdığı "Maqnus Harbe" ("Magnus Harbe" 1915), "Ağ xilaskar" ("Der weiße Heiland" 1917), "Veland" ("Veland" 1925), "Herbert Engelmann" ("Herbert Engelmann" 1924), "Doroteya Angermann" ("Dorothea Angermann"1925), "Günbatmadan

öncə" ("Vor Sonnenuntergang" 1931) və s. kimi dram əsərləri dramaturqun yaradıcılıq metodunda yeni cəhətlərin meydana çıxmasını təsdiqləyir.

1923-1924-cü illər Almaniya tarixinin kəskin dönüş illəri sayılır.1918-ci ildən başlayaraq 1923-cü ilə qədər baş verən böyük tarixi hadisələr; Versal müqaviləsinin bağlanması (1919), Noyabr inqilabı və onun qəddarlıqla yatırılması (1918), kiçik zaman kəsiyində fəaliyyət göstərmiş Bavariya sovet respublikası (1919), Veymar respublikasının yaranması (1918), Rur münaqişəsi (1923) kimi böyük ictimai-siyasi hadisələr artıq geridə qalmış, 1923-cü ildən başlayaraq ölkə siyasi və iqtisadi həyatında nisbi sabitlik dövrünə qədəm qoymuşdu. Bu ərəfədə alman incəsənəti də özünün mürəkkəb keçid dövrünü yaşayırdı. G.Hauptmann Avropa ədəbiyyatında dünyanı parçalamış müharibənin sonrakı illərindəki ziddiyyətlərinin real mənzərəsini yarada bilən ilk ədiblərdən sayılır. Müharibənin bitməsindən bir-neçə il sonra o, bu bəlanın insan mənəviyyatına vurduğu zərbələri çox dəqiqliklə göstərə bilmişdi.

Ədəbiyyat

1. Hauptmann G. Gesammelte Werke . Köln, Anakonda Verlag GmbH, 2017, 766 s.
2. Котляревский Н.А. Полное собрание сочинений Гергарта Гауптмана. В 3 т. Т.1. СПб., Ф.МАРКС, 1908, 525 с.
3. Sprengel P.G. Gerhart Hauptmann. Bürgerlichkeit und großer Traum. Eine Biographie. C.H.Beck Verlag. München. 2012, 848s.
4. Sprengel P.G. Hauptmann. Epoche, Werk, Wirkung. Becksche Elementarbücher. München, 1984, 391 s.
5. Szondi P. Theorie des modernen Dramas 1880-1950. Berlin, 1980, 392 s.
6. Зарубежная литература XX века. М., Академия, 2003, 640 с.
7. Зарубежная литература конца XIX-начала XX века. М., Юрайт, 2017, 811с.
8. http://20v-euro-lit.niv.ru/20v-euro-lit/gilenson-izl-xix-xx-vek/glava-xix-gerhard-gauptman.htm
9. https://www gerharthauptman.de/

С.Р.Мамедова

Место творчества Г.Гауптмана в немецкой литературе XX века

Резюме

Статья посвящена драматургии Герхарта Гауптмана. Подробно анализируется его вклад в натурализм, который стал развиваться в немецкой литературе, новаторские особенности его сценических произведений. Одной из основных характеристик инноваций Гауптмана было умение смешивать разные литературные стили (неоромантика, символика, классика) и создавать гармонию между ними. Кроме того, он написал неоромантические драмы и отредактировал исторический эпос, саги и литературные материалы. Натуралистически-психологическая новелла выделяется среди его прозы.

S.R.Mammadova

The place of creativity G. Hauptmann in German literature of the XX century

Summary

The article is dedicated to the drama of Gerhart Hauptmann**.** It analyzes in detail his contribution to naturalism, which began to develop in German literature, and the innovative features of his stage works. One of the main characteristics of Hauptmann's innovations was the ability to mix different literary styles (neo-romantics, symbolism, classics) and create harmony between them. In addition, he wrote neo-romantic verse dramas and edited historical, epos, saga and literary material. Naturalistic-psychological novel stands out among his prose.

Rəyçi: f.e.d., prof. S.T.Rzayeva
Redaksiyaya daxil olub: 12.05.2020

M.B.MUSTAFAYEV
filologiya elmləri doktoru

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

BƏDİİ ƏSƏRİN DİL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *ədəbi dil, bədii dil, bədii obraz, tərənnüm imkanları, sənət dili*
Ключевые слова: *литературный язык, художественный язык, художественный образ, возможности воспевания, язык искусства.*
Key words: *literary language, artistic language, artistic image, chanting possibilities, language of art.*

Ədəbiyyat bir dil sənətidir. Onun yeganə ifadə vasitəsi dildir. Dolayısı ilə hər bir ədəbi əsər, kəlmə, deyim, ibarə, söz və cümlə kimi dil ünsürlərindən meydana gəlir. Memar daş, dəmir, sement, boya taxta, daş, heykəltaraş tunc, memar gil, geramikadan, rəssam boya, fırçadan, musiqiçi not və irsdən istifadə edirsə, yazıçı dil vasitəsi ilə öz əsərini yazır. Bu cəhətdən ədəbiyyatı digər sənət növlərindən dil ayırır.

Dil insanlar arasında ünsiyyət yaradan bir vasitə kimi yaranmışdır. O bir fərdin deyil, millətin müştərək yaratdığı, mənimsədiyi sosial bir gerçəklikdir. Ancaq dili bəsit bir çərçivəyə yerləşdirmək də düz olmaz. Bir arzu, istək, duyğu, xəyal, düşüncə kimi hisslərimizi dil vasitəsi ilə ifadə edirik. Bundan əlavə dərin fəlsəfi düşüncələrı, təbii hadisələri dil vasitəsi ilə mənimsəyirik. İnsanların zaman-zaman dəyişən istək və arzularının, fərdi ünsiyyətinin əsasında dil dayanır. Dildən müxtəlif vasitələr üçün istifadə olunur: 1. Gündəlik həyatımızda, 2. Elmi həyatımızda, 3. Ədəbi əsərlərdə. Bunları gerçəkləşdirən dillərə isə gündəlik dil, elm dili, ədəbiyyat dili deyilir.

Dilin ən çox işlənən növü, heç şübhəsiz, fərdin və ya toplunun gündəlik həyatıdır. Gündəlik dil çox böyük ölçüdə fərdlər arasında əlaqələri nizamlayır. Buna baxmayaraq vaxt keçdikcə gündəlik dil ədəbi dilə yaxınlaşıb. Gündəlik dil bəsid bir dil çərçivəsinə sığışmır. Ədəbi dil ilə danışıq dili arasındakı bağlar çoxdur. Bununla birlikdə gündəlik dili, söz və ya mətnləri ədəbiyyat olaraq dəyərləndirə bilmərik. Yəni bakkal, çoban, usta, şaxtaçı söhbətləri ədəbiyyat deyildir.

Dilin ikinci işlənmə sahəsi elmi həyatdır. Riyaziyyat, kimya, biologiya, tarix, sosiologiya, ilahiyyət və başqa elmlərdəki bilgi, fikir və elmi mülahizələr dillə ifadə olunur. Elm dili daha çox açıq və konkretdir. Diqqəti öz üzərinə çəkmədən bəhs etdiyi hadisə və fakta doğru açıq və məntiqli şəkildə gedir. Elm dili vasitəsilə gerçəkləşən danışıq, mübahisə, konfrans, məqalə və kitablar ədəbiyyat deyildir.

Bəs bu halda yazıçı və şairlər dildən necə istifadə edirlər ki, onların sözlərinə və əsərlərinə ədəbiyyat deyilir? Sənətkarın dilini ədəbiyyatın dilinə yüksəldən nədir? Başqa cür desək, ədəbi əsərin dili elmi həyatdakı dildən nə qədər və hansı ölçüdə fərqlidir? Tədqiqatçının qeyd etdiyi kimi, "Bədii dil həm fikrin ifadə vasitəsi, həm də sənətkarın üslubunu formalaşdıran bir vasitədir. Bədii dil ümumxalq dilinin ən aparıcı qoludur, onun qaymağıdır. Ədəbi dil ümumxalq dili əsasında formalaşsa da, öz növbəsində ümumxalq dilini zənginləşdirir, onun lüğət ehtiyatını, eləcə də ifadə imkanlarını artırır. Ədəbi dil obrazlı, lakonik, cazibədar olmalıdır. Ona görə ümumxalq dilindəki bütün sözlərdən yox, ən gözəl, fikrin ifadəsinə kömək edən leksik, ideomatik, frazeoloji vahidlərdən istifadə etmək lazımdır" (1,102).

Ədəbi dil vasitəsi olan kəlmə, ibarə, deyim və cümlə millətin dilindən alınır. Yazıçılar da, şairlər də, fizikin, sosioloqun, bakkalın, qəzetçinin istifadə etdiyi dildən qaynaqlanır. Ancaq ədəbi dil elm dili kimi, heç zaman açıq və ya sadəcə işarətedici bir dil deyildir. Ondan belə şeylər tələb etmək də düzgün olmaz. Ədəbi dil simvollar, alleqoriya, məcaz, təşbeh, istiarə, kinayə

kimi sənətlər və ya sənətkarın ifadə tərzindən qaynaqlanan müəmmalarla doludur. Bədii yaradıcılıqda ifadələr, kəlmələr, çox zaman lüğəti mənasından uzaq formada işlənə bilər. Bu nöqtədə ədəbi dili xalq dilindən "sapma" kimi də qiymətləndirmək olar. Ferdinant de Sösürə görə, danışıq dili və ədəbi dil arasındakı fərqlilik "dil-söz" ayrımıyla da ifadə etmək mümkündür.

Ədəbi dil gündəlik xalq dilindən kəlmə sayı, çeşidindəki zənginliklə də fərqlənir. Digər tərəfdən, ədəbi dildə dilin imkanları daha diqqətli, sistemli və biçimli bir şəkildə işlənilir. Gündəlik dilin imkanları genişləndirilir, çiçəklənir. Ədəbi dil gündəlik dildən söz sayı və çeşidlərindəki zənginlik baxımından da fərqlənir. Həm də ədəbi dildə dilin imkanları geniş, sistemli bir şəkildədir.

Ədəbi dildə sözün ancaq mənası deyil, eyni zamanda duyğu dəyəri və müraciət etmə dəyəri, bir-birinə olan münasibəti, aralarındakı anlaşma, səs və müraciət də böyük önəm daşıyır. Sənətkar bu cəhətlərdən faydalanaraq vəzn, qafiyə və digər səs sənətini əldə edir.

Yazıçı bədii obrazın xarakteristikasını, hadisələrin mahiyyətini ədəbi dil vasitəsi ilə reallaşdırır. Onun dili zəngin, hərtərəfli, çoxmənalıdır. Dil zəngin olanda yazıçının, şairin təsvir və tərənnüm imkanları da geniş olur. Sənətkar öz ideyasını, məramını oxuculara çatdırmaq üçün bədii obrazlardan, onların münasibətindən istifadə edir. Bu zaman o, bədii dilə müraciət edir, onun gücü və imkanları çərçivəsində ideyasını oxuculara çatdırır. Flober sənətkarı zərgərlə müqayisə edirdi. Belə təsəvvür edirdi ki, zərgər qızılın çeşidindən necə istifadə edirsə, şair də eyni dərəcədə sözdən yararlanmalı, onu "emal etməli", cilalamalı, sənət dilinə çevirməlidir.

Bədii əsərdə obrazların dili ilə yazıçı dili bir-birindən fərqlənir. Yazıçı dili müəllif dilidir. Burada sözlər, ifadələr, cümlələr ədəbi dildə olmalıdır. Yazıçı ətraf aləmə olan münasibətini dəqiq, düzgün ifadələrlə həyata keçirir. Obrazlar isə öz dünyagörüşünə, sənətinə, yaşadığı mühitin ləhcəsinə uyğun danışır. Lakin bu o demək deyil ki, bədii obrazlar bütün əsər boyu pozuq ləhcə ilə danışmalıdır. Bu ancaq müəyyən məqamlarda, obrazların münasibətlərində bir ştrix kimi verilə bilər.

Şeirin estetik gözəlliyi dildən başlayır. XVIII əsrə qədər getdikcə genişlənən divan ədəbiyyatının dili, şübhəsiz ki, XIX əsrdə istifadə oluna bilməzdi. XIX əsrdə M.F.Axundzadənin mənzumələrinin, A.Bakıxanovun, M.Ş.Vazehin şeir dilini də bu gün örnək kimi götürmək olmaz. XX əsr Azərbaycan maarifçilərinin, xüsusən uşaq şairlərinin istifadə etdiyi sadə və aydın dil XX əsrin 30-40-cı illərində S.Vurğun, M.Müşfiq, Ə.Cavad və başqaları tərəfindən cilalandı və müasir Azərbaycan şeir dili yarandı: "Bədii dil həm özündən əvvəlki ədəbi dildən, həm də xalq danışıq dilindən faydalanır. Biz dili hazır qəbul edirik, dilin yaradıcısı xalqdır. Lakin böyük sənətkarlar mövcud dil potensialından, xüsusilə xalq danışıq dilindən istifadə edib mükəmməl bədii dil yaradır. Məsələn, Şərqin üç böyük dilində-ərəb, fars və türk dillərində sənət inciləri yaradan dahi Füzuli ana dilimizi yüksək bədii səviyyəyə qaldırdı, Böyük dilçi Ə.Dəmirçizadənin fikri ilə desək, Azərbaycan dilinin Füzuli mərhələsini yaratdı"(2,121).

Ədəbiyyat əvvəlcə bir coğrafiyanın və ya bir millətin (Avropa ədəbiyyatı), (Türk ədəbiyyatı), bir dövrün (Orta əsrlər Fransa ədəbiyyatı, Cümhuriyyət dövrü ədəbiyyatı), bir sənət və ədəbiyyat məktəbinin, qrupunun (klassik ədəbiyyat, «Sərvəti-fünun» ədəbiyyatı kimi) ədəbi materialların məcmusuna verilən addır. Avropada ədəbiyyat əvəzinə «literatur» terminindən istifadə olunur.

Avropada əvvəllər sadəcə olaraq plastik sənədlər üçün istifadə olunan gözəl sənədlər anlamı nəzəri bir sistemə tabe olan məqamlarda ədəbiyyat da bu çərçivəyə daxil edildi. Bu mənada hər bir bədii əsər, eyni zamanda sənət əsəridir. Hegelin bir sistem şəklinə gətirdiyi gözəl sənədlər plastik (memarlıq, heykəltəraşlıq, rəssamlıq və dekorativ sənədlər), fonetik (muzika) və söz (ədəbiyyat) olmaq üzrə üç qrupa bölünür. Bu beş sənət sadədən mürəkkəbə, aydınlıqdan mücərrədə, maddədən mənaya, faydalıdan gözələ doğru sıralandığı təqdirdə ədəbiyyat həmişə zirvədə dayanır.

Ədəbiyyat digər sənətlərdən zənginliyinə görə ancaq sözə borcludur. Eyni zamanda gündəlik həyatın ünsiyyət vasitəsi olan dil insanlıq tarixi boyunca digər gözəl sənədlərin ifadə

etdiyi özəlliklə müqapyisə olunmayacaq səviyyədə özünü təsdiq etmişdir. Çeşidli məcazlarla və sənətkarın şəxsi təəssüratı ilə sərhədsiz bir zirvəyə yüksələn söz, dil hələ də öz qüdrətini artırmaqda davam edir. Gündəlik istifadə olunan dil ilə ədəbi dil bir-birindən xeyli fərqlənir. Gündəlik dil ən yalın və doğrudan-doğruya ancaq bir anlamı gerçəkləşdirən ədəbi dil məcaz və simvollarla zənginləşir. Ancaq gündəlik dildədə məcaz və simvolların, bədii dildə adi, sadə sözlərin izlənməməsini də söyləmək olmaz. Bədii əsərdə sözlərin həqiqi mənası çox vaxt məcazi mənalarda ifadə olunur. Yazıçının ədəbi bir əsər meydana gətirmə ideyası, dilə müraciət etməsi bu axtarışın bir ölçüsü ola bilər. Ancaq belə bir məqsəd olmadan hazırlanan bir siyasi məktub, özəl gündəliklərin və xatirələrin zaman içində ədəbi dəyər qazanması bu ölçünün də yetərli olmadığını göstərir. Xalq dilində «əsər yaratmaq» deyimi ilə adi danışıq dilinin ədəbiyyatdakı müxtəlif mənaları ifadə etməsi, yəni üslub halına gəlməsi, sənət hakimiyətinin gələcəyinə bəslənilən inam hisslərinin yox, tam əksinə, bolşevik hakimiyyətinin uzun müddət yaşaya blilcəyəsinə ümidsizliyi və inamsızlığı diqqət mərkəzinə çəkmişdir.

Dil sözünün həqiqi mənasında yazıçının əsas materialıdır. Belə ki, heykəltəraş daşı yonub necə istədiyi formaya salırsa, yazıçı da sözü şeçir, uyğun gələni öz əsərində yerləşdirir. «İngilis şeiri və ingilis» dili əsərində F.V.Bateson ədəbiyyatın dil tarixinin bir parçası olduğunu, tamamilə dildən asılı olduğunu iddia edirdi. O deyirdi ki, hər hansı bir şeirdə dövrün damğası şairə deyil, dilə baxaraq görülməlidir. İnanıram ki, gerçək şeir tarixi, içində şeirlərinin yazıldığı dil çeşidindəki dəyişmələrin tarixidir və bu dil dəyişmələri də bu cür dəyişmələrdir ki, bunlar yalnız sosial və intellektual faktorların təzyiqindən qaynaqlanır.

Bateson bir şeir tarixinin dil tarixi ilə sıx bağlı olduğu kontekstində maraqlı örnəklər verib. Təbii ki, ingilis şeirinin təbiəti, ən azından Elizabeth dövrü danışıq dilinin canlılığı, XVIII əsrin açıq-saçıq dili ilə və Viktoriya dövrü ingiliscəsinin anlaşılmasının çətin dönəmi ilə bağlıdır. Dil sahəsmindəki görüşlər şeir tarixində önəmli rol oynayır. Karl Vossler yazırdı ki, dil sahəsindəki incələmələr, bəlli dönəmlərin ədəbiyyat tarixlərinə ən azı siyasi, sosial və dini faktorlar və ya ölkə, iqlim kontekstində aparılmış tədqiqatlar qədər yararlı olacaqdır.

Bir çox dil ənənəsinin üstünlük saxlamaq üçün bəzi dövr və ölkələrdə bir şairin dildən istifadə etməsi və bağlılıqları sadəcə o dil sisteminin inkişafı üçün deyil, şeirin öz sənətinin anlaşılması üçün də gərəklidir. İtalyan ədəbiyyat tarixçilərinin «dil məsələsi»ni görməməzliyə vurması mümkün deyil. Alman dil mütəxəssisi Vassler "Franorichs Kultur im speigel seiner sprach entvik bung" ("Fransız dilinin inkişafının fransız mədəniyətinə təsiri") adlı əsərində ədəbiyyatla bağlı tədqiqatından əldə etdiyi bilgiləri inciləmələrində davamlı və çox saylı şəkildə istifadə etmişdir. Rusiyada Viktor Vinoqradov, Puşkinin dövrün ruscasındakı fərqli ünsirləri kilsə slayvancası, xalq dili, fransızca və almancadan gələn dil şəkilləri necə istifadə olunduğunu diqqətlə öyrənmişdir.

Unudulmamalıdır ki, dil və ədəbiyyat arasındakı əlaqə dialektikdir. Ədəbiyyat həmişə dilin inkişafına yaxından kömək etmişdir. Getenin, romantik şair və yazıçıların təsiri modern Almanca olmayacağı kimi, neoklassik ədəbiyyatları da modern Fransız, nə də modern ingilis dilidir.

Ədəbiyyatın intellektual və ya sosial təsirlərdən doğrudan-doğruya təsirlənmədiyi fikri də qəbul edilə bilən fikir deyildir. Batesonun iddiasına görə, XVIII əsr şeir dilinin açıq-saçıq olması, dövrün dilinin belə olmasından irəli gəlirdi və şairlər də istər rasionalist olsun, istər olmasınlar, mövcud olan dil materialından istifadə edirdilər.

Əslində ən azından yalnız fikirlər tarixinin deyil, dilin tarixini əhatə edəcək bir növlər, vəznlər və mövzular tarixinin yazıla biləcəyi fikri ədəbiyyatın dilə bütövlükdə baxımlı olmayacağını sübut edər. Aydındır ki, bir tərəfdən şeir, başqa tərəfdən roman və teatr əsərləri olmaq üzrə bir fərqlilik görmək lazımdır. V.F.Batesonun ağlında öncəlliklə şeir vardı və gerçəkdən də sıx şəkildə düzənləndiyi roman şeir dilinin səs və məvhum yönlərilə daxilən birləşdiyi rədd edilə bilməz. Bünün səbəbləri az-çox bəllidir. Vəzn dilin səs özəlliklərini bir düzənə gətirir. Nəsr ritmini, düzənli bir vəziyyətə salır və heca uzunluqları arasındakı əlaqələri aydınlaşdırır.

Dil tədqiqatının önəmi bir çox kəlmələri və söz qruplarını anlatmaqla məhdudlaşmır. Ədəbiyyat dilin bütün komponentləri ilə əlaqəlidir. Sənət əsəri ilkin olaraq bir səs sistemi, dolayısı ilə bəlli bir dilin səs sistemindən əmələ gələn bir seçmədir. Səs bilgisinin (fonetika) qarşılaşdırılmalı vəzn incələmələrində və səs məvhumlarının uyğun şəkildə təhlil edilməsində böyük önəmi vardır.

Ədəbi məqsədimiz baxımından şübhəsiz ki, bir dilin səs düzümü öz anlamından başqa formada tədqiq oluna bilməz. Başqa tərəfdən, anlamın özü də dil təhlilinə bağlıdır. Ədəbiyyat dilini incələmək üçün iki baxış istiqaməti var. Şübhəsiz ki, qüvvətli bir dil bilicisi olmadan üslub haqqında fikir söyləmək mümkün deyildir. Çünki üslub bilgisinin əsasən üzərində duracağı məsələlərdən birisi ədəbi əsərin dil sistemidir. Gündəlik istifadə olunan dilə, hətta ədəbiyyatdan xaric dil istifadələrin və dövrün canlı danışıq dilinə bilgi sahibi olmadan aparılacaq üslub bilgisi incələmələri izlənilmələrdən qabağa gedə bilməz. Danışıq dili ilə sənət əsərindəki dil arasında fərqi biləcəyimiz versiyası, keçmiş dövrlər tədqiqat predmeti olduqda təməlsiz bir vəziyyətə gəlir. Bir yazıçının və yaxud bir ədəbi cərəyanın üslubu haqqında bilgi əldə etmək üçün, əvvəlki dövrlərin danışıq dilinə diqqət yetirmək lazımdır. Bunsuz müsbət nəticə əldə etmək mümkün deyil.

Ədəbiyyat

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: ADPU nəşriyyatı, 2009
2. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Bakı-Proqres, 2012
3. Salmanov Ş. Ədəbiyyat nəzəriyyəsi məsələləri. Bakı: "Ədəbiyyat" qəzeti, 1992, 20 noyabr
4. Belinski B.Q. Seçilmiş məqalələr. Bakı: Gənclik, 1979, 356 s.
5. Belinski V.Q. Məqalələr. Bakı: Gənclik, 1961, 244 s.
6. Поспелов Г.Н. Проблемы исторического развития литературы. М., 1972, с.354

М.Б.Мустафаев

Языковые особенности художественного произведения

Резюме

Писатель реализует характеристику художественного образа, суть событий посредством художественного языка. Его язык богат, всеобъемлющ, многозначителен. Когда язык богат, то возможности изображения и воспевания поэта шире. Поэт использует художественные образы, их отношения для передачи своей идеи, замысла читателю. При этом он обращается к художественному языку, передает читателю свои идеи в пределах его силы и возможностей. Флобер сравнивал поэта с ювелиром. Как ювелир обращается с пробой золота, равно же и поэт должен воспользоваться словом, обработать его, «отшлифовать», превратить в язык искусства. В статье говорится о возможностях художественного языка.

M.B.Mustafayev

Language features of the artwork

Summary

The writer implements the characterization of the artistic image, the essence of events through the artistic language. His language is rich, comprehensive, meaningful. When the language is rich, the possibilities of the image and chanting of the poet are wider. The poet uses artistic images, their relationships to convey his idea, design to the reader. At the same time, he turns to the artistic language, conveys to the reader his ideas within the limits of his strength and capabilities. Flaubert compared the poet to a jeweler. As a jeweler handles a breakdown of gold, the poet must also use the word, process it, "polish it", turn it into the language of art. The article talks about the possibilities of the artistic language.

Rəyçi: prof. M.Qasımlı
Redaksiyaya daxil olub: 19.06.2020

X.R.SULTANOVA

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

"SU" VƏ "QAYA" MİFOLEGİMİNİN POETİK TƏCƏSSÜMÜ
(Səməd Vurğun yaradıcılığında)

Açar sözlər: *arxetip, mifologiya, inanclar sistemi, at kultu, qaya mifologemi, kataklizm*
Ключевые слова: *архетип, мифология, система, поверья, культ коня, мифологема, скала, катаклизм*
Key words: *archetyp, mythology, system of beliefs, horse cult, rock mythologist, cataclysm*

Səməd Vurğun özünün dərin məzmuna, fəlsəfi siqlətə, yüksək bədii obrazlılığa, xalq ruhunun poetik məzmun və forma zənginliyini yüksək estetik səviyyəyə qaldıran əsərləri ilə XX yüzil Azərbaycan sovet poeziyasının yaranması və inkişafında çox böyük rol oynamışdır. Xalq ruhuna yaxından bağlı olan sənətkarın yaradıcılığında mif-folklor obraz və motivlərinə geniş şəkildə rast gəlinir. Bu əsərlərə ümumi şəkildə nəzər salarkən mifopoetik ənənənin şairin poeziyasında zəngin mifik obraz, mitov, simvol, elementlərlə təmsil olunan məna layı olduğunu görürük.

İctimai-siyasi və fəlsəfi mövzulu bir çox şeirləri ədəbiyyatımızın qızıl fonduna daxil olmuş S.Vurğunun əsərləri xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın bizə yaxın ən böyük körpüsü sayılır.Təkrarsız poetik mətnləri, milli və beynəlmiləl fikirləri S.Vurğunu qeyri-adi şair səviyyəsinə yüksəltmişdir.

Azərbaycan xalqının milli-ictimai düşüncə, əxlaq və mənəviyyat, bədii təfəkkür və intellekt ənənəsi ilə bərabər mifoloji motivlər, mifopoetik ənənə də XX yüzilin ortalarında öz təkrarsız əksini S.Vurğun poeziyasında tapır.

Qeyd edək ki, mifoloji görüşlər onun qələmində böyük sənətin hədəfinə, fitri poetik stixiyanın predmetinə çevrilirdi. S.Vurğuna məxsus istedadın, poetik təfəkkürün, mifoloji görüşlərin əsil miqyası və möhtəşəmliyi sənətkarın "Komsomol poeması", "Ayın əfsanəsi", "Bulaq əfsanəsi", "Aslan qayası", "Qız qayası", "Ölən məhəbbət" və sairə kimi əsərlərində əyani görünür. Bir çox yeni mövzuların mənbəyi olan miflər müəllifin yaratdığı dünya modelinin qurulmasında və personajlar sisteminin təşkilində mühüm rol oynayır. Bu halda yazıçı və şairlər tarixi hadisələrin versiyalarını təqdim edərkən mifoloji formaya müraciət etdiklərindən tarix və müasirliyin vəhdətindən yaranan mifopoetik "həqiqət" ortaya çıxır. Ümumiyyətlə "hər bir müəllifin əsərində istifadə olunan mifoloji obraz və motivlər dəyişdirilmiş şəkildə təqdim olunur. Hər kəs öz interpretasiyası, öz traktovkası, öz fərdi yanaşmasını nümayiş etdirir". (3.224)

Belə bir yanaşma tərzi S.Vurğun yaradıcılığında da öz əksini tapır.

"Bulaq əfsanəsi" S.Vurgunun sokral dəyərləri özündə əks edən əsərlərindəndir. Əsər mifoloji sujet üzərində qurulub. Xıdır peyğəmbərin dirilik suyunu içdiyi bulaq haqqında yaranan əfsanə miflərdə göstərilən dirilik suyunun mənşəyindən bəhs edir. Suyun həyat, ölümsüzlük, gənclik bəxş etməsi ilə bağlı inamlar Azərbaycan miflərində, rəvayət, nağıl, dini hadisələr və dastanlarda müxtəlif formalarda tərənnüm olunmuşdur. Məlum olduğu kimi su kultu türk xalqlarının folklorunda sakral dəyər qazanmış tapınaqdır. "Suyun qüvvət, qaynağı. Ruzi mənbəyi kimi , həm də hifsedici, yaxud cəza verən Tanrı timsalında türk mifoloji inamlarında mövcudluğu müəyyənləşmişdir" (1.62)

Su kultunun mifoloji elementlərini, suyun semantemini və digər xüsusiyyətlərini müşahidə edən tədqiqatçılar suyu birbaşa kosmosla, müsbət sakral başlanğıcla bağlayırlar. XX yüzil Azərbaycan ədəbiyyatında C.Cabbarlının, X. Rzanın, R.Rzanın, R.Behrudinin digər söz ustadlarının poeziyasında su kultunun izləri tez-tez rast gəlinən mifoloji görüşlərdən hesab olunur. C. Cabbarlının "Ana", X. Rzanın "Apardı sellər Saranı". R. Behrudinin "Yaradılış

məsəli" və s. əsərlərdə su başlanğıc, su ayırıcı, su birləşdirən, su ölüm kataklizmi kimi çıxış edir. S. Vurğunun "Bulaq əfsanəsi" əsərinin təhlili nəticəsində su kultunun aşağıdakı elementləri bərpa olunur:

1. Su həyatverici ünsürdür ("abi-həyat" obrazı);

2. Suyun tapınaq obyekti kimi həm də subyekti (emosional xüsusiyətlərə malik olması qəzəblənib gözdən itməsi)

3. Kosmosun bərpasında rolu (Nə vaxtsa dünyadüzəmini qorumağa gələn Xıdır peyğəmbərə əbədiyyət bəxş etməsi).

Əsərdə konkret məkan və zaman anlayışı çərçivəsində mücərrəd canlı və cansız obrazlar işıqlandırılır. Məlum olduğu kimi məkan Şirvan, zaman isə İskəndər Kəbirin dövrü götürülür:

Deyerlər, Şirvanda bir bulaq varmış
Suyu almaz kimi par-par axarmış. (2.130)

Və yaxud:

Almış sorağını İskəndər Kəbir,
Sürüb Karvanını gəlmiş Şirvana (2.130)

Lakin əsərdə əsas maraq obyekti əfsanəvi Xıdır peyğəmbərin mifik bulaqdan içdiyi sudur.

Miflərdə olduğu kimi bu bulağın suyu ölümsüzlük suyudur. Aşağıdakı misralara diqqət yetirək:

Deyirlər bu sudan Xıdır peyğəmbər
Gəlib, təsadüfən içmiş doyunca,
O gündən ölməmiş tarix boyunca.
İnsan donundankı o qanadlı quş
Əsrlərdən bəri uçub, yox olmuş.
Fəqət, deyirlər ki, o yenə sağdır
Islamın dar günü qayıdacaqdır. (2.130)

Həqiqətən də yuxarıda qruplaşdırdığımız elementlər S. Vurğun misralarında poetik həllini nümayiş etdirir.

1. Abu-həyat obrazı-bulaq.

2.Emosional xüsusiyyətləri-qəzəblənib İskəndər Kəbirin güzünə görünməməsi.

3. Kosmosun bərpasında rolu. (Xıdır peyğəmbərin "İslamın dar günündə" geri dönüb hər şeyi yenidən bərpa etməsi).

Əsərdə su –bulaq kosmoqoniya aktında ölümsüzlük obyekti kimi mühüm rolu bəlli edən mifik elementlərdən biri hesab olunur.

Bundan əlavə müəllifin "Aslan qayası" və "Qız qayası" əsərlərində də miflərdə özünə yer almış digər elementlər dağ kultunun tərkibi olan "qaya", "at kultu", "su mifologemi" poeziyaya transformasiya etmişdir. "Aslan qayası"nda Azərbaycanda baş verən tarixi hadisədən, daha doğrusu, Bakı qalasının açarlarının general Sisyanova təqdim olunmasından bəhs edilir. Əsərin ilk sətirlərini müəllif Xəzərin sahilində olan qocaman qayanın təsviri ilə başlayır. Biz aşağıda göstərilən misalda obrazların təbiətlə həmahənglik təşkil edən həyat tərzindəki mifik elementlərin, eyni zamanda əsas başlanğıclardan biri sayılan dağın tərkib hissəsi kimi götürülən "qaya"ya yönəlmiş inam və tapınaqlarının kulta çevrilməsini görürük:

Bizim Xəzər sahilində bir qocaman qaya var,
Sinəsində parçalanır ağ köpüklü dalğalar.
Ellər onu əzizləyir, deyir "Aslan qayası",
Məhəbbətdən qurulmuşdur torpağının mayası. (2.110)

Qeyd etdiyimiz kimi, Qaya, daş Azərbaycan folklorunda cansız təbiət obyektləri ilə bağlı kultlar və onlara dair inamlar içərisində xüsusi diqqət cəlb edən dağ kultunun tərkib hissəsi kimi götürülür. Bu kultun mifologiyada qabarıq səciyyəvi keyfiyyətləri geniş yayılmışdır.

Göy mənşəli obrazların yerinin simvolizə dağla, daşla, qaya ilə əlaqələnmələri ədəbiyyatımızda müasir dövrümüzə qədər sakral dəyər qazanmış obraz kimi yaşamasına səbəb olmuşdur.

Dağın, qayanın ilkin stixiya kimi kultlaşması onun əski inamlarla, səmavi inanc sistemləri ilə bağlılığını əks etdirir. Onun sakral şəkildə daşıdığı status poetik mətnlərdə, o cümlədən S.Vurğunun "Aslan qayası", "Qız qayası" əsərlərində daha əhatəli formatlarda əksini tapmışdır. Burada bizə adı çəkilən qayaların mifik-kosmoqonik təsəvvürlərdəki rolunun, tapınaq obyekti, xilaskar rolunda çıxış etməsinin şahidi oluruq.

Hər iki əfsanədə əlacsız qalan qəhrəmanlar xilas yolunu özlərini qayadan atmaqda görürlər. Və qaya onlar üçün ölüm kataklizmi yox, əbədiyyət, həyat elementi kimi göstərilir. Müəllif tərəfindən "qaya" və "əbədiyyət" problemi paralel kontekstdə götürülür. "Qız qayası" əsərində dastan söyləmək ənənəsinə sadiq qalan sənətkar əfsanəni bir qocanın dili ilə nəql edir: Hadisə "Şuşa qala"sında baş verir:

Çıxmışam dağların göy yaxasına
Doyunca baxmışam Qız qayasına
Orda saqqalına yaş dama-dama
Əfsanə söyləmiş bir qoca mana. (2.108)

Zalım şahdan canını qurtarmaq istəyən bir qız xilas yolunu özünü qayadan atmaqda görür. Lakin qaya əsl xilaskar qismində çıxış edərək qurbanına ölümsüzlük nəsib edir:

Qızın taleyinin sonuna bir bax:
Bir axşam gecədən oğurlanaraq,
Şəhər kənarına qaçır o pünhan.
Lakin arxasınca adam salır xan...
Həyata son dəfə yumub gözünü,
Qızcığaz qayadan atır özünü.
Lakin deyirlər ki, altdan yuxarı
Qabartmış donunu dağlar rüzgarı.
Qızcığaz ölməyib, sağ enmiş yerə,
Yayılmış bu xəbər bütün ellərə...
Budur "Qız qayası" adlanmış qaya,
Sirrini verməmiş ulduza, Aya... (2.109)

Yuxarıda qeyd etdiyimiz "Aslan qayası"nda da qaya mifologemi eyni funksiyanı yerinə yetirir. Şair burada qaya obrazını xüsusi diqqət mərkəzinə çəkir.

Təqdiqatımızın nəticəsi olaraq, belə qənaətə gəlmək olar ki, S.Vurğun öz yaradıcılığında mifoloji mativlərə təsadüfən deyil, bilərəkdən, əsl qəhrəmanlıq səlnaməsi yaratmaq məqsədilə müraciət etmişdir. Mifoloji motivlər onun əsərlərinin xalq arasında daha oxunaqlı və anlayışlı olmasına qulluq edib. Görkəmli şair əsərlərində qaya mifologemi və su stixiyasından böyük ustalıqla istifadə edərək, xalqın yaddaşında qalan hər bir inancı mifopoetik ənənədə canlandırmışdır.

Ədəbiyyat

1. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı, Nurlan. 2008. 176 s.
2. Vurğun S. Seçilmiş əsərləri beş cilddə. III cild. Bakı. Şərq - Qərb. 2005. 423s.
3. Наджиева Ф. О Мифо-фольклорной поэтике в литературе конца XX века. Баку. Ученые записки. Бакинского славянского университета. N2. 2016. 219-224 s.

Х.Р.Султанова

Поэтическое отражение мифологем “вода” и “скала”
(на основе творчестве Самеда Вургуна)
Резюме

В статье анализируется отражение мифопоэтической традиции в произведениях «Легенда родника», «Девичья скала» и « Скала Аслана» одного из выдающихся представителей азербайджанской поэзии.

Мифологема «скала», являющаяся одной из составленных частей культа горы, и мифологема «вода» представлена в сюжетной канве этих произведений как один из определяющих факторов. С этой точки зрения подача образа скалы и воды в мифологическом плане показана как важнейшая деталь, формирующая культ скалы и воды. Автор в контексте параллельных сопоставлений исследует категории «вода», «скала» «вечность».

В то же время помимо мифологемы «Скала» в работе привлекается к анализу и культ коня, различные народные поверья. Особое внимании уделяется поверьям, связанным с поклонением различным объектам живой и неживой природы.

Определяется роль указанных мифологических представлений как продолжателей мифопоэтических традиций в азербайджанской поэзии XX столетия.

Kh.R.Sultanova

The poetic embodiment of the mythology of "water" and "rock"
(In the works of Samad Vurgun)
Summary

The tradition of mythopoetics in the works “Qız qayasi” (Girl’s rock) and “Aslan qayasi” (Lion’s rock) of a prominent representative of Azerbaijani poetry S. Vurgun is investigated in the article.

The mythologeme “rock” being a main element of cult of stone is presented as a factor defining a leading role in both plots. From this point of view, mythical nature of rock is described as an important detail establishing a cult of stone. The problem of rock and literature is investigated in parallel context by the author. Moreover, besides the mythologeme “rock”, a cult of horse and other superstitions reflecting mythical meetings are in the spotlight. Special attention is given to animate and inanimate objects of nature reflecting beliefs. His role of an adherent of tradition of mythopoetics is defined.

Rəyçi: filol.e.d., prof. F.Naci

Redaksiyaya daxil olub: 09.07.2020

K.R.GURBANOVA
e-mail: kamala.gva@gmail.com

Western Caspian University
(Baku, Istiglaliyyat, 31)

FANNY PRICE AS A FEMINIST CHARACTER IN THE NOVEL "MANSFIELD PARK"

Key words: *feminist character, Fanny Price, nineteenth-century females, freedom of women, victorian society*
Açar sözlər: *feminist xarakter, Feni Prayz, on doqquzuncu əsr qadınları, qadın azadlığı, Viktorian cəmiyyəti*
Ключевые слова: *феминистка, Фанни Прайс, женщины девятнадцатого века, свобода женщин, викторианское общество*

Defense and provision never came without a value for nineteenth-century females; their complete dependence upon males for safety, societal position, and financial support created circumstances of extreme inequality in which wives and daughters were predictable to defer to the patriarch's authority and judgment. It seems that Austen prefers female wards as her protagonist at least in part because her situations as women without a patriarch give her chances to reach levels of autonomy unusual of women in this society. Such a chance for autonomy is clearly significant in categorizing a protagonist as feminist. Though, Adrienne Rich's opinions out that positive relationship between females are also very important in establishing a sense of feminism.

Rich recommends that true feminism is a marriage of attaining independence for oneself and creating supportive relationships with other women. (4, p.4) In light of this, a valuation of Fanny as a feminist character wants an examination of her capabilities to be helpful to other female characters. In examining Fanny as a feminist character, it seems that her situations as female wards offer her some unique chances in her early distance from patriarchy and in her capability to relate to a sense of desire for female mentorship and acceptance. Clearly, critical answers to this complex character have varied broadly. Several critics, including Margaret Kirkham, Anna Despotopoulou, and Jacqueline Reid Walsh, opinion Fanny Price as an exceedingly feminine heroine who, in spite of her fearful nature, offers a unique challenge to patriarchal authority. Other critics such as Bernard Paris and Anna Mae Duane find that Fanny is powerless to overcome the incapacitating things of her abuse, and the novel eventually reinforces traditional morals. While these studies have examined several substantial features of Fanny's character progress, none have attentive to the significance of her mentoring relationship with Susan and the inferences of this connection in examining Fanny as a feminist character. If we explain a "feminist character" as one who both declares her personal freedom and builds helpful relationships with other women, assessing Fanny Price as such requires both a review of the degree to which she reaches autonomy herself and an examination of the ways in which she offers support to her sister Susan through her part as Susan's mentor.

Joan Klingel Ray distinguishes these difficulties and explores them in her article -"Jane Austen's Case Study of Child Abuse: Fanny Price". Ray offers a detailed argument of the ways in which Fanny is physically and emotionally harmed and neglected in both the Bertram and the Price homes. As Ray notes that, Fanny is also visibly sensitively abused by the Bertrams and specifically by Mrs. Norris. Ray states that Fanny's immediate family also participates in "unintentional emotional abuse" by failing to offer her the love and acceptance she needs. (4, p.7) Not unexpectedly, the combination of these hard experiences has debilitating impacts on both Fanny's psychological and physical health. While Fanny's

shyness and fearfulness are possibly rather inborn characteristics of her nature, the abuse and negligence she suffers obviously intensifies her concern and makes her more withdrawn. Ray takes this situation in examining Fanny's responses to abuse. Ray explains that victims of child abuse may reply by becoming "uncommunicative, shy, excessively watchful, and unusually fearful". (4, p.8) This abuse and negligence also produces harmful effects on Fanny's physical health. Just as Fanny possibly has inborn nature traits that lead her to be fearful and shy, Fanny may have a tendency to ill health that is distinct to abuse or negligence. Though, the stress produced by her emotive abuse definitely exacerbates her physical weaknesses. Anna Mae Duane explores the interconnectedness of Fanny's ill health and her wish for love and acceptance. Duane clarifies, "To display the 'extraordinary degree of gratitude' required of her, Fanny must assess the needs of others, and then act as if their often painful wishes and demands represent her own inner desires". (4, p.9) Duane recommends that this self-denial produces a "perpetual state of anxiety" that concessions Fanny's psychological and physical health. (4, p.9) Fanny's powerful claim of freedom is her denial to marry Henry Crawford in despite of the pressure positioned upon her by Sir Thomas, Henry, and Edmund. Each of these characters tries to persuade Fanny that she cannot think for herself, that her choice to refuse Henry must not be rational, and that they know her emotions better than she does. They try to persuade her that they know what is best for her and that her personal judgment on the matter is unimportant. In resisting these convincing patriarchal forces in favor of her own better judgment, Fanny's powerful opponent is Sir Thomas.

Reid Walsh also sees Fanny as having a unique chance to challenge the patriarchal structure because of her situation of being a part of the Bertram family without really belonging to it. She clarifies, “Fanny is allowed to learn what the Miss Bertrams learn on the fringes of their school-room society, and her insignificance lends her relative mental freedom to think in her own way”. (4, p. 14) In pointing out the unique independence from patriarchy her situation offers her, these critics do not ignore the traumatic effects of her marginal position within her personal home. Somewhat, they distinguish the complex and paradoxical consequences of Fanny's hard situation. Her marginal position both endangers her psychological and physical well-being and offers her a unique chance to challenge those who apparently have authority over her.

Though Fanny has lacked optimistic relations with other feminine characters through most of her childhood and adolescence, she is able to improve a powerful mentoring relation with her younger sister Susan. Certainly, while Fanny does reach autonomy by relying upon her personal judgment in choosing a marriage spouse, her fearful, self-denying character would seem to make her an unlikely candidate for guiding a young woman in fighting patriarchal power. While Fanny has optimistic memories of her biological family, her reunion with them after a lack of more than eight years fails to generate a positive impression. Before Fanny visits the Prices, she anticipates a renovation of family bonds. In depicting Fanny’s inspection of this reunion, Austen notes, "To be loved by so many, and more loved by all than she had ever been before, to feel affection without fear or restraint, to feel herself the equal of those who surrounded her ... This was a prospect to be dwelt on with a fondness that could be but half acknowledged". (4,p.19) Fanny clearly supposes both to love and be loved in her parents' home, and most of all, she thinks to find a sense of belonging with all members of her family. Though, Austen soon displays that Fanny's hopes were slightly unrealistic. When Fanny is first reunified with her biological family, she is stunned and dissatisfied at their general absence of manners and apparent absence of affection for her and for each other.

Further, while her own childhood and adolescence were marked by an absence of feminine support and her personal efforts at assertiveness are compromised, Fanny demonstrates both willingness and an aptitude for offering support to her sister Susan through her part as Susan's mentor. In providing Susan with love and acceptance and intelligent and

good guidance while allowing Susan to retain her independent nature, Fanny's personality is mostly successful in meeting this second qualification of a feminist character, the ability to build supportive relations with other women.

Paradoxically, in Mansfield Park, the females who have official authority over domestic matters are preserved with unrelenting sarcasm. Lady Bertram and Mrs. Norris are mocked for their idleness and insensitivity respectively. In their extreme ways, both women represent the kind of authority that depends on masculine values for its definition: Lady Bertram depicts the passive receptacle of patriarchal codes, rendered comatose by the strong will of her spouse, and the widowed Mrs. Norris, at the other end of the scale, has appropriated these masculine codes and applied them to both her personal and Sir Thomas's households. Fanny is kept out of the politics of Mansfield Park, yet her discourse is highly political in the sense that it presents an attitude for feminine difference. Her sphere is male-free. While not wielding any visible control in the household, she does, though, impose on the reader her gaze, which encompasses opinions, tastes, ethics, and feelings. She strongly withstands the masculine gaze of Sir Thomas, Henry Crawford, and even Edmund by consistently avoiding being looked at, a choice that renders her free of male influence. Her gaze, symbolic of her visions and feelings, requires no confirmation or defense from the public world or the larger depiction of politics, business, or publicity.

Fanny's most meaningful moments of activity take place when she is in the process of actively observing her surroundings. Through her gaze, she describes herself, her experience, and the actions of others and thus withstands the efforts of the male gaze to reify her.

When Wollstonecraft writes, "I do not wish women to have power over men; but over themselves" (2, p.575), she attacks those females who concept their outer and inner personalities according to the male gaze, and who are preoccupied more with their societal projection than their private education and development. Mary differs from Fanny in that she considers elegance superior to asset and therefore, not unlike the Bertram sisters, renders herself the object of the male gaze at every occasion.

Literature

1. Ann Banfiel. "The Moral Landscape of Mansfield Park" (1971).
2. Anna Despotopoulou. "Fanny's Gaze and the Construction of Feminine Space in "Mansfield Park"(2004).
3. Moira Ferguso. "Mansfield Park: Slavery, Colonialism, and Gender" (1991).
4. Miranda McCullick. "Female wards, feminism, and mentorship in Mansfield Park" (2006).

K.R.Qurbanova

"Mensfield Parkı" romanında Feni Prayz feminist xarakter kimi

Xülasə

Feni Prayz, Ceyn Ostinin "Mensfield Parkı" romanında baş qəhrəmandır. O, Ostinin qadın qəhrəmanları arasında unikaldır. Ürkək, utancaq, özündən çəkinən və zəif olan Feni Prayz, bir çox oxucuya qeyri-mümkün bir qadın xarakteri kimi görünür. Bununla belə, onun şəxsi mülahizəsindən asılılığı və öz əqidəsinə qarşı durmağa hazır olması, Feninin heyranedici keyfiyyətlərə sahib olduğunu tapan oxuculara dəstək olur.

Feni, Ostinin əsərlərindəki az sayda qadınlardan biridir ki, özünü müstəqil şəkildə, nüfuzlu təsvir edir. Feninin dünyası kişilərlə müqayisədə daha sabitdir və bu qəhrəmanın köməyi ilə Ostin, dövrünün kişi təyin etdiyi qadınlara alternativ forma təqdim edir.

К.Р.Гурбанова

Фанни Прайс как персонаж феминистка в романе “Мэнсфилд Парк”

Резюме

Фанни Прайс, главная героиня романа Джейн Остин Мэнсфилд Парк. Она уникальна среди женских персонажей Остин. Страшная, застенчивая, самоотверженная и слабая, Фанни Прайс кажется многим читателям маловероятным женским персонажем. Тем не менее, ее зависимость от ее личного суждения и ее готовность отстаивать свои собственные убеждения оказывают поддержку читателям, которые считают, что Фанни обладает замечательными качествами.

Фанни, одна из немногих женщин в романах Остин, которые самостоятельно описывают мужскую продолжительность и авторитет. Мир Фанни более стабилен, чем мир мужчин, и с этой главной героиней Остин, кажется, представляет альтернативную форму женщин своего периода.

Rəyçi: filol.f.d., prof. Ş.Xəlilli

Redaksiyaya daxil olub: 08.05.2020

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

S.Z.ABUZƏRLİ

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYALARININ TƏTBİQİ ZAMANI MÜƏLLİMİN PROFESSİONAL SƏRİŞTƏSİ

Açar sözlər: *ünsiyyət sərişləsi, dil mühiti, kommunikativ yanaşma, fəal öyrənmə*
Ключевые слова: *коммуникативные навыки, языковая среда, коммуникативный подход, активное обучение*
Key words: *communication skills, language environment, communicative approach, active learning*

Tələbələrin həm kommunikasiyayönümlü şifahi nitq vərdişlərinin inkişaf etdirilməsində, həm də onların ingilis dilində hərtərəfli bilik qazanmalarında müəllimin professional sərişləsinin xüsusi önəmi var. Ümumi şəkildə qruplaşdıraraq müəllimin professional sərişləsinin aşağıdakı mərhələlərdən keşdiyini göstərə bilərik:

I mərhələ – dərsə hazırlıq;

II mərhələ – lazımı texnologiyaları seçmək;

III mərhələ – təbii dil mühiti yaratmaq;

IV mərhələ – dil vərdişlərini (language skills) inkişaf etdirən çalışmaların ardıcıl və səmərəli tətbiqi.

I mərhələ - Müəllimin dərsə hazırlığı. İKT vasitələrinin gündən-günə artmasına baxmayaraq təlimdə müəllim əsas və başlıca bir sima olaraq qalır.

Təlimin keyfiyyətinin artırılması isə ilk növəbdə müəllimin öz üzərində daim işləməsi, elmi və pedaqoji ustalığını artırması durur. Ümumiyyətlə, tələbələrin dərin bilik alması, hərtərəfli mütəxəsis kimi yetişməsi müəllimdən çox asılıdır.

Şübhəsiz, bu gün əyani və texniki təlim vasitələrindən kompleks şəkildə səmərəli istifadə edilməsi, dil təliminin intensiv şəkildə aparılması üçün müəllimlərin geniş imkanları var. Müəllim nə qədər təcrübəli olsa da hər bir dərsə məsuliyyətlə hazırlaşmalı, dərsin əsas cizgilərini əvvəlcədən müəyyənləşdirməlidir.

Elə buna görə də müəllim öz dərslərini yüksək səviyyədə təşkil etmək üçün dərsin planını tərtib etməlidir. M. Luisin dediyi kimi, "dərslər planlaşdırılmalı və diqqətlə vaxt bölgüsünə bölünməlidir. Vicdanlı müəllim yaxşı dərs keçməsi üçün narahat olmalıdır" [5, s.7-8].

Proqram və dərsliyin keyfiyyəti öz ifadəsini tədrisin təşkili sahəsində tapır. Əgər müəllim proqram və dərsliklə işləməyi bacarmırsa, proqram da, dərslik də nə qədər keyfiyyətli olsa belə təlim işində müvəffəqiyyəti tam təmin edə bilməz. Buradan aydın olur ki, müəllimin hazırlıq səviyyəsi təlimin keyfiyyətini şərtləndirən mühüm amillərdəndir. Müəllimin təlim prosesinə yaradıcı münasibəti, xarici dil təlimini pedaqogikanın və metodikanın son nailiyyətləri ilə əlaqələndirərək tələbələrə optimal yollarla çatdırması müəllimin əsas vəzifələrindən biridir. Bu baxımdam müəllim kadrlarının elmi-metodik səviyyəsinin yüksəldilməsi sahəsində

də iş aparılmalıdır. Təbii ki, təşəbbüskar müəllimlər həm Universitet daxilində, həm də Universitetdən kənarda təşkil olunmuş konfrans, seminar, vebinarlar da fəal iştirak edirlər. Belə elmi yığıncaqlardan kənarda qalan müəllimlər də həmin kurs və seminarlara cəlb olunmalıdırlar. Əlbəttə, müəllimlərin cəlb olunması onların biliyinin metodik cəhətdən cilalanmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə kömək edəcək.

Qabaqcıl təcrübənin öyrənilməsi və yayılması məqsədilə qarşılıqlı dərsdinləmə və açıq dərslərin xüsusi əhəmiyyəti var. Bu, qabaqcıl təcrübənin öyrənilib təbliğ edilməsində təsirli yollardan biridir.

II mərhələ – lazımı texnologiyaları seçmək. Pedaqoji təcrübələr sübüt etmişdir ki, heç bir təlim metodu standartlaşdırıla bilməz. Dərsin tipindən, mövzunun qoyuluşundan, anlayışın məzmunundan, öyrədiləcək biliyin həcmindən və s. asılı olaraq hər bir dərsin öz üsulu və sistemi vardır. Ona görə də müəllimlər hər bir dərsin üsullarının əvvəlcədən müəyyənləşdirilməsinə xüsusi diqqət yetirməli, dərsin yüksək səviyyədə keçməsi üçün hazırlıq işlərinə, dərsin elmi və pedaqoji cəhətdən düzgün təşkil edilməsinə məsuliyyət hissi ilə yanaşmalıdırlar. Belə dərslər tələbələrin fikirləşmək və düşünmək qabiliyyətlərini artırır, onları aktivləşdirir, fakt və hadisələrin, qanun və qanunauyğunluqların şüurlu surətdə mənimsənilməsini təmin edir. Bu cəhətdən müəllimlər dərslərini planlaşdırmalıdırlar.

Müəllimlərin dərslərini aşağıda verilmiş sistem əsasında qurmaları tövsiyyə oluna bilər:

1. Dərsin məqsədi
2. Dərsin təchizi
3. Dərsdə istifadə olunacaq üsul, priyom və texnologiyalar
4. Dərsin mövzusunu mənimsətmək üçün əvvəl öyrədilmiş biliklərlə əlaqənin qurulması (fəndaxili inteqrasiya)
5. Dərsin mövzusunu mənimsətmək üçün fənlərarası əlaqənin (fənlərarası inteqrasiya) qurulması.

Qeyd edim ki, verilmiş bu plana müəllimlər öz dərslərinin məqsədinə uyğun olaraq dəyişikliklər edə bilərlər.

III mərhələ – təbii dil mühiti yaratmaq. Birinci fəsildə qeyd olunduğu kimi, müəllimlərin təbii dil mühiti yaratmaq səriştəsi tələbələrdə mexaniki əzbərçilik meyllərini deyil, dildən real ünsiyyət vasitəsi kimi istifadə meyllərini inkişaf etdirir. Müəllimlərin dil savadı dedikdə isə müəllimlərin hər hansı xarici dildə qrammatik, leksik biliyi yox, tədris etdiyi xarici dildən ünsiyyət vasitəsi kimi istifadə edə bilmək bacarığı nəzərdə tutulur. "Kommunikativ dil təlimi təcrübəsindən istifadə edilməsində digər bir problem xarici dil müəllimlərinin şifahi nitq vərdişlərinin zəif olmasıdır. Müşahidələrimiz göstərdi ki, müəllimlər şifahi nitq vərdişlərinə mükəmməl yiyələnmədikdə qrammatikanın üstünlük təşkil etdiyi təlim üsullarına və təlim praktikasına daha çox diqqət verirlər" [2, s. 24]. Bu xüsusda G. Hüseynzadənin fikirləri maraq doğurur: "... əfsuslar olsun ki, xarici dil müəllimlərinin əksəriyyəti tədris olunan xarici dildə dil ünsiyyəti (communication) vərdişinin inkişafına kömək edən yaradıcı atmosferin əmələ gəlməsi üçün şərait yaratmırlar. ... Bəzən kommunikativ tədrisə, söhbətlərə, diskussiyalara, rol oyunlarına kifayət qədər diqqət yetirilmir. Dil öyrənənlərin böyük əksəriyyəti fikirlərini mətn üzərində işə, dil tapşırıqlarının yerinə yetirilməsinə, analitik bacarıqların inkişaf etdirilməsinə yönəldirlər" [4, s. 21]. Bu fikirlərlə biz dilöyrənmdə dilin onurğa sütununu təşkil edən qrammatikanın rolunu danmaq yox, əksinə qrammatikanın da təliminin kommunikativ dil təliminin tələblərinə müvafiq tədris olunmasını tövsiyyə edirik. Bu mənada G. Şirəliyevanın pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Dil fakültələrinin aşağı kurslarında İngilis dilinin qrammatikasının kommunikativyönümlü tədrisi" adlı dissertasiyasından faydalanmaq yerinə düşər [3].

Bir daha vurğulamaq istərdik ki, "müasir dil təlimində qrammatika kommunikativ bacarıqların yalnız bir tərkib hissəsi olduğu üçün onun tədrisi dilöyrənənlərin kommunikativ ehtiyaclarının ödənilməsinə xidmət etməlidir" [1, s.10].

Bu məqam həmçinin müəllimlərin dil savadından və təlim məharətindən, yəni tələbələri cüt-cüt və kiçik qruplarda işlədə bilmək bacarığından bir başa asılıdır.

Onu da qeyd etmək lazımdır ki, müəllimlərin interaktiv kommunikativ fəaliyyəti təkcə müzakirələr, problem xarakterli situasiyaların həlli zamanı deyil, ümumiyyətlə dərsin bütün gedişatını əhatə etməlidir. Müəllimlərin təbii dil mühiti yaratmaq səriştəsi ona imkan verməlidir ki, hətta yeni dərsin fonetik, qrammatik materialını tələbələrə izah edəndə belə onun izahı birtərəfli, passiv yox, interaktiv olsun, yəni onlar tələbələri fəal öyrənmə prosesinə cəlb edə bilsinlər.

IV mərhələ – dil vərdişlərini (language skills) inkişaf etdirən çalışmaların ardıcıl və səmərəli tətbiqi.

Hər hansı bir dil vərdişini inkişaf etdirən çalışmalar digər dil vərdişini inkişaf etdirən elementləri özündə birləşdirir. Yəni bir dil vərdişinin inkişafı digərinin də inkişafına yardım edir və etməlidir. Deməli, müəllimin peşəkarlığı, səriştəsi bu fəaliyyət növlərinin qarşılıqlı, bir-bir ilə vəhdətdə inkişaf etməsinə yönəlməlidir.

Tələbələrin kommunikasiyayönümlü şifahi nitq vərdişlərinin inkişaf etdirilməsində müəllimin rolu ayrıca deyil, kommunikativ dil təliminin çərçivəsində qiymətləndirilməli və müəllimin rolunun nədən ibarət olması aydınlaşdırılmalıdır.

Tələbələrin kommunikasiyayönümlü şifahi nitq vərdişlərinin inkişaf etdirilməsində müəllimin Kommunikativ Dil Təliminin tələblərinə əsasən müəllimlər tələbələrə dilin qaydaları və strukturları haqqında bilik təqdim edən şəxs yox, dərsdə real dil mühiti yaratmağı bacaran mütəxəsisdir.

Ədəbiyyat

1. Babaxanova Ç. O. “Fransız dilinin xarici dil kimi tədrisndə yeni inkişaf meylləri”. Xarici Dillərin Tədrisinin Aktual Problemləri. RespublikaElmi-PraktikKonfransınınTezisləri. Bakı, 6-7 dekabr, 2018, s. 9-10.

2. KazdalV. “İngilis dilinin tədrisində kommunikativ yanaşma və onun tətbiqinə təsir göstərən amillər: Ped. fəl. dok. ... dis. Bakı: 2006, 144 s.

3. Şirəliyeva G. “Dil fakültələrinin aşağı kurslarında ingilis dilinin qrammatikasının kommunikativyönümlü tədrisi: Ped. fəl. dok. ... dis. Bakı, 2014, 143 s.

4. Huseynzade G. Quality Education and Teacher Training. // Prometheus – Reports of the meeting held under the auspices of UNESCO on the creation of the Network of Pedagogical Universities of South Caucasian Region. Baku: AUL, 16-18 May, 2001, pp.17-24.

5. Lewis M. The Lexical Approach. The State of ELT and a Way Forward. London: Commercial Color Press, 2002, 200 p.

С.З.Абузарли

Профессиональная компетентность учителя в применении новых технологий в преподавании английского языка

Резюме

В статье подчеркивается, что, несмотря на все более широкое использование инструментов ИКТ (Информационные коммуникативные технологии), учитель является ключевой фигурой в учебном процессе. Именно поэтому повышение качества обучения зависит, прежде всего, от постоянной работы учителя над своими знаниями. В статье отражены этапы развития профессиональной компетентности учителя. Было показано, что получение студентами глубоких знаний и развитие в качестве комплексного специалиста зависит от учителя.

Несомненно, сегодня у учителей есть большие возможности для эффективного использования наглядных и технических учебных пособий интегрированным образом, для интенсивного преподавания языка. Независимо от того, насколько опытен преподаватель, он должен ответственно подготовиться к каждому уроку и заранее определить основные особенности урока. Вот почему учитель должен планировать урок, чтобы организовать его уроки на высоком уровне.

В статье подчеркивается важность создания естественной языковой среды на уроках английского языка. Способность учителей создавать реальную языковую атмосферу заставляет учащихся использовать язык как реальное средство общения, а не механическое запоминание. Идеальное знание языка учителями считается очень важным для того, чтобы иметь возможность использовать иностранный язык в качестве средства общения, а не грамматические или лексические знания на иностранном языке. Это также зависит от педагогических навыков учителей, то есть умения работать со студентами в парах и небольших группах.

S.Z.Abuzarli

Professional competence of the teacher in the application of new technologies in English language teaching

Summary

The article emphasizes that despite the increasing use of ICT (Information Communication Technology) tools, the teacher is a key figure in teaching process. That is why improving the quality of teaching depends, first of all, on the constant work of the teacher on their own knowledge. The article reflects the stages of development of a teacher's professional competence. It has been shown that students' gaining deep knowledge and development as a comprehensive specialist depends on the teacher.

Undoubtedly, today teachers have great opportunities for the effective use of visual and technical teaching aids in an integrated manner, for intensive language teaching. No matter how experienced the teacher is, he must get prepared for each lesson responsibly and determine the main features of the lesson in advance. That is why a teacher should plan a lesson to organize his lessons at a high level.

The article emphasizes the importance of creating a natural language environment in English lessons. Teachers' ability to create a real language atmosphere makes students use language as a real means of communication, rather than mechanical memorization. Teachers' perfect command of language is considered to be very important in order to be able to use the foreign language as a means of communication, rather than grammatical or lexical knowledge in any foreign language. It also depends on the teaching skills of the teachers, i.e. the ability to work with students in pairs and small groups.

Rəyçi: prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 03.07.2020

G.D.ALIYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏDRİS PROSESİNDƏ KEYS METODUNUN İŞLƏDİLMƏSİ

***Açar sözlər**: tədris, proses, keys metodu, üstünlük, vəzifə, aspekt*
***Ключевые слова:** обучение, процесс, метод кейса, преимущество, долг, аспект*
***Key words**: teaching, process, case method, advantage, duty, aspect*

Keys-metodun (situativ yanaşmanın) linqvodidaktik aspektlərindən biri dilin tədrisi zamanı şifahi nitqə verilən üstünlükdür. Situativ yanaşmada dil materiallarının tədrisi şifahi nitqlə başlayır. Tələbələrə yeni material yazılı formada təqdim olunmamışdan əvvəl şifahi formada öyrədilir. Situativ yanaşmanın vacib cəhəti dildə mövcud olan dörd mühüm kommunikasiya bacarıqlarının tələbələrdə formalaşdırılmasıdır. Digər təlim metodlardan fərqli olaraq, situativ yanaşmada kommunikasiya bacarıqlarına dilin strukturu baxımından yanaşılır. Başqa sözlə, sözlərin tələffüzündə və dilin qrammatik sistemində səriştəlilik mühüm hesab olunur.

Situativ yanaşmanın tərəfdarları belə hesab edirdi ki, tələbələrin söz bazalarının artırılması həmin dildə oxu vərdişlərinin də meydana gəlməsini asanlaşdırır. Bunu nəzərə alan M.Vest qeyd edir ki, "dili öyrənərkən ən əhəmiyyətli amil dilin lüğət tərkibinin mənimsənilməsi və mənimsənilmiş lüğətin istifadəsinin vərdiş halına gətirilməsidir. Lakin əsas problem lüğət tərkibi dedikdə nəyin nəzərdə tutulduğunu başa düşməkdir. İngilis dilinin tədrisi ilə məşğul olan məktəblərdə istifadə olunan tədris materialları isə bu problemin həllinə yönəlmiş proqrama malik deyildir" [1, s.53].

Müəllimlərin tələbələrin biliklərin mənimsəməsinə, bilik və vərdişlərin praktik tətbiqinə, habelə komandada işləmək, professional situasiyanı proqnozlaşdırmaq və müstəqil qərar qəbul etmək istiqamətində maraq və müstəqilliklərinin artmasına, yaradıcılıq fəaliyyətinin aktivləşməsinə yönəlikli məzmunlu formaların işlənib hazırlanması istiqamətində məqsədyönümlü fəaliyyəti tədris fəaliyyətinin xeyli aktuallaşdırır [3, s. 184].

Humanitar elm sahələrində geniş tətbiq olunan keys metodu tələbələri kollektiv qərarlar qəbul edilməsi vərdişlərinin aşılanması istiqamətində ən səmərəli metod kimi qiymətləndirilir. Xarici dillərin tədrisi prosesində keys istənilən fənn məzmunu ilə zənginləşdirilə bilər və dil humanitar predmetlərin müxtəlif sahələrindəki konkret situasiyalarda təhlil və qərarların qəbulunda vasitəyə çevrilir. Fənn predmeti kimi xarici dilin öyrənilməsinin özəlliyi ondan ibarətdir ki, o, ünsiyyət vasitəsi kimi öyrənilir [3, s. 218].

Dilin tədrisinə keys-metodu ilə yanaşma müəllim hazırlığı sahəsində də vacib dəyişikliklərə səbəb oldu və hazırda situativ yanaşmanın prinsipləri dünyanın əksər hissələrində tədris prosesində geniş şəkildə istifadə olunur. Aktiv təlim metodu kimi, keys metodundan bir deyil, bir neçə həlli olan problem situasiyaların həllində daha uğurla tətbiq edilir və bu qərarlardan hər biri kifayət qədər arqumentləşdirlə bilər [2, s. 184]. Keys-metodu həyata keçirən müəllimin işinin xüsusiyyəti ondan ibarətdir ki, o, özünün qabiliyyətini maksimum səviyyədə reallaşdırmır, həm də onları inkişaf etdirir. Müəllimin fəaliyyətinin əsas məzmunu bir neçə funksiyanı - öyrətmək, tərbiyə etmək, təşkilatçılıq və tədqiqatçı funksiyalarını özündə birləşdirir. Təlim prosesində müəllim tələbələrin təlim və inkişaf məsələlərini həll etməyə çalışır.

Keyslə işin uğurla yerinə yetirilməsi üçün tələbələrə aşağıdakı göstərişlər təklif edilir:

- keysin şərtləri ilə diqqətlə tanış olmaq, əsas məqamları ayırd etmək, düşünülmüş şəkildə izafi informasiyanı kənarlaşdırmaq;
- keysdə olan problemləri formalaşdırmaq və təhlil etmək;
- keys mətnində olmayan informasiyaların axtarışını həyata keçirmək;

- vaxta nəzarət etmək, keysin şərtlərinə əməl etmək;
- iştirakçıların funksiyaların bölüşdürmək – təşkilatçı, ekspert, ideyaları verən, tənqidçi, icraçı;
- unutmaq lazım deyildir ki, hər bir iştirakçı özünü göstərməlidir;
- "beyin həmləsi" ilə alınmış bütün ideyaları yazılı formada qeydə almaq;
- qrupda vahid mövqeni işləyib hazırlamaq;
- nəticələri qeydə almaq;
- yığcam və dolğun şəkildə onları təqdim etmək

Hər bir təlim dilin müəyyən anlaşılmasına və tədris proseslərinə əsaslanır. Bu zaman tədrisdə xüsusi metod və materiallardan müəyyən ardıcıllıqda istifadə edilir. Dili tədris edən müəllimlər adətən aşağıda sadalanan metodlardan istifadə edirlər.

Qrammatik tərcümə metodu: bu zaman mətnlərin tərcüməsi, qrammatikanın öyrənilməsi və leksikanın əzbərlənməsi diqqət mərkəzində olur, lakin danışıq dilinə diqqət yetirilmir. Bu metoddan bir çox dövlətlərin təhsil sistemlərində geniş istifadə olunur. Dilin tədrisində tətbiq edilən metod və yanaşmalar bunlardır:

-qrammatik qaydaların detallı təhlili əsasında dilin öyrənilməsi;
- oxu və yazı əsas istiqamətlərdir;
-söz ehtiyatı mətnlərin oxunuşu əsasında formalaşır;
- sözlər tərcümə lüğətləri kimi formalaşdırılmış ikidilli siyahı əsasında yadda saxlanılır;

Qrammatik tərcümə metodunda yazılı tərcümə əsas təlim metodu hesab edilir.

İngilis dilinin öyrənilməsində innovativ təlim metodları:

Dili, o cümlədən ingilis dilini öyrənmə müəllimin ustalığı, dil bilgisi və vərdişlərindən birbaşa asılıdır. Dilin tədrisinə həm də bir sıra sosial amillər, məsələn, sosial, mədəniyyət, iqtisadi və texniki yeniliklər təsir göstərirlər. Sürətlə dəyişən dünyada qloballaşma müəllimdən xarici dillərin tədrisində istifadə olunan innovativ metod və vasitələrə dair biliklərinin yeniləşdirilməsini və təkmilləşdirilməsini tələb edir [4, s.620]. İngilis dili müəllimi innovativ, yaradıcı və hazırcavab olmalı, predmeti dərindən bilməli, yeni təlim metodlarına malik olmalıdır. Yuxarıda qeyd edilənlərin əsasında ingilis dili müəllimi dörd mühüm funksiyanı yerinə yetirməlidir:

- dilin səmərəli öyrənilməsi üçün resurslara, müəllimin internetə çıxışı olmalı və tələbələri də internetlə təmin etməlidir;
- seçilmiş istiqamətə uyğun olaraq tələbə qrupları ilə birlikdə zəruri kontekst informasiya resursları seçimi ilə sərbəst əməliyyat aparmaq və kompüterdən istifadə etməklə xarici dil vərdişlərinin təkmilləşdirilməsinə yardım edən müvafiq fəaliyyəti inkişaf etdirməlidir;
- oxu və kompüterdə mətnin və informasiya strukturlarının yazılması daxil olmaqla kompüter əsrində işlmək üçün vacib vərdişlərə öyrətməli, habelə internetdə nəşr və ünsiyyətə yardım etməlidir;
- dil kursunun vahid bütövü təmsil etdiyini göstərmək üçün kompüter savadlılığını kompleks şəkildə inkişaf etdirməlidir.

İngilis dilinin informasiya-kommunikasiya texnologiyaları (İKT) və multimedia vasitələri ilə (MMV) tədrisi hazırda ən perspektiv hesab edilir. İKT sahəsində savadlılıq müasir texnologa cəmiyyətində həyatın təməl prinsiplərini təşkil edir. Bu tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində dəyərli vasitədir. Bu metod ünsiyyətin səmərəliliyini və dil bilgisi vərdişlərinin inkişafını təmin edir. İKT-dən istifadə onun motivasiyalılıq çərçivəsindən kənara çıxır və tələbələrə ingilis dilinin kompetent istifadəçilərinə çevrilməyə imkan verir.

Tədqiqatçılar hesab edirlər ki, ingilis dilinin tədris proqramına İKT və MMV-nın daxil edilməsi aşağıdakılara xidmət edir:

-oxu və yazı vərdişlərinin yaxşılaşdırılması;
-danışıb və dinləmək vərdişlərinin yaxşılaşdırılması;
əməkdaşlıq, kreativlik və müstəqil şəkildə öyrənməsi təmin etmək.

İKT interaktiv mühitdir və aşağıdakı imkanları reallaşdırmağa imkan verir:

-informasiyaya və mətnlərin geniş diapazonuna çıxış;

- informasiyanı müxtəlif variantlarda formalaşdırmaq və təqdim etmək;

-öyrəncilərin auditoriyasının diapazonunu genişləndirmək;

- geniş diapazonlu tapşırıqlar olan çoxlu sayda mətnləri təqdim etmək;

- auditoriyanın növünü və məqsədini təmin etmək;

-mətnlərin əsas xüsusiyyətlərini və xarakteristikalarını müəyyənləşdirmək və s.

İKT vasitələrinin inteqrasiyası və istifadə olunması tələbələrə ingilis dilini mənimsəməyə yardım edir, habelə təlimin keyfiyyətini yüksəldir. Hazırda müxtəlif texnologiyalardan istifadə bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilmişdir. Kompüterlər və onların proqramları ingilisdilli ölkələrdə kəşf edilmiş və proqram və cihaz təminatı ingilis dilinə əsaslanır. İKT metodikası tələbələrə adi metodlar çərçivəsindən kənara çıxmasına və sərbəst şəkildə dilöyrənməyə kömək edir.

Müxtəlif rəqəmsal mühitlərin – mətn, təsvirlər, audio və video, prezentasiyaların birliyi olan multimediya texnologiyalarının köməyilə informasiyanı auditoriyaya təqdim etmək mümkün olur. Bu zaman əsas diqqət eşidib qavramaya, mətni təsvirlərə, animasiyalara və maraq kontekstlərinə yönəldilir. Multimedia vasitələrindən istifadə edildikdə tələbələr dərsi yaxşı başa düşür, müstəqil şəkildə fikir yürütməyi öyrənir və bu yolla öz aralarında əlaqəli olan və biririni tamamlayan dördə əsas vərdişi – dinləmə, danışma, oxu və yazı vərdişlərini inkişaf etdirirlər. Oxu və dinləmə qavrayış vərdişləri, danışma və yazı nəticə-məhsuldar vərdişlərdir. Bütün bu vərdişlər kommunikasiya üsullarını (yazılı və şifahi) və kommunikasiyanın istiqamətlərini – məlumatın alınması və ya yaradılmasını əlaqələndirir. Bu cür praktika həm dil daşıyıcıları, həm də ingilis dilini öyrənənlər üçün faydalıdır. Bu, yuxarıda qeyd edilən dörd vərdişin inkişafını stimullaşdırır, multimedia vasitələrindən istifadə edən tələbələr isə geniş vikabulyara malik olurlar (söz ehtiyatına).

Dilin öyrənilməsində müxtəlif metodlardan istifadə etmək olar, lakin müxtəlif kontekstlərə məqsədəuyğun olanları seçmək lazımdır. Vahid metod mövcud deyildir, çünki təhsi alan tələbələrin səviyyələri fərqlidir. Müəllim qrup üçün özünün uğurlu və məqsədəuyğun hesab etdiyi metodları seçməlidir. Yalnız belə olduğu halda bu metodları innovativ hesab etmək olar: [5, s.26]

- multimedia mühitli təlimin üstünlüyü ondan ibarətdir ki, o, aşağıdakıları yerinə yetirməyə imkan verir:

-müxtəlif profilli tədris müəssisələrində təlimi yaxşılaşdırır;

- müxtəlif yerlərdə fərqli işlərdə işləyən tələbələrə oxumaq imkanı verir;

- vərdişlərin yaxşılaşdırılmasına zərurət yarandıqda təkrarı təmin edir;

-tədrisi dövrümüzün vacib hadisələri ilə bağlamağa imkan verir.

İndiki zamanda dili öyrənmənin texniki resursları:

Audioqurğular: SD-pleyer və audio-kaset maqnitofonları. Bu yaxınlarda tədris prosesində Web-dən əlavə audio mənbə kimi istifadə edilməyə başlanılmışdır.

Televiziya, radio və telefonlar da xarici dilləri öyrənənlərə müasir və mədəniyyət proqramlarına müraciət etməyə imkan verir [6, s.78].

Multimedia kompüterlərinin tədris prosesinə tətbiqi tələbə və müəllimlərə yuxarıda sadalanan vasitələrin kompakt və asan formada birləşdirilməsinə imkan yaratmış oldu. Hazırda mütəxəssislər bütün dünyada informasiya mübadiləsində mühüm rol oynayan İKT şəbəkə texnologiyasına üstünlük verirlər.

Web bazasında təlim telekonferensiya auditoriyası çərçivəsində kommunikasiya və qarşılıqlı təsir üçün platformadır. Bu cür öyrədici mühitin özəlliyini özünütəlim rejimində təlim və telekonferensiya, şəbəkə görüşləri və real auditoriyada kontakt dərslərlə əlaqə nöqteyi-nəzərindən müəyyən edilməlidir. Tələbələrə bilikləri çatdırmaq üçün onlayn siniflər və tədris materialı, habelə keyfiyyətli idarəetmə yaradılmalıdır.

Keys-stadi metodunun mahiyyəti konkret situasiyanın təhlilindən ibarətdir. Bu metodun birbaşa məqsədi tələbələrin problemi təhlil etmələrindən, problemin mahiyyətini üzə çıxarmağa çalışmalarında, müxtəlif həll variantları təklif etmələri və onlardan doğru olanı seçmələrindən ibarətdir. Keyslər praktik (real həyat situasiyalarını əks etdirənlər) və öyərdici (süni şəkildə yaradılmış və onlarda həyatın əsk olunmasında şərti elementləri özündə əks etdirənlər) və tədqiqat xarakterli (modelləşdirmə metodu vasitəsilə araşdırıcı fəaliyyətin aparılmasına istiqamətlənmiş) bölünürlər. Konkret situasiyaların təhlili prosesində tələbələrdə qrup və komandada işləmək vərdişləri inkişaf edir.

Konkret situasiyalar metodu aşağıdakı mərhələlərə bölünür: hazırlıq, tanışedici, analitik və yekun. Tələbələrin diskussiyalara cəlb edilməsi uğurlu təlim üçün mühüm əhəmiyyət kəsb edir. Müəllim diskussiya prosesini istiqamətləndirir və tələbələri qarşılıqlı əlaqəyə yönəldir. Bu metoddan istifadə edərkən tələbələr "bir komandanın oyunçularna" çevrilirlər. Praktika göstərir ki, interaktiv təlim didaktik təlimi üstələyir və əhəmiyyətli dərəcədə akademik uğuru yaxşılaşdırır, tələbələrin debatlara qatılmasına yardım edir [7; 8].

1870-ci ildə Harvard universitetində tətbiq edilən Keys metodu aşağıdakı vərdişləri inkişaf etdirir:

-informasiyanı təhlil etmək, onu təsnifatını vermək, vacib və vacib olmayan informasiyanı ayırd etmək, məntiqi düşünmək bacarığından ibarət olan analitik vərdiş;

-müxtəlif metod və prinsiplərdən praktikada istifadə etmək vərdişlərini formalaşdıran praktik vərdişlər;

-yaradıcı vərdişlər;

-diskussiyalar aparmaq, əyani materialdan istifadə etmək, öz baxışlarını müdafiə etmək, qısa və yığcam icmal hazırlamaqdan ibarət kommunikativ vərdişlər;

sosial vərdişlər – insanların qiymətləndirilməsi, dinləmək bacarığı, diskussiya aparmaq qabiliyyəti, öz fikirlərini arqumentləşdirmək və s.

Keys metodu aşağıdakı tələblərə cavab verməlidir:

-qoyulan tapşırıqlara uyğun gəlməlidir.

-müvafiq çətinlik səviyyəsinə malik olmalıdır;

- bir neçə aspekti illüstrasiya etməlidir;

-bu gün aktual olmalıdır;

-analitik təfəkkürü inkişaf etdirməlidir;

- diskussiyaya səbəb olmalıdır;

-bir neçə həlli olmalıdır.

Keys-metodda diskussiyaların, müzakirələrin, arqumentasiyaların olması müzakirə iştirakçılarının güclü məşq etdirir, ünsiyət norma və qaydalarına riayət etməyi öyrədir. Bu təlim prosesində ən böyük yük bütün təlim prosesində emosional olan, münaqişələrə yol verməd̈ən onları həll edən, eyni zamandə əməkdaşlıq və rəqabət şəraiti yaradan, və ən başlıcası tələbələrin şəxsi hüquqlarını qorunmasını təmin edən müəllimin üzərinə düşür.

Ədəbiyyat

1. West M. A General Service List of English Words. Oxford: Oxford University Press, 1953.

2. Раицкая Л.К. Кейсы в развитии иноязычной профессиональной компетентности студентов-международников // Актуальные проблемы гуманитарных и естественных наук. 2013а. № 7-2, с. 183-185.

3. Раицкая Л.К. Формирование иноязычной компетентности студентов в курсе деловой коммуникации на иностранном языке // Актуальные проблемы гуманитарных и естественных наук. 2013б. № 11-2, с. 217-220.

4. Nicolaides Vaal A. University of Technology. Innovative teaching and learning methodologies for higher education Institutions. Educational Research (ISSN: 2141-5161) Vol. 3(8), pp. 620-626.

5. Motteram G. Innovations in learning technologies for English language teaching. UK: London, 2017.

6. Cavus N. and Ibrahim D. m-Learning: An experiment in using SMS to support learning new English language words. British Journal of Educational Technology 40/1:pp. 78- 91, 2009.

7. Crosling G., As-Saber, Rahman N. 'Postgraduate International students and Independent Learning', Paper at International Conference on Postgraduate Education. 16-17 December, Penang, Malaysia, 2008.

8. Crosling G., Edwards R., Schroder W. 'Internationalising the Curriucum. The implementation experience in a Faculty of Business and Economics', J. Higher Edu. Policy Manag. 30(1): pp. 107-121, 2008.

Г.Д.Алыева

Использование кейс метода в процессе обучения

Резюме

В статье рассматривается использование кейс-метода в учебном процессе. В нем говорится, что кейс-метод представляет собой основанный на обсуждении способ обучения, при котором учащиеся приобретают навыки критического мышления, общения и групповой динамики. Это тип обучения по методу решения проблем. В статье освещены условия, на которые должен отвечать кейс метод. Кроме того, кейс-метод считается важным, так как он используется для улучшения у изучающих язык навыков чтения, письма и разговорной речи на иностранном языке.

G.D.Aliyeva

The usage of the case method in the teaching process

Summary

The article deals with the usage of the case method in the teaching process. It states that the case method is a participatory, discussion-based way of learning where students gain skills in critical thinking, communication, and group dynamics. It is a type of problem-based learning. The article highlights the conditions that the case method is expected to answer. Besides, the case method is considered to be important as it is used to improve the language learners' skills of reading, writing and speaking in a foreign language.

Rəyçi: ped.e.d., prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 16.06.2020

V.M.BAĞIROV
dosent
e-mail: vmbagir@rambler.ru

E.R.CUMAZADƏ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

İDMAN TURİST YÜRÜŞÜNÜN ÜMUMİ HAZIRLIQ PLAN-QRAFİKASININ İŞLƏNİLMƏSI METODİKASI

Açar sözlər: *plan, qrafika, marşrut, hazırlıq, təlim, yürüş*
Ключевые слова: *план, графика, маршрут, подготовка, тренировка, поход*
Key words: *plan, graphic, route, preparation, training, hike*

Turizm insanların maariflənməsinin vacib vasitələrindən biri olan, aktiv istirahətinin və bərpa edilməsinin ən geniş yayılmış formasıdır. Səyahət zamanı turistlər Vətənimizin keçmişi və bu günü, onun təbii sərvətləri, tarixi və mədəniyyət abidələri ilə tanış olur, ictimai faydalı işlər görür, təbiət müşahidələri aparırlar.

Turist qrupu, üzvlərinin hər biri digər dostluq və məqsəd birliyi ilə birləşdirilmiş monolit bir komanda olmalıdır. Buna görə, qrupdakı bütün turistlərin yaşı və fiziki hazırlığı, oxşar bacarıq və bilikləri və oxşar maraqları olması arzu edilir.

Qruplaşdırmanın aparılması eyni bir müəssisədə və ya eyni məktəbdə, texniki məktəbdə, institutda oxuyan turistlərdən tövsiyə olunur. Bu cür qruplar vahid və sabitdir. Təşkili və avadanlıqla təmini daha asandır.

Sadə səyahətlərdə iştirak edən turist qrupunun kəmiyyət tərkibi məhdud deyil. I-III mürəkkəblik kateqoriyalı marşrutlarda toplanan turizm qrupları ən azı dörd nəfər turistdən ibarət olmalıdır.

Qrupa yürüşün əsas hədəfləri aydın olduqdan və ərazi prinsipial olaraq seçildikdən sonra hazırlıq işlərinin plan-cədvəlini, yürüşün təqvim-qrafikini və yürüşün nəticələrini əks etdirəcək yekun, yəni final və ya ev hesabatının plan-cədvəlini hazırlamaq olar.

Yürüşün hazırlanması zamanı aşağıdakı məsələlərə xüsusi diqqət ayrılması vacibdir:

1) Hədəflər və qrupun imkanları nəzərə alınaraq, səyahətin keçiriləcəyi marşrutun təsdiq edilməsi. Marşrutun qurulması səfərin xüsusiyyətlərindən və ərazinin xüsusi şərtlərindən asılıdır. Bu dairəvi, xətti və radial marşrut ola bilər. Marşrut təhlükəsiz və məntiqli olmalıdır.

2) Hədəflərin dəqiqləşdirilməsi (yalnız idman yürüşü, uzaqda yerləşən dağ ərazisinin öyrənilməsi, elmi təşkilatların tapşırıqları ilə görülən işlər).

3) Qrup üzvlərinin seçilməsi və onlar arasında vəzifələrin bölgüsü. Qrupda ictimai vəzifələrin bölüşdürülməsində, iştirakçıların turizm təcrübəsi, praktik bacarıqları, müəyyən tapşırıqların icrası nəzərə alınır.

4) Fiziki və texniki məşqlər. Həm xüsusi, həm də ümumi bədən tərbiyəsi nəzərdə tutulan səfərdə bütün iştirakçılar üçün birgə təlim şəklində aparılır. Bu, komandanı gücləndirməyə kömək edir, qrup üzvləri arasında "oxşarlıq" hissini inkişaf etdirir.

5) Ərzaqların alınması və hazırlanması. Məhsullar düzgün seçilməlidir. Yağlar, zülallar, karbohidratlar, vitaminlər və mineral duzlar optimal miqdarda seçilməlidir. Və əlavə olaraq minimum çəkiyə, yaxşı daşınmaya sahib olmalıdır.

6) Avadanlıqların alınması və hazırlanması. Avadanlıq yüngül, davamlı, etibarlı, istifadəsi asan, ölçüsü kiçik olmalıdır.

7) Tibbi təhcizatın hazırlanması.

8) Marşurut və digər yürüş sənədlərinin rəsmiləşdirilməsi. Yürüşü həyata keçirən təşkilat qrupun hazırlanmasına və təliminə, lazımi avadanlıqla təchiz olunmasına, habelə səyahətin gedişatına nəzarət edir.

Hazırlıq zamanı qrupda planlaşdırma, ərzaqların hazırlanması və qablaşdırılması, maliyyə işləri, avadanlıqlar, ilk tibbi yardım dəsti, foto və video çəkilişləri üçün məsuliyyətli şəxslər ayrılmalıdır (1.s.13-14). Marşruta aid olan hissəsinə rəhbərliyin nəzarəti altında keçrir. Təsadüfü hallarda yürüşə hazırlıq zamanı iştirakçıların bir çox müxtəlif məsələlərlə məşğul olması vacibliyi yaranır, lakin hazırlığın ayrı-ayrı komponentlərinə nəzarəti bir şəxs icra etməli və məsuliyyət daşımalıdır.

Yürüş zamanı vəzifələr dəyişə bilər. Məsələn hazırlıq zamanı avadanlıqlarla məşğul olan şəxs şəkil çəkilməsi və s. işləri icra edə bilər. Dağlarda təhcizatçının, həkimin və təmirçinin (yürüşdən qabaq və qayıdışda maliyyəçinin vəzifəsini təhcizatçı həyata keçirir) vəzifəsi qəti olaraq müəyyən edilməldir. Digər işlərlə isə faktiki olaraq qrupun bütün üzvləri arasında bölünür.

Hərdən marşrutda yürüşün məsafəsini müəyyənləşdirən və yürüş gündəliyinin qeydlərini aparmaq üçün "salnaməçi" vəzifəsi müəyyən edilir. Bununla adətən rəhbərin özünün məşğul olması daha məqsədəuyğun hesab edilir. O ki, qaldı foto və video çəkilişlərinə, bu o zaman həqiqətən lazım olur ki, qrupun yalnız bir və ya iki fotoaparatı olsun, hansı ki, cari dövrdə nadir hallarda olur. Bir neçə fotoaparatın (demək olar ki hər bir iştirakçıda olur) olması imkan verir ki, cavabdeh şəxs təyin edilməsin və hamı ətraf panoramanın, texniki işlərin və s. şəkil və video çəkilməsinə cəlb edilsin. Rəhbər yalnız nəzarət etməlidir ki, xüsusi önəmli və maraqlı yerlərdə şəkil və videolar çəkilsin və ya panoramik görüntülər əldə edilsin.

Fiziki və texniki məşqlər (xüsusən də fiziki) yürüşə, ən azı bir-neçə ay qalmışdan başlanılmaldır. Yalnız bu halda əmin olmaq olar ki, yürüşə çıxış zamanında qrup üzvləri yaxşı fiziki göstəricilər əldə edəcəkdir. Əlbəttə ki, yürüşün başlamasına az qalmış orqanizmə istirahət verilməsi məqsədilə məşqlərdə fiziki yüklənmə faizini azaltmaq lazımdır. Fiziki məşqlərin əsas məqsədi-dözümlülüyün artırılması, ayaq, əl-qol və qarın əzələlərinin möhkəmləndirilməsidir (3.s.150-155). Forma baxımından fiziki məşqləri rəngarəng etmək və məşqlərə hər zaman oyun elementləri daxil etmək lazımdır. Ümumi fiziki hazırlıq prosesi zamanı, əsas fiziki keyfiyyətlərin; gücün, dözümlülüyün, cəldliliyin hərtərəfli inkişafına nail olmaq lazımdır. Əgər sadalananlardan hər hansı biri geri qalırsa, həmin keyfiyyətə müsbət təsir göstərəcək əlavə vasitələri tətbiq etmək gərəkdir. I-III çətinlik dərəcəli səyahətində fiziki hazırlığını yoxlamaq üçün aşağıdakı nəzarət fiziki normativlərdən istifadə etmək tövsiyə olunur. (Cədvəl 1)

Cədvəl 1.

Normativ	Qiymət		
	kafi	yaxşı	əla
100 m qaçış (saniyə): Kişilər Qadınlar	 14.8 17.5	 14,6 17,0	 14,0 16,0
Bir ayağla oturub-durmaq (dəfə): Kişilər Qadınlar	 10 5	 15 10	 20 15
Turnikdə dartınma (kişilər üçün, dəfə):	8	9	10
Qolları açıb-bükmək (jim, qadınlar üçün, dəfə):	4	6	8
Kros qaçışı (dəq.): Kişilər 3 km: Qadınlar 1 km:	 13 5,5	 12,5 4,5	 12 4

Texniki məşqləri adətən qayalıq ərazilərdə (faydalı olmasına baxmayaraq çox nadir hallarda qarlı yamaclarda) həyata keçirirlər. Məşqlər müdafiə qaydaları, hərəkət bağlantısı,

keçidlər üzərində hərəkətlər, "zərərçəkmişlərin" buz çatlarından qaldırlıması, "zərərçəkmişlərin" təxliyyəsi, bağlama üsulları üzərində işlənilir. Xüsusilə qarlı yamaclarda buz baltası vasitəsilə özünü saxlama üsulları (yamacda müxtəlif vəziyyətlərdə yıxılma hallarında) üzərində məşqlərə diqqətlə yanaşmaq lazımdır (4.s.41). Müdafiə fəndlərini 60 kiloqramdan az olmayan "ağac gövdəsi" atılmaqla, yaxşı icra etmək gərəkdir. Şəhərkənarı məşq keçirilmə zamanı əldə düzəldilmiş avadanlıqlar sınaqdan keçirlir.

Ərzaqın alınması və qablaşdırılması tədricən həyata keçirilməlidir. Bu həm də avadanlıq və ləvazimatlarında hazırlanmasına aiddir. Karabin, kəndir, buz baltası və digər alpinist avadanlıqlarını idman cəmiyyətləri və ya tursit klublarından əldə etmək mümkündürsə, əldə düzəltmə (qarmaqlar, buzlaq və kəndirlər səkkizformalı əyləclər) avadanlıqların hazırlanması üçünsə əksinə uzun zamana ehtiyac vardır.

Avadanlıq diqqətlə yoxlanılmalı və əlbəttə ki, tələblərə uyğun olaraq İMK-ya (İxtisaslaşdırılmış Marşrut Komissiyası) təqdim olunmalıdır.

Rəhbər həmçinin marşruta çıxmaq üçün lazım olan sənədləri müvafiq zaman ərzində rəsmiləşdirməlidir (5.s.9-15).

Yuxarıda qeyd olunan məsələlərin diqqətlə öyrənilməsinə əsaslanan və marşrut sənədlərinə uyğun olan plan-cədvəlin, şərti olaraq bir neçə bölməyə ayrılması prosesi asanlaşdırır. Buradan yürüşün başlanğıc yerlərinə çatması, yanaşma nöqtələri, bir neçə marşurutun bir neçə əsas hissələri (məntiqi olaraq əsas sahələrin keçilməsi, ilməvari və ya radial kəşfiyyat səfərləri, marşurutun yekun nöqtəsi və ərazidən çıxış ilə əlaqəli olan xətli və ya dairəvi marşurutun seqmentlərini ayıran) aiddir. Hər bir bölmə və mümkün ola biləcək dəyişikliklər nəzəri olaraq diqqətlə düşünülməlidir. Bu növbəti sahələrin planlaşdırılmasını asanlaşdıracaq və yürüşün ümumi plan-cədvəlini reallığa daha yaxın edəcək.

Ciddi səbəblər olmadan və yalnız marşrutun hazırlanmasında kifayət qədər diqqətli olmamaqdan və ya həddən artıq optimist yanaşmanın nəticəsi olaraq, əsas marşrutun qısaldılması və dəyişdirilməsi-kobud taktiki səhvdir. Bu da nəticədə marşrut komissiyası tərəfindən məhz bu cür də qiymətləndirilməlidir.

Ədəbiyyat

1. Bağırov V.M., Nadirov F.K. Dağ-piyada səyahətləri gid- bələdçilərin hazırlanması. Bakı: Kösər, 2007.

2. Salmanova N.B., Məmmədov Y.B., Tağıyev F.R. İdman turizmi. Bakı: Araz, 2014.

3. SalmanovaN.B., Məmmədov Y.B., Tağıyev F.R. İdman turizminin nəzəriyyəsi və metodikası. Bakı: "OL" MMC, 2015.

4. Ганапольский В.И., Туризм и спортивное орентирование, Москва, 1987.

5. Краткий справочник туриста, Москва, Профиздат, 1985.

В.М.Багиров, Е.Р.Джумазаде

Методика разработки плана-графика общей подготовки спортивного туристского похода

Резюме

При подготовке спортивного похода надо обратить особое внимание на следующие вопросы: окончательный выбор района путешествия, исходящий из целей и возможностей группы, уточнение этих целей.

Серьезно следует отнестись также и к нижеуказанным вопросам-подбор группы и распределение обязанностей в ней, физические и технические тренировки, закупка и подготовка продуктов, подготовка снаряжения, подготовка медицинского обеспечения, оформление маршрутной и другой походной документации.

V.M.Baghirov, E.R.Jumazade

Methodology for developing a schedule for the general preparation of a sports hiking trip

Summary

When preparing a sports trip, special attention should be paid to the following issues: the final choice of the travel area, based on the goals and capabilities of the group, and clarification of these goals.

The following issues should also be taken seriously: the selection of a group and the distribution of responsibilities in it, physical and technical training, the purchase and preparation of products, the preparation of equipment, the preparation of medical support, the preparation of route and other travel documents.

Rəyçilər: prof. N.B.Salmanova
AzDBTİA-nın Kütləvi-sağlamlıq idman növlərinin nəzəriyyəsi və metodikası kafedrası
(12.02.2020-ci il tarixli iclasın qərarı (pr. № 06)).

Redaksiyaya daxil olub: 07.05.2020

N.B.CƏFƏROVA
pedaqogika üzrə elmlər doktoru, dosent
e-mail: cafarova_nabat@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

İBTİDAİ SİNİFLƏRDƏ CÜMLƏNİN MƏQSƏD VƏ İNTONASİYAYA GÖRƏ NÖVLƏRİNİN TƏDRİSİ HAQQINDA

Açar sözlər: *kurikulum, sintaksis, nitq bacarıqları, tədris*
Ключевые слова: *куррикулум, синтаксис, речевые способности, учебный*
Key words: *curikulum, syntax, speech abilities, educational*

Son illərdə Azərbaycan cəmiyyətinin tələb və ehtiyaclarına uyğun nəticəyönümlü, yəni təhsil sistemində əldə olunması nəzərdə tutulan təlim nailiyyətlərinin qabaqcadan müəyyən edilməsi və müvafiq nəticələrdən ibarət şəxsiyyətyönümlü təhsil sisteminin yaradılması sahəsində xeyli işlər görülmüşdür [7, s.7].

Təhsil bir pedaqoji kateqoriya kimi xarakterizə edildikdə iki məna əsas götürülür: geniş, yəni şagirdin bilik, bacarıq və vərdişlərə, yaxud elmi, texniki-tərəqqiyə yiyələməsi və dar mənada, yəni təlim prosesinin nəticəsi olub bu prosesdə qazanılmış bilik, bacarıq və vərdişlərin sistemi kimi anlaşılır. Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədi ilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssisələrində mənimsənilmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılması, qiymətləndirilməsi və hüquqi sənədlərdə təsbit olunan nəticəsidir [9, s.104].

İbtidai siniflərdə şagirdlərdə təlim fəaliyyətinin inkişaf etdirilməsində nitq bacarıqlarının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Nitq bacarıqlarının inkişafı isə biləvasitə cümlə üzrə işlə bağlıdır, çünki rabitəli nitq cümlələrdən əmələ gəlir.

Sintaktik baxımdan cümlə nitqin ən mühüm vahididir. Cümlə dilin xüsusiyyətlərini özündə ehtiva edən, ümumiləşdirən, birləşdirən ən vacib ünsiyyət vahididir. Düzgün cümlələr qurmağı bacarmadan aydın, rəvan, ifadəli, orijinal rabitəli nitqə yiyələnmək mümkün deyildir.

Şagirdlərin düzgün nitq kompetensiyası dil kompetensiyası ilə bağlıdır. Bu zəmində ibtidai siniflərdə sintaksisin tədrisi, sintaktik biliklərə yiyələnmək vacib amildir. İbtidai siniflərdə sintaksisin tədrisi sahəsi çox geniş deyildir. Bununla belə şagirdlər cümlə, cümlə və onun növləri, cümlə üzvləri, cümlənin baş üzvləri-mübtəda, xəbər, cümlənin ikinci dərəcəli üzvləri, mürəkkəb cümlə və s. anlayışlarla tanış olurlar.

Cümlə anlayışının formalaşdırılmasında cümlənin məqsəd və intonasiyaya görə növlərinin tədrisi mühüm yer tutur. İbtidai sinif fənn kurikulumunda cümlə, cümlənin məqsəd və intonasiyaya görə növlərinin tədrisi aşağıdakı məzmunda verilmişdir:

Şagird:

I sinif: 4.1.8. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır. 4.1.9. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir.

II sinif: 4.1.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir. 4.1.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və müvafiq işarələrlə tamamalyır.

III sinif: 4.1.6. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

IV sinif: 4.1.6. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini dəqiq müəyyən edir. 4.1.7. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir [10, s.21-28].

Cümlənin bu növləri fənn kurikulumuna görə "Cümlənin növləri" adı ilə II sinifdən öyrənilməyə başlanır. II sinif "Azərbaycan dili" dərsliyində yazılır: "Söz və söz birləşməsindən fərqli olaraq, cümlə müəyyən bir fikir ifadə edir. Bu fikir müxtəlif cür ifadə oluna bilər. Danışan adam cümlə vasitəsilə:

1) nə isə xəbər verə bilər;
2) nəyi isə soruşa bilər;
3) əmr və ya xahiş edə bilər.

1-ci növ cümlələr nəqli cümlə, 2-cisi sual cümləsi, 3-cüsü nida cümləsi adlanır.

Nəqli cümlənin sonunda nöqtə (.), sual cümləsinin sonunda sual (?), əmr cümləsinin sonunda nida (!) işarəsi qoyulur" [5, s.167].

III sinif "Azərbaycan dili" dərsliyində "Cümlə və onun növləri" haqqında yazılır: "Sözdən və söz birləşməsindən fərqli olaraq, cümlə bitmiş bir fikri ifadə edir. Bu fikir xəbər, sual, əmr şəklində ifadə oluna bilər.

Xəbər, məlumat, vermək məqsədi ilə söylənilən cümlələr nəqli cümlə adlanır.

Məlumat almaq məqsədi ilə söylənilən cümlələr sual cümləsi adlanır.

Əmr, xahiş, tapşırıq ifadə edən cümlələr əmr cümləsi adlanır" [6, s.169].

Fənn kurikulumuna müvafiq olaraq cümlənin bu növləri birinci siniflərdən praktik şəkildə tədris olunur və burada nəqli, sual və nida cümlələrinin öyrənilməsi nəzərdə tutulur.

Bu cümlələrin tədrisi ilə bağlı nitq inkişafı üzrə aparılan işlər sistemində təxminən aşağıdakı məsələlərə əhəmiyyət verilməlidir:

- Nəqli cümlə ilə bağlı

1) şagirdlərin nəqli cümlə qurmaq bacarıqlarını inkişaf etdirmək;
2) nəqli cümlələrin tələffüzü üzrə işlər:

a) nəqli cümlələrin sonuna doğru səs tonunun alçaldılması və intonasiyanın bitməsi;
b) sözlər arasındakı intervalın saxlanması və cümlədə ritmik bölgülərin gözlənilməsi;
c) məntiqi vurğulu sözün tapılması və fərqləndirici intonasiya ilə tələffüz edilməsi.

- Sual cümləsi ilə bağlı

1) şagirdlərin düzgün sual cümlələri qurmaq bacarıqlarını inkişaf etdirmək;
2) sual cümlələrinin tələffüzü üzrə işlər:

a) ancaq intonasiya vasitəsi ilə düzələn sual cümlələrində son sözün son hecasındakı saitin üzadılması;

b) ancaq intonasiya vasitəsi ilə düzələn sual cümlələrində məqsəddən asılı olaraq məntiqi vurğunun müəyyən sözün üzərinə düşməsi;

c) sual əvəzlikləri ilə əmələ gələn sual cümlələrində sual əvəzliklərinin məntiqi vurğu altına düşməsi və fərqləndirici intonasiya ilə tələffüz edilməsi.

- Əmr cümləsi ilə bağlı

1) əmr cümlələrinin əmrlə yanaşı, xahiş, nəsihət, yalvarış və s. ifadə etməsi;
2) əmr cümlələrinin intonasiya çalarları üzərində müəyyən işin aparılması;
3) əmr cümlələrində əmr ədatlarından istifadə edilməsi;
4) əmr cümlələrinin məntiqi vurğu ilə əlaqələndirilməsi.

- Nida cümləsi ilə bağlı

1) şagirdlərin nida cümlələri düzəltmək, nitqlərində nida cümlələrindən istifadə etmək bacarıqlarını inkişaf etdirmək;
2) nida cümlələrinin tələffüzü üzərində işlər:

a) ümumi şəkildə nida cümlələrinin qüvvətli tələffüz edilməsi;

b) hissin müxtəlif növləri ilə müşayət olunan nida cümlələrində intonasiya variantlarından düzgün istifadə edilməsi.

Sonrakı siniflərdə bu məsələlər bir qədər də dərinləşdirilir və müntəzəm şəkildə həmin cümlələrdən nitq təcrübəsində istifadə etmək üzrə işlər aparılır.

İbtidai siniflərdə isə bu cümlələrin tədrisində ifadə edilən fikrin məqsədi ilə intonasiya xüsusiyyətləri üzərində daha ətraflı dayanılmalıdır.

Müşahidələr göstərir ki, təcrübəli müəllimlər cümlənin məqsəd və intonasiyaya görə növlərinin tədrisni elə ilk gündən məntiqi vurğu ilə əlaqələndirirlər.

Hələ nəqli cümlələrin tələffüzü üzrə iş apararkən müəllim şagirdlərə izah edir ki, nəqli cümlələrdə səs tonunun ucalığı orta dərəcədə olur. Lakin hər cümlədə məqsədi ifadə edən bir söz olur ki, bu söz cümlədəki o biri sözlərə nisbətən bir qədər qüvvətli tələffüz olunur. Buna məntiqi vürğu deyilir. Məntiqi vürğulu söz cümlənin mərkəz sözü sayılır. Cümlədə ifadə edən məqsəddən asılı olaraq məntiqi vürğu cümlədəki müxtəlif sözlərin üzərinə düşə bilər. Müəllim bunu şagirdlərə başa salmaq üçün bir cümlə götürür və həmin cümlədə məntiqi vuğunu müxtəlif sözlərin üzərinə keçirməklə tələffüz etdirir və hər dəfə məqsədin nədən ibarət olduğunu şagirdlərdən soruşur.

Bəzən də həmin cümlələrin bölgü əsası bir qədər genişləndirilmiş və növləri çoxaldılmışdır. Məsələn, Z.Tağızadə bu bölgünü "cümlənin məqsəd və gerçəkliyə münasibəti üzrə növləri" adı ilə vermiş təsdiq və inkar cümlələrini də bu bölgüyə daxil etmişdir[8, s.106].

Birincisi, ibtidai siniflərdə bu cümlələrin bölgüsünün əsasında həm məqsəd, həm də intonasiya qoyulmalıdır, çünki növ bölgüsündə növün fərqləndirici əlamətləri əsas götürülür. Bu cümlələrin də fərqləndirici əlamətləri onlarda irəli sürülən fikrin məqsədi və həmin məqsəddən doğan intonasiyadır. Əgər nəqli cümlələrdə məqsəd məlumat vermək, sual cümlələrində məqsəd soruşmaq, əmr cümlələrində məqsəd təhrik etmək, vadar etməkdirsə, nida cümlələrində bu məqsəd insan hisslərini ifadə etməkdir.

İkincisi, nəqli, sual, əmr cümlələrinin özlərinə məxsus ifadə vasitələri(feilin xəbər şəkli, sual əvəzlikləri, sual ədatları, feilin əmr şəkli, əmr ədatları və s.) olduğu kimi, nida cümlələrinin də özlərinə məxsus ifadə vasitələri vardır. Məsələn, nidalar, nidalaşan sözlər, hissin müxtəlif növlərini ifadə edən intonasiya variantları və s. Bütün bunlar döstərir ki, ibtidai siniflərdə cümlənin bu növlərinin hamısını cümlənin məqsəd və intonasiyaya görə növləri adı altında tədris etmək düzgündür.

İbtidai siniflərdə cümlənin məqsəd və intonasiyaya görə növlərinin tədrisi ilə bağlı nitq bacarıqlarının inkişafı üzrə aparılan işlərə gəlincə, deməliyik ki, bu mövzu özlüyündə başdanbaşa nitq bacarıqlarının inkişafı ilə bağlıdır. Burada əsas məsələ həmin mövzunun tədrisi prosesində şagirdlərin nitqini inkişaf etdirmək üçün daha səmərəli yollar tapmaq, fəal təlim üsullarından istifadə etmək lazımdır.

Belə ki, fəal təlim üsulları, yeni təlim texnologiyaları optimal təlim mühiti yaratmaqla, şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirməklə, nəticəyönümlü standartların reallaşmasını təmin etməklə yanaşı, cümlənin məqsəq və intonasiyaya görə növlərinin tədrisinin effektivliyini təmin edir.

Ədəbiyyat

1. Həsənov M.M., Bəhmənova C.D. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri. Bakı: ADPU-nun nəşri, 2009, 103 s.

2. Həsənov M.S. Azərbaycan dilinin sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər. Bakı: Maarif, 1986, 152 s.

3. İbtidai siniflərdə sintaksis təliminin təşkili(metodik tövsiyə). Bakı: Azərb. SSR Xalq Təhsili Nazirliyi, 1988, 55 s.

4. İbtidai siniflərdə sintaksisin tədrisinin bəzi məsələləri(metodik tövsiyə). Bakı: Azərb. SSR Xalq Təhsili Nazirliyi, 1991, 50 s.

5. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2009, 208 s.

6. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (3-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010, 207 s.

7. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı: Nasir, 2003, 520 s.
8. Tağızadə Z.X. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı, APİ, 1961, 189 s.
9. Təhsil lüğəti. Bakı, 2011
10. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.

Н.Б.Джафарова

Об изучении типов предложения по цели и интонации в начальных классах

Резюме

Предложение является основным единством взаимоотношений между людьми, отражающими в себе все особенности языка. Развитие связной речи также напрямую связано с предложением, т.к. связная речь образуется путем связи предложений. Невозможно овладеть плавной, ясной речью, не умея составлять разноцветные, правильные предложения. В процессе формирования понятий предложения большое значение имеет определение создания между предложениями.

N.B.Jafarova

In training syntax in initial classes

Summary

The offer is the basic unity of mutual relation between the people, which reflect in themselves all features of language. Development of coherent speech also directly is connected to the offer, since the coherent speech is formed by communication (connection) of the offers. It is impossible to take possession of smooth, clear speech, not were able to make the multi-coloured, correct offers. During formation of concepts of the offer the large meaning (importance) has definition of creation between the offers.

Rəyçi: prof. F.R.Xalıqov

Redaksiyaya daxil olub: 22.06.2020

M.M.ƏMRAHOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ TƏBLİĞİ

Açar sözlər: *Azərbaycan dili, ədəbiyyat, azərbaycançılıq ideologiyası*
Ключевые слова*: азербайджанский язык, литература, идеология азербайджанства*
Key words: *Azerbaijani language, literature, Azerbaijanism ideology*

Azərbaycançılıq xalqımızın mənəvi keyfiyyətlər məcmusunu təşkil edir ki, bu da zaman-zaman cəmiyyətin məişət həyatı, sosial mühiti və ictimai psixologiyası əsasında formalaşmışdır. Mənəvi keyfiyyətlər Azərbaycan xalqının, Azərbaycan millətinin, eləcə də respublikamızda yaşayan etnik qrupların şəxsiyyət aləmini müəyyən edir.

Məlumdur ki, hər bir mənəvi aləmin arxasında milli psixologiya və mili şüur dayanır. Milli şüur milli vətənpərvərliyin, milli qürurun, milli-mənəvi dəyərlərin, milli adət-ənənələrin, milli əxlaqi keyfiyyətlərin birgə inteqrsiyasının məhsuludur.

Hər bir müəllim qarşısında əyləşən şagirdə şəxsiyyət kimi baxmalı, onda azərbaycançılıq ideyası, yəni milli-mənəvi keyfiyyətlər aşılamalıdır. Tədris etdiyim Azərbaycan dili və ədəbiyyat dərslərində bu məsələni bir pedaqoq kimi daim diqqət mərkzəində saxlayıram.

Ədəbiyyatın tədrisi zamanı azərbaycançılıq ideyasının təbliği və agidlərdə aşılanması üçün geniş imkanlar vardır.

Azərbaycançılıq ideyası ölkəmizdə ictimai-ədəbi fikir meydanına XIX əsrin ikinci yarısından etibarən gəlsə də, XII əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri azərbaycançılıq ideologiyasının formalaşmasında böyük imkanlara malikdir. Bu imkanlardan pedaqoji prosesdə istifadə ümumtəhsil məktəblərində təhsilin keyfiyyətini yüksəldir, şagirdin fənnə marağını artırır.

Nizami əsərlərində doğma yurdu Gəncəni müqəddəs məkan kimi təsvir edir. Şairdə vətənə bağlılıq təkcə doğulduğu, böyüdüyü, tərbiyə aldığı Gəncə ilə məhdudlaşmır. Şair əsərlərində Azərbaycanın hansı bir güşəsinin adını çəkirsə, o yeri böyük şövqlə, həvəslə təsvir edir, təbiətinin, yerinin necəliyindən asılı olmayaraq oranı cənnət misallı bir ərazi kimi qələmə verir. Bu torpaqların bolluq, bərəkət, firavanlıq və zənginlik məkanı olduğunu sevgi ilə canlandırır. Məsələn, «Xosrov və Şirin» əsərində Bəhramdan qaçıb canını qurtaran Xosrov əmin-amanlıq yeri, sakitlik, dinclik məkanı kimi Nizaminin vətəni Azərbaycanda ozünə sığınacaq tapır.

Şairin əsərlərində Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Bərdənin, Şəki, Muğan, Arran kimi yaşayış məskənlərinin adı xüsusi rəğbətlə çəkilir.

Bərdə nə gözəldir, ah nə qəşəngdir
Yazı da, qışı da güldür, çiçəkdir.-

deyən şair təbii gözəllikləri təsvir etməklə yanaşı, Bərdədə sənətkarlıq və ticarətin inkişaf etdiyini göstərir.

XIII-XVI əsrlərdə ədəbiyyatımızda ayrı-ayrı şairlər tərəfindən Azərbaycan dilində divanların yaradılması, irihəcmli poemaların yazılması Azərbaycan ədəbiyyatını Şərqin poeziya məkanında fərqləndirmiş, ön mövqeyə, böyük sənət miqyasına çatdırmışdır.

Ədəbiyyatda azərbaycançılıq XVIII əsdə Vaqifin timsalında daha yüksək mövqeyə çatmışdır. Vaqifin şeirə gətirdiyi sadəlik, realizm, xəlqilik, ərəb-fars təsirindən uzaqlaşmaq ciddi dəyişikliklərdən xəbər verirdi.

Kür qırağının əcəb seyrangahı var
Yaşılbaş sonsı hayıf ki, yoxdur.
Ucu tər cığalı siyah tellərin
Hərdəm tamaşası hayıf ki, yoxdur.

şerində konkret Azərbaycan coğrafiyası tərənnüm edilir, yer üzərində gözəllikdə tayı-bərabəri olmayan Azərbaycan qadınlarının yoxsul və ağır həyat səraiti təsivr olunur.

Azərbaycançılıq ideyası XIX əsrin II yarısında daha da güclənir. XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının 2 yerə parçalanması, xanlıqların ləğv edilməsi, Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyasının tərkibinə qatılması, çarizmin Qafqazda möhkəmlənməsi, yerli xalqa edilən zülm və əsarət narazılıqlara səbəb olur. Bu narazılılar amansızlıqla yatırılırdı.

Ölkədə təhsiin səviyyəsinin aşağı olması, məktəblərin sayının azlığı əhalinin böyük əksəriyyətinin savadsız olmasına gətirib çıxarmışdı. O dövrün A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov H.Zərdabi kimi qabaqcıl ziyalıları maarifçilik hərəkatına qoşulurlar. Onlar təhsilin ərəb, fars, rus dilində deyil, ana dilində olmasını tələb edirdilər. XIX əsrin II yarısında xalq öz vəsaiti ilə ayrı-ayrı bölgələrdə ibtidai məktəblər açmağa başlayır. Belə məktəblərin böyük təntənə ilə açılışı olurdu. Bununla kifayətlənməyən maarifçilər xalqın milli şüurunu oyatmaq, zülmə, müstəmləkəçiliyə qarşı mübarizəyə qaldırmaq üçün milli mətbuat, milli teatr, mətbəə yaratmaq üçün səylə çalışırdılar.

«Çar mündirinin altında öz xalqı, milləti üçün döyünən ürək» gəzdirən Mirzə Fətəli Axundov Azərbaycan ədəbiyyatında realist dramaturgiyanın və realist nəsrin əsasını qoydu. O farsca yazmaqdan əl çəkərək şirin bir ləhcə ilə 1850-1855-ci illər arasında yazdığı 6 məşhur komediyası və 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" povesti ilə ədəbiyyatımızda böyük dönüş yaratdı. Görkəmli maarifçi həmin əsərləri çap etdirib məktəblərə göndərməsi və bu barədə Qafqaz Təhsil Dairəsinə müraciət etməsi də Azərbaycan dilinin tədrisindəki çətinlikləri aradan qaldırmaq məqsədi güdürdü. Bu komediyaların əsasında 1873-cü ilin martında H.Zərdabinin rəhbərliyi ilə milli teatrın əsası qoyuldu. Bu da mədəniyyətimiz tarixində böyük dönüş idi.

M.F.Axundov bütün ömrü boyu ana dilinin saflaması və onu yad təsirlərdən-ərəbizm və farsizmidən qorunması üçün var qüvvəsi ilə çalışmışdır. O, Azərbaycan tarixində birinci olaraq Azərbaycan dilinin orfoqrafiyasının canlı xalq dili əsasında qurulmasını, Azərbaycan dilində ərəb və fars dillərindən alınmış və xalqın canlı danışıq dilinə keçmiş sözlər tələffüz edildiyi kimi«Əkinçi» qəzeti yazılmasını təklif edirdi. O, məqalələrinin birində yazır: «Təvəqqe edirəm, sən də mənim kimi türk dilində "adəm" sözünü "adam", "qaidə" sözünü "qayda", "övrət" sözünü "arvad`", "tuxm" sözünü "toxum" kimi yaz".

H.Zərdabi azrbaycançılıq ideyasını əlində rəhbər tutaraq ana dilində bir qəzet nəşr etmək fikrinə düşdü. Çar hökumətinin manelərinə baxmayaraq, çətinliklə olsa da, Zərdabi məqsədinə nail oldu. 1975-ci ildə "Əkinçi" qəzeti nəşrə başladı. O dövrün ziyalısı bu hadisəni böyük sevinclə qarşıladı. «Əkinçi» qəzetində təbliğ edilən milli dirçəliş ideyaları çar hökumətini narazı saldı və qəzet 1877-ci ildə bağladı.

XIX əsr ziyalılarının səyi, gərgin zəhməti nəticəsində əsrin sonlarında "Azərbaycan dili" və "Azərbaycan xalqı" anlayışlarının mətbuatda və ədəbiyyatda işlədilməsi ilə konkret olaraq azərbaycançılıq məfkurəsi formalaşdırmağa başlamışdır.

Ədəbiyyatda azərbaycançılıq XX əsrin əvvəllərində ədəbiyyatın konsepsiyası səviyyəsinə çatdırılmışdır. Böyük demokrat ədib Cəlil Məmmədquluzadə redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında mollanəsrəd- dinçi qələm yoldaşları ilə birlikdə düz 25 il ana dilimizin saflaşması, xalqımızın milli-mənəvi özünüdərki uğrunda mübarizə aparmış, qadın hüquqsuzluğunu, avamlıq, cəhalət, nadanlığı tənqid edilmiş, bunu yaradan səbəblər gah yumorik, gah da satirik şəkildə göstərilmişdir.

Ədəbiyyat dərslərində "Azərbaycan" (1917) məqaləsini tədris edərkən şagirdlərə izah edirəm ki, hər bir millətin, onun yaşadığı ölkənin adı olur. Azərbaycan Xalq Cümhuriyyəti

qurulana qədər xalqımızın adı gah tatar, gah türk, gah müsəlman, ölkəmizin adı isə parçalara ayrılaraq Bakı quberniyası, Yelizavetpol quberniyası, İrəvan quberniyası adlanırdı.

C.Məmmədquluzadə də «Azərbaycan» məqaləsndə buna qarşı çıxaraq yazırdı:

-Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, xəyalata cumuram və öz-özümdən soruşuram:

-Mənim anam kimdir?

Öz-özümə cavab verirəm ki:

-Mənim anam rəhmətlik Zəhrəbanu bacı idi.

Dilim nə dilidir?

-Azərbaycan dilidir.

-Yəni vətənim haradır?

-Azərbaycan vilayətidir".

C.Məmmədquluzadənin "Anamın kitabı" dramı (1920) azərbaycançılıq ideyasının manifesti kimi meydana çıxmışdır. Dünyanın müxtəlif ölkələrində ərəbcə, türkcə və rusca təhsil alıb vətənə dönən 3 doğma qardaş ailədə yola getmir, sözləri və əməlləri bir-biriə düz gəlmir. Çünki bu qardaşlar doğma ana dillərində danışmır, milli adət-ənənədən uzaq düşüblər.

Əsəri diqqətlə oxuyub təhlil etdikdən sonra şagirdlər bu rəyə gəlirlər ki, dünyanın hansı ölkəsində təhsil almısansa al, vətənə qayıtdıqdan sonra öz xalqına, millətinə, vətəninə, dilinə, adət və ənənənə hörmət və xidmət etməlisən. Əks təqdirdə sənin elminin nə xalqa xeyri dəyər, nə də özünə. Bu qardaşlar kimi gülünc vəziyyətə düşərsən.

Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyov, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Cəfər Cabbarlı, Mirzə Bala Məmmədzadə və digər ziyalılarımızın apardığı milli-azadlıq və azərbaycançılıq idealı uğrunda mübarizəsi öz bəhrəsini verdi və nəticədə Azərbaycan Xalq Cümhuriyyəti quruldu. AXC qısa müddət-23 ay yaşasa da, bizim şanlı tariximiz və qürur mənbəyimizdir.

Sovet hakimiyyəti illərində azərbaycançılıq vətənpərvərlik adı ilə yaşadılmışdır. Şagirdlərə başa salıram ki, 1937-ci il repressiyası zamanı millətini, xalqını, dilini məhəbbətlə sevən M.Müşfiq, Ə.Cavad, Y.V.Çəmənzəminli, H.Cavid kimi yüzlərlə ziyalılarımız pantürkist, panislamist, millətçi damğaları ilə güllənmişdir.

Sovet hərb maşınının törətdiyi cəzalar yazıçı və yazarlarımızı susdura bilmədi. S.Vurğun, R.Rza, S.Rüstəm, S.Rəhimov, M.İbrahimov, İ.Şıxlı, İ.Əfəndiyev, M.Hüseyn, B.Vahabzadə, N.Həsənzadə və başqaları Azərbaycan reallıqlarının, azərbaycançılıq düşüncələrinin geniş imkanlarını nümayiş etdirmişlər. Yazıçı və şairlərin ana dili uğrunda apardıqları mübarizə əslində, real olaraq milli istiqlal mübarizəsinin parolu idi. S.Vurğunun «Azərbaycan» şeiri azərbaycançılıq ideyasının yaşadılması və xalqa aşılanması baxımından nə qədər böyük imkanlara malikdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə ədəbiyyatın, mədəniyyətin və ictimai fikir meydanının genişləndirilməsi, milli ziyalıların qorunub saxlanılması və dəstəklənməsi siyasətini uğurla həyata keçirməsi sayəsində Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk kimi istiqlal şairləri yetişmişdir. Onlar azərbaycançılıq ideyasının carçısı olmaq misiyasını uğurla həyata keçirmişlər.

Mən Azərbaycan dili dərslərində dilimizin fonetik, morfoloji, sintaktik quruluşunu öyrətməklə yanaşı, şagirdlərə Azərbaycan dilinin ahəngi, rəvanlığı, səlisliyi, axıcılığı və musiqiliyi ilə dünya dilləri içərisində özünəməxsus yer tutduğunu söyləyirəm. Bildirirəm ki, dili-mizin ahəng qanunu dünya alimlərini heyran edir.

Xalqımızın böyük müğənnisi Bülbül İtaliyada musiqi təhsili aldığı üçün italyan dilinin imkanlarını yaxşı bələd idi. O, doğma dilimizi musiqili dil olan italyan dili ilə müqayisə etmişdir. Bildiyimiz kimi, dildə musiqiliyi, ahəngi sait səslər yaradırlar. İtalyancada 6, azərbaycancada 9 sait vardır. Deməli, Azərbaycan dili italyancadan daha musiqilidir.

Şagidlərə onu da aşılayıram ki, hər bir adam öz doğma dilini bilməli, onun incəliklərinə yiyələnməli, özündə nitq mədəniyyətini tərbiyə etməlidir. Öz ana dilini bilməyənlər haqqında Tofiq Bayram yazır:

Qalxıb Şah dağına söz istəyirəm
Çatsın hay-haryım dinləyənlərə,
Mən "nankor" deyirəm, "nacins" deyirəm
Öz ana dilini bilməyənlərə

Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin istiqlal məfkurəsində ana dili xüsusi səhifəni təşkil edir. Şair dilimizlə bağlı problemləri dilçiliyin hüdudlarından kənara çıxararaq psixlogiya, etnoqrafiya, sosiologiya, tarix və etika ilə bağlı məsələlərlə dialektik vəhdətdə götürmüş, ana dilinə xalqa məxsus olan bütün xarakterik xüsusiyyətlərin məcmusu kimi baxmışdır. Əhməd Şmidenin (Almaniya) təbirincə desək, bir insanın öz xalqını və doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini Vahabzadədən öyrənməlidir.

Şairin 1954-cü ildə yazdığı "Ana dili" şeirində oxuyuruq:

Ey öz doğma dilində danışmağı ar bilən
Fasonlu ədəbazlar,
Qəlbinizi oxşamaz qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun
Ancaq Vətən çörəyi
Bir də ana ürəyi
Sizlərə qənim olsun.

Dil elə bir sərvətdir ki, onu itirmək faciədir, dəhşətdir. Millətin dilini əlindən almaq, onu ölümə məhkum etmək deməkdir. Görkəmli rus ədibi və pedaqoqu Uşinski demişdir: "Bir millətin varını, dövlətini, hətta vətənini əlindən alsan, ölüb itməz, amma dilini alsan, fövt olar və ondan bir nişan qalmaz".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin arapdığı ardıcıl və müdrik siyasət nəticəsində azərbaycançılıq dünya azərbaycanlılarını və ölkəmizdə yaşayan digər xalqları birləşdirən multikultural sabit həyat tərzini inkişaf etdirərək ən mühüm faktra çevrilmişdir. Bu gün Azərbaycan ədəbiyyatı azərbaycançılıq ideyasının nəinki üzvü tərkib hissəsi, sözün gerçək və böyük mənasında hərəkətverici qüvvəsidir.

Ədəbiyyat

1.Bəxtiyar Vahabzadə. Əsərləri. On cilddə. XII cild (publisistika). Bakı: Elm, 2009
2.Bəxtiyar Vahabzadə. İstiqlal. Bakı: Gənclik, 1999
3.Qulamhüseyn Beqdeli. Şərq ədəbiyyatında Xosrov və Şirin mövzusu. Bakı: Elm, 1970
4.Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. www.anl.az> meqale> respublika> may
5.Nizami Cəfərov. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları. Bakı: AzAtaM (Elm və Təhsil), 2016
6.Nizami Səfərov. Molla Pənah Vaqif. Bakı: Renessans-A, 2017

М.М.Амрахова

Пропаганда идеологии азербайджанства
на уроках азербайджанского языка и литературы

Резюме

В статье говорится о преподавании отдельных тематик для привития идеологии азербайджанства на уроках азербайджанского языка и литературы, и при этом ясность внесена в понятие "азербайджанства", сформированного на основе бытовой жизни, социальной среды и общественной психологии, время от времени которое составляет совокупность нравственных качеств нашего народа. В статье показаны примеры в пропаганде идеологии азербайджанства в произведениях Н. Гянджеви, М.П. Вагифа, М.Ф. Ахундова, Дж. Мамедкулизаде, Тофика Байрама, Б. Вахабзаде и других писателей и поэтов.

M.M.Amrahova

Agitation of Azerbaijanism ideology in the lessons of the Azerbaijani language and literature

Summary

Article clarifies Azerbaijanism concept, comprising the content of the moral qualities of our nation and formed on the basis of the public life of society and social environment and social psychology from time to time and was devoted to the teaching of various topics for the agitation of Azerbaijanism ideology in the subjects of Azerbaijani language and literature.

Several samples about the agitation of the Azerbaijanism ideology were shown in the masterpieces of N.Ganjavi, M.P. Vagif, M.F. Akhundov, J.Mammadguluzada, Tofig Bayram, B.Vahabzada and other writers and poets.

Rəyçi: ped.e.d., prof. F.N.İbrahimov

Redaksiyaya daxil olub: 11.06.2020

G.A.FİLMANOVA
e-mail: gunaynesibova8@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

"MARAQ" ANLAYIŞININ FƏLSƏFİ VƏ SOSİOLOJİ MAHİYYƏTİ

Açar sözlər: *"Maraq" anlayışı, fəlsəfi mahiyyəti, sosial mahiyyəti, marağın spesifikliyi, anadangəlmə reaksiyalar, zövq duyğusu.*

Ключевые слова: *понятие «интерес», философская сущность интереса, социальная сущность интереса, специфика интереса, врожденные реакции, чувство вкуса.*

Key words: *concept of "interest", philosophical essence of interest, social essence of interest, specificity of interest, innate reactions, sense of taste.*

"Maraq" anlayışı fəlsəfi və sosioloji tədqiqatçılar tərəfindən də müxtəlif prizmalardan şərh edilmişdir. Fəlsəfədə "maraq" anlayışı cəmiyyətin müxtəlif sahələrinə və fərdin fəaliyyətinə nüfuz edən tələbat və dəyərlərlə əlaqələndirilir. Fəlsəfə elmi təsdiqləyir ki, insanın maraqları nə qədər müxtəlifdirsə, onların həyatı daha geniş şəkildə elm, incəsənət, texnika və mədəniyyətlə ifadə olunan cəmiyyətdə öz əksini tapır.

Sosiologiya elmi nöqteyi nəzərdən, maraq sahəsi cəmiyyətin və insanın sosial, etik və estetik həyatına aiddir. Sosiologiya elmi nöqteyi nəzərindən və A.Q. Zdravomıslovanın, Q.İ. Qakın fikrincə, – maraq –"bu, tam-ümumi bir ifadədir, insan şüurunda ümumbəşəri mədəniyyətin, maddi və mənəvi dəyərlərin məcmusudur, insanın daxili aləminin təzahürü və real aləmin əks olunmasının tam ifadəsidir. Maraq insanın arzu və meyllərinin obyekti olub, şəxsi və ictimai dəyərlərin birləşməsinə kömək edir" (5, s.18-34).

Böyük Sovet Ensiklopediyasında "maraq (sosial mənada) fərdlərin, sosial qrupların, siniflərin hərəkətlərində iştirak edən birbaşa impulslar, motivlər, düşüncələr, fikirlər və s. arxasında duran sosial hərəkətlərin, hadisələrin, nailiyyətlərin əsl səbəbi hesab olunur" (9, s.45). Q.Y. Qlezermanın fikrincə (8), bu səbəbdən XX əsr sosiologiyasının mərkəzi məsələlərindən birini marağın obyektiv - subyektiv xarakteri, insanların real maraqları və bu maraqlarla bağlı təsəvvürlərin fərqləndirilməsi təşkil edir.

Bir sıra ensiklopedik nəşrlərdə (7; 9; 10) pedaqoji elm kontekstində marağın müxtəlif tərifləri verilir. Tərifl ərin təhlili bizi marağın ən vacib cəhətlərini vurğulamağa məcbur edir. Bir tərəfdən maraq - gerçəkliyin daha dərindən əks olunmasına kömək edən idraki tələbatların təzahür formasıdır. Digər tərəfdən bilikləri mənimsəmək və dünyagörüşü genişləndirməyin ən vacib stimullardan biri kimi, obyektin dərk olunması vəhər hansı fəaliyyətin mənimsənilməsi üçün müsbət emosional çalarlarla bağlı olan, bu və ya digər əşyaya, real hadisəyə yönəlmiş idraki istiqamətdir.

"İdrak fəaliyyətinin inkişafı üzrə psixoloji tədqiqatlar" (6) adlı əsərdə D. Freyerin, Ş. Byullerin, E. Torndaykın fikirləri təhlil edilir, burada "maraq" anlayışı müxtəlif hisslərin aktivatoru kimi, insanın ehtiyac və özünəməxsus duygulardan ibarət struktur kimi, oyanış hissi, zehni həyacan, əsyaya cazibə kimi təqdim olunur.

S.A. Ananinin "Интерес по учению современной психологии и педагогики" adlı tədqiqatında (3) valyuntarist nəzəriyyə (valyuntarizm) tərəfdarlarından P. Natorpun, A. Valzemanın, O. Vilmanın, P. Kapterevin "maraq"la bağlı fikirlərinə rast gəlirik. Burada onların, marağı iş zamanı diqqəti cəmləşdirən xüsusi bir iradi vəziyyət olaraq qəbul etdikləri göstərilir (3, s.12).

Eyni zamanda, bu tədqiqatda XIX əsrin II yarısı - XX əsrin əvvəllərindəki mütəfəkkirlərdən V. İeruzalemanın, A. Şopenhauerin, F. Paulsenin, T. Lippsin fikirləri də təqdim olunur.

Öz baxışlarında onlar, marağı duyğu, hiss və iradi sərbəstlik ilə əlaqələndirirlər. V. İeruzaleman yazır: "Maraq - zövq duyğusudur, xüsusi bir hissi meyldir" (3, c.12).

Təxminən eyni dövrdə U. Jamsinin, S. Hollun, D. Sellinin, A. Binenin, E. Meymanın, V. Preyerin, O. Dekrolinin, E. Klaparedinin və b. bir sıra psixoloji tədqiqatları marağın irsi bioloji səbəblərini öyrənməyə yönəlmişdir.

Q.İ. Şukinanın (2, s.67) redaktoru olduğu "Təhsildə marağın formalaşmasının aktual problemləri" əsərində U. Jemsin "Psixologiya haqqında müəllimlərlə söhbətlər" kitabından müəyyən fikirlər verilir. Burada maraq instinktlərlə əlaqələndirilir, müəyyən stimullara qarşı onlarda anadangəlmə reaksiyaların olması kimi nəzərdən keçirirlir. Onun fikrincə, istedad və qabiliyyət marağın əsası kimi anadangəlmədir və tərbiyə yalnız uşağa təbiətən xas olanları inkişaf etdirə bilər.

J. Brunerin "İdrak psixologiyası" (4, s.27) kitabında U. Cemsin tələbəsi olan C. Hollun fikirləri təqdim olunur ki, burada da uşaq maraqlarının anadangəlmə qabiliyyətlərlə şərtlənməsi göstərilir. Eyni zamanda marağın instinkt və ehtiyaclarla (tələbatlarla) əlaqəsini aşkar edən A. Binenin, E. Meymanın, V. Preyerin araşdırmaları da xarakterizə olunur. Eyni əsərdə (4), E. Klaparedin marağın ehtiyaclarla qiymətləndirilməsi diqqəti çəlb edir. Onun fikrincə, bunlar ən aşağı – heyvani və ya instinktiv, və ya da ali - mənəvi xasiyyət daşıya bilir, və bu ehtiyacları ödəyə biləcək hər bir şey uşaq üçün maraqlı olur. E. Klaparedin bilgilərinə görə, maraqların inkişafında daimi bir yaş dövrləri var ki, onlar müəyyən zamanda görünür və başqa bir mərhələyə keçərək əvəz olunur. Anadangəlmə əsasa malik olduğu üçün onlar tərbiyədən asılı olmayaraq yaranır və inkişaf edir. Tərbiyəçi uşağın maraqlarına uyğun fəaliyyət zamanı tapşırıqların təşkilatçısıdır, o, uşaqda instinkt halında olmayan, fəaliyyətə qarşı tələbatların yaranmasında mənbə rolunu oynayır.

Lakin bu nəzəriyyələrdə bütün psixoloji prosesləri, vəziyyətləri, şəxsi xüsusiyyət və maraqları inkişaf etdirən təlim və tərbiyənin rolunun nəzərə alınmadığı açıq-aşkar görünür.

"Uşaq psixologiyası oçerkləri"ndə (8, s.56) biz əsasını orijinal tərbiyə sistemi təşkil edən maraqlar nəzəriyyəsini işləyib hazırlamış O. Dekrolinin baxışlarına rast gəlirik. Bu sistemin məzmununu, maraqların təmin edilməsi kimi müəyyənləşdirən alim "maraq mərkəzləri" yaratmışdır ki, bu, sonralar bir çox ölkələrdə təhsil müəssisələrinin praktik işlərində istifadə olunmuşdur. O. Dekrolinin planına əsasən, hər bir "mərkəz" daha çox uşaq maraqlarına uyğun olan və onların həyata keçirilməsini təmin edən mövzular məcmusudur.

Həmin əsərdə (8) maraqlar haqqında digər baxışlara, o cümlədən E. Torndaykın, R. Vudvortsun və U. Makdauqolun təsəvvürlərinə də rast gəlirik.

E. Torndayk, maraqları anadangəlmə və sonradan qazanılmış kimi təsvir etmişdir. Meyillilik və maraq arasındakı əlaqəni o, anadangəlmə və sonradan qazanılmış reaksiyalar arasındakı əlaqə kimi müəyyənləşdirmişdir.

Maraqların inkişafına dair mexanistik təsəvvür R. Vudvortsun baxışlarında əks olunmuşdur. Onun fikrincə, insan psixikasının qabiliyyəti yeni mexanizm və istəklər əldə etməkdir. Bu, çoxsayda icra olunmuş və adət şəklini almış hərəkətlərin nəticəsi kimi yaranan, bacarıqların inkişafı ilə müşayiət olunan maraqların inkişafı haqqında mexaniki təssəvvür, davranışın sadə ətalətidir.

U. Makdauqoll isə, əksinə, fəaliyyət mexanizmi ilə marağı eyniləşdirmir. O hesab edir ki, istənilən hər bir istəyin, marağın əsasında müxtəlif davranış mexanizmləri ilə ifadə olunan anadangəlmə instinktiv meyllilik durur. Bacarıq özü özlüyündə heç bir maraq kəsb etmir, lakin psixoloji proses zamanı tabeolunan məqama çevrilir.

Bunlarla bərabər, digər bir sıra psixoloqlar: V.A. Lai, E. Meyman marağın təbiətini mürəkkəb proses hesab etmiş və onu, duyğunun, iradənin və intellektin mexaniki birləşməsi kimi, özlərinə xas olan bir tərzdə izah etməyə çalışmışlar.

Beləliklə, bu nəzəriyyələrdə şəxsiyyətin maraqlarının inkişafı sosial- ictimai şəraitdən təcriddə, tarixi inkişafdan və şəxsiyyətin ətraf aləm ilə qarşılıqlı təsiri prosesindən kənarda baxı-

lırdı. Maraqlar hər hansı bir psixoloji mexanizmlə eyniləşdirilirdi. Bu isə onların özünəməxsuzluğunun və spesifikliyinin itirilməsinə səbəb olurdu. Uşaq davranışının motivləri anadangəlmə hesab olunurdu. Bu da təlim-tərbiyənin rolunun azalmasına və uşaqların şəxsi fəallığının və ona məqsədyönlü, sistemli pedaqoji rəhbərlik işinə məhəl qoyulmamasına gətirib çıxarır.

Ədəbiyyat

1.Həsənli O.Q. Təhsilə müasir psixoloji yanaşmalar. – Naxçıvan, "Əcəmi" nəşriyyatı, 2017.

2. Актуальные вопросы формирования интересов в обучении / под ред. Г.И. Щукиной. – М.: Просвещение, 2014.

3. Ананьин С.А. Интерес по учению современной психологии и педагогики. – Киев, 2005.

4. Брунер Дж. Психология познания. За пределами непосредственной информации. – М.: Прогресс, 1997.

5. Здравомыслов А.Г. Потребности, интересы, ценности. – М.: Педагогика, 2006.

6. Исследования развития познавательной деятельности. – М., 1991.

7. Ожегов С.И. Толковый словарь русского языка. В 4 томах. Т.1. М.: Русский язык, 1991.

8. Очерки психологии детей / под ред. Л.И. Божович. – М.: АПН РСФСР, 2000.

9. Большая Советская энциклопедия. – т. 2. / под ред. И.А. Каирова, Ф.Н. Петрова. – М.: Советская энциклопедия, 1987..

10. Российская педагогическая энциклопедия. - т. 1.: под. ред. В.В. Давыдова. – М.: Большая Российская энциклопедия, 1993..

Г.А.Фильманова

Философско-социологическое значение понятия "интереса"

Резюме

В статье показано, что в ходе исследования было изучено много философских, социологических и психологических работ, связанных с понятием «интерес». Установлено, что в этих теориях развитие интересов рассматривалось изолированно от социально- общественной среды, вне процесса исторического развития и взаимодействия личности с окружающей средой. Интересы приравнивались к любому психологическому механизму. Это привело к потере их своеобразия и специфики. Мотивы поведения детей считались врожденными. Это приводит к снижению роли образования и игнорированию личной деятельности детей и работе целенаправленного, системного педагогического руководства.

G.A.Filmanova

Philosophic-sociological significance of the concept of "interest"

Summary

Article shows, that during the study, many philosophical, sociological and psychological works related to the concept of "interest" were studied. It is established that in these theories the development of interests was considered in isolation from the social and social environment, outside the process of historical development and the interaction of the individual with the environment. Interests were equated with any psychological mechanism. This led to the loss of their originality and specificity. Motives for children's behavior were considered innate. This leads to a decrease in the role of education and neglect of the personal activities of children and the work of a focused, systematic pedagogical leadership.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 06.06.2020

Z.Q.GÜLƏLİYEVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ DƏRSƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

Açar sözlər: *müasir təhsil, dərsin təşkili, bacarıq və vərdişlər*
Ключевые слова: *современное образование, организация уроков, навыки и привычки*
Key words: *modern education, lesson organization, skills and habits*

2010-cu ilə qədər olan dövrdə Azərbaycan təhsilinin modernləşdirilməsi konsepsiyası sosial tələbləri müəyyənləşdirdi: "İnkişaf etməkdə olan cəmiyyətə müstəqil olaraq məsuliyyətli qərarlar qəbul edə bilən, əməkdaşlıq edə biləcək, nəticələrini proqnozlaşdıran, bacarıqlı və müasir təhsilli, mənəvi, təşəbbüskar və konstruktiv, ölkənin taleyi üçün inkişaf etmiş, məsuliyyət hissi daşıyan gənclər lazımdır" [1]. Bu baxımdan təhsilimizin ən vacib vəzifəsi öz ölkəsinin tamhüquqlu vətəndaşlarını formalaşdırmaq və gələcək üçün peşəkar mütəxəssislər hazırlamaqdır. Bu problemin həlli yollarından biri də tələbələrin nə edəcəyi, hansı peşəni seçəcəkləri və harada işləyəcəkləri ilə bağlıdır. Təhsil tələbənin idrak maraqlarını və qabiliyyətlərini inkişaf etdirə bilir, ona özünütəhsil üçün zəruri olan əsas bacarıqları aşılayır. Cəmiyyətin hazırkı inkişaf mərhələsində ölkəmizdə təhsilin məzmununun modernləşdirilməsi heç də xarici dillərin tədrisinin təşkilində baş verən yenilikçi proseslərlə əlaqəli deyil. Müasir təhsilin inkişafı üçün prioritet istiqamət fərdi potensiala (prinsipə) görə aparıcı yer tutan təhsilin humanist istiqaməti oldu. Bu, tələbənin ehtiyac və maraqlarını nəzərə almağı, öyrənməyə fərqli yanaşmanın həyata keçirilməsini əhatə edir. Müasir dərsə olan tələblər təhsilin məzmununu dəyişdirdi. İndi artıq bilik hazır bir "təmiz lövhədə" təqdim edilmir, tədrisdə fəaliyyətə yanaşma dəyişilərək aşağıdakıları vacib hesab edir: söyləməklə deyil, müstəqil olaraq təhsil almaq üçün şərait yaradılmalıdır [7]. Dərslərə verilən yeni tələblər bu gün bu prinsip üzərində qurulur. Daha ətraflı nəzərdən keçirsək yeni biliklərin kəşfində dərsin necə təşkil ediləcəyi, hansı hədəflərin vacibliyi və hansı addımları təqib etmək lazım olduğunu dəqiqləşdirmək üçün dərsin məqsədlərini öyrənməliyik. Kurrikulum bu tip dərslər üçün iki məqsədi qarşıya qoyur [1]:

- Əsas məqsəd: yeni elementləri daxil etməklə konseptual çərçivəni genişləndirmək. Bu o deməkdir ki, dərs zamanı tələbə yeni terminləri, yeni qaydaları öyrənəcək, yeni bir bilik kəşf edəcəkdir.
- Fəaliyyət məqsədi: tələbələrə yeni fəaliyyət metodlarını tətbiq etməklə öyrənməyi öyrətmək. Bu o deməkdir ki, yeni şərtlər və qaydaları başa düşərək tələbə bu dərsdə bu biliyi həyata keçirməyə və yeni bir yaşmanı tətbiq etməyə çalışmalıdır.

Xarici dillərin tədrisində iki əsas, fərqli funksiyalar mühüm rol oynayır:

– xarici dilidə praktik bilik və bacarıqların mənimsənməsi (ilk növbədə alman dilində mətnlər)
– təhsil müddətində dil biliklərinin genişlənməsi.

Xarici dillərin öyrənilməsində dil biliyi peşəkar keyfiyyətlərin vacib hissəsidir. Beləki, xarici dil(alman dili)tədqiqatçısı H.E.Piefo tərəfindən yeni dil təlimi metodunun məzmunu dəyişilərək tələbələrin şəxsi ifadələr verməyə sövq edən münaqişələrin müəyyənləşdirilməsi məqsədini daşıdı. H.E.Piefoya görə kommunikativ dil düzgün qrammatik dildən üstündür [9]. Belə təlimin üstünlüyü: öyrənənlər danışıq bacarığı əldə edir, səhvlərdən qorxma azalır. Üstün olmayan tərəfi isə: dilin keyfiyyətinə laqeyd yanaşılır; ünsiyyət bacarığı tez başa çatır. Qeyd edək ki, yeni biliklərin kəşfində dərsin təşkili dərslərə hazırlaşmağı, tapşırıqları planlaşdırmağı asanlaşdırmaq üçün müəllimlərə bu tip dərslərin quruluşuna kömək edəcək ümumi bir alqoritm təklif edir. Biz yeni bilikləri ayırmalı, formalaşdırmalı və hər bir tələbənin bir dərsdə

mənimsəməsi lazım olan yeni biliklərin vacibliyini vurğulamalıyıq. Qeyd edək ki, biz yalnız yeni bir mövzu formalaşdırmırıq, həm də qaldırılacaq məsələlərin növlərini göstərməliyik. Bu mərhələdə iki səviyyəni ayırmaq olar: hər tələbənin öyrənməli olduğu minimum və güclü tələbələrə təklif edilə bilən maksimum. Bu zaman yeni biliklərin tapılması yolunu modelləşdiririk və dərs zamanı uyğun təlimləri seçirik. Müəyyən edilən təlimlər aktuallaşma mərhələsində həyata keçiriləcəkdir. Seçilmiş məşqlərdə çətinliklərə səbəb ola biləcək şərtləri göstərməklə, layihəni yaratmaq üçün lazım olan vəsaiti təyin edirik və tələbələrin bu çətinlikləri necə həll edəcəyini qabaqcadan bilməyi vacib hesab edirik:

- Problemli situasiya işini tərtib edirik və onun yoxlanılması üçün obyektiv və standart şərait yaradırıq.
- Dərsin hər mərhələsində iş forması üzərində düşünürük. Bu mərhələlərdə istifadə ediləcək üsulları seçirik.
- Dərsin texnoloji xəritəsini (icmalını) tərtib edirik.
- Dərs icmalına uyğun olaraq dərsi təhlil edirik, lazım olduqda düzəlişlər və dəqiqləşdirmələr aparırıq.

Bu yeni biliklərin kəşfində dərsin təşkili bütün çətinlikləri təmin edəcək ümumi bir alqoritmdir. İndi bu tip dərslərin strukturunu daha ətraflı nəzərdən keçirək [7]:

- ✓ yeni biliklərin kəşfində dərsin quruluşu;
- ✓ yeni biliklərin aşkarlanması üçün dərsə verilən 9 mərhələ.

1. Təlim fəaliyyətləri üçün motivasiya (özünü təyinetmə) mərhələsi.

Bu mərhələnin əsas vəzifəsi tələbənin topladığı daxili hazırlıq və "yeni zirvələri fəth etməsi" üçün şəraitin yaradılmasıdır. Müəllim motivasiyanın hər üç mərhələsinə təsir etməlidir:

- "İstəyirəm" - dərsə, fəaliyyətə maraq oyadır;
- "Lazımdır"- tələbəni yeni biliyin əhəmiyyəti və zəruriliyi barədə məlumatlandırır;
- "Mən edə bilərəm" - biliyin mövzu çərçivəsini müəyyənləşdirir, həddindən artıq mürəkkəb işlərin gözlənilmədiyini nümayiş etdirir.

Motivasiya mərhələsi üçün üsullar:

- ✓ psixoloji təlim;
- ✓ dərsin başlanğıcı;
- ✓ dərs üçün epiqraf;
- ✓ məşhur insanların ifadələrini, atalar sözlərini, tapmacalardan sitat gətirir;
- ✓ dərsin başlanğıcı teatr elementləri ilə;
- ✓ dərsə emosional giriş (musiqi, avto-təlim);
- ✓ fəal təlimli məşq.

2. Problemli situasiyada fərdi çətinliklərin yenilənməsi və düzəldilməsi.

Bu mərhələnin əsas məqsədi hər bir tələbəyə yeni bilik və bacarıqların tapılmasının zəruriliyini hiss etdirməkdir. Bir sınaq təlimi hər kəsə fərdi çətinliklərini həll etməyə imkan verəcəkdir. Bu mərhələ üçün təlimlər elə seçilməlidir ki, tələbələr:

- ✓ mövzu haqqında bildiklərini xatırlasın;
- ✓ yeni biliklərin mənimsənilməsi üçün lazım olacaq düşüncə proseslərini intensivləşdirir: təhlil, müqayisə, bənzətmə, təsnifat, sintez, ümumiləşdirmə.

Təklif olunan vəzifəni müstəqil şəkildə yerinə yetirməyə çalışarkən çətinlikləri aradan qaldırıb onları düzəldə bilərik. Biliklərin yenilənməsi mərhələsi üçün hansı üsulları qəbul edirik:

- ✓ video və ya görüntülü üsullarla biliklərin məşqi;
- ✓ ev tapşırıqlarının təhlili;
- ✓ oyunların tətbiqi;
- ✓ problemli situasiyanın və ya problemli vəziyyətin izahı;
- ✓ rollu oyunların tətbiqi sahəsi;
- ✓ rolların dəyişdirilməsi/səhnələşmə;
- ✓ beyin fırtınası.

3. Çətinliklərin yeri və səbəblərini müəyyənləşdirmə mərhələsi.

Bu mərhələnin əsas məqsədi: tələbələrə test tapşırığını həll etmək üçün çətinliklərin nədən ibarət olduğunu, bilik, bacarıq və qabiliyyətlərin formalaşmasını dərk etdirməkdir. Bu mərhələdəki işlər aşağıdakı kimi qurulur: tələbələr test tapşırığını yerinə yetirmək cəhdlərini təhlil edir, ucadan nəyi və necə etdiklərini deyirlər. Təhlil zamanı hər kəs bu addımı, qərar verdikləri anda "büdrədikləri" çətinliyi təyin edir. İşin bu mərhələsi tələbələrin əvvəllər oxşar problemləri necə həll etdiklərini xatırladıqları və indi bu bilgilərin onlar üçün yetərli olmadığını qeyd etmələri ilə başa çatır. Beləki, bu mərhələdə aşağıdakılar vacibdir:

- ✓ hansı bilik və ya bacarıq yoxdur?
- ✓ çətinliklərin səbəbi nədir?

Tətbiq edilən üsullar:

- ✓ dairəvi masa
- ✓ beyin fırtınası
- ✓ aparıcı dialoq
- ✓ qruplaşdırma
- ✓ fərziyyə
- ✓ alqoritmin tərtibi.

4. Bu vəziyyətdən bir layihə işi qurma mərhələsi.

Bu mərhələnin əsas məqsədi: dərsin əsas hədəflərinin və mövzularının formalaşdırılması, problemin həlli yolunun seçilməsi, metod və vasitələrin seçilməsi. Layihə mərhələsində fəaliyyət aşağıdakı kimi qurulur:

- Tələbələr çətinlik problemindən danışır və fərziyyələr edirlər: hansı yeni bilik və ya yeni bacarıq çətinliyi həll etməyə kömək edəcək.
- Bu fərziyyələrə əsaslanaraq dərsin əsas məqsədi və mövzusu (müəllim dərsin mövzusunu və məqsədlərini tənzimləyə bilər) formalaşdırılır.
- Yeni bilik əldə etməyə imkan verən bir üsul seçilir:

- ✓ aydınlaşdırma metodu
- ✓ əlavələr metodu - yeni təcrübə və bacarıqların tətbiqi tələb olunur

- Yeni bir mövzunun öyrəniləcəyi vasitələr seçilir: artıq öyrənilmiş qaydalar, anlayışlar, alqoritmlər, modellər və s.

Bu mərhələdə tətbiq olunan bir çox motivasiyaedici oyunları daxil edə bilərik:

- ✓ iş oyunları
- ✓ məqsədlər ağacı
- ✓ mətbuat konfransı
- ✓ təcrübə
- ✓ problem sırası
- ✓ aparıcı dialoq.

5. Hazırlanmış layihənin icrası.

Bu mərhələnin əsas məqsədi: tələbələrin özləri bir layihə hazırlayır və tətbiq etməyə çalışırlar. Burada seçilmiş yeni fəaliyyət növünün nəinki müəyyən edilmiş çətinliyi həll etməsi, həm də bu tip bütün problemləri həll edə bilməsi vacibdir. Beləki:

- ✓ mətnə suallar
- ✓ hesabat
- ✓ səhv tutmaq
- ✓ mətbuat konfransı
- ✓ problemli dialoq
- ✓ iş oyunları.

6. Alman dilində ilkin müzakirə mərhələsi.

Bu mərhələdə tələbələrə yeni bir mövzuda bir neçə tipik tapşırıq təklif olunur. İndi tələbələr (cüt-cüt, qrup şəklində) yeni, hazırlanmış bir layihə üzrə tapşırıqları həll edir və

mütləq olaraq hər mərhələnin hərəkətlərini izah edib mübahisə edəcəklər. Bura daxildir:

- ✓ oxumağı şərh edir
- ✓ suallar
- ✓ səhv tutmaq
- ✓ mətbuat konfransı
- ✓ təqdimat
- ✓ real hekayə.

7. Standarta uyğun yoxlama ilə müstəqil iş mərhələsi.

Bu mərhələdə tələbələr tipik tapşırıqları müstəqil şəkildə yerinə yetirir, təklif olunan standarta uyğun olaraq əvvəlcə özləri, sonra bir-birləri ilə yoxlayırlar. Müəllimin vəzifəsi hər bir tələbəyə uğur qazanmaq üçün şəraət yaratmaqdır. Tətbiq olunan fəaliyyətləri qeyd edək:

- ✓ sorğu
- ✓ iş oyunları
- ✓ qəbul "Bəli-yox"
- ✓ yaradıcı testlər
- ✓ kompüterlərdə işləyin
- ✓ mini-layihələr və ya mini-tədqiqatlar
- ✓ nəzarət.

8. Bilik və təkrar sisteminə daxiletmə mərhələsi

Bu mərhələnin əsas məqsədi: qazanılan bilikləri düzəltmək, yeni biliklərin əvvəllər öyrənilmiş sistemə necə uyğun gəldiyini düşünmək, əldə edilmiş bacarığın avtomatlaşdırılmış istifadə edilməsi və tələbələri mövzuya daha da həvəsləndirməyə hazırlamaq. Qəbul etdiyimiz üsulları qeyd edək:

- ✓ səhv tapın
- ✓ inanıram, inanmıram
- ✓ test
- ✓ müxtəlif növ anketlər
- ✓ esse
- ✓ krossvord tərtibatı
- ✓ imtahan və ya diktə
- ✓ mətni bərpa edin
- ✓ nümunələri təqdim edin.

Ev tapşırığının tərtib olunduğu mərhələdə dərsin hazırlığından asılı olaraq müəllim iki seçim təklif edə bilər:

– çətinlik dərəcəsindən asılı olaraq məcburi hazır ev tapşırığı;

– tələbələr özləri ev tapşırıqlarını tərtib edə, onun növünü (konstruktiv, yaradıcı, tədqiqat) seçə, tapşırıqların həlli yollarını aydınlaşdıra bilərlər.

9. Dərsdə tədris fəaliyyətinin əks olunması mərhələsi.

Bu mərhələdə tələbələr dərsdə qoyduqları məqsədləri və fəaliyyətlərinin nəticələrini əlaqələndirirlər. Hansı üsullar bu mərhələdə zəruridir?

- ✓ cədvəl "+ -?"
- ✓ fikir azadlığı
- ✓ əhval-ruhiyyə
- ✓ uğur nərdivanı
- ✓ sual vermə
- ✓ pantomime
- ✓ çətin və asan suallar.

Beləliklə, yeni biliklərin kəşfi dərsində müəllim tələbələri təlim prosesinə, dərsə və onun mövzusuna məqsəd qoyma prosesinə cəlb edir. Eyni zamanda özünü idarəetmə, özünə hörmət və özünü düzəltmə bacarıqlarında sistematik bir təlimin yaradılması zəruridir. Yüksək

keyfiyyətli təlimlər müasir dərslər üçün düzgün seçilmiş bir şərtdir. Dərslər bu gün kommunikativ, ünsiyyət əlaqəli, müasir dil tədrisi və öyrənmə metodlarının qarışığına söykənən ən yeni tədris materialları və müxtəlif mediadan istifadə olunan sistemdir. Bu tələblər isə maraqlı və fəal bir dərsə zəmanət verməklə, qruplarda iştirakçıların ehtiyac və maraqlarına çevik cavab verməyə mühit yaradır. Məqsədimiz dərsləri canlı və ünsiyyətcil etməkdir və bu xarici dillərin tədrisi prosesində dil öyrənməyin yeganə yoludur.

Ədəbiyyat

1. Kurrikulum islahatı: tədqiqatlar, nəticələr. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı: Mütərcim, 2011, 344 s.

2. Mehrabov A.O. Azərbaycan Təhsilinin Müasir Problemləri. Bakı: Mütərcim, 2007, 448 s.

3. Qəribova M. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə. Monoqrafiya, Bakı: Elm və təhsil,2016,204 s

4. Гусейнзаде Г. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 314 с.

5. Пассов Е.И. Коммуникативный метод обучения иностранному говорению. М.: Просвещение, 1991, 142 с.

6. Neuner G., Hans H. Methoden des fremdsprachlichen Deutschunterrichts. Berlin: Langenscheidt, 2002, 200 s.

7. Bimmel P., Kast B., Neuner G. Deutschunterrichtplanen. Arbeit mit Lehrwerkslektionen. München: Langenscheidt, 2003, 176 s.

8. Moosmüller A. İnterkulturelle Kommunikation. Münster: Waxmann Gmbh, 2007, 181 s.

9. Ursula K., H.E. Piepho. Fremdsprachenunterricht von A bis Z: praktisches Begriffswörterbuch, Hueber Verlag, 2000, 275s.

10. Schatz H. Fertigkeit Sprechen. Kassel: Langenscheidt, 2001, 228 s.

11. Roche J. Fremdsprachenerwerb/Fremdsprachendidaktik. Tübingen: A.Francke Verlag, 2008, 286 s.

З.Г.Гюльалиева

Современные требования к преподаванию иностранных языков

Резюме

Требования к современному курсу изменили содержание обучения, высокое качество обучения является обязательным условием для современных уроков. Сегодняшние уроки представляют собой систему, в которой используются новейшие учебные материалы и различные средства массовой информации, основанные на сочетании коммуникативных современных методов преподавания и изучения языка. Эти требования дают увлекательный урок и позволяют группам ответственно реагировать на потребности и интересы членов группы. Цель активного обучения сегодня - сделать современный класс живым и общительным.

Z.G.Gulaliyeva

Modern requirements for teaching foreign languages

Summary

Requirements for the modern course have changed the content of education. High quality training is a prerequisite for modern lessons. The lessons today are a system that uses the latest teaching materials and various media based on a mix of communicative, modern language teaching and learning techniques. These requirements provide an exciting lesson and allow groups to respond responsibly to the needs and interests of group members. The purpose of active training today is to make the modern classroom lively and communicative.

Rəyçi: ped.f.d. Q.V.Axundova

Redaksiyaya daxil olub: 03.07.2020

H.M.HACIYEVA
e-mail: haciyeva_53@mail.ru

Z.R.İSMAYILOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MƏKTƏBLİLƏRƏ BİOLOGİYADAN REPRODUKTİV SAĞLAMLIĞA DAİR BİLİKLƏRİN VERİLMƏSİ

Açar sözlər: *reproduktiv sağlamlıq, bacarıqlar, çoxalma, biologiya, sağlam həyat, yoluxucu xəstəliklər, cinsi tərbiyə*

Ключевые слова: *репродуктивное здоровье, возможности, увеличение, биология, здоровая жизнь, заразные болезни, половое воспитание*

Key words: *reproductive health, skills, increase, biology, healthy life, infectious disease, reproductive health education.*

Problemin aktuallığı. Sağlamlıq insanın fiziki və mənəvi keyfiyyətlərinin yüksək səviyyəsi olmaqla uzun ömürlülüyün əsasını təşkil edir, yaradıcı planların həyata keçirilməsi, cəmiyyətin inkişafına xidmət edən yüksək əmək fəallığı yaradır, normal ailə qurmağı, sağlam uşaq dünyaya gətirməyi, onları tərbiyə etməyi təmin edir. Sağlam, uzun ömür yaşamaq istəyən hər bir insan sağlamlığın nə olduğunu, ona təsir edən müsbət və mənfi amilləri bilməli, onlardan ağılla istifadə etməlidir (2, s. 9).

Sağlamlığın əsas istiqamətlərindən biri reproduktiv orqanların normal fəaliyyətinin təmin olunmasıdır. Reproduktiv orqanların sağlamlığı orqanizmin, onun bütün orqanlarının normal işləməsindən, yaşayış şəraitindən, cinsi həyat tərzindən asılıdır. Bu isə insanların yüksək səviyyədə tibbi-gigiyenik bilik və bacarıqlara malik olmasını tələb edir.

Hazırda sağlamlığın qorunması problemi təkcə həkimləri deyil, həm də müəllimləri, tərbiyəçiləri narahat edir. Problemin həllində həkimlər, tibb işçiləri, profilaktika və müalicə işi ilə məşğul olurlarsa, müəllimlər uşaqların bu sahədə maariflənməsini həyata keçirirlər.

Məktəb fənlərinin tədrisində xüsusilə, biologiya dərslərində şagirdlərə tibbi-gigiyenik bilik və bacarıqlar aşılanmalıdır. Biologiya fənni şagirdlərə tibbi-gigiyenik, o cümlədən reproduktiv sağlamlıq məsələlərinin öyrədilməsi baxımından geniş imkanlara malikdir. Problem fənn kurikulumunda da nəzərə alınmışdır. Orada IX sinfin təlim nəticələrində göstərilir ki, irsi xəstəlikləri, onların qarşısının alınması yollarını sağlam həyat tərzi və reproduktiv sağlamlığın əhəmiyyətini izah edir.

Elmi yeniliyi. Gənclərin reproduktiv sağlamlıq baxımından maarifləndirilməsi problemi ilk dəfə araşdırılır, biologiyanın tədrisində həlli imkanları göstərilir. Bu imkanlar 8-ci sinifdə tədris edilən "Cinsiyyət sistemi" bəhsinin (3, s. 123) mövzularında daha genişdir. Belə ki, bəhsin mövzularının tədrisində canlılarda, o cümlədən insanlarda çoxalma orqanları, çoxalma prosesinin gedişi, mayalanma, bətndaxili inkişaf və ona təsir edən amillər öyrədilir. Bu biliklər əsasında müəllim şagirdlərə cinsiyyət orqanlarının gigiyenasına dair bacarıqların aşılanmasını həyata keçirir.

IX sinifdə keçilən "İnsan sağlamlığına ətraf mühitin təsiri" bəhsinin mövzuları, xüsusilə "Reproduktiv sağlamlıq" mövzusu (5, s. 193) daha geniş imkanlar açır. Mövzunun tədrisində müəllim reproduktiv orqanların quruluşu və funksiyasını yada salır, şagirdlərin diqqətini onların sağlamlıq probleminə cəlb edir, həlli yollarını göstərir. İzah edir ki, reproduktiv sağlamlıq bir sıra xüsusiyyətlərə malikdir. Bunlara:

– Nəsil artırmaq qabiliyyətli hər bir insanda övladın əmələ gəlməsini təmin edən reproduktiv orqanların normal fəaliyyəti;

– Ailənin planlaşdırılması, tərəflərin nikah üçün sərbəst seçimə əsaslanması, övladların sayı və intervalı, həm də belə planlaşmanın həyata keçirilməsinin vasitə və üsulları;

– Cinslər arasında qarşılıqlı münasibətdə özünə və başqalarına hörmət etməsi, qiymətləndirməsi, ictimai dəyərlərə, milli hisslərə ciddi yanaşması, məsuliyyətli davranış nümayiş etdirməsi;

– Hər kəsin reproduktiv sağlamlığı təmin edən kompleks rifah hüququna malik olması;

– İnsanın firavanlığı, onun mənəvi, sosial, intellektual və fiziki rifah halının yüksəkliyi;

– Zorakılığın olmaması, yəni təkcə seksual zorakılığın deyil, həm də mənəvi alçaldılmanın, öz bədəninin alınıb-satılması məsuliyyətinin dərk edilməsi;

– Cinsi əlaqə yolu ilə keçən xəstəliklərin o cümlədən, sifilis, süzənək, qonoreya, XX əsrin ölümsaçan bəlası QİÇS-in (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) qarşısının alınması;

– Şəxsi gigiyena qaydalarına riayət edərək bədəninə, xüsusilə cinsi orqanlarına kompleks qulluq edilməsi;

– Hər bir insanın reproduktiv sağlamlıq məsələlərini öyrənməsi və daim onu qoruması və s. aiddir.

Müəllim fənnin tədrisində gənclərə göstərilən məsələləri öyrədir, onlara daim əməl edilməsini tövsiyə edir. Göstərir ki, sağlam orqanizm sağlam həyat tərzi sayəsində əldə edilir. Sağlam həyat tərzi insan fəaliyyətini və rejimini möhkəmləndirən, orqanizmin iş qabiliyyətini saxlayan həyat ritminə və məzmununa kompleks yanaşmadır. Biologiyanın tədrisində müəllim şagirdlərə reproduktiv sağlamlığı möhkəmləndirən amilləri aydınlaşdırır. Qeyd edir ki, reproduktiv sağlamlıq üçün əsas şərtlərdən biri məişət şəraitinin yaxşılaşdırılmasıdır. Reproduktiv sağlamlığı təmin edən amillərdən ən əsası şəxsi gigiyenaya əməl edilməsidir. Şəxsi gigiyena nəticəsində insanlar bir çox iltihabi və yoluxucu xəstəliklərdən qorunur, onlara qarşı orqanizmlərini möhkəmləndirirlər. Təmizlik insanları kənar qıcıqlandırıcılardan, mikroblardan, xəstəliktörədici və xəstəlik yayıcılardan xilas edir. Qaydasında aparılan gündəlik rejim, düzgün və normal qidalanma, fəal hərəkətlilik, şəxsi gigiyenanın gözlənilməsi, insanların birbirinə qarşı səmimi münasibəti, ailə və başqa münaqişələrdən uzaq olması, zərərli vərdişlərə, spirtli içkilərin qəbuluna, siqaret çəkilməsinə, narkotik maddələrə "yox" deməyi bacarması və s. reproduksiyanın normallığını saxlayır, cinsi orqanların funksiyasını yaxşılaşdırır (4, s. 46).

Müəllim 9-cu sinifdə "Reproduktiv sağlamlıq" mövzusunun tədrisində cinsi həyatın pozulmasının orqanizmin, xüsusilə reproduktiv orqanların fəaliyyətinə, sağlamlığına mənfi təsirini genişliyi ilə izah etmək imkanı əldə edir. İzah edir ki, cinsi orqanların fəaliyyətinin zəifləməsi zöhrəvi xəstəlik törədicilərinin orqanizmə daxil olmasına, yoluxucu xəstəliklərin baş verməsinə səbəb olur. Zöhrəvi xəstəliklər sağalandan sonra immunitet yaranmadığından təkrar yoluxma ehtimalı yaranır, xəstəlik yenidən inkişafa başlayır. Belə xəstəliklərin müalicəsi uzun çəkir, bəzən o, ömür boyu davam edir. Zöhrəvi xəstəlik olan sifilisin törədicisi ağ spiroxet sürətlə çoxalır və cinsi orqanlara yayılır. Xəstəliyin inkubasiya dövrü 4 – 5 həftə çəkir, onun əlamətləri nəzərə çarpmır. Sonradan parlaq yara və ya sıyrıntı müşahidə edilir. Əlamətlərin görünməsindən bir neçə həftə sonra limfatik düyünlər kəskin surətdə şişir, bütün bədənə çəhrayı-qırmızı ləkələr yayılır. Spiroxetin yayıldığı nahiyələrdə toxumalar bərkiyir, əvvəlcə möhkəm şiş əmələ gəlir, tədricən onlar dağılır, yerində sifilis üçün xarakterik dərin yaralar inkişaf edir (4, s. 93).

Müəllim mövzu ilə bağlı qorxulu zöhrəvi xəstəliklərdən biri olan, cinsi orqanların selikli qişasını zədələyən qonokokkun törətdiyi qonoreya haqqında da şagirdləri məlumatlandırır. Qeyd edir ki, xəstəlik zamanı cinsi orqanların selikli qişası şişir, iltihablaşır. Selikli qişanın zədələnmiş nahiyəsində eroziyalar, güclü sancı və yandırıcı ağrılar baş verir. İmmuniteti aşağı olan zəif insanlarda qonokokk damarların, ürək əzələlərinin, ürəkyanı torbacığın zədələn-

məsinə səbəb olur. Xroniki qonoreya cinsiyyət vəzilərinin tədricən zəifləməsi ilə ağırlaşır, uşaqlığın və uşaqlıq borusunun qonoreya ilə zədələnməsi nəticəsində sonsuzluq yaranır. Xroniki qonoreya reproduksiya zamanı daha da kəskinləşir. Müəllim nəzərə çatdırır ki, zöhrəvi xəstəliklərə hər bir yaşda yoluxma ehtimalı yüksəkdir. Xəstəlik sağlam insanla cinsi əlaqə, eyni yataqdan, geyim əşyalarından, istifadə etdikdə, ictimai çimərlik, hamamda birgə olduqda yoluxur. Spirtli içkilərin qəbulu zöhrəvi xəstəliklərin yoluxmasında əsas amillərdəndir. Zöhrəvi xəstəliklər insanın cinsi orqanlarını zədələyir, reproduksiyasını pozur. Onlar sonsuzluq və ya şikəst uşaqların dünyaya gəlməsi problemi ilə qarşılaşırlar. Müəllim belə xəstəliklərlə ciddi mübarizə aparılması, onların qarşısının alınmasına dair biliklərlə şagirdləri silahlandırır. Şəxsi gigiyena qaydalarına əməl edilməsinin əhəmiyyətini aydınlaşdırır, hər bir insanın şəxsi dəsmalının, diş fırçasının olmasının vacibliyini əsaslandırır. Ətrafdakı insanların paltarlarından və ayaqqabılarından, tualet ləvazimatlarından istifadə edilməsinin yolverilməz olduğunu vurğulayır. Reproduktiv sağlamlığın əsas şərtlərindən birinin paltarların, xüsusilə alt paltarlarının təmizliyi olduğunu nəzərə çatdırır. Dəb xatirinə keyfiyyətdən uzaqlaşıb, qızların soyuğa əhəmiyyət vermədən, nazik sintetik paltarlarda gəzməsinə iradını bildirir. Bədənin aşağı hissəsinin soyumasının sidik yollarının xəstələnməsinə, reproduktiv orqanların iltihabına şərait yaratdığını bildirir, lazımi məsləhətlərini verir. Qeyd edir ki, cinsi orqanlar səhər-axşam sabun və isti su ilə yuyulmalı, alt paltar hər gün dəyişdirilməlidir. Cinsi orqanların təmizliyinə diqqət edilmədikdə sidik yollarının iltihabi xəstəliklərinə: uretit (sidikaxıdıcı kanalın iltihabı), sistit (sidik kisəsinin iltihabı), pielit (böyrək ləyənlərinin iltihabı) və s. səbəb olur.

Müəllim qızlara aşağıdakı məzmunda xüsusi tövsiyələrini verir: qızların aybaşı (menstrasiya) zamanı gigiyenik rejimə daha ciddi əməl etməsi vacibdir. Çünki aybaşı zamanı orqanizm ətraf mühitin əlverişsiz amillərinə və xüsusən soyuğa qarşı davamsız olur. Bu dövrdə xəstəliktörədən mikroorqanizmlər orqanizmə, xüsusilə cinsi orqanlara asanlıqla daxil olur və onları iltihablaşdırır. Cinsi orqanların, o cümlədən yumurtalıqların iltihabı xəstəlikləri gec müalicə olunur. Bu isə qızların gələcəkdə ana olmaq şansını itirmək təhlükəsini yaradır. Təhlükənin qarşısı repoduktiv sağlamlığına diqqət etmək, aybaşı zamanı soyuqdan qorunmaq, şəxsi gigiyenaya diqqət etməklə alına bilər. Bu dövrdə xüsusilə isti geyinmək, ayaq, bel, qarının aşağı hissəsini soyuqdan qorumaq çox vacibdir. Aybaşı dövründə qızlar günəş altında çox qalmamalı, yürüşə və yaxud uzaq ekskursiyaya çıxmamalı, yorucu oyunlara, rəqslərə qoşulmamalı, velosipedlə uzun məsafə qət etməməli, kəskin hərəkətli idmanla məşğul olmamalı, qidada ədviyyəli yeməkləri azaltmalıdırlar. Aybaşı dövrünü yataqda keçirmək də zərərlidir. Onun vaxtını qeyd etməklə başlanmasına əvvəlcədən hazırlaşmaq faydalıdır.

Aybaşı zamanı sutkada 3 – 4 dəfədən az olmayaraq ilıq su ilə yuyunmaq və dərini, selikli qişanı qurutmaq, silmək vacibdir. Cinsi orqanların selikli qişasının qızarması zamanı çobanyastığı və ya tünd çay dəmləməsi ilə yuyunmaq faydalıdır. İlıq duş qəbul edilməsi məsləhətdir. Bu dövrdə ağrıkəsən dərmanlar (analgin və s.) qəbul edilməsi, qarına isitqac (qrelka) qoyulması çox zərərlidir. Bu, qanaxmanı sürətləndirir, nəzarətsiz qəbul edilmiş dərmanlar isə sağlamlığa mənfi təsir göstərir. Belə hallarda həkim-ginekoloqa müraciət edilməsi məsləhətdir.

Mövzunun tədrisində müəllim oğlanlara da cinsi orqanların gigiyenasına dair məsləhətlərini verir. Göstərir ki, oğlanlar da xarici cinsi orqanlarının təmizliyinə və gigiyenasına diqqət yetirməlidirlər. Orada şiş, qaşınma və yandırıcı ağrı əlamətləri müşahidə olunarsa, deməli, iltihab prosesi baş vermişdir. Belə halda həkimə müraciət edilməlidir. Cinsiyyət orqanlarını və onların ətrafındakı dərini səhər-axşam isti su və sabunla yumaq, gigiyenasına diqqət etmək, xəstəliklərdən qorumaq vacib məsələlərdəndir.

Göründüyü kimi, müəllim fənnin, mövzuların imkanlarından istifadə edərək şagirdlərə reproduktiv sağlamlığın səbəb və nəticələrini aydınlaşdırır. Onların bu sahədə bilik və bacarıqlarını inkişaf etdirir. Şagirdlərə reproduksiya ilə bağlı məsələlərə dair ətraflı məlumat və məsləhətlər verir. Onları inandırır ki, reproduktiv sağlamlıq gələcək xoşbəxt ailə həyatının qarantıdır.

Praktik əhəmiyyəti. Təcrübəyə əsasən deyə bilərik ki, sağlam cəmiyyətin formalaşması gənclərin reproduktiv sağlamlığa dair əldə etdikləri bilik və bacarıqların səviyyəsi ilə ölçülür. Bu bilik və bacarıqlar həm də təlimin keyfiyyətini yüksəldir, şagirdlərin sağlamlığına əsaslı təsir göstərir, onların sağlam ailə həyatına hazırlanmasına zəmin yaradır. Eyni zamanda hərtərəfli inkişaf etmiş sağlam şəxsiyyətlərin yetişdirilməsini təmin edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (kurikulumu) (VI – XI siniflər) Bakı, 2013.
2. Hacıyeva H.M. Orta məktəblərdə biologiyanın tədrisində tibbi biliklərin verilməsinin imkan və yolları (monoqrafiya). Bakı, Araz, 2007.
3. Məmmədova N., Həsənova B. Fətiyeva L. Biologiya 8. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, 2015.
4. Nəcəfov C., Hacıyeva H. və b. Reproduktiv sağlamlığın əsasları. Bakı, 2002.
5. Seyidli Y., Əliyeva N., Əhmədbəyli X. Biologiya 9. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı, 2016.
6. Hacıyeva H. və b. Şagirdlərə biologiya fənn kurikulumu əsasında tibbi-gigiyenik biliklərin öyrədilməsi. Bakı, 2017.

X.M.Гаджиева, З.Р.Исмаилова

Пути развития навыков репродуктивного здоровья для молодых людей в области биологического образования

Резюме

В статье рассматриваются эффективные способы развития знаний и навыков о причинах и последствиях репродуктивного здоровья и защиты от токсических заболеваний у молодых людей, преподающих биологию в средних школах. Показаны формы и методы решения проблемы в преподавании биологии. Преимущество предоставления соответствующих советов и рекомендаций молодым людям о том, как защитить репродуктивное здоровье, оправдано. Обучение студентов способам и средствам защиты от репродуктивных заболеваний играет важную роль в качестве обучения и подготовке студентов к здоровой семейной жизни.

H.M.Hajiyeva, Z.R.Ismayilova

Ways to develop reproductive health skills for young people in biology education

Summary

The article examines the effective ways of developing knowledge and skills on the causes and effects of reproductive health and the protection of toxic diseases in young people teaching biology in secondary schools. Forms and methods of solving the problem in teaching biology are shown. The advantage of providing appropriate advice and advice to young people on how to protect reproductive health is justified. Teaching students the ways and means to protect themselves from reproductive diseases plays an important role in the quality of training and in preparing students for healthy family life.

Rəyçi: ped.f.d., dos. Ə.M.Məhərrəmov

Redaksiyaya daxil olub: 17.06.2020

F.N.İBRAHİMOV
professor

S.A.ƏMRAHOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

"İNKLÜZİV TƏHSİL" ANLAYIŞININ "SİSTEM-STRUKTUR" RAKURSDA İNTERPRETASİYASI

***Açar sözlər**: sistem, struktur, altsistem, inklüziv təhsil, sağlamlıq imkanları məhdud olan uşaqlar, təhsil ehtiyacları, ekspert komissiyaları.*

***Ключевые слова**: система, структура, подсистема, инклюзивное образование, дети с ограниченными возможностями здоровья, потребность в образовании, экспертная комиссия*

***Key words:** system, structure, sub-system, inclusive education, educational needs, expert commissions*

Mövzunun aktuallığı. Hər bir uşağın öz həmyaşıdları ilə birgə keyfiyyətli təhsil almaq hüququ var. İnklüziv təhsil bütün uşaqların məktəbə getməsi və təhsildə nailiyyət əldə etməsi üçün maneələrin aradan qaldırılmasını nəzərdə tutur.Təhsildə əlilliyi olan uşaqların ayrı-seçkiliyə və məhrumiyyətlərə məruz qalmaq ehtimalı daha çox olsa da, onları təhsildən məhrum edən digər səbəblər də vardır. Bunu nəzərə alaraq, inklüziv təhsil əlilliyin olub-olmamasından, irqindən, dilindən, dinindən, sosial statusundan və digər səbəblərdən asılı olmayaraq bütün uşaqların təhsil ehtiyaclarını qarşılamaq üçün təhsil islahatları vasitəsilə təhsil siyasətinin, mədəniyyətinin və təcrübəsinin təkmilləşdirilməsini nəzərdə tutur.

Məlum olduğu kimi, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya" 2006-cı ildə qəbul edilmişdir. Azərbaycan, əsas məqsədi əlilliyi olan şəxslərin hüquqlarının müdafiə və təşviqinə, ayrı-seçkiliklərinə son qoymağa, işə qəbul edilmə, təhsil və cəmiyyət həyatında iştiraketmə hüquqlarının təmin olunmasına, şəxsi toxunulmazlığa, istismardan azad olunma və sərbəst hərəkət hüququna əməl edilməsinə yönəlmiş BMT-nin "Əlillərin hüquqları haqqında Konvensiya"nı və ona əlavə edilmiş Fakultətiv Protokolu 2008-ci ildə ratifikasiya etmişdir. Bu Konvensiyaya qoşulan ölkə kimi Azərbaycan uşaqların inklüziv və keyfiyyətli təhsil almaq hüququnun təmin olunmasına çalışır. Azərbaycan son illər ərzində bu istiqamətdə bir sıra öhdəliklər icra etmişdir. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" əlilliyi olan şəxslərin təhsildə tam və səmərəli iştirakı üçün yaranan maneələrin aradan qaldırılmasını təmin etmək məqsədilə hökumətin əsas tərəfdaşlarla birgə icra edilməsi nəzərdə tutulan strateji tədbirləri təsbit edir. Bundan başqa Dövlət Proqramı pedaqoji kadrların hazırlanması və əlavə (ixtisasartırma) təhsili üzrə tədris proqramlarının yenilənməsini də nəzərdə tutur.

İnklüziv təhsil Azərbaycanda nisbətən yeni bir konsepsiya kimi hazırda başlanğıc mərhələsində olduğundan təhsil siyasəti və təcrübəsi, eləcə də elmi-tədqiqat nöqteyi -nəzərdən dərin araşdırma tələb edir. İnklüziv təhsilin milli təhsil sistemində özünə yer alması üçün inklüziya prosesinə nəzəri və emprik tədqiqatların "gözü ilə baxmaq" lazımdır. Söylədiklərimizə rəğmən, bu məqalənin mövzusu ölkəmizdə inklüziv təhsilin XXI əsrin çağrışlarına uyğun həyata keçirilməsinin nəzəri və texnoloji əsaslarının işlənilməsinə yönələn məsələlərdən biri olmaqla aktualdır.

Tədqiqat mövzusu üzrə interpretasiya. Hadisə və proseslərə, onların dərk edilməsinə "sistem-struktur" adlanan baxışla yanaşmaq müasir dövrün səciyyəvi xüsusiyyətidir. XX əsrin 30-cu illərində L.Bertalanfi "*sistem təhlili*" ideyasını irəli sürmüşdür. Həmin ideyanın mənası obyektin xassələrinin onun hissələrinin xassələrinə əsasən öyrənilməsi ilə bağlıdır. Hər hansı

hadisəni, prosesi, obyekti tədqiq etmək, əsas əlamətlərini müəyyənləşdirmək məqsədilə ona o zaman sistem kimi baxıla bilər ki, aşağıdakı tələbləri ödəsin:

1.Obyekt(tam) altsistemlərdən ibarət olmalıdır;

2.Altsistemlərin bir sistem halında birləşməsi məsələnin dürüst qoyuluşuna(tədqiqat məqsədinə) kömək etməlidir;

3.Sistemdəki altsistemlərin qarşılıqlı əlaqəsini təyin edən xassə mövcud olmalıdır;

4.Sistem böyük sistemin bir hissəsi(altsistemi olmalıdır.[4;8].

Məlum olduğu kimi, tam ilə hissənin tərifində sistem anlayışından istifadə edilir. Belə ki, hissə sistemin tərkibinə daxil olan və nisbi müstəqilliyə malik komponentdir, tam öz aralarında əlaqələnən hissələri əhatə edən və ayrı-ayrı hissələrdə həmişə olmayan bəzi xassələrə malik sistemdir. Sistem ilə tam kimi, hissə ilə element bir-birii ilə əlaqəli anlayışlardır. Burada etiraz doğurmayan belə bir nöqteyi-nəzəri dəstəkləyirik ki, sistem həm elementləri, həm də elementlər arasındakı münasibətləri ehtiva edən tamdır. Sistemin elementlərinin təbiətindən fikrən uzaqlaşıb əsas diqqəti bunlar arasındakı münasibətə yönəltdikdə isə sistemin strukturu anlayışına qəlib çıxırıq. Burada element tamın nisbi bölünməz hissəsi kimi çıxış edir. Deməli, tam ilə hissənin qarşılıqlı əlaqəsi öz ifadəsini həm tamın keyfiyyətinin onu təşkil edən hissələrin spesifik təbiətindən asılılığında, həm də bu hissələrin keyfiyyətinin tamın spesifik təbiətindən asılılığında tapa bilir. Odur ki, tam və hissənin dialektik əlaqəsi əslində tamın strukturunu təşkil edən əlaqədir və bu mənada struktur mühüm tamın mövcudluq üsullarından biri kimi çıxış edir.Vurğuladıqlarımızın bu və ya digər şəkildə məqalənin mövzusuna aidiyəti vardır, başqa sözlə, bunları inklüziv təhsil anlayışının şərhində və idarə olunmasında metodoloji əsas kimi qəbul etmək olar. [1;105-106].

Bu yanaşmaya görə, inklüziv təhsil sisteminin mahiyyəti onun strukturu ilə funksiyası, yəni elementlərinin və onların davranış əlaqələrinin xarakteri və obyektin şəraitlə əlaqəsinin spesifikliyi ilə müəyyən edilməlidir. İnklüziv təhsil sistemi təkcə struktur və funksiyalarına görə deyil, həm də struktur ilə funksiyanın vəhdətinin necəliyi, bu vəhdətin xarakteri ilə məxsusilik kəsb edir. Elementlərin davamlı, mühüm, zəruri olan qarşılıqlı təsiri inkuliziv təhsilin strukturunu səciyyələndirir. Qənaətimizə görə, Inklüziv təhsil sisteminin *idarəedənlər* və *idarəolunanlar* kimi altsistemləri elə məxsusi dialektik vəhdətə malik olmalıdır ki, həm geniş spektrli qabiliyyətlərin daşıyıcısı, həm də xüsusi qayğıya ehtiyacı olan uşaqları vahidin tərəfləri kimi əhatə etsin. Bu sistemdə uşaqlar "*sağlam olanlar"*a və *"xüsusi qayğıya ehtiyacı olanlar*"a bölünməməlidir, uşaqları ümumtəhsil siniflərinə qəbul edərkən onların ehtiyaclarına diqqət yetirmək və həmin ehtiyacları nəzərə alaraq hər biri üçün xüsusi məqsəd formalaşdırmaq zəruridir. Odur ki, inklüziv təhsil uşağın xüsusi ehtiyaclarının müəyyənləşdirilməsindən başlamalı, onun həyata keçirilməsi prosesinin məntiqi axarında *idarəolunan altsistemin imkandayıcı elementlərindən biri olan uşağı* sinif kollektivinin iteqrativ üzvünə çevirməlidir.

Sağlamlıq imkanları məhdud uşağın xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil ehtiyaclarının ödənilməsi onun haqqıdır. Odur ki, təhsil sistemi Inklüziv yanaşmaya açıq olmalıdır.Biz "təhsil alanlar üçün bərabər şəraitin yaradılması təhsilin həyata keçirilmə prinsipidir" fikrinə şərikik. [3].

Sağlamlıq imkanları məhdud uşağın təhsil ehtiyaclarının ödənilməsinin vacibliyi və humanist mahiyyəti təhsili idarəedənlərə, valideynlərə və cəmiyyətə aydın olmalı(subyektiv anlamımıza görə, "oxuyan cəmiyyət" üçün bu keyfiyyət xarakterikdir), bu məqam sahibləri sözügedən yönümdə funksiyalarını həssaslıqla yerinə yetirməlidirlər. Bunun üçün bir sıra arzuolunmaz streotiplərlə yanaşı, Inklüziv təhsil sisteminin *"idarəedənlər altsistemi"*nə daxil olan imkandaşıyıcı şəxslərin, xüsusən müəllim və tərbiyəçilərin həm nəzəri, həm də texnoloji hazırlıqlarında mövcud olan çatışmazlıqlar aradan götürülməlidir. İstər cəmiyyətin Inklüziv təhsillə bağlı baxışlarında yanlışlıqların mövcudluğu, istər valideynin övladının sağlamlıq imkanlarının məhdudluğuna mükəmməl idraki yanaşmasının yetərincə olmaması, istərsə də pedaqoji prosesi həyata keçirməli mütəxəssislərin hazırlıq səviyyəsinin qüsurlu olması Inklüziv

təhsil sistemində "*tam-hissə*" dialektikasının pozulmasına səbəb olur. Sistemdə elementlər, altsistemlər və hissələrlə tam arasındakı əlaqələrin pozulması onun səmərəliliyinə əngəl törədir, sağlamlıq imkanları məhdud olan uşaq hansısa xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində sinif kollektivinin iteqrativ üzvünə çevirməmiş olur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların adi siniflərə daxil edilməsi üçün iki səbəb mövcuddur: 1) xüsusi qayğıya ehtiyacı olan uşaqlarla tipik uşaqlar arasında münasibətlər genişləndirilir və 2) xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün sağlam həmyaşıdları model rolunu oynayırlar.

Danılmazdır ki, sosial münasibətlər insan həyatının ayrılmaz hissəsidir, dostluq, əməkdaşlıq və digər sosial qarşılıqlı münasibətlər həyatımızı mənalandırır.Bildiyimiz kimi, uşaqların ailədən kənarda ilk təmasda olduqları insanlar onların yaşıdlarıdır, ona görə də uşaqlar arasındakı qarşılıqlı münasibətlərin müsbət və tərbiyəvi əhəmiyyətə malik olması çox vacibdir.

Uşaqların əksəriyyəti yaşıdları ilə qarşılıqlı münasibətləri təbii yolla qururlar. Lakin tədqiqatlar göstərir ki, tipik və xüsusi qayğıya ehtiyacı olan uşaqların yüksək səviyyədə qarşılıqlı münasibətlərə girmələri üçün əksər hallarda onları həvəsləndirmək və yardım göstərmək lazım gəlir.

İnklüziv təhsil ictimai mahiyyətli sistemdir və sözügedən sistem məxsusi emercentliyə malikdir. Onun emercentliyi, sadəcə olaraq bəşər təcrübəsinin hasısa standartlar əsasında idarəolunan tərəflərə ötürülməsilə bağlı deyildir, sistemə daxil olan uşağın təhsil ehtiyaclarının (üstün əlamət kimi qəbul edilən) ödənilməsini hədəfləməsindədir.

Təhsil ehtiyacları yalnız sağlamlıq imkanları məhdud olan uşaqlara aid edilən anlayış da deyildir. Bu anlayış(təhsil ehtiyacları) bütün səviyyələrdə sağlamlıq imkanları olan subyektlərə aiddir. Əgər sağlamlıq imkanın ən məhdud halını sıfırla, məhdudluğun yoxluq halını birlə simvollaşdırsaq, uşağın sağlamlıq imkanları (0;1) açıq intervalında yerləşmiş olar. Hansı ki, burada uşağın sağlamlıq imkanı simfolik olaraq qəbul etdiyimiz "sıfıra" və "birə" bərabər deyildir, sıfırla birin arasındadır. Uşağın təhsil ehtiyacı ilə sağlamlıq imkanı, inkişaf potensialı arasında vəhdət onun daxil olduğu təhsil prosesinin idarə olunmasının əsas əlamətidir. Hər bir müəllim və tərbiyəçinin idrak məsələsinə çevrilmiş sözügedən vəhdətin reallaşdırılması ona görə zəruridir ki, təhsilin həyata keçirilməsi ilə bağlı ayrılmış zaman kəsiyinindən faydalanmaq ayrılıqda götürülmüş hər bir uşağın haqqıdır. Uşağın təhsil ehtiyacları onun fəaliyyət və ünsiyyətə necə cəlb olunmasından asılı olaraq ödənilir. Uşaq məhz bu yönümlü sosial fəallığı sayəsində öz imkanlarını inkişfının yeni müstəvisinə keçirmiş və bununla da təhsil ehtiyaclarının ödənilməsi nöqteyi-nəzərdən faydalanmış olur. Qısa şəkildə söyləmiş olsaq, "imkan-hərəkət-yeni keyfiyyət" modeli işlək hala gəlmiş olur.

Tədqiqatın elmi yeniliyi. "Sistem-struktur" yanaşmanın inklüziv təhsilin mahiyyətinin dərk olunması, təşkil və idarə olunmasının metodoloji əsaslarından biri olduğu arqumentləşdirilmişdir.

Tədqiqatın praktik əhəmiyyəti. Inklüziv təhsili idarəedənlərə bu prosesdə fəaliyyət və ünsiyyətin ("müəllim, tərbiyəci-müxtəlif imkanlara malik uşaqlar" arasında zəruriliyi danılmaz olan ünsiyyət) nizamlanmasında yanılmalardan yan keçməyin texnoloji əsasları göstərilmişdir.

Nəticə. İnklüziv təhsil ictimai təbiətli açıq sistemdir. İdarəolunanla və idarəedənlər bu sistemin altsistemləridir. Təhsilalanlar üçün bərabər şəraitin yaradılması təhsilin həyata keçirilmə prinsipidir. Sağlamlıq imkanları məhdud uşağın xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil ehtiyaclarının ödənilməsi onun haqqıdır. Sağlamlıq imkanları məhdud uşağın təhsil ehtiyaclarının ödənilməsinin vacibliyi və humanist mahiyyəti təhsili idarəedənlərə, valideynlərə və cəmiyyətə aydın olmalı, bu məqam sahibləri funksiyalarını həssaslıqla yerinə yetirməlidirlər. İnklüziv təhsil uşağın xüsusi ehtiyaclarının müəyyənləşdirilməsindən başlamalı, onun həyata keçirilməsi prosesinin məntiqi axarında *idarəolunan altsistemin imkandayıcı elementlərindən* biri olan uşağı sinif kollektivinin iteqrativ üzvünə çevirməlidir.

Ədəbiyyat

1. İbrahimov F.Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər. Bakı, "Mütərcim",1998, 398 s.
2. İbrahimov F, Hüseynzadə R. Pedaqogika (dərslik). I cild. Bakı, "Mütərcim", 2013, 708 s.
3. Qasımov S., Kərimova E., Sultanova T., Ağayeva T. İnlüziv təhsil. Müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı, OKA Ofset, 2006, 168 s.
4. Mirzəcanzadə A. İxtisasa giriş. Bakı, Bakı Universiteti Nəşriyyatı,1990, 368 s.

Ф.Н.Ибрагимов, С.А.Амрахова

Интерпретация в ракурсе «система-структура»
понятия "инклюзивное образование"

Резюме

В статье раскрывается главная суть **понятия "инклюзивное образование" в ракурсе «система - структура».** При этом мотивируется, что он является системой, которая носит цель оплачивать потребность в образовании детей с ограниченными возможностями здоровья. К тому же, отмечается единство между возможностями здоровья (потенциалом развития) ребенка и потребностью ребенка в образовании. Это является главным признаком управления процесса образования, в который подключается сам ребенок.

F.N.Ibrahimov, S.A.Amrahova

Foreshortening interpretation "system- structure"
of the concept "Inclusive education"

Summary

Article was devoted to key essence of "Inclusive education" concept in foreshortening "system-structure". It is based to be the system, bearing the purpose to meet the educational needs of the children with limited health opportunities. It is emphasized here that, unity between educational needs of the child and its health opportunity (development potential) is a key sign of the management of education process, on which it is included.

Rəyçi: t.e.d., prof. M.İ.Əmrahov

Redaksiyaya daxil olub: 11.06.2020

M.H.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏHSİLİN MODELLƏŞDİRİLMƏSİ VƏ PEDAQOJİ FƏALİYYƏTİN FORMALAŞMASINDA PEDAQOJİ TEXNOLOGİYALARIN ROLU

Açar sözlər: *modelləşdirmə, fəaliyyət, texnologiya, pedaqoji texnologiya, prinsip, funksiya*
Ключевые слова: *моделирование, деятельность, технология, педагогическая технология, принцип, функция*
Key words: *modeling, activity, technology, pedagogical technology, principle, function.*

Pedaqoji elm və təhsil praktikası ayrı-ayrı elmlərin bir-birinə sadə bir şəkildə əlavə edilməsi, təhlil və sintezin ardıcıl birləşməsi ilə deyil, müxtəlif bilik sahələrinin onlar üçün ümumi bir obyekt - tədris prosesini öyrənərkən vahid bir bütöv halına inteqrativ birləşməsi ilə xarakterizə olunur.

Müasir dövrdə təlim və tərbiyənin yeni texnologiyalarının işlənib hazırlanması və həyata keçirilməsi üçün yeni təhsil texnologiyalarının axtarışı mühüm bir problem kimi qarşıya qoyulur.

Pedaqoji texnologiyanın mənbələri pedaqoji nailiyyətlərdir, elm, psixoloji və sosial elmlər, qabaqcıl pedaqoji təcrübə, yerli və xarici pedaqogikada toplanmış keçmiş illərin ən yaxşı nümunələridir.

Təhsilin modelləşdirilməsi təkcə öyrənilən fənlərin məzmununu dəyişdirməyə deyil, həm də tədris metodlarına yanaşmaların dəyişdirilməsinə, tədris metodlarının arsenalının genişləndirilməsinə, dərs zamanı tələbələrin fəallığının artırılmasını nəzərdən keçirməklə və ən kəskin sosial problemlərin həlli yollarını tapmaqla öyrənilən mövzuların real həyata yaxınlaşdırılmasına yönəlmişdir (3, s.7).

Təhsilin modelləşdirilməsi təhsil sistemində idarə olunan müsbət keyfiyyət dəyişikliyinə nail olmaq üçün təhsil fəaliyyətinin təkmilləşdirilməsi üzrə kompleks, vahid bir prosesdir. Təhsilin modelləşdirilməsi, yeni vəzifələr sayəsində təhsilin daxili potensialının dominant inkişafını dəyişdirən təhsil fəaliyyətinin intellektləşdirilməsi, innovativ proseslər, məlumatlandırma, yeni texnologiyalardan istifadə metodları da daxil olmaqla sistematik keyfiyyət dəyişikliyidir. Təhsilin modəlləşdirilməsi tərbiyə işinin bütün elementlərinin əsaslı yeni ideyalar, metodlar, nəzəriyyələr, konsepsiyalar, modellər üzərində geniş çoxtərəfli çevrilməsini nəzərdə tutur.

Pedaqoji modelləşdirmə (bir model yaratmaq) pedaqoji sistemlərin, proseslərin və ya vəziyyətlərin yaradılması üçün məqsədlərin (ümumi bir fikir) inkişafı və onlara çatmağın əsas yollarıdır.

Pedaqoji fəaliyyətin modelləşdirməsi və formalaşması prosesində pedaqoji texnologiyalar müasir təhsilin, mədəniyyətin, pedaqoji fəaliyyətin və s. dəyər kimi şəxsiyyətin inkişaf xüsusiyyətləri və imkanları müəyyənləşdirilir.

Pedaqoji texnologiya müəllimin şəxsi əməyinin məhsuldar inkişafının əsaslarını və mexanizmlərini pedaqoji modelləşdirmə vasitəsi ilə həyata keçirmək üçün bir kateqoriya kimi pedaqoji problemlərin həllində çoxsaylı tədqiqatlar və toplanmış pedaqoji təcrübə ilə təsdiqlənən pedaqoji fəaliyyətin ən aktual sahələrindən biridir.

Təhsilin strukturunda müəyyənləşdirilən pedaqoji texnologiyaların modelləşdirilməsini uğurlu həyata keçirilməsi üçün "pedaqoji modelləşdirmə" və "pedaqoji texnologiya" anlayışlarının mənasını aydınlaşdıraq:

1.**“Pedaqoji modelləşdirmə” anlayışı** aşağıdakı mənalarda işlədilir:

Pedaqoji modelləşdirmə **(geniş mənada),** sosial və multikultural genezisi sahəsində insanın özünüreallaşdırma, əməkdaşlıq, inkişaf və ünsiyyət imkanlarının optimallaşdırılması, müqayisənin çoxölçülü təbiətinin, inkişaf və təhsil modellərində elmi və pedaqoji axtarışın keyfiyyətini təmin edilməsi üçün bir mənbədir.

Pedaqoji modelləşdirmə **(dar mənada),** şəxsiyyətin əməkdaşlıq, sosiallaşması və ünsiyyət şəraitinin imkanlarını müəyyənləşdirən, intellektual əməyin optimal mənbələrinin sistematik axtarışda inkişaf problemlərinin həlli imkanlarının müəyyənləşdirilməsi prosesidir.

Pedaqoji modelləşdirmə **(sosial mənada),** müəllimin məhsuldar əməyinin inkişaf problemlərini keyfiyyətcə müəyyənləşdirmək, şəxsiyyətin inkişafı, təhsil sisteminin şərtləri və pedaqoji vasitələrini həll etmək imkanlarını detallaşdıran və aydınlaşdıran elmi, pedaqoji metodudur.

Gələcək müəllimlərin peşə inkişafında pedaqoji modelləşdirmə bizə yeni keyfiyyətlər, mədəniyyət funksiyaları, mədəniyyət tarixinin müəyyən edilmiş çoxşaxəli komponentlərinin (ümumi, peşəkar, ünsiyyət mədəniyyəti, fərdin müstəqil iş mədəniyyəti və s.) formalaşdırmasına imkan verir.

2. “Pedaqoji texnologiya” anlayışı aşağıdakı mənalarda işlədilir:

Pedaqoji texnologiya **(geniş mənada)** - pedaqoji problemlərin həlli üçün müəyyən edilmiş funksiya və modellərin spektrində tətbiq olunan xüsusiyyətlərinə uyğun olan, pedaqoji praktikaya əsaslanan, seçilmiş metod, vasitələrin, şərtlərini müəyyən edən ziddiyyətlərin optimal müəyyənləşdirilməsi və həlli imkanlarını həyata keçirən pedaqoji sistemin qurulmasıdır.

Pedaqoji texnologiya **(dar mənada)** - təsvir olunan pedaqoji konstruksiyanın keyfiyyətinin özünətəşkili funksiyası ilə qabiliyyət və sağlamlığın normal paylanmasının qəbul edilməsi üçün sistemdə, modellərdə keyfiyyəti yüksək nəticə göstərən pedaqoji fəaliyyətin ayrılmış vasitə və metodlarından istifadəsinə zəmanət verən pedaqoji konstruksiyadır.

Pedaqoji texnologiya **(sosial mənada)** - ömür boyu təhsil problemlərinin həlli praktikasında tələbənin şəxsiyyət kimi inkişafının dəyişməz səviyyəsində yerli reproduksiyada pedaqoji fəaliyyət problemlərinin həllini müəyyən edən və keyfiyyətini təmin edən vasitələr, metodlar toplusudur.

Pedaqoji texnologiya (**məhdud mənada**) - pedaqoji modelləşdirmə obyekti və fəaliyyətin məqsəd və vəzifələrinə uyğun, yüksək nəticə əldə etmək üçün vasitə və metodların birləşməsinin istifadə strukturunu müəyyənləşdirmək, göstərilən ziddiyyətin müəyyən keyfiyyət səviyyəsinə zəmanət verərək təkrar istifadə etməkdir (3, s.40).

Pedaqoji texnologiyaların modelləşdirilməsi obyekti pedaqoji fəaliyyətin strukturunda müəyyənləşdirilmiş, inkişaf, sosiallaşma, uyğunlaşma, özünüinkişaf, özünütəsdiqləmə, yüksək nailiyyətlərə zəmanət verən pedaqoji cəhətdən müəyyən edilmiş vəzifələrin keyfiyyətinin dəyişməsi prosesidir.

Pedaqoji texnologiyanın modelləşdirilməsi və dizaynında, müəyyən kursun və ya fənlərin öyrənilməsinin strukturunda şəxsiyyətin inkişafı problemlərinin formalaşması və həllinin gözlənilən keyfiyyətinə nəzarət etməklə başlaya bilərik (10).

Pedaqoji texnologiyaların modelləşdirilməsi fərdi inkişaf, özünüreallaşdırma məhsulu kimi pedaqoji fəaliyyətin vasitə, metodların birləşdirilmiş seçimində uğurla müəyyənləşdirilən məqsəd və vəzifələrin səmərəliliyidir.

Təhsil nəzəriyyəsi və praktikası, insanın ömür boyu təhsil sisteminə bütün dəyişikliklərin sabitliyinin qarantı kimi davamlı təhsil sisteminə daxil edilmiş fərdi inkişaf üçün pedaqoji şərait və texnologiyaların seçilməsini müəyyənləşdirir.

Təhsillə bağlı problemlərinin həllində pedaqoji modelləşdirmənin optimal vasitələri və mexanizmlərindən istifadə oluna bilər ki, bu da şəxsiyyətin inkişafı və bütövlükdə təhsil sistemindəki mövcud problemlərin həll olunmasına yüksək keyfiyyətli zəmanət verir.

Təhsilin modelləşdirilməsi sistemində pedaqoji texnologiyaların aşağıdakı funksiyalarını göstərmək olar:

- ənənəvi və innovativ pedaqogika vasitəsi ilə şəxsiyyətin inkişaf imkanlarını detallaşdırma funksiyası;
- peşə əmək funksiyalarının quruluşunda şəxsiyyətin özünütəsdiqləmə, sosiallaşma, əməkdaşlıq şərtləri və qabiliyyətlərinin formalaşdırılması vəzifələrini həll etməkdə özünütəşkili funksiyası;
- fərdin və cəmiyyətin məhsuldar əmyinin seçiminin bütün komponentlərini müəyyən edən fəaliyyət və ünsiyyət mədəniyyətinin formalaşdırılması funksiyası;
- pedaqoji modelləşdirmə və pedaqoji texnologiyaların əsaslarını antro-mühitin və nosferin bütün pedaqoji məqsədəuyğun dəyişikliklərinin və təkamül məhsullarının əsas elementləri kimi istifadə etməyin müvəffəqiyyətini təyin edən insanın, kollektivin, cəmiyyətin, dövlətin, dünya məkanının sağlamlıq qoruyucu funksiyası;
- fasiləsiz təhsil strukturunda şəxsiyyət inkişafının pedaqoji dəstəyi funksiyası;
- dəyərlərin, mənaların, prioritetlərin, səlahiyyətlərin və vəzifələrin keyfiyyətinin düzəldilməsi perspektivlərini, nəticələrini və yollarını müəyyən edən vahid bir varlıq kimi məhsuldar şəkildə formalaşması funksiyası;

Müasir inkişafın davamlılığı və praktikliyi, inkişaf və sosiallaşma, özünüreallaşdırma və özünütəsdiqləmə problemlərinin optimal həlli quruluşunda vahid pedaqoji prosesin müvəffəq qurulmasına zəmanət verir.

Pedaqoji texnologiya, pedaqoji modelləşdirmə və pedaqoji fəaliyyətin təməlini aşağıdakı təhsil sahələrində və fəaliyyət məhsullarında davam etdirən təhsil modelində istifadə perspektivlərini müəyyənləşdirir:

- pedaqoji texnologiyanın tətbiqi strukturunda pedaqoji fəaliyyət dövrünün reproduksiyası;
- davamlı təhsil sisteminə daxil olan tələbə ilə pedaqoji texnologiyaların tətbiqi və pedaqoji fəaliyyət modelinin quruluşunda təlim və pedaqoji qarşılıqlı əlaqənin qurulmasının çevikliyi;
- müəllimin peşə inkişafı strukturunda pedaqoji texnologiyanın işləməsi üçün simulyasiya edilmiş və təmizlənmiş şəraitin mövcudluğu və resurs bazası;
- müəllimin həyata keçirdiyi və pedaqoji texnologiyaların nosfer və pedaqogikanın inkişaf məhsulu kimi sistematik istifadəsi yolu ilə müəyyənləşdirilmiş fəaliyyət növlərinin quruluşlarında və modellərində ətraflı qərarların rəqabətliliyi;
- pedaqoji texnologiyaların tətbiqi strukturunda pedaqoji problemlərin həlli üçün təklif və metodların konstruktivliyi;
- pedaqoji texnologiyanın funksional-prosedur modeli ilə müəyyən edilmiş şəxsiyyətin inkişafı və təhsil sisteminin xüsusiyyətləri nəzərə alınmaqla şəxsiyyətin inkişaf keyfiyyətinin yüksəldilməsi vəzifəsinin formalaşmasının çoxölçülüyü;
- yaradılan pedaqoji texnologiyalar vasitəsi ilə şagirdin inkişafı üçün şərait və imkanların həyata keçirilməsinin hərəkətliliyi;
- pedaqoji texnologiyalar vasitəsi ilə didaktik materialın təqdimatını qarşıda məqsəd qoymağın və hədəfin keyfiyyətinin qiymətləndirilməsinin aydınlığı.

Beləliklə, modelləşdirmə proseslərin və sistemlərin öyrənilməsinin perspektivli yollarından biridir.

Müasir şəraitdə modelləşdirmə prosesləri və sistemlərinin nəzəriyyəsi və praktikasında əldə olunan nailiyyətlər mühəndislik və texnologiyanın inkişafı ilə əlaqələndirilir və bir çox mürəkkəb tapşırıqlar asanlıqla əlverişli mühəndislik səviyyəsində yerinə yetirilir (6). Proqram təminatının inkişafı yüksək performanslı, obyekt yönümlü modelləşdirmə üçün şərait yaradır.

Müəyyən bir texnologiya modelində pedaqoji fəaliyyətin və bütövlükdə pedaqogikanın müəyyən vəzifəsinin optimal həlli üçün sistematik axtarışın imkanları elmi və pedaqoji axtarışın müvafiq sahələrindən biridir.

Pedaqoji modelləşdirmə texnologiyası, ideyanı təsdiqləyən, özünü təyin etmə və özünü reallaşdırmaq, özünə inam və özünü inkişaf etdirmə, ictimailəşmə və uyğunlaşma multikultural ehtiyatlarında şagirdin pedaqoji dəstək, pedaqoji tədqiqat, müasir öyrənmə və şəxsiyyət inkişafının situasiya seçiminin keyfiyyətini müəyyənləşdirmək və yoxlamaq kontekstində həyata keçirilən müəllimin fəaliyyətinin yaradıcı və məhsuldar formalaşmasına şərait yaradır.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı, "Bakı Çap Evi" 2012, 64 s.

2.Mehrabov A.O., Abbasov Ə.M., Zeynalov Z.Z., Həsənov R.Ə. Pedaqoji texnologiyalar. Bakı, Mütərcim, 2006, 372 s

3. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. ADPU-nəşriyyatı. 476 s.

4.Nəzərov M.H., Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları, (Dərs vəsaiti), Baki-Mütərcim- 2016, 200s.

6. Волков В.Л. Моделирование процессов и систем в приборостроении. - Арзамас: АПИ НГТУ, 2008. - 143 с.

7. Гуревич, П. С.Философская антропология: учеб. пособие для вузов –2-е изд., стереотип.–М.:Омега-Л, 2010.– 607 с

8. Панарин, В. И. О роли образования в современном цивилизационном процессе [Текст] В. И. Панарин // Сибирский учитель. – 2004. - № 2 (32)

9. Karpov S.A. The modern theory of science education: problems of formation // Problems of Philosophy, 2010, № 5, p. 1524.

10. http://web.snauka.ru/issues/2015/08/56976

М.Г.Назаров

Роль педагогических технологий в моделировании образования и формировании педагогической деятельности

Резюме

В статье анализируются возможности выявления моделей, функций, принципов, тенденций педагогических технологий в источниках педагогического моделирования и педагогической деятельности. Для повышения качества решения проблем будущим учителям предлагаются модели для построения тех или иных наиболее популярных педагогических технологий. Определены принципы оптимального моделирования педагогических технологий, перспективы их использования в модели непрерывного образования в сферах образования и продуктах деятельности.

M.H.Nazarov

The role of pedagogical technologies in the modeling of education and the formation of pedagogical activity

Summary

The article analyzes the possibilities of identifying models, functions, principles, tendencies of pedagogical technologies in the sources of pedagogical modeling and pedagogical activity. In order to improve the quality of problem solving, future teachers are offered some models for the construction of one or another of the most popular pedagogical technologies. The principles of optimal modeling of pedagogical technologies, perspectives of their use in the model of continuing education in the fields of education and products of activity are defined.

Rəyçi: fəls.e.d. Z.B.Ağayeva

Redaksiyaya daxil olub: 09.07.2020

G.S.NOVRUZOVA
e-mail: gunelnovruzova91@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

MODELLƏŞDİRMƏ YENİ TƏLİM METODU KİMİ

Açar sözlər: *model, modelləşdirmə, layihə, layihələndirmə*
Ключевые слова: *модель, моделирование, проект, проектирование*
Key words*: model, modeling, design, design*

Artıq onilliklər boyu modelləşdirmə elmi tədqiqatların ən aktual metodlarından biridir, pedaqoji tədqiqatlarda geniş tətbiq olunur. Bəzi alimlərin fikrincə, [4, 5, 8] müasir elmdə modelləşməyə o qədər də diqqət yetirilmir ki, bu da müasir rus təhsilinin müasirləşdirilməsinin səmərəsizliyinin səbəblərindən biridir. "Pedaqoji modelləşdirmə" anlayışının açıqlanması "model" termini ilə başlamalıdır. Model-tədqiq olunan obyektə (və ya hadisəyə) bənzər olaraq bu obyektin elementləri arasında strukturu, xüsusiyyətləri, qarşılıqlı əlaqələri və münasibətləri daha sadə şəkildə əks etdirən sxem, fiziki konstruksiyalar, formalar və ya formulalar şəklində süni şəkildə yaradılmış obyektdir [2]. Bəşəriyyətin öz fəaliyyətində (elmi, təhsil, texnoloji, bədii) ətraf Dünya modelləri olmadan necə keçinə biləcəyini təsəvvür etmək mümkün deyil.

Modellərin qurulması üçün ciddi və dəqiq qaydalar formalaşdırmaq çox çətindir, lakin XXI əsrə qədər bəşəriyyət müxtəlif obyektlərin və proseslərin modelləşdirilməsi və istifadəsi sahəsində zəngin təcrübə toplamışdır. Vizual modellər tez-tez öyrənmə zamanı istifadə olunur. Modellər təhsilalanlara vizual olaraq bilavasitə qavrayış üçün əlçatmaz olan obyektləri və prosesləri təsəvvür etməyə kömək edir. Şərti olaraq modellər üç növə bölünə bilər: fiziki (təbiətə malik, orijinala oxşar); maddi-riyazi (onların fiziki təbiəti prototipdən fərqlənir, lakin orijinal davranışının riyazi təsviri mümkündür); məntiqi-semiotik (xüsusi nişanlardan, simvollardan və struktur sxemlərindən quraşdırılır) [5]. Yuxarıda göstərilən model növləri arasında sərt sərhəd yoxdur.

Pedaqoji modellər əsasən sadalanan növlərin ikinci və üçüncü qruplarına daxildir. Sonra modellərin yaradılması, tədqiqi və istifadəsi prosesini özündə əks etdirən "modelləşdirmə" anlayışı üzərində dayanmaq lazımdır. Modellərin yaradılması üçün insan iki növ "material" – şüurun özünün vasitələrindən və ətraf maddi aləmin vasitələrindən istifadə edir, məhz buna görə modellər mücərrəd və təbii modellərinə bölünür. Modelləşdirmə formaları müxtəlifdir və istifadə olunan modellərdən və onların tətbiq sahəsindən asılıdır. Modellərin xarakterinə görə, ənənəvi olaraq maddi və işarəvi (İnformasiya) modelləşdirilmə mövcüddur [3].

Maddi modelləşdirilməsi müəyyən həndəsi, fiziki, dinamik və ya modelləşdirmə obyektinin funksional xüsusiyyətlərini – orijinalı əks etdirən modellərə əsaslanır; özəl halda – orijinal və modelin davranışı vahid riyazi nisbətlərlə, məsələn, vahid diferensial tənliklərlə təsvir edilən analoq modelləşdirilməsinə əsaslanır. Əgər model və modelləşdirilmiş obyekt eyni fiziki təbiətə malikdirsə, onda fiziki modelləşdirmə haqqında danışırlar.

İşarəvi modelləşdirilmədə modellər sxemlər, çertyojlar, formullarla və s. verilir. Bu cür modelləşdirmənin ən mühüm növü riyazi modelləşdirmədir[3].

Abstrakt modellər düşüncə, şüur vasitəsi ilə tikilmiş mükəmməl konstruksiyalardır. Abstrakt modellər dil konstruksiyalarıdır və müxtəlif dillərin, müxtəlif ixtisaslaşmanın müxtəlif səviyyələrinin dillərinin vasitələri ilə formalaşa və başqa insanlara ötürülə bilər. Abstrakt modellər təbii dil, "peşəkar" dil və/və ya süni, o cümlədən formalaşdırılmış dil – məsələn, məntiq, riyaziyyat vasitəsilə yaradılır. Nəticədə, dil hiyerarşisi və model növlərinin müvafiq iyerarxiyası əldə edilir. Bu spektrin yuxarı səviyyədə təbii dil vasitələri ilə yaradılan və bu

elmin bu sahəsinin bugünkü vəziyyəti üçün maksimal dərəcədə dəqiqliyə və dəqiqliyə malik modellərə qədər olan modellər mövcuddur [3]. Modelləşdirmənin praktiki pedaqogikada əhəmiyyəti məsələsinə baxarkən, modelləşdirmə funksiyalarına müraciət etmək məqsədəuyğundur: deskriptiv, proqnoz və normativ.

Deskriptiv funksiya ondan ibarətdir ki, model abstraksiya hesabına müşahidə edilən hadisələri və prosesləri sadəcə izah etməyə imkan verir. Bu baxımdan uğurlu modellər elmi nəzəriyyələrin komponentlərinə çevrilir və sonuncunun məzmununu əks etdirmək üçün effektiv vasitədir [4]. Modelləşdirmənin proqnozlaşdırma funksiyası modelləşdirilmiş sistemlərin gələcək xüsusiyyətlərini və vəziyyətini proqnozlaşdırmaq qabiliyyətini əks etdirir, yəni "nə olacaq?».

Normativ modelləşdirmə funksiyası "necə olmalıdır" sualına cavab verməyə imkan verir. Nəinki mövcud sistemi təsvir etmək, həm də onun normativ obrazını yaratmaq – subyektin nöqteyi-nəzərindən arzuolunandır, maraqları və üstünlükləri istifadə olunan meyarlarla əks olunur.

Hal-hazırda sistemlərin modelləşdirilməsi üsulları iki sinifə bölünə bilər: metodlar keyfiyyət və kəmiyyət, və ya metodlar məzmun və formal. Keyfiyyətli metodlar arasında aşağıdakılar yer alır: ssenari metodu, qrafik üsullar, strukturlaşdırma metodu və s.hər hansı bir obyektin modelləşdirilməsinin kəmiyyət metodlarından (riyazi modelləşdirilməsindən) istifadə etmək üçün riyazi model qurulmalıdır. Riyazi modelləşdirmə dedikdə, riyazi model adlanan bəzi riyazi obyektin bu real obyektə uyğunluğunun müəyyən edilməsi və baxılan real obyektin xüsusiyyətlərini əldə etməyə imkan verən bu modelin tədqiqi başa düşülür [4].

Müasir pedaqogika və didaktika modelləşdirmə üsulu olmadan keçinə bilməz ki, bu da həm nəzəriyyəçi pedaqoqların, həm də praktika müəllimlərinin təcrübəsini sübut edir. Pedaqoji elmdə həm təhsilin məzmununu, həm də tədris fəaliyyətini modelləşdirməyə qərar verilmişdir. Elmi modellər xüsusi tədris fənlərinin tədrisi üçün bir aparat kimi qurulmuşdur. Modelləşdirmə metodikasına malik olmaq zərurəti həm elmi idrakın ümumi üsulu ilə, həm də psixoloci-pedaqoji mülahizələrlə bağlıdır. Təhsil alanlar öyrənilən hadisələrin müxtəlif modellərini qurarkən, modelləşdirmə həm tədris vasitəsi, həm də tədris materialını ümumiləşdirmək, eləcə də onu bükülmüş formada təqdim etmək kimi çıxış edir.

Pedaqogikada istifadə sahələrinə görə modellərin tipləri aşağıdakı şəkildə əks olunmuşdur



Şəkil 1. *İstifadə sahəsinə görə modellərin təsnifatı*

- **Təlim modelləri** əyani vəsaitlərdir, müxtəlif trenajorlardır, tədris proqramlarıdır;
- **Səriştəli modellər** dizayn olunan obyektin kiçildilmiş və ya genişləndirilmiş surətləridir. Bu modellər də təbii adlanır və obyektin tədqiqi və gələcək xüsusiyyətlərini proqnozlaşdırmaq üçün istifadə olunur;
- **elmi-texniki** modellər prosesləri və hadisələri tədqiq etmək üçün yaradır;
- **oyun modelləri** hərbi, iqtisadi, idman, biznes oyunlarıdır, müxtəlif vəziyyətlərdə obyektin davranışını yaradır, rəqib, müttəfiq və ya rəqib tərəfindən mümkün reaksiya ilə onları itirirlər;
- **imitasiya modelləri** sadəcə bir və ya digər dərəcədə dəqiqliyi ilə reallığı əks etdirmir, əksinə onu təqlid edir. Eksperiment və ya hər hansı bir hərəkətin real vəziyyətə təsirini öyrənmək və qiymətləndirmək üçün dəfələrlə təkrarlanır və ya bir çox digər oxşar obyektlərlə eyni vaxtda həyata keçirilir, lakin müxtəlif şərtlərdə qoyulur [3].

Modelləşdirmənin effektivliyinin təsvir edilməsi məqsədi ilə pedaqogikaya xüsusi bir anlayış – düzgünlüyə, adekvatlığa yaxın, lakin onlara eyni olmayan pedaqoji etibarlıq daxil edilmişdir. Pedaqoji validliyi kompleks şəkildə əsaslandırırlar: konseptual, meyar və kəmiyyətcə, çünki bir qayda olaraq, çoxfaktorlu hadisələr modelləşdirilir [8]. Pedaqoji modelləşdirmədə "termin-tərəfdaş " – layihələndirilməsi var. Bəzi nəşrlərdə bu terminlər müqayisə edilə bilən və bir-birini əvəz edən kimi istifadə olunur, yəni bunlar caiz olduğu yerlərdir.

"Layihə" sözü bir neçə məna daşıyır və demək olar ki, hamısı pedaqogikaya aiddir. Birincisi, layihə hər hansı bir sənədin ilkin (təxmini) mətnidir. İkincisi, layihə bir aksiya, bir proqramla məqsədyönlü fəaliyyətin təşkilati formasına birləşdirilmiş tədbirlər toplusu kimi başa düşülür. Belə layihələrdə mütəxəssislərin işini layihələndirmə adlandırmırlar. Bu mənada təhsildə "layihə təhsilalanların tədqiqat fəaliyyətinin forması kimi" termini tətbiq olunur. Və layihənin üçüncü mənası hər hansı bir sistemin, obyektin və ya modelin yaradılması (işlənməsi, planlaşdırılması, layihələşdirilməsi) üzrə fəaliyyətdir [1].

Son onilliklərdə layihə metodu müəllimlərin bütün fənlərin istifadə etdiyi ən populyar və aparıcı metodlardan biri kimi nəzərdən keçirilir. Bu metod şagirdi mürəkkəb problemlərin həlli prosesinə cəlb edir, yaradıcılıq qabiliyyətlərini, müstəqilliyini inkişaf etdirir, müxtəlif sahələrdən inteqrasiya olunmuş biliklər tələb edir və bu səbəbdən də Erudisiyanı inkişaf etdirir [1]. Hər hansı bir təcrübəli müəllim, həqiqətən, modelləşdirmə və dizaynın müqayisə edilə bilən anlayışlar olduğunu qeyd edəcəkdir. Layihənin yaradılması prosesi hansısa bir sistemin modelinin, hansısa bir hadisənin işlənməsinə, yaradılmasına, tədqiqinə əsaslanır. Lakin daha dərindən dərk etmək məqsədi ilə keçmiş təcrübəyə şamil oluna biləcək modelləşdirmədən fərqli olaraq, layihələndirmə planlaşdırılmış gələcək proses və hadisələrin modellərinin yaradılmasına yönəlib. Layihə fəaliyyətinin komponentləri konkret modellər və ya modullar (təhsil sistemi kimi elementlərin məcmusunu birləşdirən funksional qovşaqlar) ola bilər.

Pedaqoji lahiyyələndirmə nəzəriyyəsində resursların optimal paylanması və məqsədlərin konkretləşdirilməsi üçün proqnostik model ayrılır; məlumat bazasına və fəaliyyət proqramına əsaslanan konseptual model; icra vasitələrini hazırlamaq və müəllimlərə pedaqoji alətlərlə işləmək üçün öyrədilməsi mümkün olan instrumental model; monitorinq modeli-əks əlaqə mexanizmlərinin yaradılması və planlaşdırılmış nəticələrdən mümkün sapmaları korrektə etmək üsullarının yaradılması üçün; gözlənilməz vəziyyətlərin yaranması halında həllərin hazırlanması üçün yaradılan refleksiv model [3].

V.M.Monaxov pedaqoji layihələndirmənin dörd mümkün nəticəsini müəyyən edir: 1) pedaqoji sistem; 2) təhsilin idarə edilməsi sistemi; 3) metodik təminat sistemi; 4) təhsil prosesinin layihəsi. Layihələndirmənin birinci mərhələsində aşağıdakı istiqamətlər üzrə ekspertiza xüsusilə vacibdir: – layihənin planı; – onun həyata keçirilməsi prosesi; – gözlənilən nəticələr; - layihənin inkişaf və yayılması perspektivləri [6].

A.N.Dahinin fikrincə, "modelləşdirmə" və "layihələndirmə" terminlərinin tutuşdurulması onların qarşılıqlı məna "yatırılmasına" gətirib çıxarır, yəni sistem kimi layihə modelin alt sistemidir və əksinə, layihələndirmənin özü daha kiçik modellərdən ibarət ola bilər [4]. Qeyd etmək lazımdır ki, layihələndirmə özəl modellərin yaradılmasını nəzərdə tutur, modelləşdirmə öz növbəsində elementlərin məcmusundan ibarətdir, o cümlədən layihələndirmə nəzəriyyəsini özündə birləşdirir. Tədris nəzəriyyəsinə həsr olunmuş pedaqogikanın didaktik – bölməsində modelləşdirmə roluna müraciət edərək qeyd etmək lazımdır ki, şagirdlər üçün materialın təqdimat prosesi sxemlərdən, fiziki konstruksiyalardan, iconic formullardan – bir sözlə, modellərdən istifadə etmədən səmərəsiz olacaqdır. Didaktikada modelləşdirmə tədris materialının strukturunun optimallaşdırılması, tədris prosesinin planlaşdırılmasının yaxşılaşdırılması, idrak fəaliyyətinin və təlim-tərbiyə prosesinin idarə edilməsi, diaqnostika, proqnozlaşdırma, təlim layihələşdirilməsi kimi mühüm məsələlərin həlli üçün uğurla tətbiq edilir.

Ümumtəhsil dövrünün istənilən intizamı modelə dayağa ehtiyac duyur. Riyaziyyat və fizika formulalar və sxemlər olmadan öyrənmək mümkün deyil, rus və xarici dilin qrammati-

kasını iconic konstruksiyalar olmadan öyrənmək mümkün deyil, başqalarının mədəniyyətini dil mühiti modeli olmadan anlamaq asan deyil, biologiya bölmələrini də müxtəlif strukturların maketləri olmadan təsəvvür etmək çətindir. Yekunda A.N.Dahinin [4] ayırdığı mərhələləri sadalayırıq, burada pedaqoji modelləşdirmənin əsas müddəalarını formalaşdırmaq olar: 1) modelləşdirmə üçün metodoloji əsasların seçilməsi və prosesə daxil olmaq, tədqiqat predmetinin keyfiyyətli təsviri; 2) modelləşdirmə vəzifələri yaradılması; 3) tədqiq olunan obyektin əsas elementləri arasında asılılığı dəqiqləşdirmək, obyektin parametrlərini və bu parametrlərin dəyişməsini qiymətləndirmək meyarlarını müəyyən etmək, ölçü metodlarını seçmək üçün modelin konstruksiyası; 4) qoyulmuş məsələlərin həllində modelin etibarlılığının tədqiqi; 5) pedaqoji sınaqda modelin tətbiqi; 6) modelləşdirmə nəticələrinin mənalı təfsiri.

Ədəbiyyat

1. Pələngov Ə.Q. Kompüter modelləşməsi, Bakı, Elm, 2019, s.172

2. Бешенков, С.А. Моделирование и формализация / С.А.Бешенков. – М.: БИНОМ. Лаборатория знаний, 2002. – 336 с.

3. Богатырев, А.И. Теоретические основы педагогического моделирования (сущность и эффективность)[Электронный ресурс] / А.И. Богатырев // Издательский дом «Образование и наука». – Режим доступа: http://www.rusnauka.com/SND/Pedagogica/2_bogatyrev%20a.i..doc.htm.

4. Дахин, А. Н. Педагогическое моделирование: монография / А. Н. Дахин. – Новосибирск : Изд-во НИПКиПРО, 2005. – 230 с.

5. Лодатко, Е. А. Моделирование педагогических систем и процессов / Е. А. Лодатко. - Славянск : СГПУ, 2010. - 148 с.

6. Монахов, В.М. Педагогическое проектирование – современный инструментарий дидактических исследований / В.М.Монахов // Школьные технологии. – 2001. – № 5. – С. 75–89.

7. Подласый, И.П. Педагогика: 100 вопросов - 100 ответов: / И.П.Подласый. – М.: ВЛАДОС-пресс, 2004. 365 с.

8. Цыганов, А.В. Инновационные подходы в моделировании учебного процесса // Известия Российского государственного педагогического университета имени А.И. Герцена. – СПб., 2010. – № 136. – С. 136-143.

Г.С.Новрузова

Моделирование как новый метод обучения

Резюме

Данная статься посвящена проблеме значимости метода моделирования в педагогике и дидактике. В статье рассмотрены общие виды моделей, определена сущность понятия «моделирования», раскрыта связь понятий «моделирование» и «проектирование», выделены функции моделирования.

G.S.Novruzova

Modeling as a new training method

Summary

This article deals with the importance of the method of modeling of pedagogy and didactics. The article discusses the general types of models, discloses the definition of “simulation”, calls the functions of modeling. The link between the concepts of “simulation” and “design” is disclosed.

Rəyçi: ped.e.d., prof. Ə.Q.Pələngov

Redaksiyaya daxil olub: 17.04.2020

Q.E.RÜSTƏMOV

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İDENTİKLİK AXTARIŞLARI: CİNSİ VƏ İCTİMAİ KİMLİK PROBLEMİNİN İDEYA-ESTETİK QAYNAQLARI

Açar sözlər: *Cinsi kimlik, gender, ictimai cinsiyyət, transkulturalizm*
Ключевые слова: *Гендерная идентичность, пол, социальная сексуальность, транскультурность*
Key words: *Gender identity, gender, social sexuality, transculturalism*

Sürətlə dəyişən çağdaş dünyada alternativ nəzəriyyələrin, platformaların özünü ifadə imkanı tapması nəticəsində ən müxtəlif səviyyələrdə identikliklə, kimliklə bağlı yeni suallar ortaya çıxır, cavablar axtarılır. Kimlik axtarışları ötən əsrin birinci yarısında daha çox "milli kimlik", "etnik kimlik" məsələləri ətrafında araşdırılırdısa, əsrin ikinci yarısında tədqiqatların sırasına "mədəni kimlik", "cinsi kimlik", "ictimai kimlik" kimi çoxsaylı başqa məsələlər də cəlb edildi.

Dəyişən dünyanın yeni meylllərindən biri də sözügedən araşdırmaların, tədqiqatların təkcə sosialogiyanın, politologiyanın, fəlsəfənin predmeti olmaqdan çıxıb ədəbiyyatda, ədəbiyyatşünaslıqda da müzakirə edilməsidir. Təsadüfi deyil ki, son qırx ildə dünya incəsənətində, dünya ədəbiyyatında istər bədii mətnlərdə, istərsə də nəzəri sahədə ən çox müzakirə olunan, araşdırılan problemlərdən biri də identiklik (kimlik) axtarışlarıdır. Demək olar ki, son yarım əsrdə bu mövzuya birbaşa, yaxud dolayı toxunmayan bircə ciddi bədii ədəbiyyat nümunəsi, film tapmaq çətindir. Mövzunun dünya intellektual arenasındakı aktuallığını nəzərə alaraq bizim sənət mühitində çox da işləməyən "cinsi" və "ictimai" kimlik məsələsinin dünyada necə müzakirə olunduğuna baxmağa çalışaq.

XX əsrin ikinci yarısından etibarən geniş vüsət alan feminist nəzəriyyələrin təsiri nəticəsində tibbdə, psixologiyada, sosiologiyada, fəlsəfədə, eləcə də ədəbiyyatşünaslıqda cinsi identiklik məsələləri yenidən dəyərləndirilməyə başlandı. Belə ki, əvvəllər ingilis dilindəki "gender" və "sex" sözlərinin hər ikisi başqa dillərə "cinsiyyət" kimi tərcümə olunurdusa, XX əsrdə bəzi nəzəriyyəçilər "sex" sözünü "cinsiyyət", "gender" sözünü "ictimai cinsiyyət" kimi ayırmağa başladılar. "Sex" sözü bioloji cinsiyyəti, "gender" sözü isə daha çox ictimai, kulturoloji mənada təsbit edilən, yəni cəmiyyətdən cəmiyyətə dəyişən cinsiyyət anlayışının ifadəsi üçün istifadə edilməyə başlandı.

Avstriyalı feminist nəzəriyyəçi Elizabet Qrosun fikrincə, cinsiyyət sözü bioloji mənada cinsi fərqliliyə işarə vurur və cinsi instinkt, istək, zövq kimi aktların cəmidir. Bu kontekstdən baxanda, "ictimai cinsiyyət" birləşməsi lazımsızdır, çünki bu birləşmə ilə ifadə edilən hər şey elə cinsiyyət anlayışının içində var. Amerikalı nəzəriyyəçi Enn Fausto-Sterlinq də "cinsiyyət" və "ictimai cinsiyyət" ayrımının artıq köhnəldiyini, bugün hər iki anlayışın içə-içə keçdiyini, onları ayırmağın əhəmiyyətsiz olduğunu vurğulayır. [3]

Məşhur feminist nəzəriyyəçi Cudit Batler də bu iki anlayış arasındakı fərqin itməyindən bəhs edir. Alimin fikrincə, cinsiyyət anlayışı problemlidir, çünki doğuşdan gələn cinsi orqanları əsas götürərək insanı ancaq kişiyə və qadına ayıranda ictimai təsirlər göz ardı edilir. Əksinə insanın əmələ gətirən ictimai, sosial təsirlər qabardılanda isə bioloji cinsiyyətin əhəmiyyəti azalır. Cinsiyyət anlayışını təkcə cinsi orqanlara, yaxud ictimai komponentlərə görə qiymətləndirmək problemlidir. Bunun əvəzinə, bioloji və ictimai cinsiyyət arasındakı ayrımlar aradan qaldırılsa, məlum olacaq ki, kişi-qadın ayrımı da daxil olmaqla, cinsiyyət anlayışı, əslində, hər cür təsnifatdan uzaqdır və dəyişkən təbiətlidir. [1]

Cinsiyyətlə bağlı tarixi araşdırmalar aparan Visna-Hanks 2011-ci ildə yazdığı "Tarixdə Gender" (Gender in History) adlı araşdırmasında "cinsiyyət" və "ictimai cinsiyyət" ayrımını əhəmiyyətsiz hesab edən alimlərin niyə belə düşündüklərini dörd başlıq altında ümumiləşdirib:

1) Əvvəla problemə bioloji rakursdan baxanda, bütün fərdlərin qadın və ya kişi cinsiyyət orqanıyla doğulmadığı və "bioloji işarələrin qeyri-müəyyənliyi" məlum olur;

2) Antropoloji rakursdan baxanda bəzi cəmiyyətlərdə "cinsiyyət nəsil artırmağa görə müəyyənləşir, buna əsasən uşaqlar və qocalar, qadınlardan və kişilərdən fərqli sinif sayılır", beləcə, nəsilartırma qabiliyyəti olmayan uşaqlar və qocalar üçün bu iki anlayış bulanıqlaşır;

3) Transseksuallar "cinsiyyət" və "ictimai cinsiyyət" ayrımındakı şübhəli zonada qərar tutublar. Visna-Hanksın fikrincə, "cinsiyyəti nə olur-olsun, hər hansı insan başqa insana cazibədar gələ bilər və bu da "cinsiyyət-ictimai cinsiyyət" ayrımında qarışıqlığa səbəb olur, yəni qadın-kişi ikiliyindən kənardakı cinsi kimliklər də nəzərə alınmalıdır.

4) Tarix boyu qadına fərqli baxışlar da sözügedən məsələnin problematikləşdirir. Visna-Hanks yazır: "Məsələn, əgər bir qadın, eynilə XIX əsrin Amerikasında olduğu kimi, yuvasına gözətçilik edib qadın olursa, tarlada kişilərlə işləyən zənci qadınlar qadın deyil? Əgər qadınlar kişilərdən daha aşağı və sentimental varlıqlardırsa, İngiltərə kraliçası Birinci Elizabet kimi ağıllı qadınları hara yazaq?" [9, 3]

Problemin bu cür qoyuluşu onu göstərir ki, məsələ təkcə qadın-kişi ayırımında yox, qadınla qadın arasındakı fərqlərdən də gedir. Bununla bağlı ən məşhur misal 1800-cü illərdə Amerikada köləlik etmiş Sojornur Trasın "Mən Qadın deyiləm?" (Aint I A Woman?) adlı təsirli nitqidir: burda o, bir tərəfdən tarlada bir kişinin görə bildiyi işləri görsə də, onlarla bərabər olmamağından, digər tərəfdən isə qadın olsa da, kişilərin nəvazişindən məhrum qalmağından bəhs edir.

Tarixi prosesdə həmcins münasibətləri ifadə etmək üçün xeyli söz ortaya atılıb, amma bu sözlərdən ən geniş yayılanı, işləklik qazananı Karl-Maria Benkertin XIX əsrdə istifadə etdiyi "homoseksual" sözü olub. Sonralar "homoseksual" sözünün neqativ çalarda işlədilməsi kişinin kişiylə münasibəti üçün "gey", qadının qadınla münasibəti üçün "lezbiyen" sözləri istifadə edilməyə başlanır, ancaq bu ifadələrin də əhatə dairəsi məhdud hesab edildiyi üçün, XX əsrdə "queer" ("kuir" kimi oxunur) sözü istifadə olunmağa başlanır. Mənası "qəribə" olan bu söz əvvəllər neqativ mənada istifadə edilsə də, 1980-ci illərdən bu yana öz məhdud mənasını aşaraq "gey, lezbiyen, biseksual, transseksual" fərdlərin hamısını bir çətir altında toplayan bir anlayışa çevrilib. Məsələn, İv Sedqvikin fikrincə, "queer" sözü dar mənada həmcins münasibətlərə işarə vursa da, geniş mənada "irq, şəcərə və post-müstəmləkə dövründə millətçilik" kimi sahələri yada saldığı üçün qiymətlidir. Cudit Batler isə məsələyə başqa cür yanaşır. Alim yazır ki, "qadın-kişi ikililiyindən sonra homoseksual-heteroseksual ayrımını kəskinləşdirmək üçün dildəki ayırıcı diskurslardan xilas olmaq lazımdır, "queen, butch, femme, girls" kimi sözlər və parodik mənada istifadə ediln "dyke, queer, fag" kimi sözlər cinsiyyət kateqoriyalarını və homoseksual kimliyi aşağılamaq üçün qurulmuş təsnifat mexanizmlərini yenidən aktivləşdirir." [1, 206]

Müxtəlif əsrlərdə, bir-birindən fərqli cəmiyyətlərdə cinsi kimlik anlayışının necə olduğunu, xüsusilə, Antik Romadakı cinsi mədəniyyəti araşdıran Kreq Vilyams yazır ki, heteroseksual, homoseksual, ya da biseksual kimi ayrımlara ehtiyac hiss etməyən Roma mədəniyyətində "cinsi aktları və subyektləri təkcə qadın, yaxud kişi kontekstindən dəyərləndirmək və hökm vermək yox idi." Alim yazır ki, romalıların leksikonunda bugün istifadə etdiyimiz mənada "heterseksual, homoseksual və biseksual" sözlərinin latın qarşılıqları yox idi. Vilyams demək istəyir ki, mədəni komponent kimi "dil insan təcrübəsində və əməllərində önəmli yerə sahibdir." Eva Kantarella yazır ki, bir kişinin başqa kişiylə cinsi münasibəti VI əsrə qədər Romada qanuni idi, ilk dəfə imperator Yustinian "eyni cinsdən olan münasibətlərini cinayət" hesab edib. Antik Yunanıstanda da, Romada olduğu kimi, bu cür həmcins münasibətlər xoş qarşılanmırdı, amma qanunən yalnız "bir oğlanın özündən cavan bir oğlanla münasibəti cinayət" sayılırdı. [2]

Platonun dialoqlar şəklində yazılmış "Simpozium" adlı əsəri Qərb mədəniyyətinin romantik və cinsi kontekstlərdəki sevgi anlayışının təməl mətnlərdən sayılır. Bu dialoqlardan birində məşhur komediyalar müəllifi Aristofan bir vaxtlar qadın və kişi cinsindən əlavə "androgynos" adlı üçüncü cinsin varlığından bəhs edir. Aristofanın fikrincə, üçüncü cinsin nümayəndələri iki insan bədənindən ibarət varlıqlar idi; fəqət onlar Zevsi əsəbləşdirdiyi üçün tanrılar tanrısı onları iki yerə ayırıb və hər birini digər yarısını axtarmağa məhkum edib: "Hər birimiz insanı bütövləşdirən hissələrik; bir dil balığı kimi bir bütövün yarısına bənzəyirik, onun üçün də digər hissəmizi axtarırıq. Bu "androgynos" dediyimiz qarışıq varlığın bir parçası olan kişilər qadınlara meyillidir, (...) bir dişidən kəsilən qadınlarsa kişilərə üz verməz, daha çox qadınlarla maraqlanarlar. Kişidən kəsilən kişilər isə onlar da kişi yarılarını axtarırlar (...) Halbuki, xeyli adam bunu ədəbsizlik sayır. Səhvdir! Çünki onlar bu işi ədəbsiz olduqları üçün etmirlər, özlərinə oxşayanı axtarırlar." [8, 24]

Raca Halvaninin fikrincə, Aristofan "androgynos" adlı üçüncü cinsdən bəhs edərkən qadınların qadınlara, kişilərin də kişilərə düşkün ola biləcəyini desə də, fikrində tutduğu bugünkü mənada "homoseksuallıq" deyil, çünki bu termin XIX əsrdə meydana çıxıb. Aristofan sadəcə eynicinslilərin münasibətlərini ümumi bir başlıq altında toplayır, amma izah vermir. [6]

Amerikada üçüncü cins olaraq bilinən ən geniş yayılmış seqment avropalıların "berdaches" dedikləri və homoseksual olduqları düşünülən insanlardır. Bu insanlar "geyim tərzi, çalışdıqları iş və cinsi meyillərindən çox, dini rollarıyla digər kişilərdən ayrılır" və Visna-Hanksın fikrincə, onlar "cüt ruha sahibdirlər", belə ki, onlar qadın və kişi xüsusiyyətlərini bir yerdə daşıyırlar, eyni zamanda, "həyata keçirdikləri xüsusi ayinlərdə qadın, kişi, insan və ilahi dünya arasında vasitə olmaqları" çox effektivdir.

Qərb cəmiyyətində heteroseksual münasibətlər əsas yeri tutsa da, hər hansı cinsiyyətin sabit, tək və konkret olmadığını vurğulamaq üçün apardığı araşdırmada Marqaret Mid mədəniyyətin ictimai rollara təsirindən geniş söhbət açır. Müəllif "Cinsiyyət və temperament" (Sex and temperament) adlı antropoloji araşdırmasında Yeni Qvineyada üç ayrı qəbiləni analiz edərkən görüb ki, bəzi cəmiyyətlər öz ictimai cinsiyyətlərini özləri formalaşdırır. Arapeş qəbiləsində qadınlar və kişilər sentimental, şəfqətli və küsəyən fərdlər kimi yetişdirilir. Munduqomarda isə həm qadınlar, həm kişilər kobud, cəsur və qəddardır. Tçambulidə qadınlarla kişilərin rollar dəyişib, qadınlar evin dolanışığını təmin edir, kişilər isə bəzənir. Mid yazır ki, kişilərə aid edilən ürəkli, cəsur, sərt, döyüşçü və qadınlara aid edilən həssas, yuvanın qoruyucusu, şəfqətli kimi xüsusiyyətlərin anadangəlmə deyil, əksinə, bu xüsusiyyətlər müstəqil şəkildə, mədəniyyət yoluyla nəsildən nəsilə ötürülür. Beləliklə, müəllif iddia edir ki, bizi mədəniyyət formalaşdırır, yəni kişiylə qadın arasında anadangəlmə, yaradılışdan gələn fərq yoxdur. [7]

Bu məqamda bu "anadangəlmə" və "sonradan yaranma" məsələlərinə aydınlıq gətirmək lazımdır. Cinsi kimliyin doğuşdan gəldiyinə inananlar essentialistlər (fitrətçilər), mədəniyyətin təsiri ilə yarandığına inananlar isə sosial konstruktivistlərdir. Mənbəyini Platondan götürən klassik essentializmə görə, "fiziki dünya sabit və dəyişməz faktlar" toplusudur; çağdaş sosial elmlərdə istifadə edilən essentializm termini isə "təbii, məcburi, universal və bioloji" reallıqları ifadə edir. Essential düşüncəyə görə, cinsi kimliyin formalaşmasında cəmiyyətin və mədəniyyətin rolu yoxdur, yəni hər kəsin cinsi kimliyini onun cinsiyyət orqanları müəyyənləşdirir. Məsələn, onların fikrincə, homoseksuallıq obyektiv, içdən gələn, hormonal, genetik bir şeydir, bunun cəmiyyətlə, mədəniyyətlə heç bir əlaqəsi yoxdur.

Sosial konstruktivistlərin fikrincə, "reallıq ictimai komponentlərlə formalaşır." Bu düşüncə essentializmi inkar edir və cinsiyyətin anadangəlmə yox, əksinə ictimai qaydalara görə formalaşdığını iddia edir. Məsələn, ingilis həkim, yazıçı və filosof Hevlok Ellis (1859-1939) cinsiyyətin bioloji olmadığını irəli sürüb. Ellisin fikrincə, necə ki, rəng korluğu, yaxud rəngli eşitmə sadəcə adi anomaliyadırsa, homoseksuallar da zərərli deyillər. [10]

Berger və Lukmana görə isə insan qidalanma və cinsəllik kimi ibtidai ehtiyaclarını ödəmək üçün əvvəlcə sadəcə bioloji bir instinktlə hərəkət edir, amma o, sosial fərd olduğu

üçün ictimai komponentləri nəzərə almalıdır. Bioloji instinktlərlə başlayan ehtiyacı ödəmək istəyi daha sonra insan iradəsindən kənardakı ictimai təsirlərə məruz qalır. Beləcə, əvvəldə ibtidai olan bioloji instinktlər insanın sosiallaşması nətincəsində ictimai ünsürlərlə təmasa keçərək formalaşmağa başlayır.

Psixoanaliz nəzəriyyəsinin qurucusu Ziqmund Freydin fikrincə, insan biseksual meyillərlə doğulur və cinsi orientasiyası uşaq yaşlarda formalaşır. Freydə görə, 3-5 yaş arasındakı "fallik dövr" deyilən ərəfədə oğlan uşağı anasına meyilli olduğu üçün atasını rəqib kimi görməyə başlayır və bu dövr uğurlu şəkildə başa vurulmayanda, oğlan uşağı özünü anasıyla identifikasiya edərək dişi instinktlər göstərməyə başlayır. Oxşar şəkildə, qız uşağı anasını rəqib olaraq görərək özünü atasıyla identifikasiya edə bilər. Freyd "Edip kompleksi" və "Elektra kompleksi" adı verdiyi bu meyilləri "cinsi sapıqlıq" kimi qiymətləndirir, heteroseksuallığı isə "normal və yetkin" kimi qəbul edir. [5]

Freyddən fərqli olaraq fransız mütəfəkkiri Mişel Fuko cinsiyyətin anadangəlmə xüsusiyyətlərə bağlı olmadan inkişaf etdiyini, diskurslarla formalaşan ictimai bir alət olduğunu deyirdi. [4]

Konstruktivist nəzəriyyələrə görə, universallıq və sabitlik yoxdur, bunun üçün də ictimai qaydalara əsasən dəyişən dini, mədəni, milli, hətta cinsi kimliklər xəyali, yaradılmış və fasiləsiz şəkildə formasını dəyişdirən kimliklərdir.

Postmodernist dünyagörüşünün geniş vüsət almasıyla ikili ziddiyyətlərin dekonstruksiya olunmağa başladı və bunun nəticəsində ortaya çıxan şübhəçilik "kuir" nəzəriyyəsinə təsir edərək qadın-kişi ikiliyini yenidən dəyərləndirməyə gətirib çıxarıb. Amanda Qablenin fikrincə, qadın-kişi, homoseksual-heteroseksual kimi "normal" anlayışları sual altına qoymaq postmodernist ədəbiyyatın xarakterik özəlliyidir.

XXI əsrdə cinsiyyət və ictimai cinsiyyətlə bağlı mübahisələr müxtəlif sahələrə keçməkdə və genişlənməkdədir. Bu anlayışları təhlil edən alimlərin fikrincə, cinsiyyət və ictimai cinsiyyət təbiətləri etibarilə dəyişkəndir. Bu mənada ötən əsrdə olduğu kimi, bu anlayışlardan hər hansı birini mütləq qəbul etməkdənsə, onları iç-içə keçmiş, bir-birinin sərhəddində olan, bir-birinə təsir edən fenomentlər kimi qəbul etmək lazımdır. Çağdaş alimlərin fikirləri ümumiləşdirib deyə bilərik ki, bu gün qərb dünyasında klassik qadın-kişi ayrımı məhdud dünyagörüşü hesab edilir, hər bir fərdin öz kimliyini ictimai normaların təzyiqindən azad şəkildə inkişaf etdirmək haqqı ön plana çıxardılır.

Ədəbiyyat

1. Butler J. Cinsiyyət bəlası: Feminizm və Kimliyin al-üst edilməsi, İstanbul: Metis, 2002
2. Cantarella E., The Androgynous and Bisexuality in Ancient Legal Codes, Diogenes, 2005
3. Fausto-Sterling A. Sexing The Body: Gender Politics and The Construction of sexulity, New York: Basic Books, 2000
4. Foucault M. Cinselliğin tarihi, İstanbul: Ayrıntı, 2007
5. Freud S. Three essays on the Theory of sexuality, New York: Basic Books, 2000.
6. Halwani R. Essentialism, Social Constructivism and The history of Homosexuality, Journal of homosexuality, 1998
7. Mead M. Sex and temperament in Threee Primitive Societies, Nyu-York: Harper Perennial, 2001
8. Platon. Symposium, London: Penguin classics, 1999
9. Wiesner-Hanks M. Gender in History: Global Perspectives, West Sussex: Wiley-Blackwell, 2011
10. https://link.springer.com/chapter/10.1057/9780230354111_7

Г.Э.Рустамов

Поиски самоидентификации: идейно-эстетические источники проблемы гендерной и общественной идентичности

Резюме

Во второй половине прошлого столетия социология и политология приступили к изучению двух важнейших феноменов: «гендерной идентичности» и «социальной идентичности», играющих огромную роль в становлении личности. Литература и литературная критика не остались в стороне от данного процесса и принялись активно исследовать вышеназванные феномены. В статье автор изучает данную проблему, сопоставляя её с похожими идеями, начиная с античных времен до настоящего времени. Наряду с этим, автор анализирует мысли Платона, понятие «андрогинности» Аристофана, «Эдипов комплекс» и «Комплекс Электры» Зигмунда Фрейда, а также работы феминистских авторов Джуди Батлер и Элизабет Гросс.

G.E.Rustamov

The search for self-identification: ideological and aesthetic sources of the problem of gender and social identity

Summary

In the second half of the last century, sociology and political science began to study two major phenomena: “gender identity” and “social identity”, which play a huge role in the formation of personality. Literature and literary criticism did not remain aloof from this process and began to actively explore the above phenomena. In the article, the author studies this problem, comparing it with similar ideas, from ancient times to the present. Along with this, the author analyzes the thoughts of Plato, the concept of “androgyny” by Aristophanes, “Oedipus complex” and “Electra Complex” by Sigmund Freud, as well as the work of feminist authors Judy Butler and Elizabeth Gross.

Rəyçilər: prof. A.Z.Sabitova
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(22.04.2020-ci il tarixli iclasın qərarı (pr. № 07)).

Redaksiyaya daxil olub: 04.06.2020

N.B.SALMANOVA
professor

S.İ.İSAQOVA

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

PİYADA TURİZMİNDƏ TƏLİM-MƏŞQ TOPLANIŞLARININ TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *idman turizmi, təlim-məşq toplanışı, iş planı, gün rejimi, qidalanma*
Ключевые слова: *спортивный туризм, учебно-тренировочный сбор, план работы, дневной режим, питание*
Key words: *sports tourism, training camp, work plan, day regime, nutrition*

Piyada turizmi ilə məşğul olanlar universal hazırlığa malik insanlardır. Onlar müxtəlif idman növlərinin texnikasının elementlərinə yiyələnmiş olurlar: səmti müəyyən etmə, ağır atletika (turist çantasının ağırlığı 45 kq-a çatır), atletika (uzaq məsafəyə yeriş), qayayadırmanma, üzgüçülük (su maneələrini dəf etmək), gimnastika (sallanmış maneələri dəf etmək). Turist-texniki bacarıqlarından əlavə, onlar ilk tibbi yardım göstərmək vərdişinə yiyələnməklə, həm də yaxşı bioloq, botanik, diyarşünas, tarixçi, geoloq, fotoqraf və kinooperator olmalıdırlar (1, s.3). Piyada turizminin belə rəngarəngliyi yaşından və cinsindən asılı olmayaraq əhalinin müxtəlif kateqoriyasından olanların marağını cəlb etməklə, asudə vaxtlarını səmərəli keçirmələri üçün ən əlverişli vasitələrdən biridir. Respublikamızda son zamanlar piyada turizmi üzrə müxtəlif yarışların keçirilməsi, xarici idmançıların da bu yarışlarda iştirakı yüksək idman nəticələri göstərəcək idmançı-turistlərin hazırlanması sistemini aktul problemə çevirmişdir. Bu problemin həllində təlim-məşq toplanışlarının təşkili və keçirilməsi əsas rol oynayır.

Piyada turizmində məşğul olanların hazırlıq prosesindəki problemlərin aradan qaldırılması, ustalığın artırılması və müxtəlif miqyaslı yarışlarda müvəffəqiyyətlə çıxış etmələri məqsədi ilə təlim-məşq toplanışları təşkil olunur. Qarşıya qoyulan məqsədə nail olmaq üçün vəzifələr müəyyənləşdirilir. Təlim-məşq toplanışının vəzifələrinə aşağıdakılar aiddir:

- idmançı-turistlərin yarış xüsusiyyətlərinə uyğun şəraitdə yarışa hazırlığı;
- yüksək idman nailiyyətləri əldə etmək məqsədi ilə müasir tələblər əsasında idman hazırlığının artırılması;
- idmançı-turistlərdə fiziki, taktiki, psixoloji, iradi-mənəvi keyfiyyətlərin inkişafı və təkmilləşdirilməsi;
- elmi-metodiki tədqiqatlara əsaslanan müasir məşq metodlarının idman hazırlığı təcrübəsinə tətbiqi;
- idmançı-turistlərdə nəzəri biliklərin artırılması;
- idmançı-turistlərin kompleks tibbi müayinəsi.

Təlim-məşq toplanışları idman federasiyalarının, cəmiyyətlərinin, klublarının idman tədbirləri üzrə illik təqvim planı əsasında keçirilir.

Toplanışın keçirilməsinə yuxarı təşkilat icazə verməlidir: onunla yalnız maliyyə məsələləri deyil, həmçinin, toplanışın keçirilmə yeri və müddəti, iştirakçıların tərkibi və sayı razılaşdırılmalıdır. Toplanışın keçirilmə yerinin seçilməsi onun konkrent məqsəd və vəzifələri, həmçinin, idman turizmi növünün spesifik xüsusiyyətləri ilə müəyyənləşdirilir. Burada əsas amillərə: iqlim şəraiti, dəniz səviyyəsindən yüksəklik, yerin relyefi, idman qurğularının mövcudluğu və keyfiyyəti, məşq vasitələri, məişət şəraiti və s. aiddir. İdman təşkilatının özünün bazası olmadıqda toplanışların keçirilmə tələblərinə daha müvafiq olan məntəqələri seçmək

və bunu daimiləşdirmək məqsədə uyğundur. Bu, toplanışların təşkili və keçirilməsini xeyli asanlaşdırar. Toplanışın keçirilməsi üçün yeri müəyyən etdikdən sonra toplanış iştirakçılarının yerləşdirilməsi və qidalanması, idman gurğularından və avadaqlıqlarından istifadəsi və s. (sifariş vermək, təşkilatın razılığını təsdiq edən yazılı cavab almaq) üzrə müvafiq təşkilatla müqavilə bağlamaq lazımdır. Əgər toplanış idman cəmiyyəti və yaxud idman təşkilatı tərəfindən təşkil edilirsə, bu məsələ onların özünə həvalə edilə bilər. Təcrübə göstərir ki, toplanışın təşkilinə görə məsul şəxsin bütün lazımı məsələlərin həlli üçün qabaqcadan toplanış yerinə getməsi onun yaxşı təşkilinə zəmanət verir (2, s.14).

Təlim-məşq toplanışının məqsədəuyğun keçirilməsi üçün müəyyənləşdirilmiş sahələr üzrə düşərgənin personalı olmalıdır:

Rəhbərlik və üzvlər	Cavabdeh olduğu sahə	Vəzifəsi
Düşərgənin rəhbəri	düşərgənin ümumi fəaliy-yəti, təhlükəsizliyin və normal qidalanmanın təşkili, maliyyə-təsərrüfat məsələləri	daxili qaydaları təsdiq etmək, təhlükəsizlik qaydaları haqqında heyətlə təlimat keçmək, düşərgənin işçiləri arasında vəzifə bölgüsünü təsdiq etmək
Təsərrüfat işləri üzrə müavin	düşərgənin maddi-texniki bazası	heyətin təhlükəsizliyə riayət etməsinə nəzarət etmək
Həkim	tibbi nəzarət	iştirakçıların sağlamlıq vəziy-yətinə, qidanın keyfiyyətinə, yaşayış yeri və ərazinin sanitar vəziyyətinə nəzarət etmək
Təşkilatçı-pedaqoq (psixoloq)	düşərgədə sağlam mühüt	iştirakçılarla təlim-tərbiyəvi, mədəni-kütləvi işlərin təşkili və keçirilməsi
Məşqçi	təlim-məşq məşğələlərinin keçirilməsi	təlim planına uyğun məşğələləri keçmək, idmançı turistlərin fiziki, texniki, taktiki hazırlığına nəzarət etmək
Aşpaz	qidalanma	yüksək keyfiyyətli məhsulların seçilməsi, müxtəlif kalorili menyuların tərtibi, yeməklərin hazırlanması

Toplanışın tədris planı əsas sənəd hesab edilir və bütün diğər sənədlər onun əsasında tərtib olunur (əmr, smeta, iştirakçıların siyahısı, gün rejimi, təlim qrupları üzrə məşğələlərin planı, tərbiyəvi və mədəni-kütləvi tədbirlər planı, toplanışın hazırlanması və keçirilməsi üzrə təşkilati işlər).

Tədris planında aşağıdakılar əks olunmalıdır:

1.Toplanışın məqsəd və vəzifələri.

2.Keçirilmə yeri.

3.Keçirilmə müddəti: _____ dan_____dək

4.İştirakçıların sayı_____(bunlardan: kişi___, qadın____).

5.Vəzifələrini sadalamaqla inzibati və tibbi personalın sayı.

6.Məşq silsiləsinin davamiyyəti (istirahət günü də daxil olmaqla).

7.Gün ərzində məşq məşğələlərinin sayı və onlara ayrılan vaxt.

8.Məşq vasitələrinin siyahısı, onların hər birinə ayrılan tədris saatlarının miqdarı və saatların ümumi cəmi.

9.Nəzəri məşğələlərin mövzusunun siyahısı, onların hər birinə ayrılan tədris saatlarının miqdarı və saatların ümumi cəmi.

Tədris planına aşağıdakıların əlavə olunması məqsədəuyğundur:

*lazım olan idman avadınlığının siyahısı;

*təcili tədris məlumatlarını təmin etmək üçün videomaterialların və müxtəlif əşyaların siyahısı (miqdarını göstərməklə).

Toplanışda təlim prosesi məşqçilər tərəfindən öz tədris qrupları üçün tərtib olunan və qabaqcadan baş məşqçi ilə razılaşdırılan iş planı üzrə həyata keçirilir. Təlim qruplarının iş planınlarının tərtib olunması zamanı bu qrupa daxil olan idmançıların fərdi məşq planlarını nəzərə almaq vacibdir.

İdmançı-turistlərin toplanışa çağırılması onun başlanmasına ən azı bir ay qalmış və toplanış sənədlərinin (əmr, smeta, tədris planı, iştirakçıların siyahısı, yerləşmə, qidalanma, lazım olan idman avadanlıqları və qurğuları ilə təmin edən təşkilatın yazılı razılığı) tam tərtibindən sonra həyata keçirilir. Qabaqcadan iştirakçıların toplanışa çağırılması həm də ona görə vacibdir ki, hər hansı bir səbəbdən (məsələn, zədələnmə) toplanışa gələ bilməyən idmançı-turist bu barədə təşkilatçılara xəbər versin və onların bu idmançını başqa namizədlə əvəz etməyə vaxtı qalsın. Çağırış məktubunda toplanışın keçiriləcəyi dəqiq ünvanı, idmançı-turistin özü ilə götürməli olduğu şəxsi sənəd və ləvazimatın siyahısını göstərmək lazımdır. Toplanışın rəisi toplanışa hazırlığı yoxlamaq və ola biləcək qüsurları aradan qaldırmaq üçün toplanış yerinə ən azı iki gün əvvəlcədən gəlməlidir.

Toplanış iştirakçılarının qəbulu və yerləşdirilməsi əvvəlcədən tərtib edilmiş plan üzrə keçirilməlidir. İdmançı-turistlər ağır və çoxlu miqdarda şəxsi avadanlıqla toplanış yerinə gəldikdə, bu avadanlığın toplanış yerinə çatdırılması və geri daşınması xərcləri də smetada nəzərə alınmalıdır. Toplanış yerinə gələrkən idmançı-turistlər toplanış rəisinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

a) şəxsiyyət vəsiqəsi və yaxud onu əvəz edən sənəd;

b) ezamiyyət vərəqəsi;

v) dispanser vərəqəsi (və yaxud toplanışa buraxılma haqqında həkimin arayışı);

q) fərdi məşq planı;

d) məşq gündəliyi.

İdmançı-turistlərdə bu sənədlərin mövcudluğunu yoxladıqdan sonra, toplanışın rəisi onların soyadını hesabat jurnalına daxil edir. Bu jurnal əsas hesabat sənədi hesab olunur. Yalnız bundan sonra idmançı-turistlər yerləşdirilir və yeməklə təmin edilir. Adətən, toplanış iştirakçılarını bir otaqda iki nəfər (bəzən üç-dörd, çadırlarda da həmçinin) olmaqla yerləşdirirlər. Belə yerləşmə çox yerli yataqxanalardan daha rahatdır. Bu zaman idmançı-turist məşqdən sonra daha tez bərpa olur, yaxşı dincəlir və şəxsi vaxtını daha səmərəli keçirir.

Təlim-məşq toplanışlarında yüksək keyfiyyətli, kalorili qidalanmanın təşkili çox vacib məsələdir. Belə ki, idmançının enerji itkisinin kompensasiyası ilk növbədə bundan asılıdır. Menyu tərtib olunarkən idman turizmi növünün xüsusiyyətləri, qidanın qəbul vaxtı, keçirilmiş və qarşıdakı məşqin xarakteri və s. nəzərə alınmalıdır. Yoxlama məşqlərindən, həmçinin yarışlardan qabaq qidalanma adəti üzrə olmalıdır. Bu zaman menyuda dəyişikliyin edilməsi məsləhət görülmür. Menyunu toplanışın rəisi ilə razılaşdıraraq həkim tərtib edir. Həkim olmadıqda isə bu işi toplanış rəisi özü yerinə yetirir. Təcrübə göstərir ki, toplanış rəisi yeməkxananın işçiləri ilə idmançıların qidalanması haqqında söhbətlər apardıqda, bu qidaların hazırlanmasında böyük səmərə verir. Belə ki, işçilər öz işlərinə daha məsuliyyətlə yanaşırlar.

Toplanışın gün rejimi tədris planı əsasında tərtib edilməli və konkret yerli şəraitdə real olmalıdır. Yalnız bu halda onun dəqiq icrasını tələb etmək olar. Toplanışa gələnlər gün rejimi ilə onların sənədləri yoxlanılarkən və toplanış iştirakçılarının birinci ümumi iclasında tanış olurlar. Gün rejiminə riayət olunmasına nəzarət toplanışın ilk günündən onun rəisi, məşqçilər heyəti, həkim, xidmət personalı tərəfindən həyata keçirilməlidir. Yuxu rejiminə xüsusi ilə ciddi yanaşmaq lazımdır. Belə ki, normal yuxu orqanizmin funksional imkanlarının bərpası üçün (xüsusən də ağır məşq yükündən sonra) çox yaxşı vasitədir. Yuxudan qabaq axşam gəzintisi (toplanış iştirakçılarının istəyi nəzərə alınmaqla) məqsədəuyğun hesab olunur.

Hər səhər yuxudan qalxdıqdan sonra toplanış iştirakçılarının səhər düzülüşünü (həmçinin yoxlanışını) keçirmək vacibdir. Təcrübə göstərir ki, səhər düzülüşünün keçirilməməsi (gün rejiminə salınmaması) bir çox hallarda nizam-intizamın zəifləməsinə səbəb olur

(məsələn, bəzi idmançı-turistlər səhər məşqinə çıxmır və yaxud gecikir, səhər məşqinin məzmununa və keyfiyyətinə nəzarət pozulur), toplanışı zəruri idarəetmədən məhrum edir, iştirakçılarla rəhbərlik arasındakı gündəlik əlaqəni mürəkkəbləşdirir və ən əsası, kollektivin ayrı-ayrılıqda hər bir idmançı-turistə müsbət təsirini xeyli aşağı salır. Düzülüş uzun və yorucu bir prosedur olmamalıdır. Düzülüş dəqiq, təyin olunmuş vaxtda başlanmalı və 10-15 dəqiqədən artıq davam etməməlidir. Düzülüş, bütün elanlar, cari gün üçün konkret vəzifələrin müəyyənləşdirilməsi, göstərişlər və qeydlər lakonik olmalıdır. Düzülüş zamanı bütün iştirakçıların, toplanış rəisinin, məşqçilərin, həkimlərin və s. iştirakı vacibdir. İstirahət günü səhər düzülüşünü və səhər məşğələsini ləğv etmək qətiyyən məsləhət görülmür.

Ümumi iclaslar çox güclü tərbiyəvi və təşkilati vasitədir. Bununla belə iclaslardan ifrat dərəcədə istifadə etmək olmaz. Birinci təşkilati ümumi iclası toplanışın əvvəlində, yekun iclasını isə sonunda keçirmək kifayət edər. Əgər toplanış prosesində bu və ya digər məsələni bütün kollektivlə müzakirə etmək zərurəti yaranarsa və bunu səhər düzülüşü zamanı etmək mümkün olmazsa, bu zaman hamı üçün münasib olan bir vaxtda ümumi iclas keçirmək olar. Birinci ümumi iclası toplanış iştirakçılarının gəlmə günü, şam yeməyindən sonra keçirmək məsləhətdir. Bu iclasda toplanışın rəisi toplanışın məqsəd və vəzifələri haqqında qısa çıxış sözündən sonra idmançılara bütün məşqçiləri, həkimi və toplanışa xidmət edən digər şəxsləri təqdim edir; yoxlama normativlərinin qəbulu qaydası; məşq silsiləsi, məşq vasitələri, gün ərzində məşqlərin sayı, nəzəri və təcrübi məşğələlərə ayrılan saatlar; gün rejimi, tərbiyəvi və mədəni-kütləvi tədbirlər planı və s. haqqında məlumat verir; davranış qaydalarına və intizama riayət etməyin vacibliyini qeyd edir. Toplanışın sonunda keçirilən iclasda təlim-məşq toplanışının yekunları müzakirə olunur, tədris planının, idmançılar tərəfindən fərdi planların və yoxlama normativlərinin yerinə yetirilməsinə, gündəliklərin aparılmasına ümumi qiymət verilir. Növbəti toplanışa qədər olan dövr üçün ümumi vəzifələr müəyyənləşdirilir.

İdmançı-turistdən şüurlu surətdə toplanışın gün rejiminə və ümumi idman rejiminə riayət etməyi, yoldaşlarına, kollektivə, xidmət personalına, ictimai yerlərdəki insanlara hörmətlə yanaşmağı tələb etmək, istənilən hava şəraitində məşq məşğələləri keçirmək, ekskursiyalar, tanınmış insanlarla görüşmək, muzeylərə getmək və s. onun şəxsiyyət kimi formalaşmasına və harmonik inkişafına kömək edir. Buna görə də toplanışın rəhbəri mədəni-kütləvi tədbirlər planının tərtibinə böyük məsuliyyətlə və yaradıcı münasibətlə yanaşmalı, onun idmançı-turistə tərbiyəvi və psixoloji təsirinin səviyyəsini düzgün qiymətləndirməlidir.

Tərbiyəvi işin əhəmiyyətli tərəflərindən biri də budur ki, o idmançı-turistlərdə mütaliə etmək, öz dünya görüşünü genişləndirmək və intellektual səviyyəsini artırmaq həvəsi oyadır. Toplanışın rəhbərləri idmançı-turistlərdə bədii ədəbiyyatların oxunuşuna rəğbət yaratmalıdırlar. İdmançı-turistlərdən toplanışa kitab gətirməyi xahiş etmək məqsədəuyğun olar. İdman və metodiki ədəbiyyatların mütaliəsi xüsusi ilə yerinə düşər. Tərbiyəvi iş özünə soyuq formal münasibəti sevmir. Bu və ya digər tədbiri sadəcə olaraq hesabat xatirinə keçirmək olmaz. Kollektivdə elə bir şərait yaratmaq lazımdır ki, burada idman rejimininin hər hansı bir pozuntusu, intizamsızlıq, təkəbbürlülük, eqoizm, "ulduz xəstəliyi" dözülməz olsun. Tərbiyəvi iş nə qədər yaxşı qurularsa bir o qədər də kollektiv möhkəm, idmançı-turistlərdə vətənpərvərlik hissi güclü, dostluq və qarşılıqlı münasibət sağlam və təmiz, kollektivə görə məsuliyyət yüksək olar. Bütün bunlar idmançı-turistin iradi, psixoloji hazırlığının əsas bazasını təşkil edir.

Təlim-məşq toplanışının yekunlarının təhlili onun hazırlanıb keçirilməsində olan çatışmamazlıqları, bunların səbəblərini, həmçinin aradan qaldırılma yollarını müəyyən etməyə imkan yaradır. Təhlilin forma və məzmunu şablon formada olmamalı və aşağıdakı bəndləri əhatə etməlidir:

1. Toplanışın keçirilmə yerinin onun məqsəd və vəzifələrinə müvafiqliyi.

2. Maddi-texniki baza ilə təminat (lazım olan məşq vasitələri, idman avadanlığının mövcudluğu və vəziyyəti), məişət şəraitinin qiymətləndirilməsi (yerləşdirilmə və qidalanma), onların tələblərə müvafiqliyi.

3. İştirakçıların toplanışa çağırılmasının vaxtında təşkil olunması.

4. Toplanışa çağırılmış və gəlmiş idmançı-turistlərin sayı, onların yaşı, idman dərəcəsi.

5. Toplanışa gəlməyən idmançı-turistlərin fərdi siyahısı (hansı idman cəmiyyətinə, kluba məxsus olduğunu göstərməklə) və bunun səbəbləri.

6. İştirakçıların və məşqçilərin toplanışa vaxtında gəlmələri (1,2,3 və s. gün toplanışa gecikənlərin fərdi siyahısı və gecikmələrin səbəbi).

7. Toplanış başa çatmadan əvvəl (bir neçə gün qalmış) gedən iştirakçıların və məşqçilərin fərdi siyahısı və getmələrinin səbəbi.

8. Toplanışda tədris qruplarının sayı.

9. Məşqçilərin siyahısı və onlar haqqında qısa məlumat (yaşı, təhsili, idman dərəcəsi). Burada həmçinin, hər bir məşqçinin məşğul olduğu tədris qrupu və onun tərkibinin sayı göstərilməlidir.

10. Toplanışda həkimin mövcudluğu və həkim-pedaqoji müşahidələrin qiymətləndirilməsi.

11. Toplanışın əvvəlində iştirakçılar tərəfindən yoxlama normativlərinin ödənilməsinin yekunları.

12. Toplanışın tədris planının yerinə yetirilməsinin yekunları.

13. Toplanışda əyani tədris vasitələrinin (video materiallar və s.) tətbiqi.

14. İdmançı-turistlərdə məşq gündəliyinin mövcudluğunun yoxlanılmasının nəticələri; gündəliyin aparılma keyfiyyətinin qiymətləndirilməsi.

15. İdmançı-turistlər tərəfindən fərdi məşq planlarının yerinə yetirilməsinin yoxlanılmasının nəticələri. Öz fərdi planlarını yerinə yetirməyənlərin siyahısı (onların daimi məşqçisi və mənsub olduğu idman təşkilatı göstərilməklə).

16. Toplanışın sonunda yoxlama məşqlərinin yekunları. Texniki nəticələrin təhlili (onların səviyyəsi, sıxlığı, artımı və yaxud azalması).

17. Elmi-metodiki tədqiqatlara əsaslanan müasir məşq metodlarının tətbiqinin nəticələri.

18. İdmançı-turistlərin kompleks tibbi müayinəsinin nəticələri.

19. Toplanışda keçirilən tərbiyəvi, mədəni-kütləvi işin qısa məzmunu və qiymətləndirilməsi.

20. Toplanışda iştirakçılar tərəfindən nizam-intizamın pozulması halları (idmançı-turistin soyadını və pozuntunun məzmununu göstərməklə). Toplanışda intizama verilən ümumi qiymət.

21. Nəticələr.

22. Təkliflər.

İşin yekunlarının təhlilini etmədən, məşqlərin intensivliyini və fiziki yüklərin həcmini xarakterizə edən məlumatların müqayisəsini aparmadan idmançı-turistlərin ustalığının təkmilləşdirilməsi mümkün deyil. Belə təhlil məşqçilərin də analitik düşünmə, ümumiləşdirmə və lazım olan nəticələri çıxartma qabiliyyətini təkmilləşdirir. Obyektiv aparılan təhlil idmançı-turisrlərin hazırlıq və təkmilləşmə səviyyəsini, həmçinin, məşqçilərin tutmuş olduqları vəzifəyə uyğunluğunu real olaraq əks etdirir.

Ədəbiyyat

1. Кодыш Э.Н. Соревнования туристов. Пешеходный туризм. Москва, Физкультура и спорт, 1990. 126 с.

2. Salmanova N.B., Qarayeva S.Q. Poliatlonda təlim-məşq toplanışları və yarışlar. Bakı, "Zərdabi-LTD" MMC, 2014. 182 s.

3. Попчиковский В.Ю. Организация и проведение туристских походов. М. Профиздат, 2007. 224 с.

Н.Б.Салманова, С.И.Исагова

Особенности организации учебно-тренировочных сборов по пешему туризму

Резюме

С целью устранения проблем занимающихся в подготовительном процессе по пешему туризму, повышения мастерства и успешного участия в соревнованиях различного масштаба организовываются учебно-тренировочные сборы. Для достижения поставленной цели определяются задачи. В статье описываются особенности учебно-тренировочных сборов по пешеходному туризму зависимости от уровня подготовки участников, основные требования к персоналу и принципы их работы.

N.B.Salmanova, S.I.Isagova

Features of the organization of training camps on hiking tourism

Summary

In order to eliminate the problems, of involved in the preparatory process for hacking tourism, training camps are organized to improve skills and successfully participation in competitions of various scales. To achieve this goal, tasks are defined. The article describes the features of training camps on hiking tourism, the basic requirements for personnel and the principles of their work depending on the level participants' training.

Rəyçi: ped.f.d., prof. Ş.H.Əbdürəhmanov

Redaksiyaya daxil olub: 13.03.2020

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV,
Y.B.MƏMMƏDOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

ELASTİKLİYİN İNKİŞAF ETDİRİLMƏSİ VASİTƏLƏRİNƏ DAİR

Açar sözlər: *elastiklik, oynaq, hərəkət, əzələ, məşq*
Ключевые слова: *гибкость, суставы, движения, мышц, тренировка*
Key words: *flexibility, joint, movement, muscle, training*

"İnsanın hərəkət aparatının idarəedici bir obyekt kimi əsas xüsusiyyəti ondan ibarətdir ki, o həddən artıq sərbəstlik dərəcəsinə və elastik birləşmələrə malikdir" (1, səh.112).

Elastikliyi inkişaf etdirmək üçün, məişətdə, peşəkar və idman fəaliyyətindən fərqli olaraq, ilk növbədə oynaqlardakı hərəkətlərin daha yüksək amplitudasını tələb edən hərəkətlərdən istifadə etmək lazımdır. Müəyyən pedaqoji məsələlərin həlli üçün hərəkətiəri seçdikdə, onların statikada və ya dinamikada elastikliyin aktiv və ya passiv təzahürlərinə üstünlük təşkil edən təsirini nəzərə almaq lazımdır.

"...Elastikliyi inkişaf etirmək üçün əzələləri boşalda bilməsindən də asılıdır"(2, səh.160).

Elastikliyin inkişafı etdirilməsi vasitələrinə dair mövcud təsəvvürləri ümumiləşdirdikdə üç növ hərəkətlər ayırd etmək olar: güc hərəkətıarı əzələlərin boşalmasına yönəldilmiş hərəkətıar və əzələlərin, bağ və vətərlərin dartınmasına yönəldilmiş hərəkətıar (şəkil.1.bax).

Hansısa oynaqda passiv və aktiv elastikliyin təzahürlərinin səviyyəsi arasında mühüm fərq olan fiziki cəhətdən zəif hazırlıqlı insanlarla iş zamanı güc hərəkətləri aktiv elastikliyin inkişafına müsbət təsir edirlər. Əzələdaxili və əzələlərarası koordinasiyanın təkmilləşdirilməsinə kömək edən və əzələ kütləsinin mühüm artımına gətirməyən güc hərəkətləri və onların icra rejimləri daha effektivdirlər. Güc hərəkətlərini müvafiq əzələlərin sərbəst boşalması və dartınması hərəkətləri ilə birlikdə icra etmək məqsədəuyğundur.



Şəkil 1. *Elastikliyin inkişaf etdirilməsi vasitələrinin təsnifatı*

Əzələlərin boşaldılmasına yönəldilmiş hərəkətlər. Əzələlərin sərbəst (şüurlu) şəkildə boşalmaq qabiliyyəti oynaqlardakı hərəkətliyin 12 – 15% yaxşılaşmasına şərait yaradır (Sermeyev, 1969; Xristinin, 1973). O, MSS – ki tormozlayıcı (əyləc) proseslərin təkmilləşməsi ilə və, bunun nəticəsi kimi, əzələlərin tonusunun zəifləməsi və onların elastikliyinin yaxşılaşması ilə əlaqədardır.

Əzələlərin sərbəst boşalmasının inkişaf etdirilməsi üçün istifadə edilən fiziki hərəkətlər yeddi qrupa bölünürlər (Xristinin, 1973; və başqaları).

1. Əzələlərin sərbəst və tez gərginləşdirilməsi və sonradan mümkün qədər böyük, ani və tam boşaldılması. Məsələn, 1 – 2 saydıqda yumruqları sıxmaq, 3 – 4 sayında isə barmaq əzələlərini tezliklə boşaltmaq. Hərəkəti uzanaraq, stulda oturaraq və ya ayaq üstə icra etmək olar. Məşğələnin ilkin mərhələsində iri əzələ qrupların sərbəst gərilmə və boşalma hərəkətlərini, sonra isə - daha kiçiklərin və ayrı – ayrı əzələlərin sərbəst gərilmə və boşalma hərəkətlərini icra edirlər.

2. Çanaq – bud və diz oynaqlarının cüzi bükülməsi və təkana bənzər düzəlməsi hesabına əllərin çiyin, dirsək, bilək və şua – bilək oynaqlarında sərbəst yelləndirməsi.

3. Dayaq ayağı çanaq – bud və diz oynaqlarının cüzi bükülməsi və təkana bənzər düzəlməsi hesabına digər ayağı çanaq – bud, diz və baldır –pəncə oynaqlarında sərbəst yelləndirməsi.

4. Bədənin kəskin çevrilməsi hesabına boşaldılmış əllərin qamçıya bənzər hərəkətləri.

5. Əllərin, ayaqların bədənin silkələndirilməsi.

6. Əllərin, ayaqların (yumşaq mat üzərində uzanaraq), bədənin boşaldılmış "düşmələri".

7. Kombinə edilmiş hərəkətlər. Məsələn, əsas duruşdan 1 – 2 sayanda - əllər yuxarı; 3 - əllərin əzələlərinin kəskin gərilməsi; 4 - əllərin boşaldılmış "düşməsi".

Məşq komplekslərini müxtəlif qruplara aid olan 3 – 4 hərəkətdən ibarət tərtib edirlər, lakin eyni əzələlərə təsir edirlər. Hər bir hərəkəti 6 – 10 dəfə təkrar edirlər.

"Dartılma ilə səciyyələnən statik hərəkətlərin icrası zamanı bu vəziyyətin saxlanılması (burada, elastikliyi lazımi səviyyədə saxlanılmasından gedir Y.S.) müddətini tədricən (bir neçə saniyədən bir neçə dəqiqəyədək) artırmaq məsləhət görülür" (3, səh.129; 4, səh.31; 4, səh.29).

Dartınma hərəkətləri üç qrupa bölünür: aktiv (fəal), passiv və kombinəedilmiş (uzlaşdırılmış). Qeyd edilən hər qrup altqruplara bölünür (şəkil 1. bax).

Aktiv hərəkətlər. Onların mahiyyəti ondan ibarətdir ki, oynaqlardakı hərəkətlər əsasən sinergist-əzələlərin sərbəst gərginləşməsi, boşalması və müvafiq olaraq, antoqonist-əzələlərin boşalması və dartınması nəticəsində baş verir.

İcra olunmasının xüsusiyyətlərinə görə aktiv hərəkətlər asta hərəkətlərə, elastik hərəkətlərə və yelləmə hərəkətlərə bölünür. Əlavə olaraq qeyd etməliyik ki, bu hərəkətləri həm çətinləşdirəməklə və həm də çətinləşdirmədən icra etmək olar.

Başın və bədənin irəliyə, arxaya, sağa, sola əyilməsi; başın və bədənin dönməsi; ətrafların pronasiyası və supinasiyası; başın, bədənin və ətrafların dairəvi hərəkətləri; aşağı ətrafların qaldırılması və yanlara aparılması və s.kimi hərəkətlər **asta hərəkətlərə** aiddir. Onları səlis, hər bir növbəti hərəkətdə daha yüksək amplitudaya nail olmağa çalışaraq icra edirlər. Bu hərəkətləri edərkən müvafiq oynaq üçün maksimal amplitudaya nail olmaq mümkün olmadığına görə, onlar elastikliyin tezliklə artırılması üçün, və əlbətdə ki – hərəkətlərin maksimal mümkün olan amplitudasına nail olmaq üçün lazımi səviyyədə effektiv deyillər. Lakin onları lazımınca qiymətləndirməmək olmaz. Fiziki hərəkətlərin ilkin mərhələsində onlar aktiv elastikliyin inkişafına, oynaqların və onları əhatə edən əzələlərin, bağ və vətərlərin möhkəmlənməsinə imkan yaradırlar.

Asta hərəkətləri əlavə ağırlaşdırıcılarla (qantellərlə, tıxama toplarla, gimnast çubuqları ilə və s.) birlikdə yerinə yetirdikdə onların effektivliyi artır. İnsanın fiziki hazırlığının səviyyəsindən və hərəkətlərin işlətdiyi oynaqlardan asılı olaraq çətinləşdirmələrin göstəriciləri böyük diapazonda dəyişilə bilər. Lakin ümumi qaydaya uyğun olaraq lazımdır – dartınmaya

aid səlis rəvan hərəkətlər zamanı əlavə çətinləşdirmənin göstəriciləri dartınan əzələlərin maksimal gücünün 50% artıq olmamalıdır (Platonov, Bulatova, 1995).

Asta hərəkətlərdən fərqli olaraq, **elastik hərəkətləri** icra edərkən maksimal amplitudaya çatdıqda bədənin əsas hissələri ilkin vəziyyətə qayıtmır, yalnız cüzi bir qayıdış hərəkəti edirlər (oynaqlardan asılı olaraq amplituda 3 – 5 sm-dən 20 – 25 sm-dək olur) və daha yüksək amplitudaya nail olmaq üçün yenidən yumuşaq plastik hərəkətlərlə məşğələni təkrarlayırlar. Hərəkəti bir neçə dəfə təkrar edirlər (adətən 3 – 6 dəfə), sonra isə ilkin vəziyyətə qayıdaraq və yenidən bir neçə elastik hərəkət edirlər. Məsələn, ayaqlar bir yerdə, əllər aşağı duruşdan irəliyə səlis əyilərək barmaqların uclarını yerə vurmağa çalışmaq, sonra bir qədər dikələrək (amplituda 15 – 25 sm) yenidən, yerə yumruqlarını qoymağa çalışaraq səlis rəvan hərəkətlə əyilməni təkrar etmək; sonradan yenidən azacıq dikələrək yerə ovucları vurmaqla əyilməni təkrar etmək. Bundan sonra ilkin vəziyyətə qayıdaraq hərəkəti yenidən təkrarlamaq.

Asta hərəkətlərin icrasından fərqli olaraq, elastik hərəkətlərin icrası zamanı hərəkətlərin amplitudası bir qədər yüksəkdir, bu da aktiv elastikliyin effektiv inkişafına daha çox yardım edir. Əzələlərin dartılması və boşalmasının ritmik dəyişilməsi əzələlərarası koordinasiyanın təkmilləşməsinə, müvafiq əzələlərin temperaturunun qalxmasına və onlarda baş verən qan dövranına müsbət təsir göstərir, bu da öz növbəsində elastikliyin inkişafına müsbət təsir edir. Asta və yelləmə hərəkətlərlə müqayisədə, elastik hərəkətlərin icrası, hərəkətləri hər dəfə tam amplitudada icra etmək lazım gəlmədiyinə görə, daha az vaxt və enerji tələb edir. Təkrarların əksəriyyəti hərəkətin amplitudasının ən təsirli fazasında icra edilir. Eyni zamanda enerji itkilərində əldə edilmiş qazanc daha çox təkrarlar etməyə və daha yüksək məşq effektinə nail olmağa imkan verir.

Əlavə şətinləşdirici hərəkətlərdən istifadə etdikdə elastikliyin effektivliyi artır. Daha yüksək dərəcədə çətinləşdirdikdə (əzələ dartılmasının maksimal gücünün 50% - dək) ikili məşq effektinə nail olunur. Birincisi, hərəkətlərin amplitudası artır və nəticədə elastiklik daha yaxşı inkişaf edir. İkincisi, əzələlərin gücü artır, bu da aktiv elastikliyə müsbət təsir göstərir, xüsusilə də o passiv elastiklikdən qat – qat aşağı olduqda. Lakin, asta hərəkətlərdə olduğu kimi, elastik yumşaq toxumaların da dartılması vaxt baxımından uzunmüddətli olmur. Buna görə də bu hərəkətlər passiv elastikliyin inkişaf etdirilməsi üçün az effektiv hesab edilir.

Yelləmə hərəkətlər – bunlar əzələlərin gərginliyi hesabına yaranan və ətalətli şəkildə davam edən aşağı və yuxarı ətrafların hərəkətləridir. Onlar saat kəfkirinin hərəkət etdiyi kimi və ya tədricən amplitudanın yüksəlməsi ilə davam edən dairəvi hərəkətlər şəklində icra olunurlar. Məsələn, ilkin əsas duruşdan bir dedikdə - sağ əli irəli – yuxarı – arxaya qaldırmaq (yelləmək), eyni zamanda da sol əli arxaya yelləmək; iki dedikdə - yelləməklə əllərin yerinin dəyişdirməklə hərəkəti davam etmək. Bu ilkin duruşdan əllərlə irəliyə və arxaya dairəvi hərəkətlər də etmək olar.

Asta və elastik hərəkətlərə nisbətən yelləmə hərəkətlərində ətalətin hesabına daha yüksək amplitudaya nail olmaq mümkündür. Lakin, digər hərəkətlərdən fərqli olaraq, elastikliyin inkişaf etdirilməsi üçün onların effektivliyi azdır. Ola bilsin ki, bu əzələ, bağ və vətərlərin dartınmasının müddətinin az olması ilə və mühüm güc gərginliyinin olmaması ilə şərtləndirilir (Kaunsilmen, 1972). Buna əlavə olaraq, hərəkətin yüksək amplitudasına nail olmaq və onların hərəkətinin ətalət gücünü daha da artırmaq üçün ətrafların yerdəyişməsinə daha yüksək sürətlə keçirmək lazımdır. Öz növbəsində antaqonistlərin sürətli dartınması onlarda "stretçinq – refleks" yarada bilər, yəni elə bir vəziyyət yaranır ki, bu zaman əzələlər sürətli dartınmaya reflektor olaraq sürətli gərginləşmə və yığılma ilə cavab verirlər (Platonov, Saxnovskiy, 1988 və b.). Bu elastikliyin inkişafının effektivliyini azaldır və dayaq – hərəkət aparatın zədələnmə riskini artırır. Məhz buna görə də yaşlı adamlarla işlədikdə elastikliyin inkişaf etdirilməsinə yönəldilmiş yelləmə hərəkətlərin tətbiq edilməsi məqsədəuyğun deyil, lakin idmanda mövcud olan yelləmə hərəkətləri zamanı ətrafların yerdəyişmə amplitudasını artırmaq üçün onlar olduqca effektivlidir. Sinir-əzələ aparatın işində uzlaşmanın oxşarlığı nəinki aktiv

elastikliyin inkişafına, eyni zamanda da, müvafiq məşğələlərin icra texnikasının təkmilləşdirilməsinə şərait yaradır.

Əlavə ağırlıqlar istifadə etdikdə yelləmə hərəkətlərin effektivliyi artır. Lakin onların miqdarını ehtiyyatla seçmək lazımdır, çünki onlar ətrafların hərəkətinin ətalət gücünü artırmış olar. "Stretçinq – refleks" yarandıqda, o oynaqların, əzələlərin, bağ və vətərlərin zədələnməsinə gətirə bilər.

Geyd etmək lazımdır ki, məhz yüksək sürətlə və amplituda ilə yelləmə hərəkətləri icra etdikdən sonra növbəti (sabahısı) gün əzələlərdə ağrı hiss olunur. Şübhəsiz ki, bu, gərgin əzələlərin dartınması nəticəsində yaranan mikrozədələrin nəticəsidir ("stretçinq – refleks").

Passiv hərəkətlər. Onları icra etdikdə bədən hissələrinin bir – birinə nisbətən yerdəyişməsi müvafiq oynağın əzələlərinin aradan qaldırma işi hesabına deyil, xarici güvvələrin təsiri ilə dəyişilir. Şpaqata oturduqda çanaq – bud oynaqlarına qarşı belə xarici güvvənin rolunu öz bədəninin kütləsi çıxış edir, irəliyə əyildikdə isə - öz əllərinin gücü ilə hərəkətləri icra edir. Əllərlə baldırları tutaraq bədəni ayaqlara tərəf çəkdikdə, hərəkətin amplitudasını mühüm dərəcədə artırmaq olar. Xarici güvvə şəklində yoldaşın (partnyorun) köməyindən geniş istifadə edirlər. Məsələn, ayaqlar birlikdə yerdə oturarkən irəliyə əyilmələri yerinə yetirdikdə. Hər əyildikdə yoldaşı daha böyük güvvə ilə kürəyini əlləri ilə sıxır və beləliklə də hərəkətin amplitudasını artırmağa kömək edir. Əlbətdə ki, aktiv hərəkətlərdən fərqli olaraq, passiv hərəkətlərlə daha yüksək amplitudaya nail olmaq olar. Lakin passiv elastikliyi aktiv elastikliyə çevirmək imkanları məhduddur. Yüksək passiv hərəkətləri aktiv və uzlaşdırılmış hərəkətlərin köməyi ilə aktiv elastikliyin inkişaf etdirilməsi üçün yalnız ilkin şərtidir.

Qeyd etmək lazımdır ki, passiv hərəkətlərin köməyi ilə tezliklə oynaqlardakı mühüm hərəkətliliyə nail olmaq olar. Lakin hərəkətləri dayandırdıqda o, aktiv hərəkətlərin köməyi ilə əldə ediləndən də tez itirilir. Aktiv və passiv hərəkətlərin müntəzəm şəkildə uzlaşdırılması daha dayanıqlı məşq effektini yaradır.

Uzlaşdırılmış hərəkətlər. Onların mahiyyəti bir hərəkətin aktiv və passiv fazaların, əzələlərin dinamik və statik iş rejiminin birləşdirilməsindən ibarətdir. Məsələn, ilkin vəziyyətdə sol tərəflə gimnastik nərdivanın yanında durarkən, sol əllə çiyin səviyyəsində nərdivanın pilləsindən yapışaraq, sağ ayağı yelləyərək qaldırmaq və dabanı müəyyən bir pillənin üzərinə qoymaq; əllərlə sağ ayağın baldırını tutmaq və bədəni ona tərəf çəkmək; 5 –10 s ərzində bu vəziyyətdə qalmaq və məşğələni yenidən təkrar etmək.

Əlavə çətinliklərin (ağırlaşdırıcıların) istifadə edilməsi məşq prosesini müxtəliflyi və eyni zamanda da güc keyfiyyətlərini və elastikliyi inkişaf etdirməyə imkan verir.

Uzlaşdırılmış hərəkətlərdən əsasən elastikliyin inkişaf etdirilməsinin son mərhələsində və onun saxlanılması mərhələsində istifadə olunur. Onlar həm aktiv və həm də passiv elastikliyin inkişaf etdirilməsi üçün effektivlidir. Məşğ müxtəlifliyinin artırılması və məşğələlərin emosional fonunun yüksəlməsi hesabına orqanizmin adaptasiya imkanlarını genişləndirməyə imkan verir.

Ədəbiyyat

1. Əliyev S.A., Əlibəyova S.S., Əliyev E.N., Sadıqova G.Ə. Hərəkət aparatının funksional imkanlarının biomexanik sistem kimi xüsusiyyətləri. ADBTİA nın 2013-ci ildə aparılan elmi-tədqiqat işlərinin hesabatı üzrə elmi konfransın materialları(5-6 fevral2014), "Araz" nəşriyyatı, Bakı-2014, 284 səh.

2. Nərimanov B.Ə., Əliyeva S.Ə., Nərimanov E.Ə. İdman gimnastikası (İxtisasçılar və ümumi kurs tələbələri üçün dəkslik). -Bakı, "Müəllim" nəşriyyatı, 2004.-294 s.

3. Novruzov D.F. Güləşmə: Ali məktəblər üçün dərslik və dərs vəsaitləri seriyasından. Bakı: Maarif, 1992. 328 səh.

4. Məcidov N.B. Güləşin nəzəriyyəsi və metodikası. Monoqrafiya. Bakı: Mütərcim,2010.-128 səh.

5. Məcidov N.B. "İdman nəzəriyyəsi". Bakı, "Nərgiz" nəşriyyatı, 2009,-148 səh.

6. Матвеев Л.П. Теория и методика физической культуры(общие основы теории и методики физического воспитания; теоретико- методические аспекты спорта и профессиональеоприкладных форм физической культуры); Учеб. для ин-тов.физ. культуры.- М.: Физкультура и спорт, 1991.-543с.

7. Матвеев Л.П. Теория и методика физической воспитания Том1Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры.- М.: Физкультура и спорт, 1991.-543с.

Я.Б.Самедов, В.М.Велиев, Я.Б.Мамедов

О средствах развития гибкост

Резюме

В статье рассматриваются три вида упражнений для развития гибкости: силовые движения, движения, направленные на расслабление мышц, и движения, направленные на растяжение мышц, связок и сухожилий.Также классификация средств развития гибкости интерпретируется в табличной форме. Здесь мы анализируем влияние отдельных движений на гибкост мышц и суставов.

Были исследованы научные источники по этой теме. Широко объяснены средства развития гибкости.

Y.B.Samedov, V.M.Valiyev, Y.B.Mammadov

On the means of developing elasticity

Summary

The article discusses three types of exercises for the development of flexibility: force movements, movements aimed at relaxing the muscles and movements aimed at stretching the muscles, ligaments and tendons. The classification of flexibility development tools is also interpreted as a table. Here, the effects of individual movements on muscle and joint flexibility are analyzed. Scientific sources related to the subject have been researched and flexibility development methods have been explained in a wide way.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 29.04.2020

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

ELASTİKLİYİN TƏZAHÜRLƏRİNİ ŞƏRTLƏNDİRƏN FAKTORLARA DAİR

Açar sözlər: *aktif və passif elastiklik, oynaq, hərəkət, məşq*
Ключевые слова: *активня и пассивная гибкость, суставы, движения, тренировка*
Key words: *active and passive flexibility, volatility, movement, education*

"Müxtəlif hərəkətlərin icrasında insanın bir sıra sümük birləşmələrində eyni vaxtda potensial anatomik mütəhərriklik olur. Anatomik mütəhərriklikdən istifadə edərək gimnast yaxşı elastikliyə malik olur" (1, səh.159).

Dayaq–hərəkət aparatının hərəkətliliyi ilk növbədə oynaqların quruluşu ilə şərtləndirilir: oynaqların forması, oynaq səthlərinin uzunluğu, oynaqların səthinin müəyyənlik (onların uyğun gəlmə) əmsalı, sümük çıxıntılarının olması və onların ölçüləri. Formalarına görə oynaqlar kürəvari, ellipsoid, yəhərvari, blokvari, silindrik və yastı olurlar. Ən yüksək anatomik mütəhərriklik kürəvari oynaqlarda (məsələn, çiyin və çanaq – bud oynaqları) mümkündür. Bu oynaqlarda hərəkətləri bütün səthlər üzrə və digər oynaqlarla müqayisədə, daha çevik icra etmək mümkündür. Yəhərvari, blokvari və yastı oynaqlardakı anatomik hərəkətlilik çox zəifdir. Məsələn, barmaq oynaqlarını yalnız yumub – açmaq olar, yəni hərəkətlər bir müstəvidə və məhdudlaşdırılmış amplituda ilə icra olunurlar. Müəyyən oynağ sümüklərinin səthlərinin uzunluğu, onların əyriliyi və oynaq səhlərinin fərqi çox olduqda, onların anatomik elastikliyi də yüksək olur. Bundan əlavə, nəzərə almaq lazımdır ki, oynaqların quruluşunun fərdi xüsusiyyətləri, əsasən də sümüklər üzərindəki çıxıntılar və onların ölçüləri, hərəkətliliyin göstəricilərinə mühüm təsir göstərə bilərlər.

Fiziki hərəkətlərin təsiri altında oynaqların forması dəyişilmir. Lakin fiziki hərəkətlərin məqsədyönlü məşqlərin təsiri ilə oynaq səthlərinin uzunluğu və onların konqruentliyi (uyğun gəlməsi) məhdud və çox asta şəkildə olsa da, morfoloji dəyişikliklərə məruz qalırlar (Jordoçko, Y.Sobolev, L.Sobolev, 1980; Alter, 2001). Fiziki hərəkətlərlə məşqolunmanın təsiri ilə kəskin müsbət dəyişikliklər uşaq və yeniyetmələrdə dayaq – hərəkət aparatının intensiv formalaşması dövründə baş verir.

"Elastiklik sürət, qüvvə və dözümlülük kimi fiziki keyfiyyətlərdən fərqlənərək hərəkətin əsas xassəsi olmayıb, hərəkət aparatının morfoloji və fizioloji xassələrindən daha çox asılıdır" (2 , səh.127; 4, səh.29; 5, səh. 27).

Hər hansı bir oynaqdakı hərəkətlilik həmin oynaqda hərəkətləri icra edən əzələlərin gücü, elastikliyi ilə və eyni zamanda da bağların və vətərlərin elastikliyi ilə şərtləndirilir. İş burasındadır ki, insanın hərəkətlərində hər zaman bir əzələlərin qısalması və adekvat olaraq digər əzələlərin uzanmasına səbəb olur. Belə ki, dayaq – hərəkət aparatının yumşaq toxumaları arasında məhz əzələlərin dartınmaq qabiliyyəti daha çoxdur. Dartınma zamanı onların uzunluğu sabitlik vaxtı ilə müqayisədə 30 – 40 və hətta 50% olduğundan çox artmağa qadirdir (Platonov, Bulatova, 1995). Əlbətdə ki, bağların, xüsusilə də, vətərlərin elastiklik imkanları olduqca aşağıdır. Hərəkətlər kiçik amplitude ilə icra olunduqda antaqonist - əzələlərin və onlara müvafiq bağ və vətərlərin dartınması zəifdir və onların müqaviməti hərəkətlərə mane olmur. Lakin hərəkətləri daha yüksək amplitudada icra etmək zərurətində olduqda oynaqlardakı

hərəkətlilik antaqonist - əzələlərin, vətərlərin və bağların elastikliyinin zəifliyi ilə məhdudlaşdırılır. Öz növbəsində, əzələlərin elastikliyi əzələlərarası koordinasiyanın rasional səviyyəsindən, onların tonusundan və sərbəst (şüurlu) boşalma qabiliyyətindən asılıdır. Hərəkətlərini yaxşı tənzimləməyən (koordinasiya) və əzələləri sərbəst (şüurlu) boşalda bilməyən insanlarda elastiklik aşağıdır və çox zəif inkişaf edir. Yüksək qıcıqlanma və ya uzunmüddətli fiziki yüklənmələr nəticəsində, ya da mühüm fiziki yorğunluq nəticəsində insanın əzələlərində yaranan çox yüksək tonus da əzələlərin və bağların elastikliyinə mənfi təsir göstərir (cədvəl 1.). Beləliklə, yorğunluq fonunda elastikliyin inkişaf etdirilməsi məqsədəuyğun deyil.

Cədvəl 1.

Səhər saat 8 –də	Saat 12 – 13 arası	gündüz saat 12-də sonra			
		$t = 10^0C$ geyimsiz 10 dəqiqə olduqdan sonra	$t = 40^0C$ ilıq suda 10 dəqiqə olduqdan sonra	20 dəqiqəlik isinmə hərəkətlərindən sonra	Üzücü məşqdən sonra
- 14 mm	+ 35 mm	- 36 mm	+ 78 mm	+ 89 mm	- 35 mm

Əzələlərin, bağların və vətərlərin dartınma qabiliyyəti onların temperaturunun və qan axınının artması ilə daha da yaxşılaşır. Məsələn, bədən soyuduqdan sonar hərəkətlərin amplitudası kəskin şəkildə pisləşir, ilıq suda isindikdə və ya isinmə hərəkətlərinin icrası nəticəsində qan axını artıqda isə - kəskin şəkildə yaxşılaşır (cədvəl 1.). Beləliklə, elastikliyin inkişaf etdirilməsinə yönəldilmiş hərəkətlər icra etdikdən əvvəl orqanizmi ümumi inkişaf etdirən hərəkətlərlə yaxşıca isindirmək və müvafiq əzələləri yumşaltmaq lazımdır. Sərin hava şəraitində açıq havada məşq etdikdə, bədənin soyumasının qarşısını almaq üçün isti və küləkdən qoruyan geyimlərdən istifadə etmək lazımdır.

Beləliklə, elastikliyin təzahürünə müsbət təsir edən faktorlara: əzələ gücünün artmasını, əzələlərarası koordinasiyanın yaxşılaşmasını, əzələlərin sərbəst boşalmasına nail olmağı, öncədən orqanizmin isindirilməsini və qan dövranının artırılmasını, məşğələlərdə sakit iş şəraitinin yaradılmasını - aid etmək lazımdır. Fiziki hazırlığın aşağı səviyyəsi, ətraf mühitin, xüsusilə də bədənin, aşağı temperaturları, mühüm fiziki yorğunluq, əzələlərin yüksək tonusu, həddən artıq həyacanlanma və ya psixiki depressiya vəziyyəti kimi faktorlar elastikliyin təzahürlərinə mənfi təsir göstərirlər.

Qeyd etmək lazımdır ki, psixikanın taraz vəziyyəti və ya emosional yüksəliş çevikliyin təzahürlərinə müsbət təsir göstərirlər. Və əksinə, həddən artıq həyacanla nma və tutqunluq çevikliyin təzahürünə mənfi təsir göstərirlər. Məşqlərin sakit işgüzar atmosferdə keçməsi, yüngül sakit musiqi müsbət psixiki vəziyyətinin formalaşmasına və nəticə etibarı ilə, çevikliyin inkişafına yönəldilmiş məşqlərin effektivliyinin artırılmasına imkan yaradır.

Elastikliyin təbii inkişafının yaş dinamikası. Elastikliyin inkişafına yönəIdilmiş işin rasional planlaşdırılması üçün oynaqlarda hərəkətliliyin formalaşmasının yaşla əlaqədar olaraq dəyişilməsinin hesaba alınmasını tələb edir. Bütövlükdə götürdükdə elastiklik 14 – 15 yaşadək təbii şəkildə yaxşılaşır. Belə ki, xırda oynaqlarda elastiklik irilərdən fərqli olaraq daha tez inkişaf edir. Məsələn, 10 yaşlı uşaqlarda baldır – pəncə oynağının fəal və passiv bükülməsinin amplitudası 2 – yaşlı uşaqlardan fərqli olaraq artıq 10* azdır (Dolenko, sit. Matveyevindir 1991).

13 yaşadək çanaq – bud oynağının amplitudası getrogenlik (cinsə görə) şəkildə artır. Onun artımının ən yüksək templəri 7 yaşından 8 yaşınadək və 11 yaşdan 13 yaşa qədər olan arada müşahidə olunur (şəkil 2.1) sonralar o stabilləşir, 16 yaşdan 17 yaşlaradən isə proqressiv şəkildə korlanmağa başlayır.

Onurğa sümüyünün oynaqlarının hərəkətliliyi biraz başqa dinamikaya malikdirlər. Qızlarda o 14 yaşınadək artır, oğlanlarda isə - 15 yaşına qədər (şək.9.14.). Onun təbii şəkildə art-

ması qızlarda 7 yaşından 8 yaşadək və 10 yaşından 11 yaşadək və 12 yaşından 14 yaşadək, oğlanlarda isə 7 yaşdan 11 yaşadək və 14 yaşından 15 yaşadək müşahidə olunur.

"Uşaqlarda elastiklik sürətlə inkişaf edir, lakin burada fəqərə sütununun əyilməsi, oynaqlarda dəyişiklik əmələ gəlməsi hallarına yol verilməməlidir" (2, səh.129).

Elastikliyin inkişaf etdirilməsi üçün hərəkətlərdən istifadə etmədikdə, artıq yeniyetmə yaşlarında demək olar ki, bütün oynaqlarda hərəkətlərin amplitudası tədricən azalmağa başlayır. Yaşa dolduqca elastikliyin təzahürlərindəki reqressiv (geriləmə) dəyişikliklər mühüm dərəcədə artır.

Qızların və qadınların oynaqlarındakı hərəkətlilik oğlanların və kişilərin göstəricilərindən təxminən 10% yüksəkdir (şəkil 2.2). Bu da qadın orqanizminin əzələ və bağlarının anadangəlmə elastikliyinin yüksəkliyi ilə əlaqədardır. Yaşlandıqda qadınların və kişilərin elastikliyi demək olar ki, heç fərqlənmir.



	7	8	9	10	11	12	13	14	15	16	17	21	30
aktiv	-10	-4	-2	0	1	3	6	4,3	4,3	4,2	4	3	3
passiv	-1,7	3,2	5	5,7	6	7	12,4	12,3	12	11,9	10	8,3	8,3

Şəkil 2.1. *Müxtəlif yaşlı insanların çanaq – bud oynağındakı elastikliyinin aktiv (1) və passiv (2) göstəriciləri (Sermeyev, 1970).*



Şəkil 2.2. *Onurğanin hərəkətliliyin yaş dinamikası (Sermeyev, 1970).*

Fiziki keyfiyyətlərin təbii inkişafında sensetiv (fizioloji təsirə qarşı orqanizmin, onun hüceyrə və toxumalarının həssaslığının artması) dövrlər haqqındakı nəzəriyyəyə əsasən7–8 yaşından 14–15 yaşınadək elastikliyi fəal şəkildə inkişaf etdirmək məqsədəuyğundur. Daha böyük yaşlardan fərqli olaraq, məhz bu dövrdə o fiziki hərəkətlərin köməyi ilə 2 – 2,5 dəfə effektiv inkişaf edir (Sermeyev, 1970 və b.).

Qeyd etmək lazımdır ki, əzələləri, bağları, vətərləri lazımi şəkildə möhkəmləndirmədən elastikliyin sürətli şəkildə inkişaf etdirilməsi oynaqlarda yaranacaq zəifliyə və qamətin pozulmasına yol açar. Buna görə də elastikliyin inkişafının optimallaşdırılması üçün onu harmonik fiziki inkişafını təmin edən güc və digər fiziki keyfiyyətlərin inkişafı ilə mütləq şəkildə birləşdirilməsi məsələnin vacibliyi ortaya çıxır.

Ədəbiyyat

1. Nərimanov B.Ə., Əliyeva S.Ə., Nərimanov E.Ə. İdman gimnastikası (İxtisasçılar və ümumi kurs tələbələri üçün dəkslik). -Bakı, ”Müəllim” nəşriyyatı, 2004.-294 s.

2. Novruzov D.F. Güləşmə: Ali məktəblər üçün dərslik və dərs vəsaitləri seriyasından. Bakı: Maarif, 1992. 328 səh.

3. Z.H.Rzayeva,Q.M.Cəfərov “Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası” Bakı, 2004. 182səh.

4. Məcidov N.B. Güləşin nəzəriyyəsi və metodikası. Monoqrafiya. Bakı: Mütərcim,2010.-128 səh.

5. Məcidov N.B. “İdman nəzəriyyəsi”. Bakı, “Nərgiz” nəşriyyatı, 2009,-148 səh.

6. Матвеев Л.П. Теория и методика физической культуры(общие основы теории и методики физического воспитания; теоретико- методические аспекты спорта и профессиональео-прикладных форм физической культуры); Учеб. для ин-тов.физ. культуры.- М.: Физкультура и спорт, 1991.-543с.

7. Матвеев Л.П. Теория и методика физической воспитания Том1Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры.- М.: Физкультура и спорт, 1991.-543с.

Я.Б.Самедов, В.М.Велиев

О факторах, определяющие проявления гибкости

Резюме

В статье речь идёт о факторах определяющие проявления эластичности которые играют важную роль в строения опорно-двигательного аппарата , суставов и при выполнении различных действий. Также объясняется возрастная динамика естественного развития эластичности. Анализируются активные и пассивные показатели эластичности в тазово-бедренном суставе людей разных возрастов. Были исследованы научные источники по этой теме. Таким образом, в статье подробно объясняются факторы, определяющие эластичность.

Y.B.Samedov, V.M.Valiyev

About the factors that determine the manifestations of flexibility

Summary

The article discusses the factors that determine the manifestations of flexibility that play an important role in the structure of the musculoskeletal system, joints and the performance of various movements. The age-related dynamics of the natural development of elasticity are also explained. Analyzes active and passive flexibility indicators in the pelvic thigh joint of people of different ages. Knowledgeable sources related to the subject have been investigated. Thus, the article explains in detail the factors that determine flexibility.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 29.04.2020

Ə.Ş.ŞİRƏLİYEV
dosent

Y.A.NURİYEV
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ TƏLİM VASİTƏSİ KİMİ

***Açar sözlər**: informasiya texnologiyası, təlim vasitələri, kompyuter texnologiyası, pedaqoji təlim texnologiyası*

***Ключевые слова**: информационные технологии, средства обучения, компьютерные технологии, педагогические технологии обучения*

***Key words**: information technology, means of teaching, computer technology, pedagogical teaching technology*

Ölkəmizdə intellektual və elmi potensialın vacib göstəricilərindən biri kimi əhəmiyyət kəsb edən informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi cəmiyyətimizin inkişafı üçün geniş imkanlar yaradıb. Dövlətimiz tərəfindən bu sahədə bir sıra kompleks tədbirlərin həyata keçirilməsi qloballaşan dünyamızda müasir biliklərə yiyələnməyə və informasiya texnologiyalarının dərindən mənimsənilməsinə elmi-texniki zəmin yaratmışdır. Son zamanlar informasiya-kommunikasiya texnologiyalarının bütün imkanlarından təlim-tədris prosesində, xüsusilə də xarici dillərin tədrisi zamanı səmərəli tətbiq edilməsinə böyük önəm verilməsi onunla izah edilir ki, təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətidir.

Ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2010-cu ilin əlamətdar hadisəsi kimi "Təhsildə İKT ili" elan edilməsi ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılması və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur.

İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə xarici dilləri öyrənmək aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: a) dilöyrədən və dilöyrənən arasında fərdi ikitərəfli ünsiyyətin mümkünlüyü; b) həcmcə çox böyük və müxtəlif dil və qeyri-dil informasiya mənbələrinə geniş giriş əldə etmək [1, səh. 85].

Xarici dil dərslərində İKT aşağıdakı rəqəmsal təlim resursları vasitəsilə həyata keçirilir: Power Point proqramı vasitəsilə multimedia təqdimatları, multimedia kursları, CD-ROM-da hazırlanmış multimedia məhsulları və təlim proqramları, elektron lüğətlər, video mənbələr, təlim üçün nəzərdə tutulan internet resurslar. Xarici dili tədris edən müəllimin kompyuter və multimedia proyektoru ilə nümayiş olunan elektron dərslik və dərs vəsaitləri, elektron ensiklopediyalar və sorğu kitabçaları, internet təlim resursları, şəkillər və təsvirlər olan DVD və CD disklər, video və audiotexniki vasitələr, multimedia təqdimatları və elmi-tədqiqat işləri və layihələrdən istifadə etmək imkanları vardır.

Müasir dünyada kompyuterin zəngin imkanlarına dair çoxsaylı mənbələrə (Zençenko V.A., Makpin K., Otani Tadao, Miçi D., Johnson R., Rafael B., Helms G. və başqaları) rast

gəlmək mümkündür. Biz kompyuterin çoxməqsədli istifadə imkanlarında yalnız iki cəhətdən bəhs etməyi nəzərdə tuturuq:

- kompyuter təlim vasitəsi kimi;
- kompyuter dilöyrədənin işini optimallaşdırmaq məqsədilə xarici dildə təlim materiallarının hazırlamaq, müxtəlif statik məlumatların toplanması, saxlanması və istifadəsi vasitəsi kimi.

Son illərdə təlim-tədris prosesində əhəmiyyətli şəkildə geniş tətbiq edilən müasir informasiya texnologiyaları təkcə yeni texniki vasitələr deyil, həm də yeni tədris formaları və metodları, təlim prosesinə yeni bir yanaşmanı nəzərdə tutur. İKT iki növ texnologiyanı özündə ehtiva edir: informasiya və kommunikasiya [2, səh. 156].

İnformasiya texnologiyası kompyuterlərdən və kompyuter rabitə xətlərindən istifadə etməklə məlumatların toplanması, saxlanması, emalı, axtarışı, ötürülməsi və istifadəsini təmin edən metod və metodlar sistemidir [3, səh. 85].

Hazırkı dövrdə metod, üsul və vasitələrin tətbiqinə kompyuter texnologiyalarının birbaşa müdaxiləsini ehtiva edən informasiya-kommunikasiyaları texnologiyası dedikdə, görülən işin səmərəliliyi və məhsuldarlığının artırılmasına yönəlmiş məlumatların toplanması, saxlanması, emalı, ötürülməsi və istifadəsini təmin edən metod, üsul və vasitələrin, istehsal prosesləri və texniki-proqram vasitələrinin toplusu nəzərdə tutulur.

İnformasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə informasiyalaşdırma prosesi insan fəaliyyətinin bütün sahələrinə, o cümlədən xarici dillərin tədrisinə də təsirsiz ötüşmür. İnformasiyalaşdırma dedikdə, bütün sosial əhəmiyyətli, xüsusilə informasiyaların elektron vasitələrindən seçilərək əlverişli formada saxlanması, işlənərək ötürülməsi və təqdim edilməsi nəzərdə tutulur. Təhsilin informasiyalaşdırılması kifayət qədər çətin proses olub, müəyyən vaxt tələb etməklə mərhələli şəkildə həyata keçirilir. Təhsil sisteminin informasiyalaşdırılması prosesi əsasən aşağıdakı istiqmətlər üzrə aparılır:

1. təhsilin informasiya infrastrukturunun və informsiyalaşmanın tədris-metodiki bazasının yaradılması;
2. İKT-dən istifadə üçün təhsil sistemi kadrlarının hazırlanması və təkmilləşdirilməsi;
3. təhsil müəssisələrinin İKT avadanlığı ilə təminatı və servis infrastrukturunun yaradılması;
4. təhsilin informasiyalaşdırılmasında təhlükəsizliyin təmin olunması və hüquqi normativ bazanın yaradılması;
5. təhsilin informasiyalaşdırılmasının elmi və tədris- metodiki təminatı.

E.S.Polat qeyd edir ki, yeni informasiya texnologiyalarından, ilk növbədə kompyuter texnologiyalarından geniş istifadə etmədən yeni pedaqoji texnologiyalardan danışmaq ağlasığmazdır. Məhz onlar bu metodların pedaqoji, didaktik funksiyalarını tam şəkildə ortaya qoymağa, məxsus olduğu potensial imkanları həyata keçirməyə imkan verir [4, səh.14].

Biz bu məqamda psixoloq L.İ.Prokolienkonun mövqeyini bölüşərək deyə bilərik ki, kompyuteri yalnız mövcud təlim metodlarına əlavə kimi deyil, təlimin məzmunundan başlayaraq təlimin təşkili formalarına qədər təlim prosesinin bütün komponentlərində dəyişikliklərə səbəb olan güclü vasitə kimi nəzərdən keçirmək lazımdır [5, səh. 43].

Xarici dillərin tədrisi prosesində İKT- nin tətbiqinin aktuallığı informasiya texnologiyalarının yüksək kommunikativ imkanlara malik olması, dilöyrənənlərin danışıq və eşidib-anlama bacarıq və vərdişlərinin inkişafına töhvə verməsi, dilöyrənənləri fəal şəkildə təlim fəaliyyətinə cəlb etməsi və nəhayət, onların kommunikativ sərištəyə yiyələnmək bacarıqlarını səmərəli inkişaf etdirməsi ilə ölçülür.

Tədqiqatlar göstərmişdir ki. təlim fəaliyyətində İKT-dən istifadə olunması aşağıdakı dəyişikliklərə səbəb olur:

1) təlimin fəallığı artır, mövzunun dərk edilməsi başa çatdıqdan sonra dilöyrənənlər həmin məsələnin müzakirəsinə can atırlar;

2) informasiyanın qavranılması prosesi əsaslı şəkildə dəyişir, qavranılan materialın anlaşılması üçün geniş imkanlar yaranır. Əldə edilən yeni biliklərlə keçmiş biliklər arasında əlaqələr zənginləşir, idrak fəaliyyəti emosional fəaliyyətlə üzvü şəkildə bağlanır.

3) informasiyaların işlənməsi mərhələsində əsaslı dəyişiklik baş verir. Alınmış informasiya dilöyrənənlərin fikri fəaliyyətini daha canlı, məhsuldar və səmərəli edir. Onlar dil materialının işlənməsi və məzmunun ifadə vasitələri ilə tanış olurlar.

Burada birinci növbədə hissi idrakın inkişafı üçün geniş şərait yaranmış olur. Dilöyrənənlərin daha dəqiq və aydın məlumat almaqları üçün bu cür audiovizual vasitələrdən istifadə əvəzolunmaz əhəmiyyət kəsb edir. Təlimdə bu cür vasitələrdən istifadə təfəkkür və təxəyyülün inkişafına geniş imkan yaradır. Bu zaman obrazlarla bağlı olan kifayət qədər anlayış və ideyalar obrazlı əyani-əməli təfəkkürün inkişafına təsir göstərir. Dilöyrənənlərin obrazlar aləminə daxil olması onların təxəyyülünü inkişaf etdirir. Ona görə də, dilöyrənənlərin xüsusilə bərpaedici təxəyyüldən istifadə etmə imkanları genişlənir. Kompyuterdən audiovizual vasitə kimi istifadə olunması dilöyrənənlərin hafizələrinə də əsaslı təsir edir.

Təlim prosesinin təkmilləşdirilməsi və səmərəliləşdirilməsi məqsədilə informasiya-kommunikasiya texnologiyalarından, o cümlədən kompyuterlərdən istifadənin aşağıdakı üstün cəhətləri aşkara çıxır:

a) kompyuter vasitəsilə görülən işin yeniliyi dilöyrənənlərin onunla işləməyə olan marağını daha da artırır;

b) o, təlim prosesində hər bir dilöyrənənin fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir;

c) fərdi ünsiyyət funksiyasını yerinə yetirir;

d) kompyuter dilöyrənənlərin təlim prosesinə fəal surətdə qoşulmasına, onların diqqətinin öyrənilən materiala yönəldilməsinə imkan verir;

e) təlimdə müxtəlif tapşırıqların tətbiq olunması imkanları genişlənir, müxtəlif situasiyaların modelləşdirilməsi tapşırıqlarından geniş istifadə olunur;

f) dilöyrənənlər kompyuterin köməyi ilə əvvəllər əldə edə bilmədikləri məlumatlardan istifadə etmək imkanı qazanır.

Kompyuterlərin tədris prosesində istifadəsi nəinki idrak fəallığını inkişaf etdirir, həm də motivasiyaedici, emosional, ünsiyyət mühitini formalaşdırır. O.K.Tixomorov kompyuterin şəxsiyyətin inkişafına təsirini aşağıdakı kimi müəyyənləşdirmişdir:

- Məntiqi təfəkkürün güclənməsinə töhfə verən kompyuterləşmə təfəkkürdə intellektual prinsipin geriləməsi ilə müşayiət olunur.
- Kompyuterləşmə yeni biliklərin əldə olunmasına və motivasiyanın inkişafına güclü təkan verə bilər.
- Kompyuterləşmə dünyanın dərk edilməsi və ondan yayınmaq üçün bir vasitədir [7, səh.44.].

Müasir kompyuter və kommunikasiya texnologiyalarının funksional xüsusiyyətləri tədris prosesini aşağıdakı imkanlarla təmin edir:

- məhdudiyyət olmadan müxtəlif xarakterli məlumatların toplanması, saxlanması, ötürülməsi, dəyişdirilməsi, təhlili və tətbiqi;
- təhsil almağın formalarını genişləndirməklə təhsilin əlçatanlığının artırılması;
- fəal həyat boyu təhsilin və ixtisasartırmanın davamlılığını təmin etmək;
- tədris prosesinin metodik və proqram təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması;
- tələbənin müstəqil axtarış və yaradıcılıq fəaliyyətinin inkişafı;
- əlavə və müasir təhsil almaq;
- tək bir bölgənin deyil, ölkə və bütövlükdə dünya birliyi üçün vahid informasiya-tədris mühitinin yaradılması;
- təhsil prosesinin zaman və məkan anlayışından asılı olmaması;

- təlimin motivasiyaedici tərəfini inkişaf etdirmək.

Kompyuter texnologiyalarının yuxarıda göstərilən bütün imkanları təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verə biləcək yeni təlim texnologiyalarını inkişaf etdirməyə imkan verir. Yeni təlim texnologiyalarının tədris prosesində tətbiqi bir sıra məqsədlərə nail olmağı mümkün edir:

- təlim prosesinin fərdiləşdirilməsi;
- əks əlaqənin həyata keçirilməsinə nəzarət;
- özünə nəzarətin həyata keçirilməsi;
- müstəqil hazırlığın mümkünlüyü;
- əyanilik;
- tədqiq olunan proses və hadisələrin imitasiyası;
- təlimdə marağın gücləndirilməsi;
- məntiqi qərarların formalaşdırılması;
- yaradıcı keyfiyyətin inkişafı.

Yeni təlim texnologiyaları dedikdə, dilöyrədən və dilöyrənənin birgə əməkdaşlığı zəminində ardıcıllıqla həyata keçirdikləri hərəkət və üsulların müəyyən didaktik sistemdə reallaşması başa düşülür.

Pedaqoji texnologiya isə psixoloji və pedaqoji quruluşun məcmusu olub, təlim və tərbiyə vsitələrinin həyata keçirilmə metod, vasitə və yollarının xüsusiyyətini müəyyən edir. Pedaqoji texnologiya pedaqoji prosesin təmin olunmasına yönəlmiş fəaliyyətin öncədən layihələşdirilərək obyektiv, planlı, ardıcıl və qarşılıqlı şəkildə həyata keçirilməsi prosesidir. Yeni pedaqoji texnologiyaların tətbiqində əsas məqsəd demokratikləşdirmə, humanistləşdirmə, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirə bilən, müasir tələblərə cavab verən, intellektual zənginliyə və potensial gücə malik olan nəslin formalaşdırılmasıdır.

İ.V. Robert kompyuter öyrənmə texnologiyasını inkişaf etdirmək və kompyuter vasitələrindən istifadə etməklə aşağıdakı pedaqoji hədəfləri müəyyənləşdirir:

1) tələbənin şəxsi inkişafı, fərdin informasiya cəmiyyəti şəraitində həyata hazırlanması:

- təfəkkürün inkişafı (əyani-obrazlı, intuitiv, yaradıcı və s.);
- estetik tərbiyə (kompyuter qrafikası, multimedia texnologiyasının imkanlarından istifadə);
- ünsiyyət bacarıqlarının inkişafı;
- informasiya mədəniyyətinin formalaşması, məlumatları emal etmək qabiliyyəti (inteqrasiya olunmuş istifadəçi paketlərinin, müxtəlif qrafik və musiqi redaktorlarının dəstəyi);

2) təlim-tərbiyə prosesinin bütün səviyyələrinin intensivləşdirilməsi:

- kompyuter təlim vasitələrinin imkanlarının həyata keçirilməsi yolu ilə təlim prosesinin səmərəliliyi və keyfiyyətinin yüksəldilməsi;
- tələbələrin idrak fəaliyyətinin aktivləşməsinə töhvə verən həvəsləndirici motivlər;
- müxtəlif mövzulu problemlərin həllində müasir informasiya emalı vasitələrinin, o cümlədən audiovizual vasitələrin tətbiqi ilə fənlərarası əlaqələrin dərinləşdirilməsi [6, səh.252].

Beləliklə, təhsilin məzmun və forma baxımından yeniləşməsinə və yeni istiqamətin yaradılmasına xidmət edən İKT tədris prosesinin mərkəzində dayanaraq dilöyrənənlərin maraq və tələbatlarının ödənilməsində, xarici dillərin mənimsənməsində nitq bacarıq və vərdişlərin formalaşmasında yeni istiqamətlərin yaradılmasına xidmət edir. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi tədris mühitini tam dəyişdirir, dərs prosesinin interaktiv təşkilinə geniş imkan yaradır, cəmiyyətdə elmi-texniki irəliləyişlərin sayəsində əldə edilən nailiyyətlərin tətbiqi yeni reallıqlar, dəyərlər, sosial-psixoloji mühitin formallaşmasına səbəb olur.

Ədəbiyyat

1. Захарова И.Г. Информационные технологии в образовании: учеб. пособие для студ. высш. пед. учеб. заведений. М., Готика, 2003. 185 с.

2. Нелунова Е.Д. Информационные и коммуникационные технологии в обучении иностранному языку в школе. Якутск: Граф, 2006. 205 с.

3. Новый словарь методических терминов и понятий (теория и практика обучения языкам) / под ред. Э.Г. Азимова, А.Н. Щукина М.: ИКАР, 2009. – 448с.

4. Полат Е.С. Компьютерные телекоммуникации в школе. М.: Владос, 1995. стр. 14)

5. Проколиенко Л.И. Методологические проблемы использования компьютера в обучении // Вопросы психологии. 1986. № 6. С.42-44.

6. Роберт И.В. Теория и методика информатизации образования (психолого-педагогический и технологический аспекты) М.: БИНОМ. Лаборатория знаний, 2014. 398 с.

7. Тихомиров О.К. Информатика и новые проблемы психологической науки // Вопросы философии. 1986.- № 7. С.44.

А.Ш.Ширалиев, Я.А.Нуриев

Использование информационно-коммуникационных технологий в преподавании иностранных языков как средства обучения

Резюме

В статье рассматривается сущность информационно-коммуникационных технологий, определяется их роль при обучении иностранному языку в условиях модернизации образования, предлагается применение средств новых информационных технологий в обучении иностранному языку и отмечается роль ИКТ в активизировании познавательную деятельность студентов, обеспечение положительной мотивации обучения и усовершенствование контроля знаний, умений и навыков. Также подчеркивается, что эффективность применения ИКТ зависит от способов и форм применения этих технологий, а также от того, насколько грамотно преподаватель владеет методикой работы с ними, от используемых им электронных ресурсов.

В последнее время важность использования информационных и коммуникационных технологий в преподавании иностранных языков в нашей стране была повышена благодаря образованию молодого поколения, развитию пользователей современных технологий, созданию современной системы образования с интеграцией ИКТ на всех этапах образовательного процесса. Изучение иностранных языков с помощью информационных и коммуникационных технологий характеризуется возможностью двустороннего общения между преподавателями и учащимися, а также использованием разнообразных языковых и нелингвистических источников. Возможности информационных и коммуникационных технологий позволяют разрабатывать новые технологии обучения, которые могут способствовать повышению качества образования. Внедрение новых технологий обучения в учебный процесс позволяет индивидуализирование учебного процесса, повышение интереса к обучению, формирование логических решений и развитие качества обучения.

A.Sh.Shiraliyev, Y.A.Nuriyev

The use of Information Communication Technologies as a learning tool in teaching foreign languages

Summary

The article considers the essence of information and communication technologies, determines their role in teaching a foreign language in the context of modernization of education, suggests the use of new information technologies in teaching a foreign language, and highlights the role of ICT in enhancing students' cognitive activity, providing positive learning motivation and improving knowledge control, abilities and skills. It is also emphasized that the effectiveness of the use of ICT depends on the methods and forms of application of these technologies, as well as on how competently the teacher is aware of these electronic resources.

Recently, the importance of the use of information and communication technologies in the teaching of foreign languages in our country has been enhanced by the education of young generation, the development of modern technology users, and the creation of modern education system with the integration of ICT into all stages of the educational process. Learning foreign languages through information and communication technologies is characterized by the possibility of bilateral communication between the teacher and the learner, as well as the use of a large and diverse language and non-linguistic sources. The relevance of ICT in the teaching of foreign languages can be enhanced by the use of information technology which encourages students to develop their speaking and listening skills and habits, actively engage them in learning activities, and, finally, develop their communicative competence.

The use of information and communication technologies allows the development of new teaching technologies that can contribute the improvement of teaching quality. The introduction of new teaching technologies in the teaching process enables to individualize the learning process, enhance interest in learning and improve the teaching and learning quality.

Rəyçilər: ped.f.d. J.F.Mehrəliyeva
ADU-nun Filologiya fakültəsinin nəzdində
Xarici dillərin tədrisi metodikası kafedrası
(14.09.2020-ci il tarixli iclasın qərarı (pr. № 13)).

Redaksiyaya daxil olub: 07.07.2020

G.E.VƏLİYEVA
e-mail: velijevagulnar@gmail.com

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN SOSİALLAŞMASINDA VALİDEYNLƏRİN ROLU

Açar sözlər: *sosiallaşma, sosiallaşma amilləri, məktəbəqədər yaşlı uşaqlar, ailə, məktəbəqədər təhsil müəssisələri, valideyn, əməkdaşlıq, ünsiyyət*

Ключевые слова: *социализация, факторы социализации, дошкольники, семья, дошкольные образовательные учреждения, родитель, сотрудничество, общение*

Key words: *socialization, socialization factors, preschool children, family, preschool educational institutions, parent, cooperation, communication*

Məktəbəqədər yaş dövrü uşaq həyatının ən unikal dövrüdür. Bu dövr uşağın sağlamlığının formalaşdığı, şəxsiyyətin inkişafı etdiyi dövrdür.

Eyni zamanda, bu dövr uşağın ətrafdakılardan - valideynlərdən, müəllimlərdən tamamilə asılı olduğu dövrdür. Uşaq bağçasındakı valideynlər və tərbiyəçilər uşaqlar üçün bir növ sosial işçidirlər. Bunlar böyük məktəbəqədər yaş dövründə uşağın sosiallaşması prosesinə böyük təsir göstərir.

Hal-hazırda ailələrin əksəriyyəti maddi və bəzən mənəvi problemlərini həll etməklə məşğuldur, bir çox valideynlərin uşağın böyüdülməsi və fərdi inkişafı məsələlərini həll etməkdən yayınmaq meyli güclüdür. Uşağın inkişafının yaşı və fərdi xüsusiyyətləri barədə kifayət qədər məlumatı olmayan valideynlər bəzən təhsili intuitiv şəkildə həyata keçirirlər. Bütün bunlar, bir qayda olaraq, müsbət nəticə vermir.

Xüsusi funksiyaları olan ailə və uşaq bağçası bir-birini əvəz edə bilməz. Buna görə uşağın uğurlu sosiallaşması üçün məktəbəqədər təhsil müəssisəsi ilə valideynlər arasında tərəfdaşlıq qurulması vacibdir.

Uşağın uşaq bağçasına qəbul edilməsi həm valideynlər, həm də məktəbəqədər müəssisənin müəllimləri üçün əlamətdar hadisədir. Gələcək qarşılıqlı əlaqə bir çox cəhətdən ilk görüşün necə keçiriləcəyindən, bütün iştirakçılar arasında münasibətlərin necə inkişaf edəcəyindən asılıdır. Buna görə valideynlərlə görüş məktəbəqədər təhsil müəssisəsinin müəllimləri ilə işgüzar əlaqələrin qurulmasında rol oynayır. Belə münasibətlər yeniliklərlə əməkdaşlıq və qarşılıqlı əlaqələri vasitəsilə qurulur.

